QAFQAZ MÜSƏLMANLARI İDARƏSİ

**HACI FUAD İZZƏT OĞLU NURULLAYEV**

*ŞEYXÜLİSLAMLIQ ZİRVƏSİ:*

# HACI ALLAHŞÜKÜR PAŞAZADƏ

**NURLAR**

BAKI–2014

**Kitab Hacı Allahşükür Paşazadənin 65 illiyinə və Bütün Qafqazın 12-ci Şeyxülislamı kimi fəaliyyətinin 35 illiyinə həsr olunmuşdur**

**Elmi redaktor:**
Anar İsgəndərli
*tarix elmləri doktoru, professor*

**Redaktor:**
Şahlar Şərifov
*ilahiyyat üzrə fəlsəfə doktoru, BİU-nun müəllimi*

**Elmi məsləhətçi:**
Rəhimə Dadaşova
*tarix üzrə fəlsəfə doktoru,*
*QMİ-nin mətbuat xidmətinin rəhbəri*

**Korrektor:**
Əhliman Rüstəmov
*QMİ-nin ictimaiyyətlə əlaqələr və*
*ailə məsələləri şöbəsinin aparıcı mütəxəssisi*

**Kitabın üz qabığında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin Mədinədə Peyğəmbərin (s) müqəddəs məzarının qarşısındakı şəkli verilmişdir.**

ŞEYXÜLİSLAMLIQ ZİRVƏSİ: HACI ALLAHŞÜKÜR PAŞAZADƏ

Bakı, «NURLAR» Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2014. 272 səh.

ISBN - 978 - 9952 - 490 - 50 - 3

# MÜNDƏRİCAT

ÖN SÖZ ....................................................................................6
MÜƏLLİFDƏN ........................................................................12

**I FƏSİL**
**ŞEYXÜLİSLAMLIQ MƏQAMI VƏ AZƏRBAYCANDA ŞEYXÜLİSLAMLIQ ........................................................18**

1.1. Şeyxülislamlıq anlayışı və İslam dünyasında şeyxülislamlığın yeri ..................................................18
1.2. Qafqaz Müsəlmanları İdarəsinin təsis olunması ...........21
1.3. Azərbaycan şeyxülislamları ........................................38
Şeyxülislam Axund Məhəmmədəli Hüseynzadə..................39
Şeyxülislam Axund Fazil İrəvani ........................................42
Şeyxülislam Fazil İrəvaninin elmi yaradıcılığı ....................46
Şeyxülislam Axund Əhməd Hüseynzadə ............................47
Şeyxülislam Əhməd Hüseynzadənin elmi yaradıcılığı ........50
Şeyxülislam Axund Mirzə Həsən Tahirzadə ........................53
Şeyxülislam Axund Əbdüssəlam Axundzadə.......................55
Şeyxülislam Axund Əbdüssəlam Axundzadənin elmi yaradıcılığı.............................................................................58
Şeyxülislam Axund Məhəmmədhəsən Mövlazadə Şəkəvi ...............................................................................59
Şeyxülislam Axund Məhəmmədhəsən Mövlazadə Şəkəvinin elmi yaradıcılığı ................................................64
Şeyxülislam Axund Məhəmməd Fərəculla Pişnamazzadə ....................................................................75
Şeyxülislam Axund Ağa Əlizadə .......................................82
Şeyxülislam Axund Şeyx Mirmöhsüm Şeyx Əli oğlu Həkimzadə...........................................................................91

Şeyxülislam Molla Əliağa Süleyman oğlu Süleymanzadə ....................................................................96
Şeyxülislam Axund Mirqəzənfər İbrahimov ........................99
1.4. Osmanlı dövlətində şeyxülislamlıq və şeyxülislamlar .................................................................101
Osmanlı şeyxülislamları...................................................107
1.5. Qafqaz Müsəlmanları İdarəsində fəaliyyət göstərən müftilər.............................................................................113
Müfti Tacuddin Mustafin .................................................113
Müfti Osman Əfəndi Vəlizadə ..........................................113
Müfti Məhəmməd Əfəndi Müftizadə ................................113
Müfti Əbdülhəmid Əfəndizadə ........................................113
Müfti Hüseyn Qayıbzadə .................................................114
Müfti Hacı İbrahim Əfəndi Əfəndizadə.............................116
Müfti Əsədulla Dibirov ....................................................116
Müfti Şərif Əfəndi Vəlizadə..............................................116
Müfti Əhməd Əfəndi Bozgəziyev.....................................117
Müfti Hacı İsmayıl Əhmədov ..........................................117
Müfti Hacı Salman Əfəndi Musayev ................................118

**II FƏSİL
ŞEYXÜLİSLAM AXUND HACI ALLAHŞÜKÜR PAŞAZADƏ VƏ ONUN ELMİ-DİNİ VƏ İCTİMAİ FƏALİYYƏTİ......................119**

2.1. Şeyxülislam Hacı Allahşükür Paşazadənin həyatı və fəaliyyəti ............................................................................119
2.2. Şeyxülislam Hacı Allahşükür Paşazadənin elmi yaradıcılığı........................................................................140
2.3. Seyxülislam Hacı Allahşükür Paşazadənin siyasi fəaliyyəti............................................................................145
2.4. Şeyxülislam Hacı Allahşükür Paşazadə haqqında deyilənlər...........................................................................179

2.5. Şeyxülislam Hacı Allahşükür Paşazadənin layiq görüldüyü orden və medallar ....182
2.5.1. Dövlət ordenləri: ....182
2.5.2. Dini İdarələrin ordenləri....185
2.5.3. Dövlət Medalları ....186
2.5.4 Dini İdarələrin Medalları....188
2.5.5. Beynəlxalq Təşkilatların orden və medalları ....189
2.6. Şeyxülislam Hacı Allahşükür Paşazadə tərəfindən "Şeyxülislam ordeni" ilə təltif edilənlər....191

**III FƏSİL**
**ŞEYXÜLİSLAM HACI ALLAHŞÜKÜR PAŞADƏNİN RƏHBƏRLİK ETDİYİ QMİ-NİN FƏALİYYƏTİ ....194**

3.1. Qafqaz Müsəlmanları İdarəsinin qanunları və nizamnaməsi....194
3.1.1. Qafqaz Müsəlmanları İdarəsinin Qanunları....194
3.1.2. Qafqaz Müsəlmanları İdarəsinin Nizamnaməsi....209
3.2. Qafqaz Müsəlmanları İdarəsinin nəzdində fəaliyyət göstərən elmi kitabxana....224
3.2.1. Əski (qədim) kitablar və onların müəllifləri....225
3.2.2. Yeni kitablar və onların müəllifləri....253
3.3. Bakı İslam Universiteti ....266

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT ....269

# ÖN SÖZ

XX əsrin 90-cı illərinin əvvəlində Azərbaycan öz dövlət müstəqilliyini yenidən bərpa etdikdən sonra ölkədə mənəvi dəyərlərin təbliğinə, ruhanilik və şeyxülislamlıq təsisatının, eləcə də Qafqaz Müsəlmanları İdarəsinin tarixinə olan maraq yenidən artmağa başladı.

Şeyxülislamlıq institutunun yaranma tarixinin kökləri çox qədimlərə gedir və təqribən min illik bir dövrü əhatə edir. Şeyxülislam – İslam rəhbəri və ya ağsaqqalı mənasını özündə ehtiva edir. Məşhur lüğət alimlərindən olan Rağib əl-İsfəhani Qurani-Kərimdə şeyx sözünün yaşlı insan, müdrik ağsaqqal, təcrübəli başçı mənalarını ifadə etdiyini göstərir və dediklərini sübuta yetirmək məqsədilə aşağıdakı ayələri misal gətirir: "Onun çox qoca bir atası vardır" ("Yusif" surəsi, ayə 78), "Atamız ixtiyar bir qocadır" ("Qəsəs" surəsi, ayə 23). əl-İsfəhani daha sonra əlavə edir ki, şeyxülislam sözünün başqa mənaları da vardır və bu ad xüsusən elmli, həyat təcrübəsi sayəsində müdriklik qazanmış şəxsiyyətlərə şamil edilir.

İslam dini yeni yaranan dövrlərdə tayfa və nəsil başçılarına aid edilən şeyx ifadəsi İslamın bərqərarından sonra daha dərin biliyə malik olanlara, ilahiyyat sahəsində böyük nüfuz sahiblərinə, sufi təriqətinin başçılarına şamil olunmağa başlandı. Artıq X əsrdən etibarən bu məfhum bir qədər də təkmilləşdi. Belə ki, şəhər, ölkə, dövlət və bölgə miqyasında müsəlman icmasının mənəvi rəhbərinə şeyxülislam deyə müraciət edilirdi.

İslam dininin inkişafı və geniş əraziləri əhatə etməsi şeyxülislamlıq təsisatlarının yaradılmasını zəruri etdi. Bu təsisatda çətin və ziddiyyətli fiqh problemləri, o cümlədən İslam hökmləri, şəriət qaydaları ilə bağlı məsələlər həll edilir, cəmiyyət üçün əhəmiyyət kəsb edən bir çox önəmli tədbirlər şeyxülislamın xeyir-

duası ilə həyata keçirilirdi. Şeyxülislam cəmiyyətin həyatında mühüm rol oynayır, insanlar arasında münasibətlərin ədalətli şəkildə tənzimlənməsində təsirli amil kimi çıxış edirdi. Elə buna görədir ki, Misir və Suriya məmlükləri dövründə şeyxülislamlar dövlət strukturlarında böyük nüfuz sahibi sayılırdılar.

Müsəlmanlar arasında yüksək məqam sahibi olmaq üçün şeyxülislam dini sahədə dərin bilik, savad və erudisiyaya, həmçinin möminlər arasında güclü nüfuz, hörmət və ehtirama sahib olmalı idi. Habelə, şeyxülislamı digər din xadimlərindən fərqləndirən əsas xüsusiyyət öz biliyini Allaha, Vətənə və xalqa xidmət naminə tətbiq etməsi sayılırdı.

XIV - XV əsrlərdə şeyxülislam müstəqil bir şəxs idi, yəni bu və ya digər məsələni həll edərkən heç kəsdən asılı olmayaraq müctəhid kimi şərbəst şəkildə fikir yürüdür, yalnız Quran və şəriət hökmlərindən çıxış edir, qərəz güdmədən ümumi işin, əmin-amanlığın və ictimai sabitliyin xeyrinə hökm çıxarırdı.

XVI əsrdə Osmanlı sultanlarının - Sultan Səlim və Sultan Süleyman Qanuninin hakimiyyətləri dövründə şeyxülislamlar dövlət idarəçiliyində və qanunların tənzimlənməsində daha böyük rol oynamağa başladılar.

Orta əsrlərdə Azərbaycanda da şeyxülislamlıq institutu mühüm rol oynamışdır. Belə ki, Təbriz və Dərbəndin şeyxülislamları mötəbər, hörmətli din xadimləri sayılır, molla, qazı və hacıblərə göstərişlər verirdilər.

Məlum olduğu kimi, çar Rusiyası XIX əsrin 60-cı illərinin ortalarına qədər bütün Qafqazı, 60 - 80-ci illərdə isə Qazaxıstan və Orta Asiyanı işğal etdi. Qafqazda şeyxülislamlıq təsisatı fəaliyyət göstərdiyi halda, Orta Asiya və Qazaxıstanda bu qurum öz mövqeyini qoruya bilmədi. Çarizmin Qafqazı işğal etmək siyasəti torpaqların ilhaqı və yerli idarəçiliyin ləğv edilməsi ilə bitmədi. Buna görə də Rusiya imperiyası Qafqazda öz qayda-qanunlarını bərqərar etmək, xristianlığı yaymaq, bölgədə İslamın oynadığı mühüm rolu mümkün qədər məhdudlaşdırmaq siyasəti yürüdürdü. Lakin Qafqazın hər yerində bu siyasət ciddi müqavimətlə qarşılandı, xristian Rusiyasına qarşı cihada çağı-

rışlar eşidilməyə başlandı. Rus işğalına qarşı çıxış edən başlıca qüvvə məhz cəmiyyətin savadlı və mütəşəkkil hissəsini təşkil edən müsəlman ruhaniləri oldu. Azərbaycanın əksər bölgələrində, o cümlədən, Lənkəran, Şuşa, Quba və Nuxada rus işğalına və İslam dininə qarşı həyata keçirilən zorakılığa etiraz əlaməti olaraq üsyanlar baş verdi. Elə bu səbəbdən də çarizm müsəlman ruhanilərin gücü ilə hesablaşmaq, cəmiyyətin əxlaqi məsələləri və məişətinə ciddi təsir göstərə bilən, müstəqil sosial-siyasi qüvvə olan bu xüsusi zümrəyə olan münasibətdə və onlara yönəlik yeritdiyi siyasi xətdə dəyişikliklər etmək məcburiyyətində qaldı.

Çarizm İslam dini və müsəlman ruhaniləri ilə bağlı siyasətini ehtiyatla həyata keçirməyə başladı. Bununla da mütləqiyyət üsul-idarəsi İslamın nüfuz dairəsini məhdudlaşdırmaq, xristianlığı müsəlmanların yaşadığı ərazilərdə yaymaq, müsəlman ruhanilərə məqsədyönlü şəkildə təzyiqlər göstərərək dini-siyasi fəallıqlarını neytrallaşdırmaq və onlarla əməkdaşlıq əlaqəsinə girərək nüfuzlarından imperiyanın mənafeyi naminə faydalanmaq istəyirdi. Buna görə də çarizm Qafqazda İslam və müsəlman ruhaniliyinin nüfuzu ilə barışmaq məcburiyyətində qalaraq 1823-cü ildə Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsini təşkil etdi.

Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsinin təşkili və şeyxülislam vəzifəsinin təsis edilməsi Qafqaz üçün yeni və böyük hadisə idi. Belə ki, Azərbaycanın ayrı-ayrı bölgələrində uzun illər boyu şeyxülislamlar fəaliyyət göstərmişdirlər. Lakin həm dindar əhali, həm də dövlət tərəfindən qəbul edilən bu şeyxülislamların adları tarixə düşməmişdir. Məhz bu baxımdan mütəşəkkil, mərkəzləşdirilmiş dini qurum olan Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsi və şeyxülislamlıq təsisatının yaranma tarixi 1823-cü ildən hesablanmalıdır. Həmin tarixdən etibarən Qafqazın bütün şeyxülislamları Azərbaycandan olmuşdur.

Məhəmmədəli Hüseynzadə ilk şeyxülislam kimi fəaliyyəti dövründə Qafqazın müsəlman ruhanilərinin mütəşəkkilliyini təmin etdi, bölgə müsəlmanlarının dini işlərinin tənzimlənməsində xüsusi rol oynadı.

Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsi yaranmasından keçən qısa vaxtda müsəlman əhalinin maraqlarını təmin edən xeyli iş gördü. Çarizm bunu hiss edən kimi İslamda məzhəb ayrı-seçkiliyini qabartmaq üçün 1832-ci ildə Tiflisdə Qafqazın müftisi vəzifəsini təsis etdi və Kazan tatarı Tacuddin Mustafin Qafqaza ilk müfti təyin edildi. Lakin bölgənin müsəlman əhalisi arasında etibar qazana bilmədiyi üçün 1842-ci ildə onu görkəmli Azərbaycan şairi Molla Vəli Vidadinin oğlu, dərin dini bilik sahibi, Qazax müftisi Osman Əfəndi Vəlizadə əvəz etdi.

XIX əsrin 30-cu illərində Tiflisdə Qafqaz müsəlmanlarının iki idarəsi –şeyxülislamın başçılıq etdiyi şiə və müftinin rəhbərlik etdiyi sünni ruhani idarələri fəaliyyətə başladı. İdarələrdən hər birinin tərkibi on nəfərdən ibarət idi. Hər bir idarəyə hüquqi cəhətdən dörd məclis – Tiflis, İrəvan, Yelizavetpol (Gəncə) və Bakı məclisləri tabe idi. Şiə idarəsinin 20, sünni idarəsinin isə 16 qazısı var idi.

Şeyxülislamlıq və müftilik təsisatları İslamın təbliği, dini elmlərin və dini təhsilin inkişaf etdirilməsi ilə bağlı olduqca fəal iş aparırdı. Şərq tarixi və ədəbiyyatının, İslam elmlərinin gözəl bilicisi və iyirmiyə qədər əsərin müəllifi olan Şeyxülislam Əbdüssəlam Axundzadə təhsildə mütərəqqi meyllərin inkişafına düzgün istiqamət verir, Qori Müəllimlər Seminariyasına istedadlı gənclərin cəlb olunmasına çalışır, onlara hərtərəfli yardım göstərirdi. Onun dilçiliyə, peyğəmbərliyin tarixinə dair həsr edilmiş, İslam ehkamlarının şərhi ilə bağlı əsərləri maraqla oxunurdu.

Şeyxülislam Məhəmmədhəsən Mövlazadə Şəkəvinin əsərləri, Müfti Hüseyn Qayıbzadənin risalələri, digər ilahiyyatçı və ruhanilərin qələmə aldıqları bu gün də İslam tarixinə dair mühüm qaynaq kimi istifadə olunur.

XX əsrin əvvəllərində şeyxülislamlar Qafqazda getdikcə güclənməkdə olan dini missionerliyə, qeyri-ənənəvi əqidə və cərəyanların yayılmasına qarşı fəal mübarizə aparır, təkallahlıq mövqeyindən çıxış edərək bir sıra təriqətçilərin təlimlərinin dağıdıcı mahiyyətini ifşa edirdilər. Beləliklə də təhsil, ailə və

məişət məsələləri bütövlükdə Qafqazın müsəlman ruhaniləri tərəfindən tənzimlənir, müxtəlif toplantılarda müzakirə edilir və birgə rəy çıxarılırdı.

Şeyxülislamlığın keçdiyi yol heç də asan olmamış, çətinliklərlə, ağrı-acılarla müşayiət olunmuşdur. Lakin çəkilən əzab-əziyyət şeyxülislamları tutduqları yoldan döndərə bilməmiş, bu ali dini rəhbərlər qarşılarına çıxan bütün çətinlikləri Allahın sınağı kimi qəbul etmiş və bu imtahandan üzüağ çıxmağa çalışmışlar.

Məlum olduğu kimi, Azərbaycan Xalq Cümhuriyyəti süqut etdikdən sonra Qafqaz Müsəlmanları Ruhani İdarəsi 20 ildən artıq bir müddət ərzində (1920 - 1944) bağlanaraq faktiki fəaliyyət göstərmək imkanından məhrum edilmiş, müsəlman ruhanilər ağlasığmaz təqib və məhrumiyyətlərə məruz qalmış, həbs edilmiş, sürgünlərə göndərilmişdir. Məscidlər anbar və müəssisələrə çevrilmiş, müqəddəs kitablar yandırılmış, dini hər vəchlə unutdurmaq, insanları dini köklərindən ayrı salmaq yönündə ciddi-cəhdlə səy göstərilmişdir. Lakin bütün məhrumiyyətlərə baxmayaraq ruhanilərimiz cəmiyyətdəki mövqelərini itirməmiş, mütəşəkkilliklərini qoruyub saxlaya bilmiş, insanların dini həyatına rəhbərlik etmişlər.

Bu gün Qafqaz Müsəlmanları İdarəsi bütün dünya dövlətləri, dini mərkəzlər, nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən tanınır, fəaliyyətinə yüksək qiymət verilir. Qafqaz müsəlmanlarının səsi ən mötəbər beynəlxalq məclislərdən, təşkilatlardan gəlir. Bunların sırasında Birləşmiş Millətlər Təşkilatı və YUNESKO-nun, İslam Konfransı Təşkilatı (İslam Əməkdaşlıq Təşkilatı) və "Vicdana Çağırış" Fondunun, həmçinin Ümumdünya Xalq İslam Rəhbərliyi və digər qurumların adlarını çəkmək olar. 2010-cu ilin aprelində Qafqaz Müsəlmanları İdarəsi Moskva və Ümumrusiya Patriarxı Kirillə birlikdə dünya dini liderlərinin Bakı Sammitinin təşkil olunması və keçirilməsini bilavasitə gerçəkləşdirmişdir. Bakı Sammitində 33 ölkənin 300-dən çox din xadimi iştirak etmişdir.

Bütün Qafqazın XII Şeyxülislamı Allahşükür Paşazadə geniş dünyagörüşünə və dərin zəkaya malik olan şəxsiyyətlərdəndir.

Həyat və fəaliyyəti haqqında nə qədər yazılsa, neçə-neçə tədqiqat işi ərsəyə gəlsə belə, onun genişmiqyaslı, çoxşaxəli fəaliyyətini tam əks etdirmək, bütövlükdə əhatə etmək mümkün deyil. Hacı Allahşükür Paşazadə həzrətlərinin görkəmli dini lider, tanınmış elm adamı, böyük nüfuza malik ictimai xadim, nəhayət maraqlı tale sahibi kimi həyat yolu, Şeyxülislam qismində fəaliyyəti olduqca əhəmiyyətli tədqiqat predmeti olub və bu gün də böyük önəm kəsb edir.

Səmimi ziyalı, islamın mahir bilicilərindən olan Hacı Fuad Nurullahın qələmə aldığı "Şeyxülislamlıq zirvəsi: Hacı Allahşükür Paşazadə" kitabı şeyxülislamlıq tarixinin, azərbaycanlı şeyxülislamların həyat və fəaliyyətinin, keçdikləri məşəqqətli yolların öyrənilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Müəllif tədqiqat işində Bütün Qafqazın Şeyxi Allahşükür Paşazadənin elmi, dini və ictimai fəaliyyətinin əsas məqamlarını, vacib istiqamətlərini müəyyən etməyi, habelə ətraflı araşdırmağı qarşısına məqsəd qoymuş və istəyinə nail olmuşdur. Həmçinin, əsərin yazılmasında çoxsaylı elmi, dini və tarixi ədəbiyyatdan istifadə edilməsi nəşrin sanballı bir elmi tədqiqat işi olmasını göstərməklə yanaşı, müəllifin qaynaqlara yaxşı bələd olmasına və onlardan bacarıqla istifadə etməsinə də dəlalət edir.

Ümidvaram ki, Hacı Fuad Nurullahın qələmə aldığı bu əsər geniş oxucu kütləsinin marağına səbəb olacaqdır.

***Anar İsgəndərli***
*tarix elmləri doktoru, professor*

## MÜƏLLİFDƏN

***Bismillahir-rəhmanir-rəhim***

Bütün ömrünü xalqına həsr edən, haqq və ədalətin carçısı kimi tanınan, bəşər övladını daim halallıq və təmizliyə səsləyən insanlar haqqında yazmaq, həm müasirlərinə, həm də gələcək nəsillərə onları tanıtmaq olduqca şərəfli bir işdir. Ona görə ki, ləyaqətli insan ömrü başqalarına örnəkdir, nümunədir, mənəvi-əxlaqi tərbiyə məktəbidir. Elə bir məktəb ki, burada həmişə Ulu Tanrıya, haqqa, ədalətə, xeyirxah əməllərə, halallığa və təmizliyə məhəbbət, dinsizliyə, imansızlığa, hər cür naqis keyfiyyətlərə və qəbahətlərə nifrət motivləri təbliğ olunur. Bu baxımdan Şeyxülislam Hacı Allahşükür Paşazadənin İslam dininin təbliği sahəsindəki xidmətləri təqdirəlayiqdir.

Şeyxülislam həzrətlərinin uğurlu fəaliyyətlərini nəzərə alan Ümummilli lider, mərhum Heydər Əliyev cənabları demişdir: "Müqəddəs dinimiz olan İslamın gözəl ənənələrinin ölkəmizdə, habelə bütün Qafqaz bölgəsində qorunub saxlanılması və möhkəmləndirilməsində Şeyxülislam Allahşükür Paşazadənin xüsusi xidmətləri vardır. Onun Qafqaz Müsəlmanları İdarəsinə rəhbərlik etdiyi illər ərzində bu dini qurum İslam dəyərlərinin geniş təbliğ olunması, müsəlmanların dini-mənəvi birliyinin möhkəmləndirilməsi, onların cəmiyyətin həyatında fəallığının artırılması işində böyük rol oynayan mühüm mərkəzlərdən birinə çevrilmişdir. Azərbaycan xalqının azadlığı uğrunda mübarizəsində Hacı Allahşükür Paşazadənin tutduğu əsl vətəndaş mövqeyi onun ölkədə cərəyan edən mürəkkəb ictimai-siyasi prosesləri obyektiv qiymətləndirmək, yaranmış problemlərin həllində dini amilin gücündən düzgün istifadə etmək bacarığını nümayiş etdirdi".[1]

---

[1] Hacı Xanəli Babayev. Şeyxülislam Allahşükür Paşazadə: Elmlə dinin vəhdəti. Bakı, "Qismət"-2005, səh. 6.

Şeyxülislam həzrətləri bütün dünyada tanınmaqla, şöhrət qazanmaqla yanaşı, mənsub olduğu millətin, xalqın, Vətənimiz Azərbaycanın, habelə müsəlmanlarının maraq və mənafelərini ən yüksək səviyyədə təmsil etdiyi Qafqaz bölgəsinin qlobal miqyasda tanıdılması, bölgə əhalisinin problem və qayğılarının dünya ictimaiyyətinin diqqətinə çatdırılması üçün əlindən gələni əsirgəməmiş, bu yolda bütün qüvvə və imkanlarını səfərbər etmişdir. Şeyxülislam Allahşükür Paşazadə doğma vətənimizin ən ağır günlərində, millətimizin taleyüklü anlarında həmişə qətiyyətli mövqeyini ortaya qoymuş, öz nüfuz və imkanlarını xalqımızın haqq işinin təntənəsi yolunda xidmətə sərf etmişdir. Qafqaz xalqlarının sülhməramlı niyyətlərinin tərəfdarı və müdafiəçisi olan böyük şəxsiyyət Hacı Allahşükür Paşazadə həzrətləri bu sahədə əhəmiyyətli əməli addımlar atmağa müvəffəq olmuşdur.

İslam təşkilatlarının fəaliyyəti tarixində ən mühüm və geniş əks-səda doğuran əlamətdar hadisələrdən biri 1986-cı il oktyabrın 1-də baş verdi. Həmin vaxt Bakıda İslam Konfransı Təşkilatının xətti ilə "Müsəlmanlar sülh uğrunda mübarizədə" Beynəlxalq Konfransın keçirilməsi gənc Şeyxülislam Allahşükür Paşazadənin şəxsi nüfuzunun, eləcə də rəhbərlik etdiyi Qafqaz Müsəlmanları İdarəsinin hörmətinin təzahürü kimi qiymətləndirilməlidir.

Bundan əlavə, Şeyxülislam həzrətləri 1987-ci ildə Moskvada keçirilən "Nüvə silahsız dünya, bəşəriyyətin daimi yaşaması uğrunda" Beynəlxalq Forumun təşəbbüskar qrupunun başçısı və həmsədri olmuşdur.

Təbii ki, Şeyxülislam Allahşükür Paşazadənin fəaliyyətinin ən məhsuldar dövrü Azərbaycan müstəqillik qazandıqdan sonraki mərhələyə təsadüf edir. Keçmiş sovetlər birliyinin təşkil etdiyi 70 illik ateist rejiminin çökməsindən sonra Azərbaycanda İslam dininin intibahında, dini həyatın düzgün məcraya yönəldilməsi işində Hacı Allahşükür Paşazadənin böyük rolu və xidmətləri olmuşdur. Qeyd etmək lazımdır ki, məhz Şeyxülislam Allahşükür Paşazadənin şəxsi iradəsi və təşkilatçılıq bacarığı sayəsində

postsovet məkanında yalnız Qafqaz Müsəlmanları İdarəsi fəaliyyətini nəinki davam etdirməyə, hətta öz nüfuz dairəsini genişləndirməyə də nail ola bildi.

Hazırda Şeyxülislam Allahşükür Paşazadənin rəhbərlik etdiyi Qafqaz Müsəlmanları İdarəsinin fəaliyyətinin səlahiyyət çərçivəsinə Azərbaycan, Gürcüstan, Dağıstan, İnquşetiya, Adıgey, Qaraçay-Çərkəz, Kabarda-Balkar, Şimali Osetiya daxildir. Bu isə o deməkdir ki, məhz Hacı Allahşükür Paşazadənin uğurlu fəaliyyəti nəticəsində Azərbaycan bu gün Qafqazın mənəvi mərkəzi olaraq qəbul edilir.

Dini-ictimai xadim kimi beynəlxalq aləmdə malik olduğu böyük nüfuzdan istifadə edərək Şeyxülislam Allahşükür Paşazadə həzrətləri Azərbaycan həqiqətlərini, xüsusilə Dağlıq Qarabağ probleminin mahiyyətini dünya ictimaiyyətinin diqqətinə ən yüksək kürsülərdən çatdırır, bölgəmizdə sülhün və əmin-amanlığın möhkəmləndirilməsi ilə bağlı geniş təbliğat işi aparır. Həmişə xalqın içində olan Şeyxülislam həzrətlərinin təkcə 1990-cı ilin 20 Yanvar faciəsi zamanı göstərdiyi fədakarlıq, ölüm təhlükəsinə belə, məhəl qoymadan nümayiş etdirdiyi qətiyyətli mövqe və millətimizə dəstək onun adının Azərbaycanın İstiqlal tarixinə qızıl hərflərlə həkk olunması üçün kifayət edər.[2] Həmin müsibətli anlarda ali dini rəhbər olaraq Hacı Allahşükür Paşazadə həzrətləri doğma və əziz xalqı naminə öz canından keçməyə hazır olduğunu bir daha sübut etdi.

İstər Qarabağ müharibəsinin ağır dövrlərində, istərsə də Azərbaycan dövlətçiliyinin daxildən sarsıldılmasına yönələn zərbələrin dəf olunması məqamlarında Şeyxülislam həzrətləri heç nədən qorxmadan, heç kimdən çəkinmədən ön cəbhələrdə olmuşdur.

Ateist sovet rejimi dövründə doğma dili, müqəddəs dini, zəngin mənəviyyatı təcavüzə, repressiyaya məruz qalmış xalqımız Hacı Allahşükür Paşazadənin şəxsində özünün müqəddəs dini dəyərlərinin təminatçısına sahib oldu.

---

[2] Hacı Xanəli Babayev. Şeyxülislam Allahşükür Paşazadə: Elmlə dinin vəhdəti. səh. 10.

Demokratiyanın təməl prinsiplərinə arxalanan müstəqil dövlətimizdə vicdan azadlığı və islami dəyərlərin dirçəlişi, mənəvi intibahımız Ümummilli Lider, mərhum Heydər Əliyevin və Şeyxülislam Allahşükür Paşazadənin adları, fəaliyyətləri ilə sıx bağlıdır. Məhz dahi şəxsiyyət Heydər Əliyevin İslamın nümunəsində bütün səmavi dinlərə və dini dəyərlərə münasibətdə yürütdüyü müdrik siyasəti, həmçinin Hacı Allahşükür Paşazadənin gərgin, məqsədyönlü fəaliyyəti sayəsində ölkəmiz nüfuzlu beynəlxalq təşkilatlar, o cümlədən dünyanın tanınmış din xadimləri tərəfindən sülhpərvər, tolerant, qeyri-din nümayəndələri ilə dialoqa və terrorizm ilə mübarizəyə hazır ölkə kimi qəbul edilir, bu sahədə əldə edilmiş müsbət, uğurlu təcrübə təqdir olunur.

İnkar olunmayan bir həqiqətdir ki, müstəqil Azərbaycan dövlətçiliyinin bərqərar olunması və təməlinin möhkəmləndirilməsi işində Hacı Allahşükür Paşazadə həzrətləri hər zaman Ümummilli lider Heydər Əliyevin ən yaxın silahdaşlarından biri olmuş, bütün dövrlərdə onun şəxsiyyətinə olan dərin ehtiram və inamını birmənalı şəkildə açıqlamış, Ulu Öndəri Azərbaycanın xilaskarı kimi qəbul etmişdir.

Şeyxülislam Allahşükür Paşazadə həzrətlərinin həyata keçirdiyi uğurlu fəaliyyət sayəsində dinimizin Azərbaycan dövlətçiliyinin varisi olan xalqımız qarşısında xidməti gücləndi, mənəvi dəyərlərimizinköməyi ilə xalqımızı səfərbər etmək imkanından ölkəmizin taleyüklü məsələlərinin həlli üçün istifadə olunmasına münbit şərait yarandı.

Din-dövlət münasibətlərinin düzgün məcraya yönəldilməsi, vətəndaş birliyinin təmin olunması, cəmiyyətdə dini-mənəvi sabitliyin qorunub saxlanılması işində Şeyxülislam həzrətlərinin rolu və əməyi əvəzsizdir. Elə buna görə də mərhum Heydər Əliyev Şeyxülislam Allahşükür Paşazadənin şəxsiyyətini, xalqımız və dövlətçiliyimiz naminə gərgin fəaliyyətini həmişə yüksək qiymətləndirmişdir: “Azərbaycanın dini rəhbəri bizim müsəlman dinimizi nəinki Azərbaycanda, hətta bütün Qafqazda təmsil edən ən yüksək vəzifəli şəxsdir. Əgər Azərbaycanın dini

rəhbəri bütün Qafqaz müsəlmanlarının Şeyxülislamı adını alıbsa, demək bu, bizim üçün böyük iftixar hissidir".[3]

Azərbaycan Respublikasının müstəqilliyinin tanınması yolunda böyük və vacib addımda – 1991-ci ilin axırlarında Seneqalın paytaxtı Dakar şəhərində keçirilən İslam Konfransı Təşkilatının VI İclası zamanı ölkəmizin bu beynəlxalq quruma tamhüquqlu üzv olunmasında Hacı Allahşükür Paşazadənin əvəzsiz rolu və əməyi olmuşdur.

Ulu Öndər Heydər Əliyev cənablarının şəxsi himayəsi, xüsusi qayğısı, daimi diqqəti, eləcə də Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadənin təşəbbüsü və müstəsna xidmətləri sayəsində XIII əsrin yadigarı, 700 illik şərəfli, nisgilli tarixi olan müqəddəs abidənin - Bibiheybət məscid-ziyarətgahının tamamilə yenidən qurulması, Mirmövsüm Ağa ziyarətgahının abadlaşdırılması, Təzəpir məscidinin təmiri və s. savab işlər xalqın, möminlərin dərin ehtiramına səbəb oldu, dinlə dövlətin siyasi anlamda bir-birindən ayrı olsalar da mənəvi özünüdərk, dini dəyərlərin dirçəldilməsi məsələlərinə yanaşma baxımından vəhdət təşkil etdiyini bariz şəkildə nümayiş etdirdi.

Məhz Ümummilli lider Heydər Əliyevin müstəsna xidmətləri və Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadənin gərgin fəaliyyəti sayəsində dinimiz, mənəviyyatımız özünə etibarlı dayaq qazandı.

Dövrümüzün böyük simalarından biri olan Şeyxülislam Allahşükür Paşazadə bu missiyanı gözəl dərk edən, üzərinə düşən böyük vəzifələrə dərin məsuliyyət hissi ilə yanaşan din xadimidir. Şeyxülislam yaşadığımız zəmanənin bütün problemlərinə dair öz fikir və düşüncələrini, mövqeyini ortaya qoyan, müdrik baxışları ilə cəmiyyətimizi narahat edən məsələlərə münasibətini çəkinmədən, qətiyyətlə açıqlayan bir şəxsiyyətdir. Dünyanın müxtəlif bölgələrində baş verən mürəkkəb, təzadlı hadisələri daim diqqətlə izləyən Hacı Allahşükür Paşazadə ideoloji, siyasi

---

[3] Hacı Xanəli Babayev. Şeyxülislam Allahşükür Paşazadə: Elmlə dinin vəhdəti. səh. 12.

maneə və sədlərə, sovet dönəmində ciddi qadağalara baxmayaraq belə məsələlərə öz konstruktiv münasibətini bildirməkdən, qəti etiraz və ittihamlarla çıxış etməkdən heç zaman çəkinməmişdir. Şeyxülislam, xüsusilə son dövrlərdə Avropa xristian mərkəzçiliyi ideyaları ruhunda tərbiyə olunmuş insanların çox vaxt Şərqin mənəvi dəyər və ənənələrinə göz yumaraq İslam haqqında yanlış təsəvvürlər yaratmalarına, məharətlə yalan uydurmalarına qarşı qətiyyətlə mübarizə aparanların önündə gedir.

Tədqiqat işində Şeyxülislam Allahşükür Paşazadənin elmi və ictimai fəaliyyətinin əsas məqamlarını, vacib istiqamətlərini müəyyən etməyi və ətraflı araşdırmağı qarşıya məqsəd qoymuşuq. Dini və elmi baxımdan alim, fundamental tədqiqatlar müəllifi, elmin və dinin təbliğinin himayədarı, Qafqazın XII Şeyxülislamı Hacı Allahşükür Paşazadənin çoxşaxəli, dərin məzmunlu yaradıcılığı, Azərbaycan elminə verdiyi dəyərli töhfələr barədə məlumat vermək, habelə onun Azərbaycan dövlətçiliyi naminə əhəmiyyətli ictimai fəaliyyətinin mühüm məqamlarını əks etdirmək, diqqətə çatdırmaq qayəsi bizi bu tədqiqata cəlb etmişdir.

***Hacı Fuad Nurullah***
*QMİ-nin sədr müavini,*
*BİU-nun islamşünaslıq fakültəsinin dekanı*

# I FƏSİL

## ŞEYXÜLİSLAMLIQ MƏQAMI VƏ AZƏRBAYCANDA ŞEYXÜLİSLAMLIQ

### 1.1. Şeyxülislamlıq anlayışı və İslam dünyasında şeyxülislamlığın yeri

Şeyxülislamlıq dərəcəsi tarixən müsəlman dünyasında böyük məqam sayılmışdır. "İslamın şeyxi", "müsəlmanların ağsaqqalı", "müsəlmanların başçısı" mənalarını verən "şeyxülislam" ləqəbini tanınmış fiqh alimləri, məşhur sufi mürşidləri daşımışlar.

Hərfi mənada "şeyx" - qoca, "şeyxülislam" - "İslamın qocası (müəllimi)", "dini rəhbər" deməkdir.[4] Misir və Suriya məmlükləri dövründə ən mötəbər müftilərə "şeyxülislam" deyilmişdir. Səfəvilər dövlətində şeyxülislam şah tərəfindən təyin edilən baş qazılardan biri olmuşdur. Bir vaxtlar İstanbul müftisi də şeyxülislam adlanmışdır. Osmanlılar dövründə (XVI əsrdən XX əsrin əvvəllərinə qədər) şeyxülislamın məqamı o qədər yüksəlmiş, nüfuzu o dərəcədə güclənmişdir ki, o, nəinki ali səlahiyyətli din xadimi, din alimlərinin başçısı, həm də ən mötəbər dövlət adamlarından biri sayılmışdır. Sarayda ən böyük mərasimlərə şeyxülislam rəhbərlik etmiş, sultanın dəfnini o, keçirmiş, vəliəhddən əhdi o, almış və onu taxta o, əyləşdirmiş, qazıları o, təyin etmişdir. Xilafət ləğv edildikdən və Türkiyə Cümhuriyyəti qurulduqdan sonra bu ölkədə şeyxülislamlıq məqamı da ləğv edilmişdir.

[4] Hüseynqulu Məmmədli. Qafqazda İslam və şeyxülislamlar. səh. 68.

Lakin bir sıra müsəlman ölkələrində, o cümlədən Qafqaz bölgəsində bu ali məqam dəyişikliklərlə indiyədək qalmaqdadır.

Şeyxülislamlıq adı müsəlman ölkələrində XI əsrdən etibarən işlədilir. Bu, şəriət hüququ ilahiyyatçılarına və ali ruhani xadimlərə verilən fəxri tituldur. Bu ad əsasən fəqihlərə şamil edilirdi.

"Fiqh" ərəb sözü olub, mənası "bilmək", "başa düşmək" deməkdir. "Füqəha" isə müsəlman hüququnu bilənlərə, fiqh elminin bilicisinə deyilir. Fiqh məsələlərinin həlli ilə məşğul olan, fiqhdən dərs deyən və ya sadəcə, bu sahədə müvafiq təhsil alan və fiqh baxımından cəmiyyətin müxtəlif məsələləri barəsində mühakimələr yürüdən şəxsə fəqih deyilir. Fəqihin dini təlimə rəhbərlik etmək hüququ olduğu üçün bu sahədə rəhbər vəzifəni aparan şəxsə şeyxülislam rütbəsi verilir. Əvvəllər bu rütbə əsasən dövlət başçılarının məsləhəti, zəmanəti ilə din rəhbərlərinə verilərdi. Son illərdə isə şeyxülislam həmin rütbəyə seçki üsulu ilə mötəbər məclislərdə seçilir.

XIX əsrin əvvəllərindən Zaqafqaziya ölkələrində işlədilən bu ad rus imperatoru tərəfindən şiə icmasının başçısına verilirdi. Türkmənçay müqaviləsindən sonra Azərbaycanın şimal hissəsini öz təsir dairəsinə alan çar Rusiyası Qafqazda dini məsələləri nəzarətində saxlamaq üçün 1823-cü ildə başçı kimi şiə təriqətinə şeyxülislam, 1832-ci ildə isə sünni təriqətinə müfti vəzifələrini təsis etdi. Həm şeyxülislam, həm də müfti 1872-ci ilə qədər ayrı-ayrılıqda fəaliyyət göstərir, dini məsələləri tənzimləyən fətvalar verirdilər. Buna görə də ilk Şeyxülislam Məhəmmədəli Hüseynzadə şeyxülislamlıq vəzifəsini əldə etsə də Qafqazda dini məsələlərə tam rəhbərlik edə bilmirdi.

İslam nöqteyi-nəzərindən müctəhidlik şeyxülislamlıqdan daha yüksək vəzifə sayılsa da o dövrdə baş verən siyasi hadisələri nəzərə alan çar Rusiyası şeyxülislamın müctəhidə tabeçiliyinə icazə vermirdi. Buna görə də dini hökmlərin izahında fərqli mövqelər ortaya çıxanda bu vəzifə daşıyıcıları arasında müxtəlif ixtilaflar yaranırdı. Müctəhid Ağa Şeyx Əli ilə Şeyxülislam Məhəmmədəli Hüseynzadə arasındakı ixtilafın getdikcə

kəskinləşməsi çar Rusiyasına sərf etmədiyi üçün çarın fərmanı ilə müctəhidlik ləğv edildi və belə bir vəzifəni daşıyan şəxsin Qafqaz müsəlmanları içərisində fəaliyyəti rəsmən qadağan edildi. Beləliklə, Şeyxülislam Məhəmmədəli Hüseynzadə Qafqazda dini məsələlərin həllində tam sərbəstlik və şəriksiz hakimiyyət əldə etdi. Təkcə dini məsələlərə baxmaqla kifayətlənməyən Şeyxülislam Məhəmmədəli Hüseynzadə, eyni zamanda dövlət məmuru funksiyalarını da yerinə yetirirdi.

XX əsrin əvvəllərində, yəni 1918-1920-ci illərdə yaradılan Azərbaycan Xalq Cümhuriyyətində "Məşixət-i İslamiyyə" İdarəsinin başçısı "şeyxülislam" adlanırdı. Həmçinin, şeyxülislam 1921-ci ildən 1991-ci ilə qədər keçmiş SSRİ-də Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsinin, 1991-ci ildən bu günə qədər Azərbaycan Respublikasında Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) başçısına verilən addır.[5]

XIX əsrin əvvəllərində, 1823-cü ildə təsis edilən Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsinin iqamətgahı Tiflisdə yerləşirdi. Təqribən yüz il beləcə davam edən şeyxülislamlığın iqamətgahı XX əsrin əvvəllərində, 1921-ci ildə Azərbaycanın paytaxtı Bakıya köçürülmüşdür. 1930-1944-cü illər arasında şeyxülislamlığın fəaliyyəti tamamilə dayandırılsa da 1944-cü ildə bərpa edilmiş və bu gün də davam edir.

1980-ci ildə şeyxülislamlıq məqamına Hacı Allahşükür Hümmət oğlu Paşazadə seçildi. Onun dövründə şeyxülislamlıq forma və məzmunca dəyişikliyə uğramış, təkamül etmiş, fəal, təsirli, nüfuzlu və mütəhərrik bir dini quruma çevrilmişdir.

Şeyxülislam Hacı Allahşükür Paşazadə Qafqazın şiə müsəlmanlarının birbaşa dini rəhbəri hesab olunur. Ərazinin sünni müsəlmanlarına isə onun birinci müavini – Müfti Hacı Salman Musayev rəhbərlik edir.

[5] Həmin mənbə

## 1.2. Qafqaz Müsəlmanları İdarəsinin təsis olunması

XIX əsrin əvvəllərində Qafqazın (Zaqafqaziya) Rusiya imperiyasına qatılması ilə əlaqədar bölgədə İslam təsisatlarının quruluşunda əhəmiyyətli dəyişikliklər baş verdi. 1823-cü ildə Qafqaz (Zaqafqaziya) şiələrinə (dini) başçılıq etmək üçün Tiflis şəhərində şeyxülislam vəzifəsi təsis edildi. Bundan 9 il sonra, 1832-ci ildə Tiflis şəhərində Qafqaz sünnilərinin başçısı olan müfti vəzifəsi də təsis edilir. Lakin şeyxülislam və müfti vəzifələrinin təsis edilməsi hələ Qafqaz (Zaqafqaziya) Ruhani İdarəsinin yaranması demək deyildi. Onlar yalnız fərdi qaydada fəaliyyət göstərən dini başçılar idilər.

Şeyxülislamın rəhbərlik etdiyi şiə, müftinin rəhbərlik etdiyi sünni ruhani idarələri 1872-ci il 5 aprel tarixli əsasnaməsi ilə təsdiq edildi və 1917-ci ilin fevralına qədər bu əsasnamə əsasında fəaliyyət göstərdi. Şeyxülislam və müfti çarın Qafqaz canişini tərəfindən təyin edilirdi. Ruhani idarələrin fəaliyyəti isə çarizm üsul-idarəsi tərəfindən istiqamətləndirilirdi. Bunlar dövlət idarəsinin bir qolu sayılırdı, ruhanilər isə çar məmurlarına bərabər tutulurdu. İslam ideologiyasını imperiyanın səadəti naminə xeyirxah istiqamətə yönəltmək məqsədilə çarizm Qafqaz şiə və sünni ruhanilərinin idarə olunması haqqında xüsusi nizamnamə də elan etdi. Həmin nizamnaməyə görə, buraya (şiəlikdə) şeyxülislamlar, qazılar və axundlar, sünnilikdə isə müftilər, imamxətiblər, əfəndilər, habelə hər iki cərəyana daxil olan sıravi mollalar, müəzzinlər, İslam dininin müxtəlif məddahları, seyidlər, mürşidlər və b. daxil idi.

1920-ci ilə qədər Qafqazda, o cümlədən Azərbaycanda müsəlman ruhaniləri iki dərəcəyə bölünürdü: şeyxülislam, müfti və s., şiə və sünni ruhani idarələrinin, quberniya ruhani məclislərinin üzvləri, məscid mollaları. Bununla yanaşı, ruhanilər dini ideologiya, ehkam, əməli həyat məsələlərini həll etmək və onlara dini, ictimai qiymət vermək səlahiyyəti baxımından üç zümrəyə aid edilirdi: birinci ali zümrəyə Qafqaz ruhani idarələrinin baş-

çıları - şeyxülislam və müftilər, ikinci orta zümrəyə quberniya ruhani məscidlərinin üzvləri və qazılar, üçüncü aşağı zümrəyə isə yerli məscid mollaları (axundlar, imam-xətiblər, müəzzinlər, mükəbbirlər), əməleyi-movtlar (yas mərasimini aparanlar) və s. daxil idi.

Bakı və Gəncə (o zamankı Yelizavetpol) quberniyalarının hər birində şiə və sünni cərəyanlarına aid olan, eləcə də yanaşı fəaliyyət göstərən iki quberniya ruhani məclisinin sədri dururdu. Hər məclisdə iki nəfər üzv və başqa məmurlar fəaliyyət göstərirdi.

Məlumata görə, 1920-ci ilədək Zaqafqaziyada 23 nəfər şiə, 16 nəfər sünni qazısı, 1823-cü ildən bu günə kimi isə 12 şeyxülislam və 11 müfti olub.

Hələlik isə XIX əsr idi və yenicə rus əsarətinə düşmüş Azərbaycanda tez-tez işğalçılara qarşı üsyanlar baş verir, bu üsyanlara çox vaxt xalqın ruhani atası olan din xadimləri başçılıq edirdilər. Belə bir şəraitdə çarizm işğal etdiyi ərazilərin əhalisini ram etməyin yollarını axtarırdı. Peterburqda yaxşı başa düşürdülər ki, bunun ən yaxşı yolu cəmiyyətin ruhani təbəqəsini ələ almaqla mümkün ola bilər. Xristian və müsəlman mədəniyyətləri kimi iki yad amilin toqquşduğu bir məkanda müsəlman əhalisini idarə etməyin yeganə çıxış yolu həqiqətən bunda idi. Azərbaycanda zora arxalanan yadelli mədəniyyət yüz illər ərzində təşəkkül tapıb inkişaf etsə də top-tüfəng qarşısında aciz qalan yerli mədəniyyəti istədiyi kimi sıxışdırıb məhv edə bilmədi. Bunun bir neçə səbəbi vardı: ictimai şəraitdə azərbaycanlıların dil birliyi, qüdrətli ədəbiyyatı, mənəvi şəraitdə isə İslam dini yerli mədəniyyətin özünümüdafiəsinin rəhninə çevrildi.

Ümumiyyətlə İslam mədəniyyətinin sivilizasiya qarşısında ən böyük dünyəvi xidməti onun birləşdiricilik bacarığı ilə ölçülə bilər. Tarixən İslam dini Azərbaycanda da dili, dini, xalqı vahidləşdirmiş, onun vahid mədəniyyət məkanı yaratmasına əlverişli yol açmışdı. İslam dini Qafqaz Albaniyasında yayılmasaydı Azərbaycan olmaya bilərdi.[6] Azərbaycan xalqının taleyində bu cür möhtəşəm rol oynamış İslam dini yeni dövrün

---

[6] Axundzadə Mirzə Əbu Turab. İslamın təfriqəsi səbəbləri. səh. 31-34.

işğalçılarına qarşı mübarizədə də öz sözünü demiş oldu. Qanlı döyüşlər düşmənin qələbəsi ilə nəticələnsə də İslam dininə və anadilli İslam mədəniyyətinə sığınan xalq yadelli qüvvəyə qarşı özünün gizli sürən mübarizəsini davam etdirirdi. Bunu görən çarizm açıq-aşkar baş verən üsyanların qarşısını almaq və belə bir mübarizəni tədricən söndürmək üçün Qafqazın müsəlman əhalisini bir ittifaqda birləşdirmək və ona ayrıca bir qurum vasitəsi ilə təsir göstərmək siyasətinə rəvac verdi. Bununla da bir tərəfdən Qafqaz müsəlmanlarının gözlənilməz çıxışlarının qarşısını almaq, digər tərəfdən ruhani rəhbərliyinin hərəkətlərini məhdudlaşdırmaq, beləliklə regionun müsəlman əhalisini daha asan idarə etmək mümkün olacaqdı.

İşğal dövründə və sonrakı illərdə baş verən qanlı-qadalı qırğınlardan sonra Azərbaycanda da din xadimləri siyasi sabitliyin yaradılmasına böyük əhəmiyyət verir, çalışırdılar ki, sülh və əmin-amanlıq bərqərar olsun. Buna görə də işğalçıların təşəbbüsü etiraz doğurmadı. Məhz belə bir şəraitdə Qafqaz Müsəlmanları Ruhani İdarəsi yaradıldı və müsəlmanların dini şərait, eləcə də məişət məsələləri bu dövrdən etibarən həmin idarə tərəfindən tənzimlənməyə başlandı[7]. Lakin bu o qədər də asan başa gəlmədi.

Belə ki, daxili-siyasi qarşıdurma və toqquşmalar, mütləqiyyətin polis-bürokrat maşınının səhlənkarlıq və süründürməçiliyi XIX əsrin 60-cı illərinin axırlarına qədər müsəlman din adamlarının statusunun müəyyən edilməsi, onların müxtəlif fəaliyyət aspektlərinin qaydaya salınması ilə bağlı bir çox məsələlərin əməli həllinin başa çatdırılmasına imkan vermirdi. Halbuki bu məsələlərin nəzəri cəhətdən işlənib hazırlanması ilə 40 ildən artıq bir müddət ərzində o dövrün heç də səriştəsiz olmayan mütəxəssisləri məşğul olmuşdular.[8]

Qafqaz Müsəlmanları İdarəsinin yaradılması ilə bağlı ilk təkliflər hələ 1842-ci ildə irəli sürülmüşdü. Dini baxımdan ruha-

---

[7] Şeyxülislam Allahşükür Paşazadə. Qafqazda İslam: Tarix və müasirlik. səh. 94.
[8] Əlizadə Aygün. Qurani-Kərimin təfsirləri. Quran və sünnə. Konfrans materialları, səh. 14, 7.

niliyin nüfuzunu məhdudlaşdırmaqdan ötrü irəli sürülən həmin layihənin müəllifi Leqkobıtov aşağıda sadalanan şərtləri zəruri sayırdı:

1. İstisnasız olaraq ruhani idarəsi tərəfindən layiqli, etibarlı və lazım olan sayda ruhanilərin təyin edilməsi;

2. Hökumətin mənafeyinə uyğun ruhani təhsilinin verilməsi;

3. Dini təhsil və ruhani dərəcələri almaqdan ötrü özbaşına olaraq İrana və Türkiyəyə edilən səfərlərin qadağan edilməsi;

4. Ruhanilərin xeyrinə xalqdan toplanan vergilərin və məscid mülklərinin miqdarının dəqiqləşdirilməsi;

5. Doğum və ölüm, həmçinin nikah və boşanma hallarının sayı barədə məlumat toplanması.

XIX əsrin 40-cı illərinin başlanğıcında Qafqaz Müsəlmanları İdarəsinin təşkili ilə əlaqədar Çiqaqovun zorakılığa əsaslanan, Leqkobıtovun isə nisbətən loyal görünən layihələri arasında mübahisələr son nəticədə buna gətirib çıxardı ki, idarənin təşkili məsələsi təxirə salındı.

Sonrakı dövrdə bu məsələ ilə əlaqədar daha bir neçə təklif nəzərdən keçirildi. Bu zaman təqdim edilən təkliflər içərisində tanınmış şərqşünas N.V.Xanıkovun layihəsi böyük maraq doğurmuşdu. Qızğın müzakirələrin getdiyi bir vaxtda başlanan Krım müharibəsi canişin qraf Vorontsova müsəlman ruhaniliyinin təşkili məsələsini həll etməyə imkan vermədi. 1856-cı ildə yeni canişin təyin edilən Knyaz Boryatinski isə layihənin əsas prinsiplərini bəyənmədiyi üçün məsələ yenə də həll edilməmiş qaldı.

1860-cı illərdə Qafqaz canişini vəzifəsini icra edən Knyaz Orbeliani müsəlman din rəhbərlərinin özlərinin də arasında gedən münaqişələri aradan qaldırmaq üçün ciddi bir tədbirə əl atdı. O, şeyxülislamlığı ən yüksək mənsəb kimi qəbul edərək Tiflis şeyxülislamı kimi uzunmüddətli fəaliyyət göstərmiş, "təmiz əxlaqı və dərin biliyi ilə həmdinləri arasında hörmət qazanmış" Axund Əhməd Hüseynzadəni bu vəzifəyə seçdi və onun aylıq məvacibinin üçqat artırılmasına nail oldu. Beləliklə, 1862-ci ilin noyabrında İmperator II Aleksandr Axund Əhməd

Hüseynzadənin Zaqafqaziya şeyxülislamı təyin olunması haqqında fərmanı təsdiqlədi.[9]

II Aleksandrın kiçik qardaşı Mixail Nikolayeviçin canişinliyi dövründə (1862-1882) Cənubi Qafqaz müsəlman ruhaniliyinin təşkili istiqamətində işlər sürətləndirildi və nəhayət, öz həllini tapdı. Xüsusi komissiya tərəfindən hazırlanmış layihə 1869-cu ilin yanvarında müzakirəyə çıxarıldı. Bununla da çarizmin Azərbaycanda müsəlman ruhaniliyinin təşkili istiqamətində XIX əsrin 20-ci illərinin sonlarından başlayan fəaliyyəti yalnız 40 ildən sonra bir nəticə verdi.[10]

İslam hüquq tarixində haqq məzhəb olaraq qəbul edilən sünni və şiə məzhəbləri ən azından qaynaq və hədəf baxımından birlik əzm etməkdə olsa da belə birlik çarizmə lazım deyildi. Əksinə, "parçala və hökm sür" siyasəti burada da mövcud reallıqdan istifadə etməyə üstünlük verdiyindən çar məmurları fürsəti fövtə vermədilər. Xurafata endirilmiş cəmiyyətdə şiə və sünni əhali arasında ikitirəliyi əldə bəhanə edən siyasətçilər eyni vaxtda iki idarənin yaradılmasına çalışırdılar. Beləliklə, şeyxülislamlıq institutu bir olsa da iki ruhani idarəsinin ayrı-ayrı nizamnamələri yaradıldı.

Zaqafqaziya Müsəlmanları Şiə Məzhəbi Ruhani İdarəsi və Zaqafqaziya Müsəlmanları Sünni Məzhəbi Ruhani İdarəsi haqqında qərardadlar o dövrün Azərbaycan və rus dilində 115 maddədən ibarət olaraq hazırlandı. Əsas hissəsi 51 səhifə həcmində olan (sonrakı əlavələrlə) və 1872-ci ildə nəşr olunan qərardadın

---

[9] **Qeyd:** O.Bayramlı yazır ki, Şeyx Əhməd Səlyaninin əmisi Şeyxülislam Məhəmmədəli Hüseynzadə 22 yaşında hökumətin təyinatı ilə Tiflisə gəlib şiə məzhəbi üzrə müsəlmanların dini idarəsinin başçısı təyin olunmuş, Axund və şeyxülislam dərəcəsini almışdır. Sonralar könüllü surətdə istefa edərək yerinə qohumunun təyin olunmasını təklif etmişdir. "Ümum üləmanın səviyyəsindən xeyli yüksəkdə duran Şeyx Əhməd Səlyani" öz vətənpərvərliyi ilə də fərqlənir, "Qafqazda hakim olan fars ədəbiyyatından deyil, öz doğma torpağının şairlərindən daha çox xoşlanırdı". Rusiya hökuməti Şeyx Əhməd Səlyanini Qafqazda elm və maarifçilik fəaliyyətinə görə 1881-ci ildə "III dərəcəli Müqəddəs Vladimir" ordeni ilə təltif etmişdi (Əhmədağa Əhmədov, "İslamın əsasları"). Zaqafqaziya Müsəlmanları İdarəsinin təşkili yalnız onun nizamnaməsinin qəbulundan sonra rəsmiləşdirilə bilərdi.

[10] "İrşad" qəzeti, 1907, №117-120, 132; 1908, №4-74, 80-91.

yuxarısında "Əslində İmperator həzrətlərinin öz dili ilə: "Быть по сему" yazılmışdır" qeydi və 5 aprel 1872-ci il tarixi vardır.[11] Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsinin əsasnaməsi məhz bu gündən fəaliyyətdə olmuşdur. Bu qərardad 7 əlavə ilə birlikdə Rəsul Hüseynlinin "Azərbaycan ruhaniliyi" kitabının sonunda, rus dilindən müasir Azərbaycan dilinə tərcümədə təqdim olunmuşdur.[12]

Həmin vaxtdan keçən onilliklərdə bu qurum bütün Qafqazda müsəlman cəmiyyətinin idarə olunması üzrə öz imkanları daxilində fəaliyyət göstərmiş, region əhalisinin dini həyata qayıtmasına nail olmuş, buralarda elm və mədəniyyətin inkişafına çalışan maarifçilik hərəkatında yaxından və birbaşa iştirak etmişdir.

Nizamnaməyə əsasən, hər bir şeyxülislam çarizmin siyasətinə uyğun olaraq təyin edilir, buna görə hökumətin mövqeyini müsəlmanlara çatdırır, ikinci tərəfdən isə bir azərbaycanlı kimi xalqın ictimai mövqeyini müdafiə etməyə, müsəlman əhalinin bu və ya digər məsələyə münasibətini canişinliyə çatdırmağa, həll etməyə çalışırdı. Yad hökumətlə doğma İslam ümməti arasında qalan şeyxülislamlıq idarəsi çox əziyyət çəkir, iki mədəniyyətin yola getməsi üçün əlindən gələni edirdi. Əslində çarizmin hökmranlıq dövründə şeyxülislamlıq yerli idarəçilik vasitəsi demək idi, müsəlman əhalini çarizmdən və onun canişinindən daha çox bu qurum idarə edirdi. Lakin bu yerli üsul-idarənin xalq kütlələri arasında lazımi qədər nüfuz qazanması siyasi dairələrə sərf etmədiyindən çarizm şeyxülislamı da gözdən salmağa çalışır, bu vəzifə sahiblərini bacardıqca xalqdan ayırmağa səy göstərirdi. Bütün bunlara baxmayaraq, istər çarizm, istərsə də sovet dövründə fəaliyyət göstərmiş şeyxülislamlar Qafqaz müsəlmanlarını, o cümlədən Azərbaycan xalqını ləyaqətlə təmsil etmiş, süni səpilmiş xurafat toxumlarının aradan

---

[11] «Положение об управлении Закавказского мусульманского духовенства Суннитского учения». IV-263/1572; «Положение об управлении Закавказского мусульманского духовенства Шиитского учения». IV-263/1572.

[12] "İrşad" qəzeti, 1907, №117-120, 132; 1908, №4-74, 80-91.

qaldırılması, ateizmin ifşası, xalqın maariflənməsi, elm və mədəniyyətin çiçəklənməsi, həmçinin insanların müasirləşməsi uğrunda yorulmadan mübarizə aparmışlar. Xüsusən çarizm dövründə Qafqazda salınan nifaq alovunun söndürülməsi sahəsində şeyxülislamların və başqa nüfuzlu din xadimlərinin böyük zəhməti tarixə yazılmalıdır.

Qafqaz Müsəlmanları Ruhani İdarəsinin altıncı Şeyxülislamı Axund Məhəmmədhəsən Mövlazadə Şəkəvinin fəaliyyət dövrü də məhz Rusiya imperiyasında çaxnaşma, eləcə də Qafqaz regionunda erməni-müsəlman münasibətlərinin son dərəcə gərginləşməsi illərinə təsadüf etmişdir.

1905-ci ildə Peterburqda baş verən hadisələr Rusiya imperiyasının hər yerində olduğu kimi, Azərbaycanda da sakitliyin pozulmasına rəvac verdi. Çar üsul-idarəsi etiraz dalğasını yatırmaq üçün ölkənin hər yerində yerli qüvvələrə güzəştə getməyə, zülm altında inləyən xalqın istək və arzularını yerinə yetirməyə məcbur oldu. Belə bir vəziyyətdə Azərbaycan ziyalıları öz sözünü deməyə, milli azərbaycançılıq ideyası fikrini irəli sürməyə imkan tapdılar. Ölkədə mətbuat və maarifçilik işi coşqun vüsət aldı, xurafatın aradan qaldırılması və İslam mədəniyyətinin bərqərar olması üçün münbit şərait yarandı.

XX əsrin ilk on ili ərzində Tiflis və Bakının müxtəlif nəşriyyatlarında İslam məsələlərinə dair bir çox kitabça və risalələr nəşr edildi. Bu əsərlərin xalq arasında dini mədəniyyətin yayılmasında, İslamın həqiqi mahiyyətinin təbliğində mühüm faydası oldu.[13]

Azərbaycan mühərrirlərinin Tiflis, Bakı, Gəncə və başqa şəhərlərdə nəşriyyat, o cümlədən mətbəə işini ələ alması qeyd edilən istiqamətdə vacib rol oynadı. Mətbuatın çiçəklənməsi demokratiya ilə yanaşı, bəzən nihilist fikirlərin yayılmasına da yol açmış oldu. Yeni dövrün ziyalıları xalqın maarifləndirilməsində böyük qüvvə olduqlarını yaxından dərk edir, buna görə də cəmiyyətin başqa zümrələrindən, o cümlədən din xadimlərindən daha böyük fəaliyyət göstərmələrini tələb edirdilər.

---

[13] Firidun bəy Köçərlinin şəxsi arxivi, səh. 29.

Azərbaycanda şeyxlik Allah eşqindən nurlanmışdır, imanı İslamdır.[14] Buna görə də Qafqazın şeyxülislamı kürsüsünə əyləşmiş hər bir din xadimi azərbaycanlılar arasında böyük hörmətlə qarşılanmış, ona ümid çırağı kimi münasibət bəslənmişdir. Lakin belə çaxnaşmalar dövründə xalqın ayrı-ayrı nümayəndələrinin şeyxülislamlıq postunu tutan ruhanilərdən tələbləri də artmış, istəkləri çox olmuşdur.

1907-ci ildə Qafqazın Şeyxi Axund Əbdüssəlam Axundzadə qə
kiçik bir elan dərc olunmuş, "Şeyxülislamın vəfatı" başlıqlı yazıda yalnız bir cümlə verilmişdi: "Bakı qəzavatxanasına xəbər gəlmişdir ki, Zaqafqaziya Şeyxülislamı Axund Əbdüssəlam Axundzadə vəfat etmişdir. İnna lillah və inna ileyhi raciun".[15]

Qəzetin sonrakı nömrəsində dərc edilmiş Əhməd bəy Ağayevin "Şeyxülislam cənablarının vəfatı" adlı kiçik şərhində bir tərəfdən təzəcə vəfat etmiş şeyxülislamın şəxsiyyət və fəaliyyətinə subyektiv yanaşılması diqqəti cəlb edir, digər tərəfdən isə şeyxülislam vəzifəsinin tutulması üçün ilk dəfə seçkilərin keçirilməsi tələbi qoyulur.

Çarizm lap əvvəldən şeyxülislamlıq institutunu nəzarətdə saxlamağa, onun fəaliyyətini öz siyasətinə uyğun istiqamətləndirməyə çalışırdı. Buna görə də Qafqaz müsəlmanlarına təyin edilən başçının şəxsiyyəti həmişə hər iki tərəf üçün maraq doğurmuşdur. Rusiya daim İslam ümmətini idarə etməyə çalışmış, müsəlmanlar isə öz milli, dini və mədəni mənafelərini müdafiə etmək üçün bu idarəçilikdən faydalanmağa səy etmişlər. "Qafqaz canişinliyi Qafqaz şeyxülislamı vəzifəsinə həmişə özlərinin siyasətinə uyğun ruhaniləri seçdiklərindən bu, xalqın rus hökumətinə nifrətini daha da gücləndirmişdir". Yeni şəraitdə Əhməd bəy Ağayev buna etiraz edərək yazırdı: "Qədim latınların gözəl bir zərb-məsəli var: "De moltldus lut benes, aut nihie", yəni "ölülər barəsində ya gərək yaxşı danışasan, ya da ki, heç şey danışmayasan".

[14] Səngəri Məhəmməd Rza. Quranda hekayətlərdən istifadənin məqsəd və üsulları. səh. 27.
[15] "İrşad" qəzeti, 1907, №117, 2.

Mərhum Şeyxülislam Axund Əbdüssəlam Axundzadənin xəbəri-vəfatı gəldikdə bu zərbi-məsəl yadımıza düşdü. Düşüb də bizi böyük bir qəmi-əndişə, bir kədər və yasa aludə etdi.

Lakin qəm və əndişəmizə, yas və kədərimizə səbəb bir şəxsin – o şəxs nə qədər böyük məqama caiz olsa da – vəfatı deyil. Çünki "küllü-nəfs zaiqətül-mövt" ayei-həqiqət şuarının məzmununca cümləmiz həman vəfatı dərk edəcəyik.

Amma yas və kədərimizə, qəm və əndişəmizə səbəb olan millətimizin halı, özümüzün məəttəl və pərişanlığıdır. Şimdi şeyxülislam kibi böyük və on illərcə millət rəisi olan bir şəxsin vəfatı münasibəti ilə millət nə yad-bud edəcək və biz nə yazacağız?

Neçə gün bundan əqdəm qonşumuz olan ermənilərin də rəisi və ruhanisi vəfat etdi. Onların qəzetləri həftələrcə bu zatın millət yolunda çəkdiyi əziyyətləri, millətə etdiyi xidmətləri bir və bir tədad edib, ürəkləri açılıb, miyahat və iftixari-milliyyələri bir qat daha artdı və qeyrilər üçün də bu bir dərs, bir məşqi-ibrət və tərğibi-təşviq mayəsi oldu.

Şimdi biz nə yazacağız?

Ermənilər yazıyordular: "Katalikos Mkrtıç hələ tanınmayan, bilinməyən tələbə olduğu zamanlar cürbəcür, növbənöv risalələr, kitabçalar yazıb erməni millətinin ayılmasına, öz zərər və nəfini anlamasına bəzli-himmət edib erməniləri həyəcana və canbaşa gətirdi".

Əcaba bu barədə biz nə yazacağız?

Xülasə, tədad ilə bu müvazinə və müqabilə axıra yetişəcək deyil, muxtəsərən bunu demək olar ki, nə bir ad edəcək və nə bir yazacaq işimiz, iqdamımız yoxdur.

Pəs bu nə böyük bəla, nə əzim müsibətdir ki, biz milləri-İslam düçar olmuşuq?! Nə həyatımızda və nə məmatımızda bir fəxr gətirən, tərğib və təşviqə səbəb olan bir işimiz olmasın! Nə vaxtadək, nə zamana kimi?! Lakin vəfat edənlər edib, onların barəsində fəqət Allah rəhmət etsin və təqsiratından keçsin, deməkdən başqa bir iş əlimizdən gəlməz.

Şimdi gərək dirilərin, gələcəyimizin fikrinə qalmaq, gərək yola getmək ki, əqəllən bundan sonra böyük millətin rəisi-ruha-

nisi olmaq iddia edənlər o gunə şəxslər olsun ki, əqəllən vəfatından sonra bir əməl, bir fel ilə yad-bud olsunlar, əqəllən özlərindən sonra bir əsər qoyub getsinlər.

Bunu nə cür etmək və şeyxülislamı nə növ əşxaslardan intixab etmək, kim intixab etsin gərək? – məsəlləri barəsində gələcək nömrəmizdə müfəssələn yazarız”[16] (Yeri gəlmişkən, məqalədə müəllifin vəfat etmiş şeyxülislama qarşı bu cür kəskin mövqeyini başa düşmək çətindir. Ola bilsin ki, o, burada diqqəti yeni dövrün tələblərinə yönəltməyə çalışmışdır. Əslində isə Axund Əbdüssəlam Axundzadə öz dövrünün mükəmməl alimlərindən biri olmuş, özündən sonra elmi irs qoyub getmiş, “Müqəddəs peyğəmbərlər tarixi” adlı kitabı 1993-cü ildə təkrar nəşr olunmuşdur).

Bundan sonra uzun müddət çar üsul-idarəsi Qafqazda şeyxülislam vəzifəsinə özünün seçdiyi adamın təyin olunmasına cəsarət etmir və həmin müddət ərzində bu vəzifə boş qalır. Mətbuatda şeyxülislamın seçki yolu ilə təyin edilməsi məsələsi getdikcə daha da şiddətli mübahisələr obyektinə çevrilir. Eyni zamanda ziyalılar arasında bu vəzifəni tuta biləcək namizədlər axtarılmağa başlayır.

Əhməd bəy Ağayevin məqalələrində oxuyuruq: “Şeyxülislam” kəlməsi nə deməkdir? Şeyxülislam, yəni Qafqaz dairəsində olan müsəlmanların ruhani rəisi, müsəlmanların böyüyü, nümayəndəsi, şeyxi. Bu gunə şəxsin danışdığı sözlər, eylədiyi feillər, tutduğu işlər cümləsi millətə aiddir, guya millət özü danışıbdır-edibdir.

Kəlmənin mənası böylə olduqda ismi-mənaya mütabiq gəlmək üçün və şeyxülislam doğrudan və həqiqi millət rəisi, millət nümayəndəsi olmaq üçün bədihi və aşkardır ki, ən əvvəl lazım olan şərt budur ki, şeyxülislamı millət intixab etsin və illa şeyxülislamlıq öz mənasından saqit oluyor. Fəqət o şəxs, o adam millət nümayəndəsi, millət rəisi ola bilir ki, millət özü öz ixtiyarı ilə onu özünə şeyx, rəis və nümayəndə intixab etsin. Çünki millət bir şəxsi özünə rəisi-ruhani, şeyx, nümayəndə təyin

[16] “İrşad” qəzeti, 1907, №118, 2.

etdikdə bilir ki, kimi təyin ediyor, kimin zöhd və təqvasına, kimin elm və danişinə, kimin iman və sədaqətinə, kimin heysiyyat və ehtirami-şəxsiyyətinə etibar ediyor. Bu gunə şəxs, bir tərəfdən, öz ehtirami-şəxsiyyəsini mühafizə etməklə və o biri tərəfdən, millət və qövmün dərd və ehtiyacatına sidqü-səfa üzrə qalmaqla, doğrudan da millət rəisi, millət şeyxi olub, millətin nümayəndəsi olar və çox millət özü bu gunə şəxsi intixab edər, əvvəla onun millət yanında böyük bir nüfuz və şanı olar, saniyə hökumət yanında ali və həqiqi bir heysiyyət və vəqə dara olar. Lakin vaqiədə iş və əhval bu növ deyil. Vaqiyədə şeyxülislamı intixab edən hökumət özüdür. Millətin və tayfanın bu intixabdan əsla nə xəbəri nə qarışacağı olmıyor. Hökumət isə çox vaxt öz intixabında səhv və xəta edər və bu da bir təbii və qeyri-qabili-islah bir əmrdir, çünki bədbəxtanə bizim hökumət kişilərimiz əksəri-övqat bizim övza və əhvalımızdan bixəbərdirlər və aramızda hankı alim ələmdir, hankı şəxs əfzəldir, hankı zat öz elm və danişi ilə, öz sifati-cəmiləsi ilə millətin qəlbini cəlb edə bilmiyor. Bu halətdən olaraq bir şeyxülislam vəfat etdikdə, bir arı səbtəsini arılar çulğalayan kibi, hökumət kişiləri və dəftərxanaları da ənvai-əqsami-həşərat ilə çulğalayırlar, hər kəsin bir azca savadı var isə, hər kəs tənbəl deyil isə və fikrində böyük bir ləqəbə haiz olubdur, milləti sərnigun və xəcil etmək varsa, fövri sahibinüfuz kişilərdən, hökumət adamlarından özlərinə hamilər tapıb dəftərxanalar, postxanalar və teleqrafxanalar canbaşa gəliyor. Hətta sərfi-bisavadlar belə bu gunə fikrə düşüyorlar…

Bundan maəda şeyxülislam o qədər sıxıntı və nəzalət altında dolanıyor ki, hökumətdən biizn bir qədəm belə qoymağa ixtiyarları yoxdur. Məsələn, Şeyxülislam Axundzadə on iki illik şeyxülislamlıq əsnasında bir dəfə belə Qafqaz dairəsinə çıxıb da öz ziri-dəstində olan ruhanilər ilə əlaqə edib işlərinə, övzalarına sərkeşlik etmək izninə nail olmadı. Əvvəlcə Knyaz Qalıtsin mane olurdu, sonra qraf cənabları gəldikdə erməni-müsəlman hadisəsi araya düşüb mane oldu.

İşdə bu gunə şeyxülislamlıqdan nə gözləmək olar”.[17]

---

[17] “İrşad” qəzeti, 1907, №119, 2.

Daha sonra ədib yazır: "Şeyxülislamlığı məşğul edən zat surəti-vaveyla əvəzinə, gərək həm hökumət indində və həm camaat yanında möhtərəm, müəzzəz, sözü ötən, rəyi eşidilən bir zat olsun".[18]

Göründüyü kimi, müəhərririn sözləri xalqın yeni dövrdə şeyxülislamlığa necə tələbkarlıqla yanaşıldığını və bu vəzifəni tutacaq şəxsdən zəmanənin tələbinə müvafiq coşqun fəaliyyət umduğunu əks etdirirdi. XX əsrin şeyxülislamı xalq arasından çıxan yüksək səviyyəli alim şəxs, ziyalı, millətin və Qafqaz müsəlmanlarının mənafeyini hər addımda müdafiə etməyi bacaracaq ağsaqqal olmalı idi. Belə bir şəxsin axtarıb tapılması və xalq tərəfindən seçilməsi aktual şərt kimi irəli sürülürdü.

Başqa bir hissədə on bir nəfərin imzası ilə çap olunmuş yazıda oxuyuruq: "Əlan İslam tayfasına şeyxülislamlıq məsələsindən mühüm və vacib məsələ yoxdur və ola da bilməz. Pəs cəmi millətə vacibdir ki, bu şərafətdə olan rəyasəti-milləti-milli nəcibei-islaiyyəyi öylə bir şəxsə verməyi o mənsəbə layiq olan nəinki öylə şəxs ki, şəriətdən, müsəlmançılıqdan bibəhrə olubdur, bisavad çinovnik zümrəsinə girsin. Danışıqlara görə, vaqiada guya, şeyxülislamı bu gunə adamlardan təyin etmək fikrindədirlər. Əgər həqiqətən belə olsa, müsəlmanlara çox ar olsun! Əcəb yatağan, yuxusu ağır bihimyət camaatdırlar! Doğrudur!

Bizə məlumdur ki, şeyxülislam nəsəb etmək hökumət ixtiyarındadır. Lakin bunu da bilirik ki, iltimasi-təvəqqei-xahiş yolunun qapısını biz müsəlmanların üzünə bağlamayıblar! Haçan biz müsəlmanlar xahiş elədik, bizi cavab eylədilər?

Nə eybi var ki, biz layiq elmli təmiz üləmalardan bir nəfəri öz aramızda zəbdə edib, icmaən hökumətə göstərib, hökumətdən xahiş edək, şeyxülislamlıq mənsəbinə nəsəb etsin! Əgər biz müsəlmanlar xahiş elədik, hökumət qəbul eləmədi, nə eybi var, bizə bir zərər-ziyan varid olmayacaq ki, adətində qalmalıdır, qalsın…

Gərək üləma və əhli-qələm və rəislər məclis tərtib edələr xəbər verələr ki, Gəncə, Şuşa, Şirvan, İrəvan və qeyri yerlərdən

[18] "İrşad" qəzeti, 1907, №120, 2.

zəbdə adamlar təşrif gətirələr Badikubəyə. Hər kəs layiq bildikləri şəxsi öz aralarında intixab edib, ondan sonra hökumətə ərizə verib, xahiş və təvəqqe edələr ki, həmən şəxsi nəsəb etsin…

O cəhətdən biz zeyldə qövl yazanlar təvəqqe və rica ediyoruz ki, üləmalar və əhli-qələmlər, əyanlar zəhmət çəkib gələlər iclas edələr ki, şeyxülislamlıq işlərini sərəncam etsinlər”.[19]

Beləliklə, şeyxülislam vəzifəsini tutmaq üçün həm müstəmləkəçilər, həm də ziyalılar arasında mübahisələr baş vermiş, hər iki tərəfi təmin edə biləcək şəxsi müəyyənləşdirmək bir müddət mümkün olmamışdır. Firudin bəy Köçərlinin şəxsi arxiv materiallarından məlum olur ki, bəzi ziyalılar hətta şeyxülislamlıq vəzifəsinə onun namizədliyini irəli sürmüş, lakin o, bundan imtina etmişdir. F.Köçərlinin bioqrafı F.Ağazadə bu barədə yazır: “İştə hərgah o zamanlar ruhani sinfinə hörmətlər göstərilməsə də, Firidun bəyin ruhaniliyi o kimi puç hörmətlərdən uzaq idi. Onun ruhaniliyi yalnız camaatın ittifaqına və dünyasına kömək edən bir ruhanilik idi ki, bu da o vaxtın ruhanilərinin heç də xoşuna gəlməzdi. Şagirdlərinə verdiyi şəriət dərsi də imkan dairəsində bu proqram və üsuli-idarə üzrə olacaq idi. Odur ki, 1907-ci ildə şeyxülislamlıq vəzifəsi boş qalan kimi Qafqazın bir çox yerlərindən Firidun bəyə məktublar yazılır, təkliflər olunur ki, haman vəzifəni öhdəsinə alsın. Haman məktubun birində belə deyilir: “Öz barəndə yazdıqlarına mən şərik deyiləm. Mən onu deyirəm ki, indi Qafqazda səndən savayı elə bir adam yoxdur ki, şeyxülislamlıq səndən artıq olsun. İndi bizim üçün bu fikirdən əl çəkmək millətin istiqbalını… kimi nadanlara və buna oxşayan sarıqlılara tapşırmaqdır. Bunu da biz millətə xəyanət hesab edirik. Hər bir müsəlman necə ki, görürəm, sənin adını çəkir, ona görə biz sənə təkid edirik ki, bu yolda çalışasan”.

Digər bir məktubda yazılır: “Mən elə bilirəm ki, siz özünüz aşkar bilə-bilə ki, siz olmasanız oraya bihəmiyyət və cahil mollanın birisi keçib, milləti satacaqdır, uzaqda durub tamaşa etmək, işi cahil camaatın rəyinə buraxmaq, bacaracağınız bir

[19] “İrşad” qəzeti, 1907, №132, 2.

vəzifeyi-milliyyədən qaçmaq sizin həmiyyəti-milliyyənizə münasib deyil".

Bu qədər ciddi təkliflərə baxmayaraq Firudin bəy Köçərli şeyxülislamlıq vəzifəsini özündən rədd etmişdir.[20]

"İrşad" qəzetinin 8 yanvar 1908-ci il tarixli 4-cü nömrəsində Əhməd bəy Ağayev "Şeyxülislamlığa dair" məqaləsində qeyd edir ki, hələ də şeyxülislamın hansı yolla təyin edilməsi üstündə mübahisələr davam edirdi: "Şayiə gəzir k, ərbabi-qələm özü şeyxlik iddiasına düşüb, halbuki ərbabi-qələmin məqsədi millətdir. Bizim məqsədimiz odur ki, şeyxülislamlıq məqamı doğrudan-doğruya mözəm və möhtərəm olsun. O biri tərəfdən də bu məqama elə bir şəxs gətirilsin ki, həm alim, həm amil olsun".

Qəzetin 12 yanvar tarixli nömrəsində Qafqazın müxtəlif şəhərlərindən toplanmış nümayəndə heyətlərinin Tiflisdə şeyxülislam seçkisi ilə bağlı müzakirələr keçirdiyi xəbər verilirdi. Bu müzakirələr yaya qədər davam etmişdir…

Digər tərəfdən 1907-ci ilin ikinci yarısından boş qalan şeyxülislamlıq vəzifəsinin ictimai-siyasi gərginlik illərində icra olunmaması çar hökumətini də razı sala bilməzdi. Buna görə də 1908-ci ildə şeyxülislamlıq vəzifəsini icra etmək üçün hakimiyyət dairələri görkəmli Azərbaycan ilahiyyatçısı Axund Məhəmmədhəsən Mövlazadə Şəkəvini bu vəzifəyə gətirmişlər. Güman etmək olar ki, şeyxülislamlığın müvəqqəti icrasına bu təyinat Axund Mövlazadə Şəkəvinin "Kitabul-bəyan fi təfsiril-Quran" əsərinin nəşrindən sonra baş vermişdir. Çünki təfsirin 1908-ci ildəki Tiflis nəşrinin titul vərəqində müəllifin adı yalnız Məhəmmədhəsən Mövlazadə Şəkəvi kimi təqdim olunmuş, onun Qafqazın şeyxülislamı olması barədə heç bir qeyd göstərilməmişdir.[21]

Məsələ burasındadır ki, həmin dövr mətbuatının izlənməsi 1909-cu ilin yayında Axund Molla Məhəmməd Pişnamazzadənin şeyxülislam vəzifəsinə gətirilməsinə qədər bu vəzifə uğrunda ictimai mübahisələrin davam etdiyini göstərir. Bu zaman Axund

[20] Qeyd: By yazının Stalin dövründə qələmə alındığını nəzərə almaq lazımdır.
[21] Şeyxülislam Məhəmmədhəsən Mövlazadə Şəkəvi. Kitabul-bəyan fi təfsiril-Quran.

Məhəmmədhəsən Mövlazadənin şeyxülislamlığı barəsində isə heç bir yazıya təsadüf olunmur.

"Tərəqqe" qəzetinin də 1909-cu ildəki nömrələrində bu barədə müzakirələrin hələ davam etdiyi, sonra isə birdən-birə yeni şeyxülislamın təyin olunduğu xəbər verilir. Qəzetin həmin ilin 148-ci nömrəsində dərc olunmuş "Şeyxülislam" məqaləsində deyilir: "Hamıya məlumdur ki, mərhum sabiq Şeyxülislam Axund Əbdüssəlam Axundzadədən sonra bütün Qafqaz müsəlmanlarının nümayəndələri Tiflisə cəm olub qərar vermişdilər ki, bundan sonra müsəlmanların baş ruhanilərinin intixabını qeyri-millətlər kimi, müsəlman camaatına mühəvvəl etməsini qət edib iznnamə üçün hökumətə rücu etmişlər idi. Bu iş necə ki, məlumdur, əlanlıqda vüzəra şurasının təşti-müzakirəsindədir. Bu vaxta qədər hər idarədə danışılır idi ki, guya müsəlman camaatının bu haqq olan tələbləri, şəksiz ki, hökumət tərəfindən qəbul olunacaqdır. Bu axır günlərdə məlum olur ki, Qafqazın baş hökuməti bütün müsəlmanlar üçün ən mühüm və ən əhəmiyyətli olan bu məsələnin nəticəsini gözləməyib şeyxülislam təyin etmək fikrinə düşmüşdür və hətta bu qulluğa Gəncə quberniyasının Qazısı, Axund Molla Məhəmməd Pişnamazzadənin də təyin olunacağını danışıyorlar. Hər halda, bu məsələnin qəti surətdə həll olunması ilə müsəlman camaatının böyük-böyük müqəddəs ümidlərinin bir puç olması yəqin bir işdir".

"Tərəqqe"nin sonrakı nömrələrindən birində M. Axundzadə imzalı müəllifin "Şeyxülislamlığa dair" yazısında oxuyuruq: "Bir neçə gün bundan əqdəm möhtərəm "Tərəqqe" nömrələrinin birində bir məqalə dərc olunmuşdu. Məqalə xeyli müvafiq həqiqət və hüquqi-milli tərəfdarları olan bir zatın tərəfindən qələmə alındığı məlum olunur idi.

Məqalənin müxtəsərcə məzmun və məfhumu mərhum Şeyxülislam Axundzadə həzrətlərinin vəfatından sonra cümlə Zaqafqazdan müsəlman vəkillərinin Tiflisə gedib cənabi-canişin həzrətlərinə müsəlman camaatı tərəfindən ərizə təqdim edib, şeyxülislamlıq intixab ilə olmasını istirham etmək barəsində idi.

Məqalə sahibi bu istirham və binagüzarlıq rədd olunmamış Axund Molla Məhəmməd Pişnamazzadə həzrətlərinin şeyxülislam təyin olunmağı barəsində əfsus edir idi.

Bu məqaləni görmüş zəvati-kiram sahibi-məqalənin həqqaniyyət üzrə müsəlman camaatının qeydkeşi olmağında şübhə etməz, zənnindəyəm. Lakin hər nə səbəbə mübni isə tazə müəllimlərimizdən və ədiblərimizdən Ə.Məhəmmədzadə həzrətləri "Tərəqqe"nin 152-ci nömrəsində sahibi-məqalənin bu xüsusdakı sui-zənlərini guya təshihə qalxışıb buyurur ki:

- Əvvala bu zat (Pişnamazzadə) ümum qafqaslıların intixab edəcəkləri üç namizədin birisidir.

Afərin, böylə təshihə nə demişəm. Məhəmmədzadə həzrətləri istiqbaldan xəbər veriyor.

Bu vaxta kibi müsəlmanların şeyxülislamlığa namizəd təyin etmədiklərini və gələcəkdə edəcəklərini söyləyir.

Məhəmmədzadə həzrətləri elmi-sərfdə alim olduğu halda, feli-mazi (etdikləri) bir bəndə feli-müzare edəcəkləri söyləməyinə cəhəti-aləmi-qeyb və yaxud müxbiri-qeyb ləqəbi almağa səzavardır.

Məhəmmədzadə həzrətləri təshihə davam edib buyuruyor:

- Saniyən bu dəfə şeyxülislamlıq məqamına əsalətən deyil, vəkalətən təyin olunur.

Cənab Məhəmmədzadə həzrətlərinin keçmişdəki əqideyi-insaniyyət piristanəsinə və indiki təəssübi-milliyyəsinə etimad edib, şeyxülislamlıq, yəni Pişnamazzadənin təyinatı xüsusunda rəsmi dairələrdən və mövsuq mənbələrdən hasil etdiyim məlumat gələcək nömrələrdə yazmağı vəd edib"…

Postskriptumda "İdarədən" əlavə edilir: "Seçmə və təyin məsələlərinə qalırsa, əhalini xəbərdar ediyoruz ki, əgər bu yolda təkrar hökumətə müraciət olunmasa, seçki məsələsi unudulub iş yenə hökumətin səlahiyyətinə qalacaqdır".[22]

"Tərəqqe" qəzetinin digər bir nömrəsində isə belə bir xəbər oxuyuruq: "Gəncə. Xüsusi müxbirimizdən. Pişnamazzadə həzrətləri qəti surətdə şeyxülislamlığa təyin olundu. Məhəmmədzadə" (58, №165, 2).

---

[22] "Tərəqqe" qəzeti, №158, 2.

Nəhayət, qəzetin sonrakı nömrəsində Gəncədən xəbər verilir: "Əvvəlcə xəbər vermiş olduğum vəch ilə Pişnamazzadə həzrətlərinin idareyi-ruhaniyyənin üçüncü əzalığına isalət, mavərayi-Qafqas şeyxülislamlığına dəxi vəkalət təyin edildikləri bu gün, təmmuz (iyul) 1909 teleqraf ilə xüsusi surətdə xəbər verildi.

Pişnamazzadə həzrətləri kəndiləri şəhərdə deyildilər.

Gəncə dağlarındakı türk köylərini, şenliklerini dolaşaraq əhaliyi maarifə təşviq etməkdədirlər.

Bu xeyir xəbəri daha kəndiləri bilməyirlər.

Pişnamazzadə həzrətlərinin yeni məmuriyyətlərini təbrik ilə qafqaslılar üçün faydalı olmasını təmənna edərəm".[23]

Beləliklə də müsəlmanların şeyxülislamlıq vəzifəsinə seçki keçirilməsi ilə əlaqədar istək və arzuları yenə də nəzərə alınmadı.

Lakin həm Axund Molla Məhəmməd Pişnamazzadənin xalq arasındakı nüfuzu, həm onun alim və ziyalı olması, həm də yeni dövrdə xalq arasında coşqun fəaliyyət göstərməsi çar üsul-idarəsinin düzgün seçim etdiyini göstərdi. Buna görə də bu təyinat müsəlmanlar arasında etiraz doğurmadı.

Arada Axund Məhəmmədhəsən Mövlazadə Şəkəvinin şeyxülislamlıq vəzifəsini icra etməsi isə yəqin ki, ancaq rəsmi sənədlərlə təsdiqlənə bilər. Dövrün mətbuatı bu barədə susmuşdur.[24]

Şeyxülislam Məhəmmədhəsən Mövlazadə Şəkəvinin istefasından sonra bu məqama Axund Məhəmmədəli Fərəculla oğlu Pişnamazzadə, Axund Ağa Cavad oğlu Əlizadə, Axund Mirmöhsün Şeyx Əli oğlu Həkimzadə, Axund Əliağa Süleyman oğlu Süleymanzadə, Axund Mirqəzənfər İbrahimov və Şeyxülislam Allahşükür Paşazadə çatmışdır ki, onlar haqqında irəlidə ətraflı məlumat veriləcəkdir.

[23] "Tərəqqe" qəzeti, №166, 3.
[24] Şahlar Şərifov. Şeyxülislam Məhəmmədhəsən Mövlazadə Şəkəvi və onun "Kitabul-bəyan fi təfsiril-Quran" əsəri, nam. dis. işi, səh. 10-24.

## 1.3. Azərbaycan şeyxülislamları

Qafqazın Rusiya tərəfindən istila edilməsindən sonra İslam öz tarixində ikinci dəfə regionda hakim din ola bilmədi. Lakin bu dəfə vəziyyət tamamilə başqa idi: əgər XIII əsrdə monqollar tərəfindən istila edildikdən sonra yerli müsəlman ruhaniliyinin bütpərəst işğalçıları İslama gətirmək imkanı var idisə, XIX əsrdə əksinə oldu, müsəlmanlar xristianlığın rəsmi din olduğu dövlətin təbəələri oldular. Bu səbəbdən ruhanilər Rusiyanın regiondakı siyasətinə mənfi münasibət bəsləyirdilər.

Bunu Rusiyanın hakimiyyət orqanları da gözəl başa düşürdü. O dövrün sənədlərində rus məmurları dəfələrlə göstərirdilər ki, yalnız müsəlman ruhanilərini ciddi nəzarət altına aldıqdan sonra bölgənin xristianlaşdırılması prosesinə başlamaq olar. Bu prosesə isə Rusiyanın hakimiyyət dairələri İran və Osmanlı imperiyası ilə müharibələr qurtardıqdan sonra başlaya bilərdilər. İşğal edilmiş regionda məskunlaşmanın tərkib hissəsi kimi xristianlaşdırma və ruslaşdırma prosesi məqsədyönlü xarakter daşıyır və bir neçə istiqamətdə gedirdi. Rusiya hakimiyyət orqanları xristianlığı yaymaq məqsədilə regionda kilsələrin sayının artırılmasına, bəzən də məscidlərin kilsələrə çevrilməsinə çalışırdılar. İrəvanın ələ keçirilməsini əbədiləşdirmək üçün 1582-ci ildə osmanlılar tərəfindən tikilmiş Cümə məscidi İ.F.Paskeviçin əmri ilə pravoslav kilsəsinə çevrilmişdi.

Qafqazda baş verən hadisələri dəqiqliklə incələyən çar Rusiyası müsəlmanları nəzarətdə saxlamaq üçün 1823-cü ildə şiə müsəlmanlarına başçı kimi şeyxülislamı, 1832-ci ildə isə sünni müsəlmanlarına başçı kimi müfti vəzifələrini təyin etdi.

1823-cü ildən etibarən Qafqazdakı şeyxülislamlıq təsisatı sadəcə şəriət məhkəmələrinin ehtiva çərçivəsindən çıxaraq geniş funksiyalı, fəal idarəçilik qurumuna çevrilmişdir. Bu qurumun əsas qayəsi Allaha, Vətənə və xalqa xidmət olmuşdur. Ti

Rusiya yeni təsis edilən şeyxülislamlığın iqamətgahını burada

yerləşdirdi. Həmçinin, buradan müsəlmanların dini həyatını tənzimləmək daha asan idi. Bu növ təyinat müsəlman ruhanilərin dövlətdən asılılığını gücləndirmək məqsədi daşısa da şeyxülislamlıq məqamının tarixi statusunu bir daha rəsmən təsdiq etdi, onun sonrakı intişarını şərtləndirdi.

## Şeyxülislam Axund Məhəmmədəli Hüseynzadə

Yaşadığı illər 1760-1852,
şeyxülislamlıq müddəti 1823-1846

1760-cı ildə Azərbaycanın cənub darvazası adlanan Salyanda anadan olan Məhəmmədəli Hüseynzadə görkəmli publisist, rəssam və yazıçı Əlibəy Hüseynzadənin ana tərəfdən babasıdır. İbtidai dini təhsilini Salyan və Gəncə şəhərlərində alan gənc Məhəmmədəli 1790-cı ildə İraqa gedərək Bağdad Universitetinin İlahiyyat və Tarix fakültələrini bitirmişdir.

On iki il İraqda dini təhsil alan Məhəmmədəli Hüseynzadə 1802-ci ildə Tiflisə gələrək "Şah Abbas" məscidinə rəis və baş axund təyin edilir. Uzun müddət bu vəzifədə çalışan Məhəmmədəli Hüseynzadə təkcə Tiflisdə deyil, həmçinin Şərqi və Qərbi Azərbaycanda, Borçalı və Dağıstan əyalətlərində də böyük hörmət qazanır və 1823-cü ildə Qafqazın ilk şeyxülislamı təyin edilir.

Təbiətcə mülayim insan olan Şeyxülislam Məhəmmədəli Hüseynzadə hökumətə tabeçilikdən boyun qaçıran axund və molları cəzalandırmaqda çətinlik çəkirdi. Rusiyanın Azərbaycanda həyata keçirdiyi islahatlardan narazı olan xalq kütlələri tez-tez üsyan edir və bəzi tanınmış din xadimləri də bu üsyanlara rəhbərlik edirdilər. Bunlara misal olaraq Şuşa qazısı Əbdul Qasımı və Nuxa qazısı Əbdul Lətif Əfəndinin adlarını qeyd etmək olar. Vergilərin yığılmasında çar məmurlarına maneçilik törədən mollalar etdikləri xütbələrdə çar Rusiyasını dinsizlikdə günahlandırırdılar.

Şeyxülislam Məhəmmədəli Hüseynzadənin üsyana və üsyançılara qarşı mübarizəsi Qafqaz canişini Knyaz Boryatinskini qane etmirdi. Hətta Tiflisdə baş tutan söhbətlər zamanı knya-

zın verdiyi göstəriş və qərarlar şeyxülislamın ciddi etirazına səbəb oldu. Bu etirazlar Peterburqa çatdıqda Şeyxülislam Məhəmmədəli Hüseynzadənin fikirləri əsas götürülərək 1846-cı ilin 6 dekabrında Çar I Nikolay verdiyi fərmanla Azərbaycan bəylərinin torpaq üzərində irsi mülkiyyət hüququnu tanıdı və mülkiyyət bölgüsü məsələlərinin rus qanunları ilə yanaşı, şəriət əsasında həll edilməsinə də icazə verdi. Bununla da şəriət məhkəmələrinin rolu genişləndi, Şeyxülislam Məhəmmədəli Hüseynzadənin təsir imkanları artdı. Bu, nisbi və aldadıcı olsa da bütün hallarda ondan yararlanmaq lazım idi.

Bütün fəaliyyəti dövründə dinin və dini icmanın qayğısına qalan Şeyxülislam Məhəmmədəli Hüseynzadənin səyləri nəticəsində 1834-cü ildə müsadirə edilmiş Yelizavetpol qəzasında yerləşən "İmamzadə" məscidinə məxsus torpaq sahəsi on il sonra, 1844-cü ildə geri qaytarılmışdır. Hətta qubernatorun sərəncamına əməl etməyən Şeyxülislam Məhəmmədəli Hüseynzadə Şeyx Şamilə qarşı mübarizə aparmaqdan da imtina etmişdi.

Rusiya-İran müharibəsinin davam etdiyi vaxtlarda Tiflis məscidinin axundu olan Məhəmmədəli Hüseynzadə müharibənin əleyhinə olduğunu, döyüşlərin davam edəcəyi təqdirdə rusların məğlub olacağını bildirirdi. Lakin müharibədə qazanılan uğurlardan qürur duyan Gürcüstanın mülki qubernatoru Vasilevski rus ordusunun qələbələri barədə aldığı hər "xoş xəbər" münasibəti ilə Axund Məhəmmədəli Hüseynzadə Salyanskiyə "təbrik məktubları" göndərirdi.[25] Qubernator Vasilevskinin 8 oktyabr 1827-ci il tarixli məktubunda deyilirdi: "Oktyabrın 1-də İrəvanın alınması münasibəti ilə sizi təbrik edirəm. Rus əsgərinin silahının qüdrətinə sabah məsciddə dua oxumanızı xahiş edirəm".[26]

Təbriz müctəhidi Ağa Mir Fəttah Təbatəbainin 1828-ci ildə Qafqazın şiə məzhəbindən olan ruhanilərə başçı təyin olunmasından sonra Şeyxülislam Məhəmmədəli Hüseynzadə daha ağır təzyiqlərə məruz qaldı. Lakin yenə də dözmək və mübarizə aparmaqdan başqa çarə qalmırdı.

---

[25] Hüseynqulu Məmmədli. Qafqazda İslam və şeyxülislamlar. səh. 74.

[26] Həmin mənbə.

Şeyxülislamlıqla yanaşı, elmi fəaliyyətini davam etdirən Məhəmmədəli Hüseynzadə tərcüməçiliklə də məşğul olmuş, ərəb və fars dillərində olan dini kitabları Azərbaycan və rus dillərinə tərcümə etmişdir. Onun "Ruslar üçün İslama dair sorğu kitabı" o dövrün qiymətli əsərlərindən olmuşdur.

İslam fəlsəfəsi, tarix, astronomiya, riyaziyyat və başqa elmlərə bələd olduğundan Şeyxülislam Məhəmmədəli Hüseynzadə bu elm sahələrinə aid "Ağızdan-ağıza keçmiş hədislər", "İslamın möcüzələri", "Qiyamətdə ölülərin dirilməsi", "Qəlb qidası" və başqa bu kimi çoxlu sayda əsərlərin müəllifidir.[27]

Yüksək dini titula və elmə sahib olan Məhəmmədəli Hüseynzadə mükəmməl dini təhsil görən, "axund" rütbəsi alan gəncləri hərtərəfli yoxladıqdan sonra fəxri ada layiq görürdü. Belə fəxri adlardan biri də "Əbu Turab" ləqəbi idi.

Seçilmiş dini xadimlərdən olan Mirzə Axundzadə İraqda dini təhsil aldıqdan sonra Tiflisə gələrək Şeyxülislam Məhəmmədəli Hüseynzadə ilə görüşərək dini imtahandan uğurla keçmiş və Şeyxülislam tərəfindən "Əbu Turab" ləqəbinə layiq görülmüşdür. Sonralar bu ləqəbi özünə ad kimi götürən Mirzə Axundzadə ömrünün sonuna kimi Əmircan məscidinin baş axundu vəzifəsində işləmişdir.

Şeyxülislam olduğu müddətdə Məhəmmədəli Hüseynzadənin daim rus siyasətinə qarşı mübarizə aparmasından narazı olan çar Rusiyası onu bu vəzifədən uzaqlaşdırmaq üçün çıxış yolları axtarmağa başladı. Sonda Qafqaz canişini Knyaz Vorontsov şeyxülislamın müavini Fazil İrəvani ilə danışıqlar aparmağa başladı, məqsəd onu bu vəzifəyə gətirmək idi. Lakin şeyxülislamın sədaqətli dostlarından olan Fazil İrəvani hər dəfə ona edilən bu təklifdən imtina edərək bildirirdi ki, yalnız Şeyxülislam Məhəmmədəli Hüseynzadə öz istəyi ilə bu vəzifədən istefa verdikdən sonra o, bu təklifi qəbul edə bilər.

Hadisələrin getdikcə gərginləşdiyini görən Məhəmmədəli Hüseynzadə nəhayət, 1846-cı ildə istefa verdi. Bu hadisədən altı il sonra 1852-ci ildə vəfat edən ilk Şeyxülislam Məhəmmədəli Hüseynzadə Tiflisin müsəlman qəbiristanlığında dəfn edilmişdir.

---

[27] Həmin mənbə, səh. 75-76.

## Şeyxülislam Axund Fazil İrəvani

Yaşadığı illər 1782-1885,
şeyxülislamlıq müddəti 1847-1862

Azərbaycanın görkəmli din xadimlərindən olan Şeyxülislam Fazil İrəvani 1752-ci ildə İrəvan şəhərində anadan olmuşdur. İlk təhsilini doğulduğu şəhərdəki molla məktəbində alan Fazil İrəvani sonralar - 20 yaşında olarkən ali dini təhsilə yiyələnmək üçün Qahirənin "əl-Əzhər" Universitetinə göndərilmişdir. Qırx beş yaşında İrana qayıdan Fazil İrəvani uzun müddət İsfəhan və Təbriz şəhərlərində axund vəzifəsində çalışmış, bir müddət sonra doğma şəhərinə qayıtmış və İrəvan "Göy" Cami məscidinin baş axundu kimi fəaliyyətə başlamışdır.

1828-ci ildə bağlanan Türkmənçay müqaviləsindən sonra Rusiyanın qələbə qazanmasının, İranın isə məğlubiyyətə uğramasının səbəblərindən biri kimi rusların Qafqazın müsəlman din xadimlərinin xidmətindən məharətlə istifadə etməsi göstərilir. Həqiqətən də o dövrdə az da olsa belə din xadimləri var idi. Belə ki, İran əhalisini ruslara qarşı müqavimətdən çəkindirən Təbriz müctəhidi Mir Fəttah Təbatəbainin tutduğu mövqeyi yüksək qiymətləndirən çar Rusiyası onu Tiflisdə Qafqaz müsəlmanlarının müctəhidi təyin etdi. On yeddi il bu vəzifədə fəaliyyət göstərən Mir Fəttah Təbatəbai müsəlmanlar arasında birlik və dini inanclara sədaqətdən daha çox təriqətləri qızışdırmaqla qarşıdurmalar yaratmağa, Rusiya siyasətinin Qafqazda möhkəmlənməsinə xidmət etdi. Müctəhidliyi dövründə Qafqaz Şeyxülislamı Məhəmmədəli Hüseynzadə ilə tez-tez ixtilaflar yaradaraq onu həm insanlar, həm də hökumət qarşısında hörmətdən salmağa çalışan Mir Fəttah Təbatəbai hətta sünni-şiə qarşıdurması yaratmaqdan da çəkinmirdi. Lakin Tiflisin müsəlman ziyalıları, xüsusilə Rusiya xidmət orqanlarında qulluqda olan alim və ədiblər bütün hallarda Şeyxülislam Məhəmmədəli Hüseynzadəni müdafiə edir, Mir Fəttah Təbatəbainin İslam dininə, eləcə də imperiyanın nüfuzuna "zərbə" vurmasını bildirirdilər.

Bütün bunları nəzərə alan Çar I Nikolay 1843-cü ildə Mir Fəttah Təbatəbainin Rusiya təbəəliyindən çıxarılması, ölkədən qovulması və Rusiyaya gəlməsinin qadağan olunması barədə fərman imzaladı. Hətta sonralar Mir Fəttah Təbatəbainin iki oğlu ruslar tərəfindən terror bəhanəsi ilə öldürüldü.

Mir Fəttah Təbatəbainin qarşısı alındıqdan sonra 1843-cü ildə dini və dünyəvi elmlərə bələd olan, müctəhid rütbəsi almış Fazil İrəvani Qafqaz müsəlmanları şeyxülislamının müavini vəzifəsinə dəvət olunur. Dəvəti qəbul edən Fazil İrəvani idarənin fəaliyyətini xeyli genişləndirir. Bu dövrdə şəriət məhkəmələri yaradılır və bütün müsəlmanlara ruhani zümrəsinə daxil olmaq hüququ verilir.

Axund Fazil İrəvaninin təşəbbüsü ilə ruhanilərə vəzifə maaşları kəsilməklə onlara dövlət məmurları ilə eyni səlahiyyətlər verildi və beləliklə, əvvəllər müctəhidin səlahiyyəti çərçivəsində olan qayda-qanunların həyata keçirilməsi yenidən şeyxülislama həvalə edildi.

1846-cı ildə Məhəmmədəli Hüseynzadənin istefa verməsindən sonra eyni ildə Axund Fazil İrəvani Qafqazın yeni şeyxülislamı təyin edilir. İdarənin öz mövqeyini qoruyub saxlaması və genişləndirməsi məhz Fazil İrəvaninin şeyxülislamlığı dövründə mümkün oldu. Onun xidmətlərinin bəzilərini aşağıdakı qaydada sistemləşdirmək olar:

- İdarənin fəaliyyətinə prokuror nəzarəti ləğv edildi;
- Yüksək ruhani şəxslərin təyin edilməsini ruhani idarəsi özü həyata keçirdi;
- Nikah bağlanması və boşanmaların həyata keçirilməsi səlahiyyətləri məscid ruhanilərindən alınaraq daha yüksək savada malik olan axundlara həvalə edildi;
- Qazıların səlahiyyətlərinə aid məsələlərə geniş yer ayrıldı;
- Mahal qazısı tabeçiliyində olan ruhanilərə başçılıq etməli, kəbin işlərini, boşananları, ailə münaqişələrini şəriət əsasında yoluna qoymalı idi. Münaqişələrdə cinayət xarakteri aşkar olunardısa, yalnız o zaman həmin işlər ümumi məhkəmələrə veriləbilərdi.[28]

---

[28] Hüseynqulu Məmmədli. Qafqazda İslam və şeyxülislamlar. səh. 79-80.

Şeyxülislam Fazil İrəvaninin gərgin əməyi, həmçinin Qafqaz canişini Vorontsovun yanında söz və nüfuz sahibi olması nəticəsində dini məktəblərin açılması və idarə olunması, ruhani adlara yiyələnmək üçün sınaqların həyata keçirilməsi, azyaşlılar üzərində qəyyumluğun təyin olunması, seyid adına iddia edənlərin hüquqlarının müəyyən olunması və bir çox başqa məsələlər dairə qazılarına həvalə edildi. Dairə qazıları isə əsas hesabatlarını şeyxülislama verməklə ona tabe idilər.

Şeyxülislama dini məsələlərdə fətva vermək hüququ da məhz Fazil İrəvaninin fəaliyyətinin nəticəsində verildi.[29]

Əldə etdiyi uğurlara görə I, II, III dərəcəli "Müqəddəs Georgi" ordenləri ilə təltif edilən Şeyxülislam Fazil İrəvani, həmçinin İran hökuməti tərəfindən də yüksək mükafatlara layiq görülmüşdür.

Onun şeyxülislam kimi fəaliyyəti dövründə dini idarəyə çoxlu sayda əlavə səlahiyyətlər alması yeni canişin Paskeviçi həddindən artıq narahat edirdi. İdarənin yaradılması ilə bağlı çar fərmanı olmadığından onu nəinki genişləndirmək, heç yaratmaq belə, olmazdı. O, hətta şeyxülislamın səlahiyyətlərini azaltmaq, müctəhidliyi bərpa etmək və İrandan yeni müctəhidlər gətirmək təklifləri ilə də çıxış edirdi.

Qafqazda İslam dininin imperiyaya xidmət yollarını arayıbaxtaran xüsusi komissiyanın sədri Bulatov Paskeviçə yazdığı məktubda belə deyirdi: "Zaqafqaziya şiə müsəlman ruhanilərinə rəhbərlik edən, həmçinin şeyxülislam adı daşıyan Məhəmmədəli Hüseynzadə və Fazil İrəvani kimi şəxslər böyük nüfuz sahibidirlər. Onların rəyləri həmdindaşları tərəfindən birmənalı şəkildə qəbul edilir və sözsüz icra olunur. İrandan müctəhidlərin gətirilməsini olduqca uğursuz cəhdlər kimi qiymətləndirirəm".[30]

Kazan Universitetinin professoru Mirzə Kazım bəyin Qafqaz ruhanilərinin idarə olunması ilə bağlı hazırladığı layihələr mahiyyət etibarı ilə regionda müsəlmanların sıxışdırılmasına, imperiyanın nüfuz və işğalçılıq siyasətinin möhkəmləndirilməsinə

---

[29] Həmin mənbə.

[30] Həmin mənbə, səh. 82.

həsr edilmişdi. Onun təkliflərinə görə, ruhanilərin siyasi baxımdan zərərsizləşdirilməsi, siyasi işlərə qarışmaması üçün iki işin görülməsi vacibdir:

1. Ayrıca Zaqafqaziya Müsəlman Ruhaniliyi yaradılsın;

2. Ruhani şəxslərin fəaliyyəti yalnız maddi vəziyyətə bağlansın.[31]

İlk Şeyxülislam Məhəmmədəli Hüseynzadə kimi, Fazil İrəvani də bu təkliflərin əleyhinə oldu və komissiyaya bununla bağlı öz təkliflərini bildirdi. Vəziyyətin getdikcə gərginləşməsi ilə yanaşı, Şeyxülislam Fazil İrəvaninin istefa verməsindən narahat olan canişin və çar komissiyası güzəştə getmək məcburiyyətində qaldılar.

1846-cı ildən 1862-ci ilə qədər Qafqazın şeyxülislamı olan Fazil İrəvaninin fəaliyyəti dövründə şeyxülislamla canişinlik arasında narazılıqlar səngimədi. Ruhani idarəsinin yaradılması, genişləndirilməsi, əlavə işçilərin qəbulu və yerlərdə şöbələrin açılması ilə bağlı təkliflər həyata keçməsə də etiraz da edilmirdi. Qafqaz Müsəlmanları Ruhani İdarəsinin yaradılması, habelə idarənin ştat cədvəlinin yeddi nəfərə qaldırılması, işçilərin əmək haqlarının dövlət məmurlarının əmək haqlarının səviyyəsinə çatdırılması kimi səlahiyyətlər yalnız üçüncü Şeyxülislam Əhməd Hüseynzadənin şeyxülislamlığı dövründə, yəni 1872-ci ildə çar fərmanı ilə həyata keçirildi.

İlk şeyxülislamın oğlu Əhməd Hüseynzadə təhsilini başa vurub Tiflisə geri qayıtdıqdan sonra onun son dərəcə bacarıqlı və savadlı olduğunu görən Şeyxülislam Fazil İrəvani Əhməd Hüseynzadəni yanında işə qəbul edərək yaxın köməkçisinə çevirdi.

Uzunmüddətli fəaliyyətdən sonra yorulan Fazil İrəvanini digər tərəfdən doğma şəhəri olan İrəvan özünə çəkməkdə idi. Hər an İrəvana qayıtmaq, ömrünün qalan hissəsini bu şəhərdə keçirmək arzusu getdikcə onu daha çox cəlb etməkdə idi.

Özündən sonra bu vəzifəyə layiqli namizəd kimi Əhməd Hüseynzadəni hazırlayan Fazil İrəvani, nəhayət 1862-ci ildə şeyxülislamlıq vəzifəsindən istefa verərək doğma şəhəri olan İrəvana köçdü.

[31] Həmin mənbə, səh. 83.

İrəvana qayıtdıqdan sonra burada dini mədrəsə açan Fazil İrəvani İslam fəlsəfəsini öyrətməklə çoxlu sayda din xadimləri yetişdirdi. Onun şagirdləri sırasından Şərqin böyük tarixçisi və din xadimi Mühəqqiq İrəvani, Şərqin tanınmış alimi Ayətullah Mirzə Məhəmməd və başqaları çıxmışlar.

Azərbaycan İslamşünaslığında ən böyük yerlərdən birini tutan görkəmli alim, ictimai və siyasi xadim Şeyxülislam Fazil İrəvani 1885-ci ildə 103 yaşında İrəvanda dünyasını dəyişmişdir.

**Şeyxülislam Fazil İrəvaninin elmi yaradıcılığı**

Elmi yaradıcılıqla məşğul olan Fazil İrəvani bir neçə ədəbi, tarixi və dini səciyyəvi əsərlərin müəllifidir. Əsərləri bir çox dillərə tərcümə olunmuş, Təbriz, Peterburq, Berlin, Paris və İrəvanda çap olunmuşdur.

"Paklıq kitabı" adlı əsəri Cənubi Azərbaycanın məşhur din xadimi Molla Əhməd Güzəkünaninin tapşırığı ilə 1883-cü ildə Təbrizdə fars dilində Xəttat Məhəmməd Təbrizi tərəfindən çap olunmuşdur.

XIX əsrə aid olan türk, gürcü və erməni mənbələrindən məlum olur ki, Fazil İrəvaninin "Tarixi-İrəvan" adlı əsəri də olmuşdur. Əsər İrəvan və Qərbi Azərbaycan əyalətlərinin tarixinə, Azərbaycan xanlıqlarının fəaliyyətinin tarixi tədqiqatına həsr edilmişdir. Lakin təəssüf hissi ilə qeyd etməliyik ki, bu əlyazmanın bu günə qədər hansı arxivlərdə saxlanılması bəlli deyildir. Bəlkə də əlyazma indiki Yerevan arxivlərində ya məhv edilib, ya da hansısa erməni müəllifinin adına dəyişdirilərək nəşr edilmişdir. Qeyd edək ki, tarixi-elmi əsərlərin müəlliflərinin dəyişdirilməsi faktları günümüzdə də ermənilər tərəfindən davam etdirilməkdədir.

Şeyxülislam Fazil İrəvani 1843-cü ilə qədər, xüsusilə də İsfəhan və Təbriz şəhərlərində axundluq etdiyi dövrlərdə bədii yaradıcılıqla məşğul olmuşdur. Azərbaycan dilində yazıya aldığı "Qızılgül və bülbül" povesti isə məhz onun gənc yaşlarında İrəvanda olduğu dövrə aiddir. Avropa dillərinə bir neçə dəfə tərcümə edilən bu əsər müxtəlif illərdə nəşr olunmuşdur.

1812-ci ildə Sankt-Peterburqda nəşr edilən "Qızılgül və bülbül" povestinin müəllifi kimi saray müşaviri Xocens Marker Geğamyan göstərilir. Bu əsər 1826-cı ildə Vajja Defloribalinin tərcüməsi əsasında Parisdə fransız dilində, 1832 - 1833-cü illərdə isə Yozef Fon Hammer bu əsəri alman dilinə tərcümə edərək geniş tirajla nəşr etdirir. Bunu görən erməni "ədibi" X. M. Geğamyan hiyləgərcəsinə və həyasızcasına hərəkət edərək əsəri öz adına çıxır. Lakin Avropa və Qafqazda aparılan tədqiqatlar əsərin məhz Fazil İrəvaniyə məxsus olduğunu təsdiqləyir. Sonradan ermənilər özləri də təsdiq etmək məcburiyyətində qalırlar ki, adıçəkilən əsər Fazil İrəvani tərəfindən yazılmış, Geğamyan isə onu oğurlayıb öz adına çap etdirmişdir.

"Qızılgül və bülbül" povestini "Anahit" jurnalında tərcümə edərək hissə-hissə çap etdirən Arşak Çobanyan da təsdiqləyir ki, əsər Fazil İrəvaniyə məxsusdur.

Qeyd etdiyimiz əsər hazırda əlyazma şəklində Yerevandakı M. Maştaş adına Qədim Əlyazmalar İnstitutunda saxlanılır. İnstitutun Şərq ədəbiyyatı şöbəsində "Şerlər məcmuəsi" adlı azərbaycanca 222 saylı bir əlyazma da var ki, 28 səhifəlik bu əlyazmanın üzünü Fazil İrəvani köçürmüşdür.

Bundan əlavə, Tiflis alimləri ilə görüşlər keçirən Fazil İrəvani onlara dini təlimlər verməklə yanaşı, risalələrinə dair məsləhətlər də almışdır.

## Şeyxülislam Axund Əhməd Hüseynzadə

Yaşadığı illər 1812-1887,
şeyxülislamlıq müddəti 1862-1884

Şeyxülislam Axund Əhməd Hüseynzadə 1812-ci ildə Salyanda anadan olmuşdur. Atası Məhəmmədəli Hüseynzadə Tiflisə köçdükdən sonra onu əvvəlcə Qafqaz müsəlman ruhani məktəbinə, sonra isə Şərqin dini mərkəzi olan İraqda ali dini təhsil almağa göndərmişdir. Təhsilini başa vurduqdan sonra vətənə qayıdan Əhməd Tiflis və Gəncə qəzalarında dini vəzifələrdə ça-

lışmaqla yanaşı, həmçinin ədəbi-bədii yaradıcılıqla da məşğul olmuşdur. Şeyxülislam Fazil İrəvaninin sevimli şagirdlərindən olan Axund Əhməd Hüseynzadə onun təklifi ilə işə qəbul edilmiş, müavin vəzifəsinə qədər yüksəlmiş və sonda şeyxülislam təyin edilmişdir.

Şeyxülislam Fazil İrəvaninin istefasından sonra Qafqazın yeni canişini knyaz Orbeliani bu vəzifəyə uzun müddət fəaliyyəti ilə hökumətə sədaqətli olduğunu isbat etmiş, dindarlar arasında hörmət qazanmış Axund Əhməd Hüseynzadənin namizədliyini müdafiə etdi. Knyaz Orbeliani belə hesab edirdi ki, on dörd il əvvəl Fazil İrəvaninin şeyxülislam təyin edilməsi o vaxtkı canişinin səhvi idi. Uzun müzakirələrdən sonra, 1862-ci ildə İmperator II Aleksandr Axund Əhməd Hüseynzadənin Zaqafqaziya şeyxülislamı təyin olunması barədə qərarı təsdiq etdi və bu vəzifəni icra etməsinə görə Şeyxülislam Əhməd Hüseynzadəyə 1600 rubl məvacib kəsdi.

Şeyxülislam Əhməd Hüseynzadə atasından və ustadından fərqli olaraq bir çox hallarda özünü din rəhbərindən daha çox çar Rusiyasına tabe olan məmur kimi aparırdı. Şeyxülislamlığının ilk illərində məscid və mədrəsələri təftiş etdikdən sonra tərtib etdiyi hesabat, müridizmin yayılması və aradan qaldırılması haqqındakı mülahizələri, eləcə də yerlərdə din xadimləri ilə davranışları onun "etimadı doğrultduğunu" göstərirdi. Şeyxülislam Əhməd Hüseynzadə Qafqaz canişini Orbelianiyə təqdim etdiyi ilk hesabatında yazırdı: "Hökumətin nəzarətində olan qəzalarda qazılar şəriət qaydalarına əməl etmirlər. Mollalar isə özbaşınalıq etməklə hökumət işlərinə qarışırlar. Bu üzdən qazılarla mollalar arasında dərin ixtilaf mövcuddur.

Digər tərəfdən şəhər pişnamazları da qazıların işlərinə qarışır, onların qərarlarından dolayı verilən şikayətlərə müdaxilə edərək baxmaqla əhali arasında dini rəhbərliyin nüfuzunu aşağı salmağa çalışırlar.

Beləliklə, ruhanilərin vəzifə və hüquqları dəqiq müəyyənləşməyənədək onlar hökumətə heç bir fayda verməyəcəklər".[32]

---

[32] Həmin mənbə, səh. 87.

Bütün bunlarla yanaşı, Şeyxülislam Əhməd Hüseynzadə bildirirdi ki, molla və pişnamazlar qazıları hörmətdən saldıqları kimi, qazılar da əksər hallarda şeyxülislamla hesablaşmayaraq tabeçilikdən imtina edirlər. Buna görə də Qafqaz müsəlmanlarının ali dini rəhbəri özünün və tabeliyində olan din xadimlərinin statuslarının yerli müsəlmanlar tərəfindən deyil, məhz hakimiyyət strukturları tərəfindən müəyyən edilməsini tələb edirdi.

Atası Məhəmmədəli Hüseynzadədən fərqli olaraq müridizmin tamamilə əksinə olan Şeyxülislam Əhməd Hüseynzadə müridizmin mahiyyəti barədə deyirdi: "Müridizm müridin mürşidə münasibəti deməkdir. Bəzi üləmalar özlərini Peyğəmbərin (s) göstərişlərinə hüquqi təfsirlər verməyə həsr edir, digərləri əxlaqi, nəsihətamiz kitablar yazmaqla məşhurlaşır və beləliklə gələcək xoşbəxtlik haqqında mücərrəd, anlaşılmaz fikirlər yayırlar. Beləlari xalq arasında təriqət mürşidləri adı ilə tanınırlar. Onlar ustalıq və məharətlə niyyətlərini cahil xalqdan gizlədirlər. Onlara inanmamaq üçün təhsil və əqli inkişaf tələb olunur ki, Qafqaz xalqları da təhsilə və əqli qabiliyyətlərinin inkişafına tamamilə yaddır".[33]

Şeyxülislam Əhməd Hüseynzadə yerli əhalinin mürşidlərin ardınca getmə səbəblərini dini-fəlsəfi cərəyan kimi müridizmin mahiyyətində deyil, savadsızlığın geniş yayılmasında axtarır və bununla da əhalinin guya ki, aldanmış olduğunu sübut etmək istəyirdi. Elə buna görə də Əhməd Hüseynzadə Azərbaycanın müxtəlif bölgələrində imperiya əleyhinə qalxmış qüvvələrə qarşı mübarizə aparılmasını təklif etməklə yanaşı, həm də müridizmin yayılmamasına çalışır, müridizmi azərbaycanlıları savadsızlığa sürükləyən cəhalət vasitələrindən biri hesab edirdi.

Ali dini rəhbər olmasına baxmayaraq əslində geniş səlahiyyətlərə malik olmayan Şeyxülislam Əhməd Hüseynzadə hərbi və mülki rəhbərliyin razılığı olmadan heç bir şikayətə baxa bilməzdi. Hətta hər hansı bir məscidə molla təyin etmək üçün dini rəhbər mütləq çar məmurunun icazəsini almalı və həmin məmurun mövqeyi ilə razılaşmalı idi.

[33] Həmin mənbə, səh. 88.

1872-ci ildə şeyxülislamlıqla bağlı çar tərəfindən xüsusi fərman imzalandı. Bu fərmana görə, 5 aprel 1872-ci ildə Zaqafqaziya Şiə Müsəlmanları Ruhani İdarəsi, eləcə də Zaqafqaziya Sünni Müsəlmanları Ruhani İdarəsi yaradıldı və yeni ştat cədvəlləri əsasında idarə aparatları formalaşdırıldı. Fərmanın imzalanmasından sonra Əhməd Hüseynzadənin fəaliyyəti genişləndi və səlahiyyətləri artırıldı.

1881-ci ildə isə Şeyxülislam Əhməd Hüseynzadə III dərəcili "Müqəddəs Vladimir" ordeni ilə təltif edildi.

Sayca üçüncü Şeyxülislam Axund Əhməd Hüseynzadə Səlyani 1887-ci ildə Tiflisdə vəfat etmişdir. O, humanistliyi, gözüaçıqlığı, geniş biliyi və hazırcavablığı ilə müasirlərindən fərqlənmişdir.

**Şeyxülislam Əhməd Hüseynzadənin elmi yaradıcılığı**

Dövrünün seçilmiş ziyalılarından biri Mirzə Fətəli Axundovla sıx əlaqədə olan Şeyxülislam Əhməd Hüseynzadə Azərbaycan xalqının inkişafı və tərəqqisi uğrunda səmərəli işlər görmüşdür. O, M.F.Axundovla birlikdə Qori Müəllimlər Seminariyasında Azərbaycan şöbəsinin açılmasında yaxından iştirak etmiş, islamşünas alim olmaqla yanaşı, dünyəvi elmlərə dair bir neçə dərsliklər yazmışdır. Şeyxülislam Əhməd Hüseynzadə dini əsərləri ilə yanaşı, "Dilguşə", "Tərbiətul-ətfal", "Muəllimul-ətfal-fi-təriqe təlime ətfal", Azərbaycan tarixindən və ədəbiyyatından bəhs edən "Bəsaul nas-fi-məmləkətul Qafqaz" və "Tarixi-ədəbiyyayiti-türk" adlı əsərlərin müəllifi kimi də məşhur idi. Bu əsərlərin bəziləri – "Dilguşə" ("Ürək açan", 1870), "Tərbiətul-ətfal" ("Uşaqların tərbiyəsi" 1870), ("Muəllimul-ətfal-fi-təriqe təlime ətfal", 1875) kitabça şəklində Tiflisdə litoqrafiya üsulu ilə çap edilmişdir. AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılan tamamlanmamış əsəri – "Muəllimul-ətfal-fi-təriqe təlime ətfal" Azərbaycan və fars dillərindədir. "Bəsaul-nas fi-məmləkətul-Qafqaz" adlı çox qiymətli əsəri isə XIX əsrdə A.A.Bakıxanovun "Gülüstani-İrəm" əsərindən sonra Azərbaycan tarixindən bəhs edən ikinci mü-

kəmməl kitab sayılır. Müəllifin bitirə bilmədiyi bu əsər 70 səhifədən ibarətdir və farsca qələmə alınıb.

Şeyxülislam Əhməd Hüseynzadənin ərəb, fars, türk, rus, erməni və gürcü dillərindən etdiyi tərcümələr bütün Qafqazda ən çox oxunan əsərlər sırasına daxil olmuşdur. Təəssüf hissi ilə qeyd etməliyik ki, bu qiymətli və faydalı əsərlər günümüzədək gəlib çatmayıb.

Şeyxülislamın Azərbaycan ədəbiyyatından bəhs edən "Türk ədəbiyyatı tarixi" adlı əsəri də indiyə qədər çap olunmayıb və əlyazma şəklində AMEA-nın Məhəmməd Fizuli adına Əlyazmalar İnstitutunda saxlanılır.

Şeyxülislamın fars və ərəb əlyazmalarının nadir nüsxələri ilə zəngin olan kitabxanası sonralar onun varisləri tərəfindən Bakıda yeni açılan azərbaycanlılara məxsus bir kütləvi kitabxanaya pulsuz hədiyyə edilmişdir.

Təbiət elmlərini, xüsusilə astronomiyanı mükəmməl bilən Şeyxülislam Əhməd Hüseynzadə Qafqazda ilk dəfə olaraq illəri Hicri təqvimindən Miladi təqviminə çevirmək üçün sinxronik təqvim cədvəli hazırlayaraq Tiflisdə çap etdirmişdir.

Şeyxin ziyalı dostları arasında M.F.Axundov və A.A.Bakıxanovla yanaşı, Mirzə Şəfi Vazeh, Həsən bəy Zərdabi, Seyid Əzim Şirvani, həmçinin digər görkəmli elm və ədəbiyyat xadimlərinin adlarını görmək mümkündür. Qasım bəy Zakir özü və oğlanları sürgün edilərkən dövrünün bir çox rütbəli və adlı-sanlı adamları ilə yanaşı, Şeyxülislam Əhməd Hüseynzadəyə də çar hökumətinə məktub yazaraq müraciət etmişdir. Buna əsasən Qasım bəy Zakirə yardım edən Əhməd Hüseynzadə onun həbsdən azad olunmasına köməklik göstərmişdir.

1878-ci ildə müəllimlik vəzifəsindən kənarlaşdırılan Seyid Əzim Şirvani məhz Şeyxülislam Əhməd Hüseynzadənin səyləri nəticəsində yenidən öz vəzifəsinə qaytarılmışdır. Buna qarşılıq olaraq S.Ə.Şiravani Əhməd Hüseynzadə Səlyaniyə qəsidələrindən birini həsr etmişdir. Bu qəsidə 1897-ci ildə, yəni şeyxin vəfatından on il sonra Təbrizdə S. Ə. Şirvaninin daş basmaxanasında nəşr olunan "Divan"ının birinci hissəsində çap olunub.

1875-ci ildə "Əkinçi" qəzetinin işıq üzü görməsində böyük əməyi olan Həsən bəy Zərdabi qəzetin səhifələrində tez-tez şeyxülislama müraciət edər, ondan sitatlar gətirərdi.

Məşhur alman qafqazşünası A.Berje ilə görüşən Şeyxülislam Əhməd Hüseynzadə ona M.Ş.Vazehin fars dilində yazılmış əsərlərindən bir neçə nümunə təqdim etmiş və nəticədə bu əsərlərdən bəziləri 1870-ci ildə Almaniya Şərqşünaslıq Cəmiyyətinin məcmusunda çap olunmuşdur.

Şeyxülislam Əhməd Hüseynzadə ilə əməkdaşlıq edən M.F.Axundov məktublarının birində onun haqqında belə yazır: "Qeyd etdiyim şəxs yüksək dostum, Qafqazın Şeyxülislamı Axund Molla Əhməd Hüseynzadədir. Müxtəlif elm və fənlər sahəsində - astronomiya, coğrafiya, riyaziyyat, təbiət, tarix, hikmət və xüsusilə fiqh elmi sahəsində bütün Qafqaz ölkəsində şeyxülislamın tayı-bərabəri yoxdur. Bununla belə, o, filosof təbiətli və liberal məsləkli bir adamdır".[34] M.F.Axundovla yaxınlığı və dostluğu nəticəsində Şeyxülislam Əhməd Hüseynzadə bəzi mütərəqqi fikirləri müdafiə edərək ədibin bir neçə arzu və tədbirlərinin həyata keçirilməsi uğrunda çalışmışdır.

Regionda yaşayan müsəlmanların ali dini təhsil almasına çalışan Şeyxülislam Əhməd Hüseynzadə xüsusi məktəb yaratmaq üçün var qüvvəsi ilə çalışırdı. Bu məqsədlə dini tədris müəssisəsinin zəruri olduğuna Qafqaz canişini, Knyaz Mixail Romanovu inandıra bilən Əhməd Hüseynzadə bu tədris müəssisəsinin quruluşu və maliyyə məsələləri ilə əlaqədar tərtib etdiyi layihənin Dövlət Şurasında müzakirəyə çıxarılmasına nail olmuşdu. Lakin layihə Şuranın bəzi üzvlərinin, o cümlədən ober-prokuror K.P.Pobedonostsevin irəli sürdüyü fikirlərə və müdaxilələrə görə təsdiqlənməmişdir.

Sonralar şeyxülislamın bu arzusunu həyata keçirmək istəyən nəvəsi Əli bəy Hüseynzadə Peterburqda 250 min manata aldığı torpaq sahəsində məscid tikmək və ibadət evinin yanında ali ruhani mədrəsəsi açmaq istəmişdir. Lakin o da bu ideyanı həyata keçirə bilməmişdir.

---

[34] Həmin mənbə, səh. 94.

Tarix boyu şeyxülislamların arzusu olan ali ruhani mədrəsə açmaq ideyasını sonuncu Şeyxülislam Allahşükür Paşazadə həzrətləri 1990-cı ildə həyata keçirmişdir.

Şeyxülislam Əhməd Hüseynzadənin irsini davam etdirən oğlu Molla Hüseyn dövrünün ən görkəmli ziyalısı kimi tanınmışdır. Nəvəsi Əli bəy Hüseynzadə Səlyani isə 1918-ci ildə Şərqdə ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcılarından biri olmuşdur.

## Şeyxülislam Axund Mirzə Həsən Tahirzadə

Yaşadığı illər 1837-1893,
şeyxülislamlıq müddəti 1885-1893

XIX əsrin 70-ci illərindən sonrakı dövrdə Azərbaycanda kapitalist münasibətlərinin inkişaf etdiyi, milli burjuaziyanın formalaşdığı, milli mətbuatın meydana gəldiyi, ədəbiyyatda milli-demokratik ideyaların yayıldığı, fəlsəfi-tarixi əsərlərin ortaya çıxdığı, milli-demokratik hərəkatın ideoloji əsaslarının yarandığı bir dövrdə yaşayıb-yaradan Azərbaycanın maarif, elm, ictimai və din xadimlərindən biri də Şeyxülislam Axund Mirzə Həsən Tahirzadə olmuşdur.

XIX əsrdə yaşamış Axund Mirzə Həsən Tahirzadə dövrünün qabaqcıl maarifçisi, elm və din xadimi idi. Şərq və Avropa mədəniyyətinə mükəmməl bələd olan alimin adı bütün Qafqazda hörmətlə çəkilərdi.

Mirzə Həsən Tahirzadə 1837-ci ildə Şuşada anadan olub, ilk təhsilini ailədə, sonra isə Şuşa qəza məktəbində alıb. Elm və maarif həvəskarı olan Mirzə Həsən ali ruhani təhsili almaq üçün Təbrizə göndərilib, burada ərəb, fars, tatar və türk dillərinə yiyələnib. Təhsilini başa vurandan sonra ona dini məktəb açmağa icazə verilib. O, məktəbin müdiri və müəllimi kimi geniş fəaliyyət göstərib. Bir müddətdən sonra "Axund" rütbəsi alan Mirzə Həsən vətənə qayıdıb və Cəbrayıl qəzasının Qarğabazar kəndində məktəb açaraq dərs deyib.

Din xadimlərinin Türkiyə və İranla əlaqələr qurmasından narahat olan çar Rusiyası onları öz tərəfinə çəkmək məqsədi ilə Rusiyaya dəvət edərək orden və medallarla təltif edirdi. Buna təşəbbüs göstərən alim və ülənmalar həm özlərini, həm də buna imkanı olmayan soydaşlarını repressiya və təzyiqlərdən qoruyurdular.

Avropa mədəniyyətini əxz etmək üçün 1878-ci ilin mart ayının 31-də Peterburq Universitetinin rektoruna ərizə ilə müraciət edən Mirzə Həsən Tahirzadə səs çoxluğu ilə Şərq fakültəsinin Fars dili və ədəbiyyatı kafedrasına fars dili müəllimi vəzifəsinə təyin edilir. Bir qədər sonra şəxsən çarı müşayiət edən mühafizə korpusuna ştatla molla təyin edilən Mirzə Həsən Tahirzadə bu vəzifəni icra etməklə yanaşı, rus ədəbiyyatı ilə də yaxından tanış olur. Daha sonra o, fransız dilini də öyrənib rus və fransız ədəbiyyatının ən yaxşı nümunələrini oxuyaraq Azərbaycan türkcəsinə tərcümələr etməyə başlayır.

1879-cu ildə xəstəliyi ilə əlaqədar Peterburq Universitetindən ayrılaraq Şuşaya qayıdan Axund Mirzə Həsən Tahirzadə Tiflisdə yerləşən Qafqaz Müsəlmanları İdarəsinə yüksək vəzifələrdən birinə təyin edilir. Bir il sonra Gəncə quberniyasının Şuşa, Zəngəzur, Cavanşir qəzalarının qazısı və Şuşa məclisinin sədri seçilir.

Tutduğu vəzifələrdə özünü doğruldan və önünə çıxan çətinliklərin öhdəsindən məharətlə gələn Axund Mirzə Həsən Tahirzadə çar hökuməti tərəfindən 1885-ci ildə Qafqazın şeyxülislamı və Şiə Ruhani İdarəsinin sədri təyin edilir. Ömrünün sonunadək bu vəzifəni icra edən Axund Mirzə Həsən Tahirzadə xalqının qayğısına qalır, Tiflisə köçdükdən sonra isə rus və Azərbaycan dili tədris olunan yeganə ibtidai məktəbi himayə edir.

Azərbaycan dilini təbliğ etmək və bu dili öyrənmək istəyən ruslara yardım etmək məqsədi ilə Şeyxülislam Mirzə Həsən Tahirzadə tərəfindən 1887-ci ildə "Samouçitel tatarskoqo yazıka, ili rukavodstvo" adlı dərslik hazırlanır. Lakin 6 hissədən və 398 səhifədən ibarət olan bu əsər naməlum səbəblərə görə nəşr olunmamışdır.

Kimliyindən asılı olmayaraq Qafqaz, İran və Türkiyədən olan əlsiz-ayaqsızlara, kimsəsizlərə arxa olan Axund Mirzə Həsən Tahirzadə, eyni zamanda xəstələrə də pulsuz-parasız dərmanlar paylayırdı.

Dövrünün görkəmli alim, maarifçi və ictimai xadimlərindən olan Şeyxülislam Axund Mirzə Həsən Tahirzadə 1893-cü il iyunun 21-də Tiflisdə vəfat etmiş və müsəlman qəbiristanlığında dəfn edilmişdir.

## Şeyxülislam Axund Əbdüssəlam Axundzadə

Yaşadığı illər 1843-1907,
şeyxülislamlıq müddəti 1895-1907

1843-cü ildə Salyan şəhərində anadan olan Əbdüssəlam Axundzadə ərəb, fars və türk dillərini atasından öyrənmişdir. On iki yaşında olarkən vəfat edən atası özündən sonra oğluna miras olaraq zəngin kitabxana buraxır. Elm və təhsilə xüsusi maraq göstərən Əbdüssəlam Axundzadə on səkkiz yaşına çatdıqda artıq bir neçə elmə mükəmməl şəkildə yiyələnmişdi.

1861-ci ildə anasının məsləhəti ilə Tiflisə gedən Əbdüssəlam Axundzadə həmyerlisi, Qafqazın Şeyxülislamı Axund Əhməd Hüseynzadə ilə görüşdükdən sonra onun məsləhəti ilə idarənin nəzdindəki mədrəsədə müəllim işləməyə başlayır. Çalışdığı vəzifədə hörmət və nüfuz qazanan Əbdüssəlam Axundzadə 1878-ci ildə Qori Seminariyasına Azərbaycan dili və şəriət müəllimi vəzifəsində işləməyə dəvət edilir. Seminariyada dörd il müddətində ədəbiyyat və şəriətdən dərs deyən Əbdüssəlam Axundzadə xalqımızın maariflənməsi uğrunda əlindən gələni əsirgəməmişdir.

Qori Müəllimlər Seminariyasında müxtəlif millətlərin uşaqları təhsil aldıqlarına və müxtəlif millətlərdən olan müəllimlər bu uşaqlara dərs dediyinə görə Əbdüssəlam Axundzadəyə Qafqaz millətlərinin dillərini, xüsusilə rus dilini öyrənmək üçün əlverişli imkanlar yaranmışdı. Dərs dediyi müddətdə rus dilini

mükəmməl şəkildə öyrənən Əbdüssəlam Axundzadə təkcə Şərq tarixi və ədəbiyyatının deyil, həm də Avropa tarixinin, riyaziyyat, astronomiya, musiqi, fiqh və s. elmlərin bilicisinə çevrildi.

Rus ordusunda çalışan məşhur azərbaycanlı generallar - M.K.Talışinski, Ə.Talışxanov, Ə.Şıxlınski, dövrünün görkəmli ədib və ziyalıları - M.F.Axundov, N.Ə.Qayıbov, F.Köçərli, S.M.Qənizadə və başqaları Əbdüssəlam Axundzadənin ən yaxın dostları idilər. Onlarla tez-tez görüşən Əbdüssəlam Axundzadə müsəlman və rus ziyalıları arasında körpü rolunu oynayırdı.

1893-cü ildə Şeyxülislam Mirzə Həsən Tahirzadənin vəfatından sonra şeyxülislamlıq postuna layiqli bir namizədin seçilməsi lazım idi. Yelizavetpol qəzasından Axund Nağı Qazızadəyə tapşırıldı ki, əgər rus dilini yaxşı öyrənsə, Zaqafqaziya Şiə Ruhani İdarəsinə rəhbər təyin ediləcək. Lakin müsəlmanlar arasında yüksək titul və böyük hörmətə malik olmayan Axund Nağı rus dilini öyrənə bilmədi. Bundan sonra müsəlman alim və ədibləri ilə yanaşı, din xadimləri tərəfindən də Axund Əbdüssəlamın namizədliyi müdafiə olundu.

Nəhayət, 1895-ci ildə rus canişinliyinin ürəyincə olmasa da Axund Əbdüssəlam Axundzadə Qafqaz Müsəlmanları Ruhani İdarəsinə sədr təyin edilir. Bundan bir il sonra Zaqafqaziyanın sünni və şiə müsəlmanlarının siyasi vəziyyəti, dini ibadətlərinin səviyyəsi, xristian dindarlarına münasibət və gələcək dövrlərdə ruhaniliyin təşkili ilə bağlı Qafqaz Baş İdarəsinə böyük həcmli hesabat təqdim edilir. Doqquz hissədən ibarət və Qafqaz sünni müsəlmanlarına aid olan "Tövsiyənamə" adlı sənəddə deyilirdi: "Padşahlar olmasaydı insanların bəziləri digərlərini yeyərdilər. Daim aralarında vuruşmalar və narahatlıqlar olar, bir-birinin mallarını qəsb edib aparar, bir-birlərinin irs və namusuna xələl gətirmiş olardılar".

Qeyd edilən bu sənəd Müfti Hüseyn Qayıbov tərəfindən imzalanmışdı. Regionun şiə müsəlmanlarının rəhbəri, Şeyxülislam Axund Əbdüssəlam Axundzadə tərəfindən imzalanmış digər "Tövsiyənamə" isə əvvəlkindən çox az fərqlənirdi. Hər iki sənəddə xristianlarla müsəlmanların dost və yaxın olmaları

məsləhət görülür, bütün insanların Allah tərəfindən eyni mənşədən yaradıldığı, hamının Adəm peyğəmbərin (ə) və Həvvanın övladları olduğu bildirilirdi. Bundan əlavə, sənəddə "Əlahəzrət imperatora" səcdə etmək, dua oxumaq, çar üsul-idarəsinə hörmətlə yanaşmaq tövsiyə olunurdu. Çarizm dövründə yazılan bu "Tövsiyənamə"ni fəaliyyəti boyunca nəzarətdə olan Şeyxülislam Axund Əbdüssəlam Axundzadə istəməsə də imzalamaqla çar hökumətini özünün imperiyaya sədaqətinə inandıra bilmişdi.[35]

Şeyxülislam Axund Əbdüssəlam Axundzadənin 1907-ci ilə kimi (vəfatına qədər) qüsursuz işlədiyini nəzərə alan çar Rusiyası onun fəaliyyətini III dərəcəli "Stanislav", III və II dərəcəli "Anna" ordenləri ilə qiymətləndirir. İslam təlimini genişləndirdiyinə və uğurlu nəticələrə nail olduğuna görə Axund Əbdüssəlam İran tərəfindən də IV və III dərəcəli "Şiri-Xurşud" ordenləri ilə təltif edilmişdir. 1896-cı ildə çarın tacqoyma mərasimində iştirak edən Şeyxülislam Əbdüssəlam Axundzadə ölkədə İslamın da inkişaf etməsindən ötrü ona xeyir-dua vermişdir.

1905-ci ildə baş verən erməni-müsəlman davasında Axund Əbdüssəlam Axundzadə həm şeyxülislam, həm də sözün əsl mənasında böyük insan kimi bu ədavəti yaradanlara və iki qonşu xalq arasında qırğın salanlara qarşı mübarizəyə başlayır. Hər bir azərbaycanlını səbr və təmkinə çağıran Şeyxülislam Əbdüssəlam Axundzadə erməni ailələri ilə də görüşərək "Daşnaksutyun" partiyasının fəaliyyətini lənətləyir və onları baş verən münaqişələrin səbəbkarları adlandırırdı.

Beləliklə, Şeyxülislam Axund Əbdüssəlam Axundzadənin fəaliyyətinin yalnız dini işlərlə məhdudlaşmadığı, həm də onun milli maraqların ifadəçisi kimi çıxış etdiyi məlum olur. Bütün bunlar Axund Əbdüssəlamın ümummilli ideyalar uğrunda nə qədər fəal mübariz olduğunun bariz sübutudur.

Beşinci Şeyxülislam Axund Əbdüssəlam Axundzadə 1907-ci ildə 64 yaşında Tiflisdə vəfat etmiş və müsəlman qəbiristanlığında dəfn edilmişdir.

---

[35] Həmin mənbə, səh. 103-104.

## Şeyxülislam Axund Əbdüssəlam Axundzadənin elmi yaradıcılığı

Şeyxülislamlıq fəaliyyəti ilə yanaşı, elmi yaradıcılıqla da məşğul olan Axund Əbdüssəlam Axundzadə bir çox elmi əsərlərin müəllifidir. Şeyxin dinə, dilçiliyə, ədəbiyyata, tarixə, təhsil metodikasına dair kitabları vardır. O, "Fars dilinin açarı", "Müqəddəs peyğəmbərlər tarixi", "Qısa qrammatika", "Xətti-təliq və nəstəliq" və başqa qiymətli əsərlərin müəllifidir. Şeyxin peyğəmbərlərin (ə) həyatından bəhs edən "Müqəddəs peyğəmbərlərin tarixi" adlı əsəri 1992-ci ildə AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu tərəfindən çap edilmişdir.

Ötən əsrin əvvəllərində onun "Ən gözəl fikirlər kitabı", "Vəz və nəsihət", "Yəqin etmək kitabının mütaliəsi və oradakı mətləblərin rədd edilməsi", "Hökmlərin başlıcası", "Cəhalət dərdinin dərmanı və təbavi üsulunun şərh və bəyanı", "Tərbiyə kitabı", eləcə də digər kitabları Tiflis, Təbriz və Tehran şəhərlərində müxtəlif vaxtlarda nəfis şəkildə çap edilmişdir.

Rus dilində yazdığı "Müxtəsər sərf" və "Müsibəti-Xosrov-bəy" adlı əsərləri AMEA-nın Əlyazmalar İnstitutunda qorunsa da bu günə qədər çap olunub Azərbaycan oxucularına çatdırılmamışdır.

M.F.Axundovun yeni əlifba ilə bağlı fikirlərini bəyənən Əbdüssəlam Axundzadə oxumağa təzə başlayan uşaqların təlimi üçün "Kitabi-muəllimul-ətfal" əsərini qələmə alır. Onun yeniyetmə və uşaqlar üçün qələmə aldığı "Sərməşq" adlı kitabı gözəl xətlə yazmaq qaydalarına, yazı nümunələrinə və hikmətli sözlərə həsr edilmişdir.

## Şeyxülislam Axund Məhəmmədhəsən Mövlazadə Şəkəvi

Yaşadığı illər 1853-1932,
şeyxülislamlıq müddəti 1907-1909

Zaqafqaziya şeyxülislamları içərisində bu vəzifəni ən az icra etmiş şəxs Şeyxülislam Axund Məhəmmədhəsən Mövlazadə Şəkəvi olmuşdur. Buna baxmayaraq o, ilahiyyat elmləri sahəsində öz sözünü deməyə imkan tapmış, Azərbaycan dilində “Kitabul-bəyan fi təfsiril-Quran” əsərini yazıb nəşr etdirmişdir.

Şeyxülislam Axund Məhəmmədhəsən Mövlazadə Şəkəvi haqqında məlumatlar yalnız son illərdə aparılmış tədqiqatlarda üzə çıxarılmışdır.

Məhəmmədhəsən İsmayıl oğlu Mövlazadə 1853-cü ildə Şəki şəhərinin Gəncəli məhəlləsində anadan olmuşdur. O, əvvəlcə Şəki mollaxanasında, sonra Gəncə mədrəsəsində təhsil almış, bir müddət Gəncə Cümə məscidində mollalıq etdikdən sonra İraqa getmiş və orada ali dini təhsil alaraq vətənə qayıtmışdır.

Qurani-Kərimi mükəmməl öyrənməsi, ərəb, fars, türk və rus dillərini səlis bilməsi onun çoxcəhətli ictimai fəaliyyət göstərməsinə əlverişli yol açmış, tezliklə İslam ziyalısı kimi cəmiyyətdə ad-san qazanmasına imkan vermişdir. Mövlazdənin şəriət qaydalarının izahı ilə bağlı söhbətlərini dinləyənlərin sayı həddən artıq çox olardı. O, belə məclislərdə İslam dininin və mədəniyyətinin mahir təbliğatçısı kimi çıxış edərdi. Dövrünün maarifçilik hərəkatına qoşulmuş Mövlazadə bütün vətən övladlarının təhsil almasına çalışar, bunun üçün Qurani-Kərimdən və hədislərdən iqtibaslar gətirməyi xoşlayardı.

Mövlazadə Şəkəvi 1893-cü ildə Tiflisdəki müsəlman ruhani məktəbində şəriət və fiqhdən dərs demiş, sonralar Cəbrayıl və Gəncə qəzalarının qazısı olmuş, bu vəzifədə fəallığı sayəsində Qafqaz Müsəlmanları Ruhani İdarəsi Rəyasət Heyətinin üzvü seçilmişdir. İki il sonra Tiflis və Kutaisin qazısı seçilən Mövlazadə həmin şəhərlərdə din xadimlərindən imtahan götürən Attestasiya Komissiyasına rəhbərlik etmiş, fəqihliklə, məktəb, mədrəsə,

pir, məscid və ziyarətgahların işlərinə nəzarət etməklə, habelə xeyriyyə işləri ilə məşğul olmuşdur.

Bundan başqa, Mövlazadə Şəkəvi məktəb-mədrəsə işlərində bir çox yeniliklər yaratmış, ziyarətgahların maliyyə vəziyyətini nizama saldığı üçün Qafqaz müsəlmanları arasında böyük nüfuz qazanmışdır.[36]

1907-ci ildə Şeyxülislam Axund Əbdüssəlam Axundzadə vəfat etdikdən sonra Qafqazda bu vəzifəni tutmağa ən layiqli şəxslərdən biri məhz Məhəmmədhəsən Mövlazadə Şəkəvi olmuş, lakin vəziyyətin gərginliyi və axundun şəxsiyyəti uzun müddət onun bu vəzifəyə gətirilməsinə mane olmuşdur.

Nəşr olunmuş mənbələrdə Şeyxülislam Axund Məhəmmədhəsən Mövlazadə Şəkəvinin şəxsiyyəti və yaradıcılığı haqqında ziddiyyətli, dolaşıq fikirlərin yer alması müşahidə olunur. Hər şeydən əvvəl, şeyxülislamlıq vəzifəsindən tez bir vaxtda uzaqlaşdırılması onun şəxsiyyəti haqqında subyektiv fikir irəli sürülməsinə imkan vermişdir. Bu barədə söhbət açan H.Məmmədli haqlı olaraq yazır ki, bir sıra qaynaqlar, xüsusilə də Azərbaycan din xadimlərinin elmi-dini fəaliyyətini öyrənən İran İslam Respublikasının bəzi tədqiqatçıları Məhəmmədhəsən Mövlazadənin sünni cərəyanının hənəfi məzhəbində olduğunu iddia edirlər. Aydındır ki, bütün şeyxülislamlar şiə məzhəbində olmuş, vəzifələrinə görə də Qafqaz şiə müsəlmanlarına rəhbərlik etmişlər. Qafqazın sünni müsəlmanlarına rəhbərlik etmək üçün isə 1823-cü ildən müftilik vəzifəsi təsis edilmiş və müftinin özü sünni təriqətində olmuşdur. Qafqazın şiə müsəlmanlarına rəhbərlik edən Məhəmmədhəsən Mövlazadənin sünni təriqətində olması ilə bağlı heç bir mənbədə məlumat tapa bilmədiyimizdən belə hesab edirik ki, onun haqqında yayılmış bu fikir həqiqətə uyğun deyil. O, şiə təriqətində olmuş və şeyxülislam vəzifəsinə təyin olunarkən bu da əsas sayılan səbəblərdən biri kimi nəzərə alınmışdır.[37]

Həqiqətən, Şəki şəhəri əhalisinin əksəriyyəti sünni məzhəbinə aid olsa da burada yerli sünnilərin "qızılbaş" adlandırdı-

---

[36] Ə.Məmmədov, F.Xalıqov. Şəki. Alim və ziyalılar. səh. 108-109.

[37] Həmin mənbə, səh. 111.

ğı şiələr ayrıca bir məhəllədə yaşayırlar. Müəlliflər şəhərin və buradakı Gəncəli məhəlləsinin yerləşdiyi ərazi barəsində qısa məlumat verəndən sonra yazırlar: "Gəncəli məhəlləsinin digər bir adı "Mövlazadələr"dir (patronim) ki, onların babaları olan Şeyxülislam Məhəmmədhəsən Şəkuyi[38] Quranın məşhur tərcüməçisi və bilicisi kimi tanınmışdır.[39]

Deməli, Məhəmmədhəsən Mövlazadə Şəki "qızılbaşlar" (şiələr) yaşayan Gəncəli məhəlləsində dünyaya gəlmişdir ki, bu da onun məzhəbini sübut edir. Bu məsələ şeyxin vəzifədən uzaqlaşdırılmasına səbəb ola bilməzdi. Görünür, burada onun şəxsiyyətinin hansısa başqa cəhəti rol oynamışdır.

Şəkinin alim və ziyalıları haqqında kitabın tərtibçiləri göstərirlər ki, 1907-ci ildə Qafqaz Müsəlmanları İdarəsinin şeyxülislamı vəfat etdikdən sonra Məhəmmədhəsən Mövlazadə bu vəzifəyə yeganə layiq namizəd olsa da çar Rusiyası Daxili İşlər Nazirliyi onu mütərəqqi ideyalarına görə bu vəzifəyə təyin etmək istəmir. Lakin ziyalıların tələbi ilə 1908-ci ildə o, əvvəlcə şeyxülislam əvəzçisi, ilin ortalarında isə şeyxülislam seçilir. Qafqaz canişinliyinin təqdimatı ilə 1909-cu ildə vəzifədən azad olunur.[40]

Başqa bir yerdə oxuyuruq ki, Məhəmmədhəsən Mövlazadə Şəkəvi öz dövrünün mütərəqqi fikirli, xüsusən də azadlıq və istiqlaliyyət fikirli ruhani alimi olduğu üçün çar üsul-idarəsinin ondan heç xoşu gəlmirdi. 1907-ci ildə Qafqaz Şeyxülislamı Əbdüssəlam Axundzadə vəfat etdiyindən millətin ziyalı təbəqəsi onun bu vəzifəyə keçirilməsini çar üsul-idarəsindən tələb edirdi. Mütərəqqi ideyalarına görə çar Rusiyası onu təsdiq etmək istəmirdi. Ziyalıların tələbi ilə 1908-ci ilin əvvəlində onu bu vəzifəyə təsdiq etsələr də 1909-cu ildə azad edirlər.[41]

H.Manaflı yazır: "Qafqaz müsəlmanlarının hörmət və etimadını qazanması sayəsində Hacı Məhəmmədhəsən Mövlazadə

---

[38] Burada شكوى – "Şəkuyi" oxunuşu səhvdir və ərəb dilini bilməyən tədqiqatçıların sayəsində ortaya çıxmışdır. Əslində "Şəkəvi" kimi oxunmalıdır.

[39] Manaflı Həbibulla. Öyünc və güvənc qaynağı. səh. 217.

[40] əl-Bakuvi Mir Məhəmməd Kərim Mir Cəfər əl-Ələvi əl-Hüseyni əl-Musəvi. Kitabu-kəşfil-həqaiq ən nukətil-ayat vəd-dəqaiq. səh. 43.

[41] Manaflı Həbibulla. Öyünc və güvənc qaynağı. səh. 217.

1908-ci ildə vəfat etmiş şeyxülislamı əvəz edib, sonra isə həmin ali vəzifəyə seçilib. Lakin bəşəri dəyərlər carçısı olan bu parlaq zəka sahibinin şeyxülislam seçilməsi müstəmləkəçilik siyasətinin girovuna çevrilən imperiya hakim dairələrinin maraqlarına heç cürə uyğun gəlmirdi. Məhz bu amil 1909-cu ildə onun həmin vəzifədən uzaqlaşdırılmasına səbəb oldu".[42]

H.Məmmədli göstərir ki, ruhani ziyalılar arasında şeyxşülislam vəzifəsini tutmağa layiq namizədlər Rusiyadakı 1905-ci il inqilabından sonra milli oyanış hərəkatında fəal olduqlarına görə çar üsul-idarəsi tərəfindən izlənilirdi. Mövlazadə də azadlıq və istiqlaliyyət tələblərini ön sıraya çəkdiyindən hətta yerli jandarmeriyanın qəzəbinə tuş gəlmiş və qəti xəbərdarlıq almışdı.

Buna baxmayaraq Qafqaz müsəlmanlarının təkidi ilə Məhəmmədhəsən Mövlazadə bir müddət şeyxülislamlıq vəzifəsini icra etdikdən sonra 1908-ci ilin əvvəllərində bu vəzifəyə seçilir və rəsmən təsdiqlənir. Lakin onun fəaliyyəti çar rejimini və Qafqaz canişinliyini razı salmır. 1909-cu ildə Məhəmmədhəsən Mövlazadə bu vəzifədən azad edilir və dini məsələlərdən uzaqlaşdırılır. Onun yerinə türkçülük və islamçılıqla bağlı uzun müddət sürgün həyatı keçirmiş Axund Məhəmmədəli Pişnamazzadə təyin olunur. Çar hakimiyyəti inqilabi əhval-ruhiyyənin yayılmasından ruhani idarəsini uzaqlaşdırmaq üçün onun şeyxülislam seçilməsinə imkan vermirdi. Lakin müsəlmanlar arasında xüsusilə böyük hörmətə, nüfuza, təsir imkanlarına malik Pişnamazzadəni idarəyə rəhbər gətirməklə həm əhalini nəzarətdə saxlamaq, həm də axundun özünə nəzarət etmək düşüncəsi ilə qərar verilir və Axund Məhəmmədəli Pişnamazzadə şeyxülislam seçilir. Amma əllərində təsir vasitəsini saxlamaq üçün imperator tərəfindən bu vəzifəyə təsdiqlənmir, sadəcə olaraq bu vəzifənin icraçısı kimi fəaliyyət göstərir.[43] Bu zaman nə Mövlazadənin şeyxülislam əvəzçisi, sonra isə şeyxülislam seçilməsi, onun bu vəzifəyə təsdiq edilməsi və azad edilməsi, nə də Pişnamazzadənin şeyxülislam vəzifəsinin icraçısı kimi fəaliyyət

[42] A.Masse. İslam. səh. 80.
[43] Ə.Məmmədov, F. Xalıqov. Şəki. Alim və ziyalılar. səh. 109-116.

göstərməsi haqqında mətbuatda heç bir məlumata rast gəlmirik. Əksinə, qəzetlər sonuncunun birbaşa şeyxülislam təyin olunması xəbərini yaymışdı.

Beləliklə, ayrı-ayrı müəlliflər Axund Məhəmmədhəsən Mövlazadənin qısa müddətdən sonra şeyxülislamlıq vəzifəsindən azad edilməsinin əsas səbəbini onun şəxsi keyfiyyətləri, milli təfəkkürlü ziyalı olması ilə əlaqələndirirlər.

Lakin etiraf etmək lazımdır ki, hər şeydən öncə, xalqın ziyalıları kimi, çar üsul-idarəsi də şeyxülislam postunda ali təhsil görmüş, öz zəmanəsinə görə intellektual, ziyalı və alim şəxsin olmasını arzulayırdı. Bu uca ruhanilik idarəsinin tarixi göstərir ki, şeyxülislam mənsəbini həmişə məhz bu cür şəxsiyyətlər tutmuş, onlardan hər biri ən əvvəl müsəlmanların mənafeyinə xidmət etmiş, müstəmləkəçilərlə xalq kütlələrinin arasında mümkün qədər asayiş yaratmağa, yeri gəldikdə çarizmin fitnə-fəsadlarının qarşısını almağa çalışmışdır.

Axund Məhəmmədhəsən Mövlazadə məhz belə şəxsiyyətlərdən idi və vəzifəyə gətiriləndək hətta fundamental bir təfsir də nəşr etdirməyə imkan tapmışdı. Onun şəxsiyyətinin alimlik tərəfi bəlli olub hər iki tərəfi razı sala bilərdi. Ancaq mətbuatda axundun nə şeyxülislam təyin edilməsi, nə şeyxülislamlıq fəaliyyəti, nə də vəzifədən azad edilməsi barədə heç bir məlumatın verilməməsi belə düşünməyə əsas verir ki, görünür, Axund Əbdüssəlam Axundzadə vəfat edən vaxtdan Axund Məhəmmədhəsən Mövlazadə Şəkəvi bəlkə də daxili nizamnaməyə uyğun şəkildə avtomatik olaraq şeyxülislamlıq vəzifəsini icra etməyə başlamışdır. Həmin illərin ictimai-siyasi vəziyyətini, ziyalıların şeyxülislamlığın seçki yolu ilə tutulması tələbini nəzərə alan hakimiyyət dairələri isə Axund Məhəmmədhəsən Mövlazadənin bu vəzifəni artıq icra etməkdə olduğu barəsində ictimaiyyəti məlumatlandırmamışdır.

Nəhayət, müəllifin şəxsiyyəti ilə bağlı bir məsələni də qeyd etmək istərdik. Belə ki, bəzi mənbələrdə bu görkəmli şəxsiyyətin dini rütbələrinin natamam verilməsi diqqəti cəlb edir. Məsələn, millət vəkili Hacı Madər Musayev bizim günlərimizdə keçirilən

tədbirlərdən birində söhbətə qoşulub deyir: "Bilirsiniz ki, Hacı Allahşükür Paşazadəyə qədər Qafqazın on bir şeyxülislamı olub". O, bütün şeyxülislamların adlarını bir-bir çəkir və Şəkəvidən başqa hamısının adının əvvəlində "Axund" titulunu işlədir.[44]

R.Hüseynli isə XX əsrin əvvəllərinin məşhur şəriət müəllimlərinin adlarını sadalayarkən bu böyük insanın, mütəfəkkir və alimin adını Axund Hacı Məhəmmədhəsən Şəkuyi kimi təqdim edir.[45]

Sovet hakimiyyəti qurulandan sonra ərəb, fars və türk dillərini, Şərq ədəbiyyatı və tarixini, İslamı dərindən bilən Şeyx Mövlazadə Şəkəvi tərcümələrinə görə də dini işlərdən uzaqlaşdırılır. Bolşevik hökuməti onun zəngin kitabxanası və əlyazmalarını yandırır, lakin əhali arasında çox güclü nüfuza malik olduğuna görə ona toxunmağa cürət etmir.

Alim 1932-ci ildə 79 yaşında öz əcəli ilə Tiflisdə vəfat etmiş və müsəlman qəbiristanlığında dəfn olunmuşdur.[46]

## Şeyxülislam Axund Məhəmmədhəsən Mövlazadə Şəkəvinin elmi yaradıcılığı

Şeyxülislam Axund Hacı Məhəmmədhəsən Mövlazadə Şəkəvi öz yaradıcılığı ilə Azərbaycan elmində özünəməxsus bir iz qoymuşdur. Mənbələrdə onun yaradıcılığı haqqında da dolaşıq məsələlər özünə yer tapmaqdadır.

Müəlliflər göstərirlər ki, 1891-ci ildə Mövlazadənin fars dilində tərtib etdiyi Hicri və Miladi təqvimi nəşr edilmişdir. O, elm və maarifin himayəçisi olmuş, bütün soydaşlarını savadlanmağa çağırmışdır. Onun müsəlmanların təhsil və inkişafı məsələlərindən söhbət açan "Elmin imanları", "İndi isə diqqət və bacarıq" məqalələrində azadlıq və istiqlaliyyət tələbləri də incə ştrixlərlə ön sıraya çəkilmişdir. Məqalələr geniş əks-səda doğurmuş, hətta fransız şərqşünası və dilçisi Lusyon Buvanın "Jurnal Azyatik"də bu məqalələr barədə geniş təhlili nəşr olunmuşdur.

---

[44] Təlafi Əliəkbər. Quranın fəzilətləri. səh. 450.
[45] Xəlilov Aydın. Görkəmli İslam tarixçisi. "İslam dünyası" qəzeti, 185.
[46] Manaflı Həbibulla. Öyünc və güvənc qaynağı. səh. 217.

Şeyxin Azərbaycan dilində yazılmış dördcildlik "Zubdətut-təvarix" əsərində ən qədim dövrlərdən başlamış XX əsrin əvvəllərinədək İslam ölkələrində baş vermiş hadisələrdən bəhs olunur. Dördüncü cildin birinci hissəsində Əmir Teymurun Azərbaycana hərbi yürüşlərindən, Qaraqoyunlu, Ağqoyunlu və Səfəvilər dövlətlərindən, Nadir şahın fəaliyyətindən danışılmışdır. O, ali ruhani xadim kimi tarixi faktları şərh etmiş, Şeyx Şamil hərəkatı, 1905-1911-ci illər İran inqilabı və s. haqqında obyektiv məlumat vermişdir.

H.Manaflı yazır ki, Şəkəvi ictimai fikir və elm tariximizə Quranın dilimizə tərcüməçisi, dəyərli "Tarixi-müqəddəs ənbiya əhvalatı" (Tiflis, 1913) kitabının müəllifi, Əmirəl-möminin Əlinin (ə) Misir hakimi Malik Əştərə yazdığı əqdnamənin (Tiflis, 1910), Nəsuh Həsənin ikicildlik "Tərcümeyi-töhfeyi-Nəsuhiyyə fi əhvali-kurətil-ərziyyə və hiyə coğrafiyə ümumiyyətud-duvəlil-aləm" (Bakı, 1904) əsərlərinin tərcüməçisi kimi daxil olmuşdur. Bu əsərlər o zaman ictimai fikrin inkişafına mühüm təsir göstərmişdir. Çarizmin milli şüurun hər hansı təzahürünü top-tüfənglə qarşıladığı bir dövrdə belə əsərləri cəmiyyətin diqqət mərkəzinə çıxarmaq əsl zəka qəhrəmanlığı idi.[47]

Araşdırmalar göstərmişdir ki, əslində həmin əsərlərin heç də hamısı Şeyxülislam Məhəmmədhəsən Mövlazadə Şəkəviyə aid deyildir. R. Hüseynli özünün "Azərbaycan ruhaniliyi" monoqrafiyasında "Zubdətud-təvarix" əsərinin Şeyxülislam Mövlazadə Şəkəvi tərəfindən deyil, Hacı Şeyx Həsən Mollazadə Gəncəvi tərəfindən yazılaraq 1905-1913-cü illərdə Tiflisdə nəşr olunduğunu göstərir.[48] Məsələ burasındadır ki, bir sıra müəlliflər həm şəxsiyyətinə, həm ictimai mövqeyinə, həm də yaradıcılığına görə şeyxülislamı dövrün başqa bir alimi Hacı Şeyx Həsən Mollazadə Gəncəvi ilə qarışıq salmışlar.

H.Manaflı özünün Şəki tarixinə aid monoqrafiyasında hansı əsasa görə isə Hacı Şeyx Həsən Mollazadə Gəncəvini (1853-1932) "şeyxülislam" kimi təqdim edir və yazır: "Şəkinin Gən-

---

[47] A. Masse. İslam. səh. 77.

[48] Xəlilov Aydın. Görkəmli İslam tarixçisi. "İslam dünyası" qəzeti, 185.

cəli məhəlləsində dünyaya göz açdığına görə özünə Gəncəvi təxəllüsü götürmüşdür".

Şübhəsiz ki, müəlliflərin çoxu Hacı Şeyx Həsən Mollazadə Gəncəvi və Gəncəli məhəlləsində anadan olmuş Şeyxülislam Hacı Məhəmmədhəsən Mövlazadənin adları arasında oxşarlığı qarışdırmışlar. Tədqiqatçı A.Xəlilov bu barədə yazır ki, XIX əsrin sonu – XX əsrin əvvəllərində tarixşünaslıq və islamşünaslıq elmləri sayəsində yaradılmış əsərlərin milli elm və mədəniyyətimizdə xüsusi yeri vardır. Bu sahədə fəaliyyət göstərən maarifçi tarixşünas alimlərimizdən biri də Hacı Şeyx Həsən Mollazadə Gəncəvi (1860-1930)[49] olmuşdur. Bağdadda ali dini təhsil alan Mollazadə Gəncəvi tarixşünaslıq və islamşünaslığa dair bir sıra əsərlər yazıb-yaratmış, əsərləri Gəncədə Əbilov, Haqverdiyev və Həsənzadə mətbəələrində, Bakıda Orucov qardaşlarının mətbəəsində, Tiflisdə isə "Qeyrət" mətbəəsində çap edilmişdir.[50]

1960-cı ildə çap olunmuş "XIX əsrdə və XX əsrin əvvəllərində Azərbaycanda tarix elminin inkişafı" adlı əsərin müəllifləri Ə.N.Quliyev, İ.M.Həsənov və İ.V.Striqunov yazırlar ki, Azərbaycan tarixçilərinin yuxarıda təsvir edilən qrupunun digər nümayəndəsi Hacı Şeyx Həsən Mollazadə Gəncəvi idi. O, 1853-ci ildə Nuxada anadan olmuş və Gəncə şəhərində ruhani təhsili almışdı. Sonralar Mollazadə Cəbrayıl və Tiflis qəzalarında qazı, Zaqafqaziya Şiə Ruhani İdarəsi Rəyasət Heyətinin üzvü olmuş, şeyxülislam və s. vəzifələrdə çalışmışdır.[51]

Fikrimizcə, müəlliflərin qeyd etdiyi ali ruhani vəzifələrində Hacı Şeyx Həsən Mollazadə Gəncəvi yox, Axund Hacı Məhəmmədhəsən İsmayıl oğlu Mövlazadə işləmişdir. Bu fikri müəlliflərin göstərdikləri mənbə də (Azərb. MDTA, f. 290, siyahı 240-8, iş 4151, v. 16-21; siyahı 990-10, iş 6128, v. 1-6)

---

[49] Həm Mövlazadənin, həm də Mollazadənin doğum-ölüm tarixlərinə diqqət yetirməli.

[50] Görünür, Şeyxülislam Mövlazadənin də Bağdadda ali təhsil alması, bir müddət Gəncədə yaşaması və işləməsi, əsərlərinin "Qeyrət" mətbəəsində nəşr edilməsi bu dolaşıqlığın meydana çıxmasında rol oynamışdır.

[51] Göstərilən əsər, səh. 189.

təsdiq edir. Çünki qeyd olunan mənbədə Axund Hacı Məhəmmədhəsən Mövlazadənin fəaliyyətindən bəhs olunur. Lakin nədənsə müəlliflər Mövlazadəni Mollazadə ilə səhv salmışlar. Bu qəbildən səhv fikirlər M.İsmayılovun "Şəki" (Bakı-1982, səh. 108-109) kitabında və Əbdürrəhim Abdullayevin "Şəkinin şairləri" ("Ədəbiyyat və incəsənət" qəzeti-1989, 11 dekabr) adlı məqaləsində də təkrar olunmuşdur. Adları çəkilən mənbələrə əsaslanan müxbir Gülməmməd Məmmədzadə də H.Mollazadə haqqında bəhs etmişdir. O, "İslam" qəzetində çap etdirdiyi "İlahiyyatçı alim" adlı məqaləsində (1990-cı il, 20 dekabr) Axund Hacı Məhəmmədhəsən İsmayıl oğlu Mövlazadə Şəkəvidən bəhs edərkən Hacı Şeyx Həsən Mollazadəyə məxsus adlarını çəkdiyimiz əsərləri də onun adına yazır. Həsən Nəsrudan tərcümə etdiyi və müsəlmanların arasında məccani yayılmaq üçün Hacı Zeynalabdin Tağıyevin vəsaiti hesabına iki cilddə çap olunmuş "Tərcümeyi-Töhfeyi-Nəsruhiyyə fi əhvali-məmalikil-kürətil-ərziyyə və şiyə coğrafiyə ümumiyyətud-duvəlul-aləm", iki cilddə "Kitabul-bəyan fi təfsiril-Quran" və peyğəmbərlərin (ə) həyat və fəaliyyətinə həsr edilmiş "Tarixi müqəddəsi Ənbiya əhvalatı" adlı əsərləri olmuşdur. Adları çəkilən digər əsərlər Hacı Şeyx Həsən Mollazadənin qələminin məhsuludur.[52]

Göründüyü kimi, Şeyxülislam Mövlazadə Şəkəvi öz dövrünə görə kifayət qədər zəngin elmi işlər yazıb nəşr etdirməyə müvəffəq olmuşdur. Bu əsərlər həm də müəllifin şəxsiyyəti və məsləki haqqında söz deməyə imkan verir. Bununla yanaşı, müəllifin ən böyük əsəri olan "Kitabul-bəyan fi təfsiril-Quran" təkcə onun yaradıcılığı üçün deyil, bütövlükdə Azərbaycan ilahiyyat elmi üçün mühüm əhəmiyyət kəsb edir.

Məlum olduğu kimi, Qurani-Kərimi təfsir etmək üçün ərəb dilini, həmçinin Quranın sinonimlərinin mənasını bilmək, ayələrinin şəni-nüzuluna müraciət etmək, İslam tarixini, peyğəmbərlərin (ə) tarixini və Quranın nazil olduğu mühitin tarixini bilmək, Quranın bütün ayələrinin həmahəngliyinə diqqətlə

[52] Xoyi Abbas, Fəridəni Məşayex. Müsəlmanların böyük öndəri. İmam Cəfər Sadiq (ə). "Cahan" jurnalı. №1, 1997, səh. 28.

yanaşmaq, Məkkə və Mədinə ayələrini tanımaq, hər bir surənin məqsədinə tam nəzər salmaq və onun əsas məqsədinə tam diqqət yetirmək, Quranın üslubu və bəyan xüsusiyyətlərini bilmək lazımdır.[53] Şeyxülislam Mövlazadə Şəkəvi bütün bu sahələrə xiridar olan alim kimi tanınmış və buna görə də XIX əsrin sonlarından Quranın təfsiri üzərində işləməyə başlamışdır.

Bəllidir ki, Azərbaycan dilində Quranın ilk təfsiri Mir Məhəmmədkərim ağa tərəfindən yazılmışdır. Bundan sonra keçən çox qısa bir müddət ərzində (cəmi iki il sonra) Mövlazadə Şəkəvinin əsərinin nəşr olunması sübut edir ki, şeyxülislam özünün bu təfsirini Mir Məhəmmədkərim ağa ilə demək olar ki, eyni zamanda yazmağa başlamışdır. Bu barədə Şeyxülislam Allahşükür Paşazadə həzrətləri yazır: "Hələ XX əsrin əvvəllərində Qurani-Kərim ilk dəfə olaraq Azərbaycan dilinə tərcümə edilmişdir. Bakı qazısı, o dövrün tanınmış ilahiyyatçısı Mir Məhəmmədkərim ağa 1904-1906-cı illərdə "Kəşfül-həqaiq ən nikətil-ayat vəd-dəqaiq" əsərini yazır. Qurani-Kərimin təfsiri və tərcüməsinə həsr edilmiş bu əsərdə Quranın mənaları o dövrdə ən geniş yayılmış və məqbul sayılan ilahiyyat bilikləri səviyyəsində, habelə zamanın ruhuna uyğun şəkildə açıqlanmış və oxuculara çatdırılmışdır.

Bir qədər sonra, 1908-ci ildə isə Şeyxülislam Məhəmmədhəsən Mövlazadə Şəkəvi həzrətləri Tiflisdə öz təfsir tərcüməsini çap etdirmişdir. Hər şeydən əvvəl deyək ki, bu əsərlərin nəşri arasında zaman fasiləsi bir o qədər böyük olmasa da müəlliflər tamamilə müstəqil olmağa çalışmış, Qurani-Kərimin təfsiri və tərcüməsi işində çox zəruri sayılan varislik prinsipinə kifayət qədər əhəmiyyət verməmişlər. Doğrudur, müəlliflərin istifadə etdikləri məxəzlərin bir çoxu eyni məxəzlər olduğundan mübarək Quran ayələrinin təfsiri və tərcüməsində müəyyən yaxınlıq hiss olunur. Lakin Məhəmmədəsən Mövlazadə Şəkəvi həzrətləri Mir Məhəmmədkərim ağadan qətiyyən təsirlənməmiş, bəlkə də onun tərcüməsindən heç istifadə etməmişdir. İkincisi, hər iki tərcümənin dili ağırdır, tərcümələrdə o dövr üçün, yəqin ki, ay-

[53] M.M.Seyidzadə. İslamda Həccin tarixi-mədəni və sosial-siyasi rolu. səh. 11-17.

dın və anlaşıqlı olan, amma bu gün qəliz və qəribə səslənən ərəb və fars ifadələri tez-tez işlədilir, bu isə həmin tərcümələri müasir oxucu üçün bəzən anlaşılmaz edir”.[54]

Bəzi tədqiqatçılar alimin “Kitabul-bəyan fi təfsiril-Quran” əsərini tərcümə adlandırırlar. Müəllif özü də əsərin 1908-ci ildəki ilk nəşrində özünü mütərcim kimi təqdim etmiş[55], 2001-ci il Bakı nəşrində də “mütərcim” sözü olduğu kimi saxlanmışdır.

Məsələ burasındadır ki, Tiflis nəşri həyata keçirilən dövrdə ilahiyyat elmində “tərcümə” və “təfsir” terminləri hələ öz yerini dəqiqləşdirməmiş, paralel şəkildə işlədilmişdir. Halbuki bizim günlərimizdə bu iki anlayış bir-birindən seçilir. Yeni nəşrdə əsərin adındakı “təfsir” sözünə istinad etmək olardı. Deməli, əslində “Kitabul-bəyan fi təfsiril-Quran” əsəri tərcümə deyil, təfsir, Mövlazadə Şəkəvi isə “mütərcim” deyil, müfəssirdir.

Bəzən Mir Məhəmmədkərim ağanın “Kəşful-həqayiq”ini və Şeyxülislam Məhəmmədhəsən Mövlazadənin “Kitabul-bəyan”ını “tərcümə-təfsir” termini ilə əlaqələndirirlər. Bəs tərcümə-təfsir nə deməkdir?

Qurani-Kərimin tərcüməsi ilə bağlı əsrlər boyu mübahisəli fikirlər irəli sürülmüş və hətta onun başqa dillərə çevrilməsi qadağan da olunmuşdu. Bu haqda professor Süleyman Ataş yazır: “Ulu Allah dəfələrlə xatırladır: ***“Biz onu ərəbcə bir Quran olaraq endirdik ki, anlayasınız”***[56]. Allah kəlamı ərəb soyundan çıxan bir Peyğəmbər (s) aracılığı ilə və ilk olaraq ərəb toplumundan oluşan bir çevrəyə endiyindən onların anlamaları üçün ərəb dilində endirilmişdir. Fəqət, Həzrət Peyğəmbər (s) yalnız ərəblərə deyil, bütün insanlığa müjdələyici və uyarıcı olaraq göndərilmişdir. Belə olduğuna görə onu yalnız ərəblərin oxuyub anlaması yetməz. Digər insanların da onu oxuyub anlamaları gərəkdir. Qurani-Kərim Allahın insanlığa mesajıdır. Bu mesaj-

[54] Şeyxülislam Allahşükür Paşazadə. Qurani-Kərimin təfsiri və tərcüməsinin metodoloji əsasları. İslam araşdırmaları, səh. 261-262.

[55] Şeyxülislam Məhəmmədhəsən Mövlazadə Şəkəvi. Kitabul-bəyan fi təfsiril-Quran. səh. 3.

[56] “Yusif” surəsi, ayə. 2.

dakı əmirlərin yerinə yetirilə bilməsi üçün anlaşılması lazımdır. Mesajını anlamaq üçün də ərəbcə bilmək lazımdır. Hər fərdin ərəbcə bilməsi və öyrənməsi nə istənə bilər, nə də mümkündür. O halda Qurani-Kərimin anlamının başqa dillərə çevrilməsi lazımdır. Burada tərcümənin zərurəti ortaya çıxmaqdadır".[57]

Bunu əldə əsas tutaraq "Qurani-Kərim qədimdən bəri türk və fars dillərinə tərcümə edilmişdir. Quranın elm aləminə məlum olan ilk türkcə tərcüməsi XI yüzilliyə aiddir.

Cığatay ləhcəsində olduğu güman edilən bu tərcümənin bir nüsxəsi Leninqrad Şərqşünaslıq İnstitutunun kitabxanasında, digər nüsxəsi isə Mançesterdəki Rinaldz kitabxanasında saxlanılır.

Allah kəlamının oğuz ləhcəsində olan natamam bir tərcüməsi Britaniya muzeyində, 1338-ci ildə Elxanilər üçün həmin ləhcədə Şirazda yazılmış başqa bir nüsxəsi isə Türkiyədədir. Hazırda türk dilində Quranın yüzə yaxın tərcüməsi və təfsiri mövcuddur.[58]

Lakin belə terminlərin dəqiqləşdirilməsi də vacibdir, çünki "tərcümə", "təfsir" və "tərcümə-təfsir" anlayışları bir-birindən fərqlənir. "Tərcümə bir sözü bir dildən başqa bir dilə nəql etmək deməkdir. Bir sözü bir dildən başqa bir dilə nəql edərkən əsl sözün bütün özəlliklərini ifadə etməyə diqqət və etina göstərmək icabədir. Ədəbi bir sözü, bir şeiri bütün nüansları, bütün ayrıntı və özəllikləri ilə başqa bir dildə axtarmaq çox zordur. Hələ bu söz Allah kəlamı olursa, iş imkansız dönəcək bir duruma gəlir".[59]

Qurani-Kərimin Avropa dillərinə və rus dilinə tərcümələri əsas etibarilə hərfi tərcümə nümunəsidir. İ.Y.Kraçkovski Qurani-Kərimi rus dilinə məhz hərfi tərcümə etməyə çalışmışdır. Lakin təcrübə göstərmişdir ki, Allah kəlamının başqa dillərə sadəcə tərcüməsi mümkün deyildir. Həmin rus aliminin tərcüməsi nə qədər bəyənilsə də qüsurlarla doludur və Qurani-Kərimin orijinalını əks etdirməkdən uzaqdır.[60]

---

[57] Ataş Süleyman. Kurani-Kerim ve yüce meali. səh. 12.

[58] Şahlar Şərifov. Şeyxülislam Məhəmmədhəsən Mövlazadə Şəkəvi və onun "Kitabul-bəyan fi təfsiril-Quran" əsəri. nam. dis. işi, səh. 34.

[59] Həmin mənbə.

[60] Akademik Kraçkovskinin tərcüməsində yalnız لاالهالاالله "Нет божества кроме бога" tövhidinin "Нет бога кроме Аллаха" ("Allahdan başqa Allah yoxdur", yəni

İlahi Kitabı adicə bədii əsəri tərcümə edən kimi çevirmək mümkün olmayan bir işdir. Buna görə də Quranın tərcümələri əslində çox uğursuz iş kimi qiymətləndirilə bilər. "Zira Quran yalnız mənası ilə deyil, kəlmələri yapan hərflərin, kəlmələrin cümlədəki düzəlişi və bu düzəlişdən doğan ahəng ilə bütün olaraq bir möcüzədir... Tərcümə əslin yerini tutan sözdür. Heç bir tərcümə Quranın əslini tutmaz, Quranın bütün ecaz yerlərini yansıtamaz. Çünki Quran vəhydir... Bütün İslam alimləri Quranın eynən tərcüməsinin mümkün olmadığı və tərcüməyə Quran deyilməyəcəyi xüsusunda ittifaq halındadırlar".[61]

Həqiqətən də Qurani-Kərim tərcümədə işlədilən resipient dilin sözlərinin özünü də izah etmədən çevrilə bilməz. Demək, Quranın tərcüməsi anlayışı özü yanlışdır – fiksiyadır. Buna görə də tarixən çevrilmələrə Quranın təfsir-tərcüməsi, yaxud tərcümə-təfsiri demək daha münasibdir. Zənn edirik ki, təfsir-tərcümə zamanı Quranın orijinal, əsl mətninin də verilməsi vacib deyildir. Belə ki, Qurani-Kərimin 1991-ci ildə akademiklər – Z.M.Bünyadov və V.M.Məmmədəliyev tərəfindən Azərbaycan dilinə çevrilmiş mətni məhz tərcümə-təfsir adlandırılmalıdır: burada əsl mətn yoxdur, onun izahlı tərcüməsi vardır.

Mətnin özünü verərək, hər ayənin və ya seçilmiş ifadənin qarşısında tərcümə-təfsirini təqdim etmək üsuluna, fərqləndirmək üçün, türklərdə olduğu kimi, "məal" və ya "məallı təfsir" demək olar. Həm də nəzərə almaq olar ki, türk dünyasında ümumiyyətlə məallı təfsirlər yazılmış və bu termin məşhurlaşmışdır. Məsələn, Elmalılı Məhəmməd Həmdi Yazarın "Haqq dini Quran dili türkcə məallı təfsiri", Fikri Yavuzun "Qurani-Kərim və Məalialisi və Təfsiri" kimi əsərlərində həmin termin işlədilmişdir.[62]

---

"Müsəlmanların Allahından başqa heç bir allah – o cümlədən rusların boqu – yoxdur") şəklində verilməsinə diqqət yetirmək kifayətdir. Bütün səmavi dinlərin əsas postulatı sayılan "Allahdan başqa heç bir ilahi qüvvə yoxdur" anlayışı akademikin interpretasiyasında nədənsə təhrif edilmiş və rusdilli oxucuda islamofobiya meyllərinin yaradılmasına yönəlmişdir.

[61] Şahlar Şərifov. Şeyxülislam Məhəmmədhəsən Mövlazadə Şəkəvi və onun "Kitabul-bəyan fi təfsiril-Quran" əsəri. nam. dis. işi, səh. 35.

[62] Həmin mənbə.

Bu termini qəbul etsək onda Şeyxülislam Məhəmmədhəsən Mövlazadənin "Kitabul-bəyan" əsərinin əslində "məallı təfsir" olduğu haqqında danışmaq olar. Çünki Mövlazadə Şəkəvi də özünün əsərində həm Qurani-Kərimin mətnini ayəbəayə təqdim edir, həm də onların tərcümə-təfsirini verir. Beləliklə, Qurani-Kərim indiyədək başqa dillərdə - 1. təfsir olunmuş, 2. uğursuz tərcümə edilmiş, 3. tərcümə-təfsir edilmiş, 4. məallı təfsir edilmişdir.

"Kitabul-bəyan" həqiqətən "tərcümə-təfsirdir", buna görə də uğurlu əsər kimi qiymətləndirilir, lakin Quranın mətni bütövlükdə təqdim edildiyi üçün ona "məallı təfsir" demək daha düzgündür.

Türkiyəli alim Əli Turqut "müfəssirlərin durum və tutumlarına görə" (daha dəqiq desək, mətnin məzmununa və təfsirin metoduna görə) indiyədək yazılmış təfsirlərin iki qismə bölündüyünü göstərir: rəvayət təfsirləri və dirayət təfsirləri.

Rəvayət təfsirləri ayətlərin yenə Qurandakı ayələrlə, Həzrət Peyğəmbərin (s) və səhabənin sözləri ilə açıqlanmasıdır. Bu cür təfsir başlanğıcda rəvayətlə başlamış, Həzrət Peyğəmbərdən (s) səhabəyə, onlardan da tabiuna intiqal etmişdir. Daha sonra rəvayətlər toplanmış, təfsirlər tədvin edilmişdir.

Təbərinin "Cameul-bəyan", Əbulleys Səmərqəndinin "Təfsir", əl-Vahidinin "əl-Vəciz fi təfsiril-Quranil-əziz", əl-Bəğavinin "Cəalimut-tənzil", İbn Atiyyənin "əl-Muhərrərul-Vəciz", İbn Kəsirin "Təfsirul-Quranil-azim", Siyutinin "əd-Durrul-mənsur", Cəmaləddin Qasiminin "Məhasinut-təvil" təfsirləri və s. rəvayət təfsirlərinə aid edilir. Lakin bu təfsirlərdə uydurma xəbərlərin çoxluğu, israiliyyatın müdaxiləsi və istinadların olmaması[63] onların zəif cəhət kimi qiymətləndirilməsinə səbəb olur və elmi mahiyyətinə xələl gətirir.

Dirayət təfsirləri isə (ərəbcə يةدرا "bilik, elm, məlumatlılıq" deməkdir) "sadəcə rəvayətlə kifayətlənməyib, dil, ədəbiyyat, din və çeşidli bilgilərə dayanılaraq edilən təfsirlərdir. Genişlənən İslam dünyasında ərəb olmayanlara ərəbcənin, dolayısı ilə Qura-

[63] Həmin mənbə, səh. 36; Turqut Ali. Tefsir üsulu ve kaynakları. səh. 236-250.

nın öyrədilməsi ehtiyacı dirayət təfsirlərinin yazılmasına səbəb olmuşdur”.[64]

Fəxrəddin Razinin “Məfatihul-ğeyb” (“Təfsiri-Kəbir”), Qazı Beyzavinin “Ənvarut-tənzil və əsrarut-təvil”, Nəsəfinin “Mədarikut-tənzil və həqayiqut-təvil”, əl-Xazinin “Lubabut-təvil fi məanit-tənzil”, Əbu Həyyanın “əl-Bəşrul-mühit”, Xətib Şirbininin “əs-Siracul-munir”, Əbussəud əfəndinin “İrşadul-aqlis-səlim ila məzayeil-Quranil-Kərim”, əl-Musənnanın “Məcazul-Quran”, Zəməxşərinin “əl-Kəşşaf ən həqiqətit-tənzil”, Əbu Cəfər ət-Tusinin “Təfsiri-Tibyan”, Əbuləli ət-Təbərsinin “Məxməul-bəyan li ulumil-Quran” kimi bir sıra əsərləri dirayət təfsirlərinə nümunə sayılır.[65]

Göründüyü kimi, Şeyxülislam Məhəmmədhəsən Mövlazadə Şəkəvinin “Kitabul-bəyan” təfsirinin qaynaqları da dirayət təfsirləri cərgəsindədir. Deməli, Azərbaycan alimi dirayət təfsirlərinə üstünlük vermiş və onların təsiri altında öz əsərini də bu səpkidə yazmışdır.

Digər tərəfdən, əlimizdə olan bir neçə rəvayət və dirayət təfsirlərinin quruluş və üslubunu müqayisə etdikdə məlum olur ki, rəvayət təfsirlərinin əvvəlində (misal üçün, İbn Kəsirin təfsirində) hədis verilir, ayrı-ayrı ayələr barədə, onların açılışı haqqında səhabələrə və bəzən Peyğəmbərin (s) özünə gedib çıxan fikirlər ağızdan-ağıza keçmə yolu ilə, bu barədə kimin kimdən nə eşitdiyi istinad mənbəəsi təqdim olunmadan sadalanır, sonra müəllifin qənaəti verilir və علم الله “Allah (hamıdan daha çox) bilir” ifadəsi təqdim edilir. Dirayət təfsirlərində, o cümlədən “Kitabul-bəyan”da bu, yoxdur. Şeyxülislam Mövlazadə birbaşa ayənin orijinalını verir, yaxud ayədən bir parçanı (seçilmiş ifadəni) ərəbcə təqdim edir, sonra onun tərcüməsini verib təfsirinə keçir. Bu, dirayət təfsirlərinə xas olan elmi metoddur. Buradan da belə qəti qənaətə gəlirik ki, Şeyxülislam Mövlazadə Şəkəvinin “Kitabul-bəyan” əsəri əsl elmi təfsirdir və özünün metodoloji əsasları, elmi qaynaqlara bağlılığı ilə tarixən yazıl-

[64] Həmin mənbə.
[65] Həmin mənbə, səh. 37; səh. 251-299.

mış yüzlərlə təfsirlər içərisində layiqli yer tutur, aktuallığını itirməmiş bir məxəz kimi bu gün də Azərbaycan elminin inkişafında özünəməxsus rol oynaya biləcək ilahiyyat əsəri kimi qiymətlidir.

Qeyd etmək yerinə düşər ki, hazırda müstəqil Azərbaycanın ali tədris ocaqlarında, şərqşünaslıq və ilahiyyat elmlərinin tədris edildiyi fakültələrdə, dini mədrəsələrdə Şeyxülislam Məhəmmədhəsən Mövlazadə Şəkəvinin "Kitabul-bəyan fi təfsiril-Quran" əsərindən elmi mənbə kimi səmərəli istifadə edilir. Bunun üçün kitabın yalnız dilini müasirləşdirməklə transfoneliterasiya çapını həyata keçirmək lazım idi ki, bu işi də 2001-ci il nəşrində Əli Novruz oğlu Nurməmmədov və İntiqam Vahid oğlu Rüstəmov həyata keçirmiş, lakin təəssüf ki, onun strukturunu dəyişdirərək Qurani-Kərimin orijinal mətnini kitabdan çıxarmışlar. Bununla yeni nəşr artıq məal deyil, tərcümə-təfsir formasını almışdır.

"Kitabul-bəyan" təfsiri bizim günlərimizdə də keçən əsrin əvvəllərində Azərbaycanda oynadığı rolu oynayır. Xalqın dini maarifinin yüksəldilməsi və milli ilahiyyat elminin sonrakı inkişafı üçün onun əhəmiyyəti olduqca böyükdür.[66]

---

[66] Ətraflı məlumat üçün bax: Şahlar Şərifov. Şeyxülislam Məhəmmədhəsən Mövlazadə Şəkəvi və onun "Kitabul-bəyan fi təfsiril-Quran" əsəri. nam. dis işi, səh. 24-38.

## Şeyxülislam Axund Məhəmməd Fərəculla Pişnamazzadə

Yaşadığı illər 1853-1937,
şeyxülislamlıq müddəti 1909-1918



Sayca yeddinci Şeyxülislam Axund Məhəmmədəli Fərəculla oğlu Pişnamazzadə 1853-cü il mayın 15-də Gəncə şəhərində anadan olmuşdur. Ruhani ailəsində dünyaya göz açan Axund Məhəmmədəli Pişnamazzadə ilk təhsilini Gəncə mədrəsəsində aldıqdan sonra ali ruhani təhsil almaq üçün Təbrizə göndərilmişdir. 1883-cü ildə təhsilini başa vurub Tiflisə gəldikdən sonra o, şəhadətnamə almışdır. 1892-ci ildə Gəncə Cümə məscidinə baş molla təyin olunan Məhəmmədəli Pişnamazzadə qısa müddət ərzində savadlı və bacarıqlı ruhani kimi böyük hörmət qazanmış, bir il sonra Tiflis Vilayət Ruhani Məclisinin üzvü seçilmişdir. O, Tiflisdə ruhani xadim kimi tanındıqdan sonra 1895-ci ildə Gəncə Vilayət Ruhani Məclisinin sədri təyin olunmuşdur.

Məhəmmədəli Pişnamazzadə Gəncədə işə başlayan kimi maarif və təhsil sahəsində bir sıra yeniliklər etmişdir. O, köhnə üsulla işləyən məktəbləri bağlamış, yeni tipli məktəblər açmış, Gəncə şəhərində “Məktəbi-xeyriyyə” adlı təhsil ocağının bünövrəsini qoymuşdur. Xeyriyyə məktəbində imkanı olan hər bir uşaq, istər şəhərli, istərsə də kəndli, təhsil ala bilərdi. Xeyriyyə məktəbində dini elmlərlə yanaşı, dünyəvi elmlər də tədris olunurdu. Məktəbdə təbiət, riyaziyyat, tarix elmlərinə üstünlük verildiyindən uşaqlar din xadimlərindən daha çox dünyəvi elmlərin bilicisinə çevrilirdilər. Bu da öz növbəsində şəhər qazısını və Gəncədəki çar məmurlarını narahat edirdi. Çar Rusiyasının siyasətinə uyğun olaraq müsəlman uşaqlarına yalnız din tədris olunmalı, məscidlər üçün

mollalar və mirzələr hazırlanmalı idi. Bütün bunları nəzərə alan şəhərin baş qazısı xeyriyyə məktəbinin fəaliyyətini dayandırdı.

Dünyəvi elmləri bilməyən molla və mirzələri savadsız din xadimləri və bisavad mirzələr adlandıran Məhəmədəli Pişnamazzadə bütün təzyiq və qadağalara baxmayaraq sonrakı illərdə daha on yeni məktəb açmış, gənc oğlan və qızların təhsil almasına böyükköməklik göstərmişdir.

Axund Məhəmmədəlinin mütərəqqi fikirləri və təhsil sistemində dünyəvi elmlərə üstünlük verməsi çar məmurlarının diqqətini çəkirdi. 1890-cı ildə tərəqqipərvər əməlinə və maarifçilik fəaliyyətinə görə təqib olunan Axund Məhəmmədəlinin evində polis tərəfindən axtarış aparılır. Bəhanə olaraq səbəb gətirilir ki, guya Türkiyə və İran hökumətləri ilə əlaqə saxlayan axund Qafqazda Rusiyaya qarşı ixtilaf hazırlayır və hökumətə qarşı əkstəbliğat aparır. Bu yersiz günahlar əsasında Axund Məhəmmədəli Pişnamazzadə və onunla birlikdə 37 nəfər azərbaycanlı ziyalı "qiyama hazırlıq" bəhanəsilə həbs edilir. Axund Məhəmmədəli və üç nəfər üləma Türkistana sürgün olunsalar da iki ildən sonra əfv edilib vətənə qayıdırlar. Sürgün həyatından qayıtdıqdan sonra maarifçilik fəaliyyətini davam etdirən Məhəmmədəli Pişnamazzadə Gəncədə mötəbər şəxslərlə bərabər yenidən mədrəsə tikdirir və onun müdiri olur.

1905-ci ildə Gəncədə "Difai" partiyasının yerli şöbəsi yaradılır. Nəsib bəy Yusifbəyov, Mirzə Məhəmməd Axundov, Ələsgər bəy Xasməmmədov, və başqaları adıçəkilən partiyaya üzv, Axund Məhəmmədəli Pişnamazzadə isə partiyanın Gəncə şöbəsinin sədri seçilir.

Qeyd etmək lazımdır ki, "Difai" partiyası yarandığı ilk gündən erməni qırğınlarına qarşı mübarizədə xüsusi fəallıq göstərirdi. Partiyanın sədri Məhəmmədəli Pişnamazzadə və üzvləri ətraf azərbaycanlıları köməyə və səfərbərliyə çağıraraq erməni məhəllələrinə hücum edirdilər.[67]

1906-cı ildə ikinci dəfə Gəncə vilayətinin qazısı təyin edilən Məhəmmədəli Pişnamazzadə əvvəlki mütərəqqi fəaliyyətini da-

[67] Hüseynqulu Məmmədli. Qafqazda İslam və şeyxülislamlar. səh. 115.

vam etdirərək yenidən çar məmurlarının diqqətini cəlb edir. Bir neçə ay sonra axundun evində yenidən axtarış aparılır və otağında "Difai" partiyasına məxsus olan sənədlər ələ keçir. Bununla əlaqədar olaraq ikinci dəfə həbs olunan Axund Məhəmmədəli Kazana sürgün edilir. Sürgündə olduğu müddətdə də maarifçilik ideyalarından əl çəkməyən Axund Məhəmmədəli Pişnamazzadə Həştərxanda nəşr olunan "Həmiyyət", "Günəş", "Burhani-tərəqqi" kimi qəzetlərdə məqalələrlə çıxış edir, müsəlman qızların təhsilə yiyələnmələrinin vacibliyindən xüsusi söhbətlər açır.

Sürgün vaxtı bitdikdən sonra 1909-cu ildə Tiflisə qayıdan axund eyni ildə Qafqaz Müsəlmanları Şiə Ruhani İdarəsinin üzvü seçilir. Bu vaxt Şeyxülislam Axund Məhəmmədhəsən Mövlazadə Şəkəvi vəzifəsindən istefa vermişdi. Çar Rusiyası müsəlmanlar arasında xüsusi böyük hörmətə, nüfuza, təsir imkanlarına malik Məhəmmədəli Pişnamazzadəni idarəyə rəhbər gətirməklə həm əhalini nəzarətdə saxlamaq, həm də axundun özünə nəzarət etmək düşüncəsi ilə onu Qafqaz Müsəlmanları Ruhani İdarəsinin sədri təyin edir. Lakin əllərində təsir vasitəsini saxlamaq üçün imperator tərəfindən bu vəzifəyə təsdiqlənmir, sadəcə görəvin icraçısı kimi fəaliyyət göstərir.[68]

Axund Məhəmmədəlinin fəaliyyəti müddətində Türkiyə Birinci Dünya müharibəsinə qoşulur və bu müharibədə Rusiyaya qarşı cihad elan edir. Türkiyənin müharibədə iştirak etməsi Azərbaycanda türkçülük və islamçılıq ideyalarını daha da gücləndirir. Azərbaycanlı müsəlman din xadimləri iki səbəbdən Osmanlı Türkiyəsini müdafiə edirdilər:

1. Türkiyə İslam dövləti idi, Azərbaycanın müstəqilliyinin tərəfdarı olmaqla mütərəqqi din xadimlərinin və müsavatçıların mübarizəsini dəstəkləyirdi.

2. Türkiyə çar Rusiyasından fərqli olaraq Azərbaycanda erməni qırğınlarına birmənalı münasibət bəsləyirdi.

Azərbaycanlı müsəlmanların İslam dövlətlərindən biri olan Türkiyəni müdafiə etməsindən narahat olan çar Rusiyası din xadimlərindən istifadə etməyə çalışırdı. Çar məmurları müsəl-

[68] Həmin mənbə, səh. 116.

man din xadimlərini daim nəzarətdə saxlayır, onların atdığı hər addımı izləyirdi. Zor işlətməklə müsəlman din rəhbərlərini cihad və fətvaya qarşı çıxararaq qəzetlərdə müsahibələrini dərc etdirirdilər.

Təsadüfi deyildi ki, Şeyxülislam Axund Məhəmmədəli Pişnamazzadə "Tiflisskiy listok" qəzetinin müxbirinə müsahibəsində demişdi: "Türkiyənin müqəddəs müharibə elan etməsinin müsəlman dünyasında əks-səda oyadacağını düşünmək olmaz. Belə ki, müqəddəs müharibə dini motivlərə görə aparılır; müsəlmanlar din-imana görə təqiblərə məruz qalsalar, onların əmlakları qanunsuz şəkildə müsadirə olunsa, onda hər bir müsəlman onu sıxışdırana qarşı mübarizə aparmalıdır. Rusiyada müsəlmanlar təqib edilmirlər, onlar digər vətəndaşlarla birlikdə bərabərdirlər və qanunların himayəsindədirlər. Qəzavata çağırış bəhanələri haqqında da danışmaq lazım deyil. Müqəddəs müharibə başqa dövlətlərin müsəlman təbəələri arasında tərəfdar tapmayacaqdır".

Müsahibədəki fikirlərə görə elə düşünmək olmaz ki, Məhəmmədəli Pişnamazzadə Azərbaycanın müstəqillik əldə etməsinin əleyhinə olub çar Rusiyasının ağalığını və onun Qafqaz siyasətini dəstəkləyirdi. Şeyxülislam siyasi manevr edərək daha böyük amallar uğrunda mübarizə aparmaq məqsədilə rus məmurlarının istəklərini məcburi ifadə etmişdi. Məhəmmədəli Pişnamazzadədən fərqli olaraq Tiflis qubernatoru bilmirdi ki, şeyxülislam bu müsahibənin müsəlmanlar arasında geniş yayılmayacağını hesablayıb. Birincisi, müsəlman əhali rus dilini bilmirdi, ikincisi isə mətbuatın tirajı və təsir imkanları o səviyyədə deyildi. Bu amilləri əsas götürən şeyxülislam müsahibəsi ilə əslində imperiya məmurlarına jest edir, əvəzində sözlərinin müsəlmanlara çatmayacağını, rus siyasətinin həyata keçməyəcəyini hesablayır və istəyinə də nail olur.[69]

1914-cü ildə Tiflisə gələn Çar II Nikolay həm şiə müsəlmanlarının lideri Şeyxülislam Məhəmmədəli Pişnamazzadə, həm də sünni müsəlmanlarının lideri Müfti Hüseyn Əfəndi Qa-

[69] Həmin mənbə, səh. 117-118.

yıbovla görüşmüş, onların çıxışlarını dinləmiş və onların simasında bütün müsəlmanları salamlamışdı.

Bir il sonra, yəni 1915-ci ilin yanvarın 14-də Daxili İşlər İdarəsinin təqdimatına əsasən İmperator II Nikolay tərəfindən Axund Məhəmmədəli Pişnamazzadə Zaqafqaziya Şiə Ruhani İdarəsinin sədri və Zaqafqaziya şeyxülislamı vəzifəsinə rəsmən təsdiqlənir. Bu vaxta qədər Məhhəmmədəli Pişnamazzadə altı il idi ki, bu vəzifəni əvəzedici olaraq icra edirdi.

Şeyxülislamlıq vəzifəsinə rəsmən təsdiqləndikdən sonra Məhəmmədəli Pişnamazzadə əvvəlki səylərini daha da artırır və müsəlmanların azadlığı uğrunda geniş mübarizəyə başlayır.

Azərbaycan Xalq Cümhuriyyəti yarananda Şeyxülislam Məhəmmədəli Pişnamazzadənin göstərdiyi xidmətlər bir daha sübut edir ki, o, heç vaxt rus imperiyasının istədiyini yerinə yetirməmiş, əksinə, özünə qədərki və özündən sonrakı bütün şeyxülislamlardan fərqli olaraq daha çox qətiyyət və əzmkarlıqla imperiyaya qarşı mübarizə aparmışdır. Bunu şeyxülislamlar içərisində siyasi baxışlarına görə Axund Məhəmmədəli Pişnamazzadənin iki dəfə sürgün həyatı yaşaması da sübut edir.

1915-ci ildə Türkiyənin Ərdəhan və Qars mahallarında gedən döyüşlər nəticəsində hər iki valideynini itirmiş kimsəsiz uşaqların qayğısına qalmaq məqsədi ilə Qafqaz Şeyxülislamı Axund Məhəmmədəli Pişnamazzadənin "Son xəbər" qəzetinin 1915-ci il 7-ci nömrəsində bir elanı dərc olunur. Şeyxülislam müsəlmanlardan xahiş edirdi ki, bu il orucluq bayramında Qafqaz müsəlmanları fitrə-sədəqələrini başqa yerə verməyib ruhani və qazılar vasitəsilə Tiflisə göndərsinlər. Toplanacaq bu fitrə-sədəqələr hesabına Tiflisdə "Yetimlər evi" açılacaq, orada Ərdəhan və Qars döyüşləri nəticəsində hər iki valideynini itirən uşaqlar saxlanılacaq, onlara təlim-tərbiyə veriləcəkdir. Şeyxülislamın təklifi müsəlmanlar tərəfindən razılıqla qarşılanır.

1918-ci il mayın 28-də Tiflisdə Milli Şura Azərbaycan Xalq Cümhuriyyətinin yarandığını elan edir. Müstəqillik elan olunandan dərhal sonra Qafqaz şiə və sünni ruhani idarələri bu şəhərdə yerləşdiyi üçün hər iki idarə öz fəaliyyətini dayandırır. Müstəqil

dövlətlərin yaranması və bu dövlətlər arasında münasibətlərin bir çox hallarda gərgin olması diyarda yaşayan müsəlmanların vahid dini idarədə birləşməsini demək olar ki, mümkünsüz edirdi. Bunu nəzərə alan AXC hökuməti Güney Qafqaz Ruhani İdarəsinin Azərbaycanın müvəqqəti paytaxtı olan Gəncəyə köçürülməsini məqsədəuyğun hesab etdi. Bununla da Gəncədə vahid dini idarənin yaradılması məsələsi gündəmə gəldi.

1918-ci ilin oktyabrında Şeyxülislam Məhəmmədəli Pişnamazzadənin təşəbbüsü ilə həm şiə, həm də sünni məzhəb başçılarının yığıncağı çağırıldı. Bundan bir il qabaq Müfti Hüseyn Qayıbzadə vəfat etmiş və onun vəfatı çar Rusiyasının dağıldığı illərə təsadüf etdiyi üçün yerinə yeni müfti təyin edilməmişdi. Bu vəzifəni Mustafa Əfəndizadə icra edirdi ki, o da ruhani idarənin yığıncağında üzvlər tərəfindən seçilmişdi. 1918-ci ilin 30 oktyabrında Şeyxülislam Məhəmmədəli Pişnamazzadənin imzası ilə hökumətə 367 nömrəli təkliflər məktubu ünvanlanır. Həmin təkliflər 4 bölmədən ibarət idi:

1. Azərbaycan Xalq Cümhuriyyəti hüdudlarında "Məşixət-i İslamiyyə" adı altında ruhani idarəsi təsis edilsin və ona Türkiyədə mövcud olan Məşixət kimi tam müstəqillik verilsin;

2. 7 sentyabr tarixli 311 saylı təqdimatda göstərilən Məşixətin iki sədrindən, hər iki idarənin birləşdirilməsi məqsədi ilə birinə şeyxülislam, digərinə müstəşar, yaxud müşavir adı verilsin;

3. Şeyxülislam iclaslarda iştirak etmək hüququ ilə rəsmən Nazirlər Şurasının üzvü hesab edilsin;

4. Ruhani heyətin komplektləşdirilməsi üçün Məşixətin birbaşa sərəncamına kredit ayrılsın. Sadalanan və digər bu kimi dini məsələlərin həll edilməsi məqsədi ilə bizim də iştirakımızla fövqəladə yığıncaq çağırılsın.[70]

Lakin Şeyxülislam Məhəmmədəli Pişnamazzadənin məktubuna uzun müddət cavab verilmədi. İrəli sürülən təkliflər yalnız 1920-ci ilin martında hökumətin geniş müzakirəsinə çıxarıldı. Artıq Məhəmmədəli Pişnamazzadə çoxdan istefa vermiş və 1918-ci ilin dekabrında Ağa Əlizadə şeyxülislam təyin edilmiş-

[70] Həmin mənbə, səh. 120-121.

di. Beləliklə, Məhəmmədəli Pişnamazzadə başda olmaqla ruhani rəhbərlər bu çətin ideyanın öhdəsindən gələrək onu həyata keçirdilər. Bu, məzhəb ayrılıqlarından istifadə edərək Qafqazda müsəlmanlar arasında düşmənçilik yaratmaq istəyən çarizmin siyasətinə son nöqtə qoydu. Dini rəhbərlərin irəli sürdüyü birgə səylər nəticəsində 1 sentyabr 1918-ci il tarixli birgə qərar ilə hər iki idarə "Məşixət" adlanan vahid bir idarədə birləşdirildi. Bakının azad edilməsindən sonra Məşixət ölkənin paytaxtına köçürüldü. Həmçinin, paytaxtın Gəncədən Bakıya köçməsindən sonra Şeyxülislam Axund Məhəmmədəli Pişnamazzadə xəstəliyi ilə əlaqədar olaraq 1918-ci ilin 10 dekabrında şeyxülislamlıq vəzifəsindən istefa verib Gəncə Cümə məscidində axund kimi fəaliyyət göstərməyə başladı.

1920-ci ilin 28 aprelində Azərbaycanın bolşeviklər tərəfindən işğal edilməsindən sonra ruslar tərəfindən təqiblərə məruz qalan Pişnamazzadə yenidən həbs olunur. Lakin qısa müddət sonra N.Nərimanovun əmr və tələbi ilə azadlığa buraxılan Pişnamazzadə yenidən vəzifəsinə qayıdır. 1925-ci il N.Nərimanovun vəfatından sonra yenidən sorğuya tutulan Məhəmmədəli Pişnamazzadə haqsız yerə incidilir.

Bütün Azərbaycanda olduğu kimi, Gəncənin din xadimləri də çar məmurları tərəfindən təzyiqlərə məruz qalırdılar. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra antisovet təbliğatçıları kimi bu şəhərin din xadimləri – Şeyx Həsən Mollazadə, qardaşı Mirzə Abbas Mollazadə, Firudin bəy Köçərli, Axund Məhərrəm Əfəndi Ağdaşlı, Axund Zərif Əfəndi, ilahiyyat müəllimi Məsumə Musabəyova və bir çox başqaları 1920-ci il iyun ayının 16-da XI rus ordusu tərəfindən Nargin adasına aparılaraq məhkəməsiz, istintaqsız güllələndilər.

Məhəmmədəli Pişnamazzadənin də evində axtarışlar aparıldı, dini kitabları müsadirə edildi və fəaliyyətinə qadağa qoyuldu.

Baş verən hadisələrə, din xadimlərinin heç bir günahı olmadan repressiyalara məruz qalmalarına dözməyən 84 yaşlı Axund Məhəmmədəli Pişnamazzadə, nəhayət 1937-ci ildə vəfat etdi və Gəncədə "İmamzadə" qəbiristanlığında dəfn edildi.

## **Şeyxülislam Axund Ağa Əlizadə**
Yaşadığı illər 1871-1954,
şeyxülislamlıq müddəti 1918-1920; 1944-1954



Onun əsil adı Zeynalabidindir. Ali ruhanilik təhsilini başa vurub vətəninə qayıtdıqdan sonra xalq arasında ona Molla Ağa Axund deyərdilər. O, 1871-ci ildə Bakının Pirşağı kəndində, tanınmış ruhani Axund Molla Cavadın ailəsində dünyaya göz açıb. Atası Axund Hacı Məhəmməd Molla Cavad dövrünün tanınmış din xadimlərindən idi. Axund Molla Cavad dörd oğlunun dördünü də ruhani, üləma kimi görmək istəyirdi. Bu məqsədlə o, Bakı şəhərinə köçür, keçmiş Aşağı Priyutski küçəsində (sonralar Kamo adlanan, hazırda S.Rəhimov) özünə üç mərtəbəli, yaraşıqlı bir bina tikdirir. Qardaşlarından dərin zəkası ilə fərqlənən Zeynalabidini atası mollaxanaya qoyur. Mədrəsə təhsilini başa vurduqdan sonra Zeynalabidin ali ruhani təhsili almaq üçün əvvəlcə Ərəbistana gedir, sonra isə Bağdad əyalətinin Nəcəfül-Əşrəf şəhərində təhsilini davam etdirir. Yaxın Şərqdə yerləşən ali ruhani ocaqlarının müdavimləri ali ruhanilik rütbəsi almaqla yanaşı, xüsusi bir ixtisasa da malik olurdular. Zeynalabidin də ali ruhani olmaqla bərabər, təbabət elmini seçmişdi. O, 1896-cı ildə təhsilini başa vuraraq "Axund" rütbəsi ilə Bakıya qayıdır. Şeyxülislam Axund Əbdüssəlam Axundzadənin və Bakı qazısının vəkaləti ilə Zeynalabidini Təzəpir məscidinə axund təyin edirlər.

Molla Ağa Axund 1899-cu ildən 1927-ci ilə kimi müxtəlif ruhani vəzifələrə seçki yolu ilə seçilib. 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin elan olunmasından sonra hökumətin qarşısında belə bir məsələ durur: Tiflis şəhərində

yerləşən Qafqaz (Zaqafqaziya) Müsəlmanları Ruhani İdarəsi Bakı şəhərinə köçürülməli və 1917-ci ildə ləğv edilmiş şeyxülislamlıq vəzifəsi yenidən təsis olunmalıdır. Beləliklə, 1918-ci ilin əvvəlində Ruhani İdarəsi Bakıya köçürüldü və Axund Molla Ağa Əlizadə ən yüksək ruhani rütbəsi olan şeyxülislamlığa yeganə namizəd oldu. O, eyni zamanda Məvarayi-Qafqaz Müsəlmanları Ruhani İdarəsinin sədri idi.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra din xadimlərinə qarşı hücumlar başlandı. Onları düşmən kimi tamamilə rədd və inkar etməyə başladılar. Yuxarıdan verilən hökmlər nəticəsində ağına-bozuna baxmadan bütün din xadimlərini quruluşa zidd qüvvələr kimi hər yerdən qovur, onlara müftəxor damğası vurur, hətta sinfi düşmən kimi məhv edirdilər. Həmin dövrdə Ağa Axund da hücum və təqiblərə məruz qalırdı. Böyük Vətən müharibəsi illərində (1941-1945) əvvəllər ləğv edilmiş Qafqaz (Zaqafqaziya) Müsəlmanları Ruhani İdarəsi, nəhayət bu müharibənin dəhşətlərinin dinin qüvvəsi ilə unudulmasını başa düşən bir qrup rəhbərin təklifi ilə (Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsi) SSRİ Ali Soveti Rəyasət Həyətinin 14 aprel 1944-cü il tarixli 17 saylı qərarına əsasən 24 ildən sonra yenidən bərpa edildi. 1944-cü il mayın 25-28-də Zaqafqaziya müsəlmanlarının I Qurultayı oldu. Qurultayda Axund Ağa Əlizadə ikinci dəfə Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsinin sədri seçildi və ona yenidən şeyxülislam dini rütbəsi verildi. İdarə sədri öz ata-baba mülkündə (indiki S.Rəhimov küçəsindəki 70 saylı binada) yerləşdirildi. O, həmin vəzifəni ömrünün sonuna - 1954-cü ilə kimi icra etdi.

Şeyxülislamın ən böyük məziyyəti ondan ibarət idi ki, o, dini elmlərlə yanaşı, riyaziyyat, astronomiya, təbabət, tarix və ədəbiyyatı mütaliə edir, əsrin əvvəllərində Cənubi Qafqazda, o cümlədən Azərbaycanda baş verən siyasi hadisələri layiqincə qiymətləndirə bilirdi. 1905-ci ildə baş verən erməni-müsəlman qırğınının əsas günahkarı kimi Bakı çar Rusiyasını ittiham etdi. Şeyxülislam Ağa Əlizadəyə görə bu münaqişəni qəlizləşdirən "Daşnaksutyun" partiyasının ideoloqları və ermənilərin Cənubi

Qafqazdan kənardakı havadarları idi. Baş verən hadisələri götür-qoy edən Ağa Əlizadə insanları əmin-amanlığa çağırır, qırğını dayandırmaq üçün əlindən gələni edir, çıxış yolu kimi hər iki xalqın ziyalılarını və din xadimlərini bu qırğını dayandırmaq üçün qəti addımlar atmağa çağırırdı.

1917-ci ilin fevralında Rusiyada baş verən burjua inqilabı və Romanovlar sülaləsinin (bu sülalə üç yüz ildən artıq idi ki, hakimiyyətdə idi) devrilməsindən sonra Cənubi Qafqaz, o cümlədən Azərbaycan siyasi hadisələrlə dolu qaynar bir həyat yaşamağa başladı. Uzun müddət Rusiya imperiyasının milli və dini zülmünə məruz qalan Azərbaycanın milli-demokratik qüvvələri Bakını siyasi mərkəzə çevirmək üçün Təzəpir məscidi və onun axundu Ağa Əlizadənin xidmətlərindən lazımınca istifadə etdilər.

Müsəlmanların dini birliyini zəiflətmək məqsədilə çar Rusiyası məzhəb ayrı-seçkiliyini şişirdir, şiə və sünniləri bir-birinə qarşı qoyurdu. Mütərəqqi din xadimlərinin, o cümlədən Təzəpir məscidinin axundu Ağa Əlizadənin təşəbbüsü ilə vaxtilə çarizm tərəfindən qızışdırılan ixtilafları aradan qaldırmaq üçün Qafqaz müsəlmanları qurultayının çağırılmasını qərara aldılar. Bu qərar o dövrdə Tiflisdə fəaliyyət göstərən hər iki məzhəbin din rəhbərləri tərəfindən razılıqla qarşılandı. Fevral inqilabından sonra Bakı siyasi və dini mərkəz rolunu oynamağa başladı.

Qafqaz müsəlmanlarının I Qurultayı 1917-ci ilin aprelində Bakıdakı İsmailiyyə binasında öz işinə başladı. Qurultayın işində Azərbaycanın bütün bölgələrindən, Dağıstan, Basarkeçər, Borçalıdan gələn nümayəndələr iştirak edirdi. Qurultay iştirakçıları iki məzhəb arasında mövcud olan ixtilaflara etiraz əlaməti olaraq günorta namazı vaxtı nümayişkaranə şəkildə İsmailiyyədən Təzəpir məscidinə yollandılar. Din xadimləri, eləcə də hər iki məzhəbdən olan yüzlərlə dindar dəstəmaz alaraq məsciddə birgə namaz qıldılar. Vaxtı ilə çarizm tərəfindən qızışdırılan sünni-şiə ixtilafına son qoymaq üçün namazdan sonra şeyxülislamla müfti qucaqlaşıb bir-birini öpdülər və and içdilər ki, bu ədavəti aradan qaldırmağa çalışacaqlar. Qurultayda sünni və şiə

məzhəblərinə parçalanmaya son qoymaq haqqında qərar qəbul olundu. Bakıda həmin dövrdə nəşr olunan qəzetlərdə Təzəpirin axundu Ağa Əlizadənin qurultayın təşkili ilə bağlı fəaliyyətinə xüsusi yer ayrılmışdır.

1915-ci ildə Sarıqamış yaxınlığında 90 min türk əsgərinin ruslar tərəfindən əsir götürülməsindən iki il sonra Şeyxülislam Ağa Əlizadə ilə Təzəpir məscidində görüşən N. Nərimanov ondan xahiş etdi ki, Nargin adasında dözülməz şəraitdə saxlanılan türk əsgər və zabitlərinə kömək etsin. Bundan sonra cümə namazına gələn Axund Ağa Əlizadə əhaliyə din qardaşlarının ağır vəziyyəti haqqında məlumat verdi. Yüzlərlə dindar Təzəpir məscidinə gələrək türk əsgərlərinə ərzaq və pulla yardım etməyə başladılar. Yığılan ərzaq, paltar və dərmanı Nargin adasına daşımaq üçün bir ay vaxt lazım oldu.

1918-ci ilin əvvəllərində İsmailiyyə binasında yerləşən "Müsəlman Xeyriyyə Cəmiyyəti" azərbaycanlı əhalidən milli ordu təşkil etmək üçün Təzəpir məscidinin axundu Ağa Əlizadəyə müraciət etdi. 1918-ci ilin Mart soyqırımına qədər Lənkəran, Bakı və Gəncədə hazırlanan milli ordunun əsgərlərinə ilk xeyir-duanı Təzəpir məscidinin axundu Ağa Əlizadə verir, onları Quranın altından keçirəndən sonra hərbi hissələrə yola salırdı. Axund Ağa Əlizadə bu mərasimi çox zaman cümə gününə salırdı. Cümə namazına gələn dindar əhali bu mərasimi böyük ruh yüksəkliyi ilə qarşılayırdı. Təzəpir məscidində həyata keçirilən bu mərasimə etiraz olaraq Bakı Soveti qüvvələrinin rəhbərliyi Axund Ağa Əlizadəni milli hissələri qızışdırmaqda ittiham edirdi.

1918-ci il martın 29-da Lənkərana qayıtmağa hazırlaşan "Evelina" gəmisinin müsəlman əsgərləri Bakı Soveti qüvvələri tərəfindən həbs edilərək tərksilah edildi. Martın 30-da səhər tezdən on minlərlə dinc Bakı sakini Təzəpir məscidinin həyatinə yığışaraq müsəlmanlara məxsus silahların qaytarılmasını tələb etdi. Məscidin axundu Ağa Əlizadə əhalinin bu tələbini müdafiə etdi.

Türk-müsəlman əhalisinə qarşı soyqırımına əvvəldən hazırlıq görən erməni-daşnak qüvvələri şəhərdə şayiə yaydılar ki, gu-

ya Təzəpirin axundu Ağa Əlizadənin fətvası ilə müsəlmanlar rus millətindən olanları qırırlar. Ermənilərin təhriki ilə rus matrosları Təzəpir məscidini top atəşinə tutmağa başladılar. Camaatı sakitləşdirməyi bacaran Axund Ağa Əlizadə rus matrosları ilə danışıqlara başlamağı qərara aldı. Qısa bir müddətdən sonra matroslar şəhərdə ruslara qarşı heç bir qırğının törədilmədiyini yəqin etdilər və top atəşini dayandırdılar.

1918-ci ilin mart-aprel aylarında türk-müsəlman əhaliyə qarşı həyata keçirilən soyqırımıların təhqiqi ilə əlaqədar yaradılmış Fövqəladə Təhqiqat Komissiyasının sənədlərində qeyd olunur ki, Bakı şəhərinin keçmiş rəisi Ter-Mikaelyants Təzəpir məscidinə pənah aparmış əliyalın azərbaycanlı əhaliyə qarşı hər cür zorakılıqlar etməyi, hətta lazım gələrsə, Axund Ağa Əlizadəni fiziki cəhətdən məhv etməyi, habelə məscidi yandırmağı əmr etmişdi. Xoşbəxtlikdən daşnak-bolşevik birləşmələri bu məkrli niyyətlərini həyata keçirə bilmədilər.

Mart qırğını nəticəsində on minlərlə şəhid edilən müsəlmanın dəfn edilməsi mərasiminə Təzəpirin axundu Ağa Əlizadə rəhbərlik edirdi.

1918-ci il aprelin 25-də Bakıda Xalq Komissarları Soveti adlanan mənfur bir qurum təşkil edildi. Azərbaycan xalqına düşmən olan bu qurum Bakının dini qurumlarına, o cümlədən Təzəpir və Göy məscidlərinə nəzarət edilməsi haqqında dekret imzaladı. Lakin adıçəkilən məscidlərin axundları, həmçinin dindar əhali bu qadağaya baxmayaraq hər iki məsciddə azanın verilməsinə və dini mərasimlərin yerinə yetirilməsinə fasilə vermədi.

Bakı Soveti rəhbərliyi Təzəpir məscidinin axundu Ağa Əlizadədən tələb edirdi ki, Azərbaycan torpaqlarını bolşevik-daşnak qüvvələrindən azad etməyə gələn türk əsgərlərinin hərəkətlərini lənətləyən fətva versin. Hətta bolşevik rəhbərliyi məzhəb fərqini şişirdərək Osmanlı əsgərlərinin Bakı şəhərinə daxil olmasını bağışlanmaz bir günah kimi qələmə vermək istəyirdi. Bakı Sovetinin hədə-qorxularına baxmayaraq Axund Ağa Əlizadə onların bu tələbini birmənalı olaraq rədd etdi.

1918-ci il mayın 28-də Tiflisdə Azərbaycan Milli Şurası tərəfindən Azərbaycanın müstəqilliyi elan olundu. Fətəli Xan Xoyskinin başçılığı ilə Milli hökumət təşkil edildi. Milli hökumət Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsinin Gəncəyə köçürülməsini qərara aldı. İyunun ortalarında Təzəpir məscidinin axundu Ağa Əlizadə Bakı şəhərinin qazısı seçildi. Sentyabrın ortalarında Qafqaz İslam Ordusu və onun 29 yaşlı komandanı Nuru Paşa Bakı şəhərini bolşevik birləşmələrindən azad etdi. Cümhuriyyətin paytaxtı Gəncədən Bakıya köçürüldü. Məhz bu zaman Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsinin Bakıya köçürülməsi qərara alındı. Molla Məhəmməd Pişnamazzadə səhhəti ilə bağlı idarənin sədri və şeyxülislam vəzifəsindən istefa verdi. Azərbaycan Xalq Cümhuriyyətinin Dini Etiqad naziri Musa bəy Rəfiyevin tövsiyəsi ilə dekabrın 12-də 47 yaşlı Bakı şəhər qazısı Axund Ağa Əlizadə Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsinin sədri və şeyxülislamı vəzifəsinə seçildi. Bu vəzifəni əldə edən Axund Ağa Əlizadənin elmi-dini fəaliyyəti üçün geniş imkanlar açıldı.

Azərbaycan Xalq Cümhuriyyətinin bir illiyi, yəni 1919-cu il mayın 28-i milli bayram kimi qeyd olundu. Bayramda iştirak edən Şeyxülislam Axund Ağa Əlizadə xalqa bu sözləri dedi: "Azadlığı yalnız müstəqil yaşamaq yolu ilə qorumaq və müdafiə etmək olar. Allah-Təalanın buyurduqlarını yalnız ölkənin müstəqilliyi şəraitində müvəffəqiyyətlə intişar etdirmək olar. İstiqlal hər bir şəxsə lazımdır".[71]

Bütün bu dediklərimizdən belə başa düşülür ki, Şeyxülislam Axund Əlizadə daim Azərbaycan xalqının həyatında baş verən bütün siyasi hadisələrdə öncüllərdən olmuşdur.

Şeyxülislam Ağa Əlizadə 1919-cu il sentyabrın 15-də Çəmbərəkənd qəbiristanlığında Bakının azadlığı uğrunda şəhid edilən osmanlı və azərbaycanlı əsgərlərin məzarı önündə tarixi bir nitq söylədi. Bu mərasimdə Azərbaycanın dövlət, hökumət və parlament nümayəndələri iştirak edirdi. Şeyxülislam Ağa

---

[71] Cümhuriyyətin və sovet dövrünün Şeyxülislamı. Bakı, "Elm və təhsil". 2011, səh. 27.

Əlizadə Azərbaycanın istiqlalı yolunda şəhid olanlara Allahdan rəhmət dilədi və Qarabağ cəbhəsinə gedən əsgərləri Qurani-Kərimin altından keçirərək onlara vətəni şərəflə qorumağı dilədi.

Milli hökumət 1919-1920-ci illərin martın 31-ni Milli Qırğın günü kimi qeyd etmişdir. Şeyxülislam Ağa Əlizadənin göstərişi ilə həmin günlərdə Azərbaycanın bütün məscidlərində şəhidlər üçün ehsanlar verilmişdir.

1920-ci il aprelin sonlarında XI Qızıl Ordu tərəfindən Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinə son qoyuldu. Azərbaycanda İslam dininə düşmən olan bolşevik rejimi quruldu, Qafqaz Müsəlmanları İdarəsi və şeyxülislamlıq ləğv edildi. İslam dininə və dindarlara qarşı yönələn qəddarlıq, məscidlərin bağlanması, ibadətgahların yerlə-yeksan edilməsi bütün din xadimləri kimi Axund Ağa Əlizadəni də narahat edirdi. Ruhdan düşənlər, çıxış yolu görməyənlər Axund Ağa Əlizadənin yanına gələrək bu səbrli insandan öz suallarına cavab istəyirdilər.[72]

1921-1922-ci illərdə taxıl rayonları olan Volqaboyu, Ukrayna, Krım və Şimali Qafqazı aclıq bürüdü. Əhaliyə yardım etmək məqsədi ilə 1922-ci il mayın 23-də Təzəpir məscidində Axund Ağa Əlizadə, eləcə də Qazı, Axund Əbdülrəhim Hacızadə İran, Türküstan, Türkiyə, Hindistan və Əfqanıstan ruhanilərinə müraciət edərək aclıq çəkənlərə kömək etməyə çağırdı. Həmin vaxt Azərbaycan partiya təşkilatına rəhbərlik edən S.M.Kirovun Moskvaya, şəxsən İ.Stalinə Azərbaycan dindarlarının müraciəti haqqında verdiyi xəbər mərkəzi dövlət radiosu ilə elan olunmuşdur.[73]

1922-ci ilin noyabrında Azərbaycan Kommunist Partiyasının Rəyasət Heyətinə ərizə yazan Təzəpir məscidinin axundu Ağa Əlizadə Kərbəla ziyarətinə gedənlərə yardım göstərilməsini xahiş edirdi. Axund Ağa Əlizadənin müraciətini yüksək qiymətləndirən Mərkəzi Komitənin Rəyasət Heyəti Kərbəla ziyarətinə getmək istəyən zəvvarlar üçün kömək məqsədilə üç yüz manatadək qızıl pul ayırdı.

---

[72] Həmin mənbə, səh. 28.

[73] Həmin mənbə, səh. 28-29.

1941-1945-ci illərdə baş verən İkinci Dünya müharibəsinə digər sovet dövlətləri kimi Azərbaycan xalqı da səfərbər edildi. SSRİ-yə müdaxilə edən alman qoşunları Şimali Qafqazı işğal edərkən İslam dininə qarşı xoşməram nümayiş etdirməyə başladı. Şimali Qafqazın işğal altında olan ərazilərinə gələn bəzi alman generalları İslam dinini qəbul etdiyini bəyan edir və camaatın gözü qarşısında məscidlərdə namaz qılırdılar. Bunu görən sovet rəhbərliyi 1920-1930-cu illərdə İslam dininə qarşı həyata keçirdiyi sərt siyasətindən imtina edərək əhalini ümumi düşmənə qarşı səfərbər etmək üçün ruhanilərin köməyindən istifadə etməyi qərara aldı. 1944-cü il aprelin 14-də SSRİ Ali Soveti Rəyasət Heyəti Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsinin bərpa edilməsi haqqında qərar qəbul etdi. Həmin il mayın 25 - 28-də keçirilən qurultayda Axund Ağa Əlizadə 24 ildən sonra yenidən Qafqaz Müsəlmanları Ruhani İdarəsinin sədri və şeyxülislamı seçildi. Müharibə illərində fəaliyyətini davam etdirən Şeyxülislam Ağa Əlizadə öz moizələrində vətəni qorumağa gedən gənclərə xeyir-dua verir, onları Quranın altından keçirir, arxa cəbhədə çalışanları Allahın adı ilə yeni qələbələrə ruhlandırırdı.[74]

1945-ci ildə İrana dəvət edilən Şeyxülislam Ağa Əlizadə Təbriz, Tehran və İranın başqa şəhərlərində jurnalistlərlə görüşərək onların çoxsaylı suallarını lazımi şəkildə cavablandırmışdır. Sonra Qum şəhərində olan Şeyxülislam Ağa Əlizadə İmam Rzanın (ə) bacısı Xanım Məsumənin (ə) qəbrini ziyarət etmişdir. Şeyxülislam Ağa Əlizadənin Qumda İmamların (ə) həyatı ilə bağlı moizəsi dindarlar tərəfindən böyük rəğbətlə qarşılanmışdı.

Sülhün tərəfdarı və alovlu təbliğatçısı olan Şeyxülislam Ağa Əlizadə sülh tərəfdarlarının I Respublika Konfransının iştirakçısı olmuş, Moskvada keçirilən sülh tərəfdarlarının III Konfransında məruzə etmiş, Vyanada sülhün müdafiə Konqresində sovet müsəlmanları adından nitq söyləmişdir. Şeyxülislam Vyanada sülhü qorumaq üçün dünya xalqlarının qarşısında duran

[74] Həmin mənbə, səh. 29-30.

vəzifələrdən danışarkən demişdir: "Mən, Şeyxülislam Ağa Əlizadə bütün Qafqaz, bütün dünya müsəlmanlarına üzümü tutaraq deyirəm:  gəlin, sülhün müdafiəsi uğrunda aparılan müqəddəs işə qoşulun, müharibəyə qarşı öz səsinizi ucaldın, müharibə tərəfdarlarının cəhdlərinin qarşısını alın, onlara öz məqsədlərini həyata keçirməyə imkan verməyin. Qoy sülh qələbə çalsın!"[75]

Daim Azərbaycanın istiqlaliyyəti uğrunda gedən mübarizələrdə iştirak edənlərin öncüllərindən olan Qafqaz Müsəlmanları İdarəsinin səkkizinci Şeyxülislamı Ağa Əlizadə 1954-cü il dekabrın 15-də 83 yaşında vəfat etmişdir.

Şeyxülislam Ağa Əlizadənin dəfn mərasimi barədə "Kommunist" qəzetinin 1954-cü il 21 dekabr saylı nömrəsində oxuyuruq: "Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsinin sədri, Şeyxülislam Axund Əlizadənin vəfatı münasibətilə dekabrın 19-da Bakıda dua mərasimi keçirilmiş və mərhum dəfn edilmişdir. Dua mərasimində və şeyxülislamın dəfn edilməsində iştirak etmək üçün Bakıya gəlmiş Orta Asiya və Qazaxıstan Müsəlmanları Ruhani İdarəsi Rəyasət Heyətinin üzvü, Qazı Ziyaüddin Babaxanov, Dağıstan və Şimali Qafqaz Müsəlmanları Ruhani İdarəsi sədrinin müavini Şəfi Siracəddinzadə, Gürcüstan müsəlmanlarının qazısı və Batumi məscidinin baş mollası Məmmədəli Diasamidze, Ermənistan müsəlmanlarının nümayəndəsi Şeyx Rza Rzayev, Azərbaycan, Gürcüstan, Ermənistan və Dağıstan müsəlman cəmiyyətlərinin nümayəndələri, pravoslav kilsəsinin, erməni kilsəsinin, ruhani-bantist xristianlar cəmiyyətinin ruhaniləri və nümayəndələri, habelə başqaları iştirak etmişlər".[76]

---

[75] Həmin mənbə, səh. 32.
[76] Həmin mənbə, səh. 69.

## Şeyxülislam Axund Şeyx Mirmöhsüm Şeyx Əli oğlu Həkimzadə

Yaşadığı illər 1882-1967,
şeyxülislamlıq müddəti 1954-1966



Möhsüm Şeyx Əli oğlu Həkimzadə 1882-ci ildə Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən olan Şamaxının İmamlı məhəlləsində, tanınmış din xadimlərindən olan Şeyx Əlinin ailəsində dünyaya göz açmışdır.

Xorasanda və Nəcəfdə ali ruhani təhsil alan, dövrünün mütərəqqi fikirli ziyalılarından, din xadimlərindən biri olan Şeyx Əli Şamaxıda "İmamlı" məscidinin axundu, həmçinin şəhərdə fəaliyyət göstərən şiə icmasının rəhbəri idi. Şəhərdə fəaliyyət göstərən sünnü icmasına isə Hacı Məcid Əfəndi rəhbərlik edirdi.

XX əsrin əvvəllərində bir çoxlarının məzhəblər arasında süni şəkildə qarşıdurma yaratmaq cəhdlərinə baxmayaraq bu iki icma başçısı həmişə qarşılıqlı anlaşma, mehribançılıq, dostluq, qardaşlıq hissləri və duyğularına arxalanmış, şamaxılıları gözlənilən böyük bəladan qurtarmışlar.[77]

İbtidai təhsilini öz evində atası Şeyx Əlidən alan Möhsümün çalışqanlığı, iti zəkası, Quran ayələrini aydın avazla oxuyub dərk etməsi çoxlarının diqqətini cəlb edirdi. Mollaxanada təhsilini başa vurandan sonra anası ərəb və fars dillərini mükəmməl öyrənmiş oğlunu ali ruhani təhsil almaq üçün İranın Məşhəd şəhərinə yollayır. Burada yeddi il mükəmməl təhsil alan Möhsüm Həkimzadə Xorasanın məşhur üləmaları, görkəmli din xadimləri qarşısında müvəffəqiyyətlə imtahan verib əvvəlcə axundluq, sonralar isə

[77] İmana inam. Bir ömrün salnaməsi. Bakı, "Qismət"-2012, səh. 27.

şeyxlik rütbəsinə layiq görülür. 1914-cü ildə İrandan Şamaxıya qayıdanda dövrünün sayılıb-seçilən din xadimlərindən olan Şeyx Möhsüm Həkimzadənin artıq 32 yaşı vardı. [78]

Xurafatdan uzaq, İslamın ən mütərəqqi, işıqlı ideyalarının əvəzsiz təbliğatçısı Şeyx Möhsüm Həkimzadə ilə bircə dəfə söhbət edən onun dünyagörüşünə, iti ağlı və zəkasına, islami dəyərlər haqqında sonsuz bilgilərinə heyran olurdu. Şamaxıya böyük ümidlərlə və arzularla dönən Şeyx Möhsüm üçün ağrılı hadisə atasının ölümü oldu.

Atasının ölümündən sonra Zaqafqaziya şeyxülislamının sərəncamı ilə Şamaxı şəhərinin "İmamlı" məscidinin axundu vəzifəsinə təyin edilən Şeyx Möhsüm Həkimzadə gördüyü işlərlə bütün şamaxılıların hörmətini qazandı.

1918-ci ildə Stepan Şaumyanın başçılığı ilə Stepan Lalayanın qaniçən dəstəsi Şamaxıda tarixdə görünməyən qırğınlar törətdilər. Şəhəri ələ keçirən daşnak cəlladları Şamaxını yerləyeksan etdilər. Küçələrdə kəsilmiş başlar, başdan ayrı düşmüş meyitlər, döşü, saçı kəsilmiş qadın cəsədləri, sinəsi xəncərlə parçalanmış, başı güllə ilə dağılmış uşaq meyitlərinin sayı-hesabı yox idi. Ən dəhşətlisi o idi ki, şəhər məscidlərinə sığınan insanlar elə oradaca diri-diri yandırılırdı.

Şamaxı şəhərinin təhlükəsizliyini qoruya biləcək bir dəstə olmadığı üçün əhalinin bir hissəsi qorxusundan meşələrə çəkilir, qalanları isə Allah evi olan məscidlərə sığınırdılar. Lakin buna əhəmiyyət verməyən Lalayan və onun dəstəsi həmin müqəddəs səcdəgahları içərisində sığınacaq tapmış sakinləri ilə birlikdə yandırırdılar. Aldığı tapşırıqları layiqincə yerinə yetirən erməni daşnakları şəhərdə ziyalıları, hörmət sahibi olan ağsaqqalları, Allah adamlarını məhv etmək istəyirdilər. Ermənilərin məhv etmək istədikləri ziyalılardan biri də Şeyx Möhsüm ağa idi.

Böyük çətinliklərlə şəhərdən qaçmağı bacaran Şeyx Möhsüm anası Seyid Mina ilə Sabirabadda məskunlaşdı. Böyük hörmətlə qarşılanan Şeyx Möhsüm ilahiyyat elminin mahir bilicisi kimi Sabirabad şəhər məscidinin axundu təyin edildi.

---

[78] Həmin mənbə.

1920-ci ildə tanınmış tacir Kərbəlayi Əbdülhüseynin qızı Məleykə xanımla ailə quran Şeyx Möhsümün Turab, Gülsüm, Ümbül, Hacı Əliağa, Hacı Mirzəağa və Minaxanım adlı övladları dünyaya gəldi.

Hazırda Şeyx Möhsümün sağ olan iki övladı - Hacı Mirzəağa və qızı Minaxanım Bakı şəhərində yaşayırlar.

Bir müddət ailəsi ilə birlikdə Sabirabadda çətin vəziyyətdə yaşayan Şeyx Möhsüm həmişəlik Bakıya köçərək müəyyən yerlərdə fəhlə işləməyə başlayır.

1920-ci il aprelin 28-də Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra ziyalılar, xüsusilə də din xadimləri təzyiqlərə məruz qaldılar. Sovet hakimiyyətinin apardığı iyrənc siyasət nəticəsində din xadimləri həbs olunaraq zindanlara salınırdı. Yüzlərlə imanlı din xadimi işgəncələrə məruz qalaraq heç bir günahı olmadan güllələnirdilər. Bunlardan Axund Kamiyab, Axund Mir Bağir ağa, Axund Mir Ələkbər, Şeyx Rəsul ağa Nardarani, Şeyx Həsənağa, Axund Möminəli, Şeyx Qəni Badikubeyi, Şeyx Əhməd Nardarani, Şeyx Kərim ağa, Seyid Məhəmməd, Axund Əhməd və başqaları həmin dövrlərdə həyata keçirilən repressiya qurbanları olmuşlar.

1928-ci ildə Şeyx Möhsümün evində axtarış aparılır və o, NKVD tərəfindən həbs olunur. Heç bir günahı olmayan Şeyx Möhsüm altı ay Bakıda həbsxanada saxlanılır. Altı aydan sonra Şeyx Möhsüm azadlığa buraxılsa da nəzarət altına alınır, əsərləri isə yandırılır.

1930-cu ildə repressiyanın tüğyan etdiyi bir dövrdə gizli olaraq Bakıya gələn Şeyx Möhsüm ailəsi ilə birlikdə Şamaxı yolunda kirayə tutduğu evdə yaşamağa başlayır. Burada ailə vəziyyəti ağır olan Şeyx Möhsüm ailəsini dolandırmaq üçün müxtəlif illərdə “Cındırtrest” adlanan yerdə fəhlə, mağazada əhəng satan satıcı, çayxanada gözətçi və başqa yerlərdə bir çox işlərlə məşğul olmuşdur.

İkinci Dünya müharibəsinin başlanmasından sonra ailə vəziyyəti daha da ağırlaşan Şeyx Möhsüm əvvəl yaşadığı və əhalisi arasında böyük hörmət qazandığı Sabirabada qayıdır.

1944-cü ilin 14 aprelində SSRİ Ali Soveti Rəyasət Heyətinin çıxardığı qərara əsasən, 1920-ci ildə ləğv edilmiş Qafqaz Müsəlmanları Ruhani İdarəsi yenidən bərpa olundu və Axund Ağa Əlizadə ikinci dəfə Qafqaz Müsəlmanları Ruhani İdarəsinin Şeyxülislamı təyin olundu.

1944-cü ildə Təzəpir məscidində Zaqafqaziya müsəlman ruhaniləri və dindarları nümayəndələrinin I Qurultayı çağırılır. Qurultayda Gürcüstan və İrəvanda yaşayan azərbaycanlıların vilayətlərindən nümayəndələr dəvət olunur. Axund Ağa Əlizadə yeni şeyxülislam və Şeyx Möhsüm Həkimzadə isə onun birinci müavini təyin olunur. O, bu vəzifədə 1954-cü ilə kimi çalışmışdır. Vəzifə bölgüsünə görə Şeyx Möhsüm maliyyə, təsərrüfat və təhsil işlərinə nəzarət edirdi. Vəzifəsi ilə əlaqədar Azərbaycanın bütün rayonlarında olan Şeyx Möhsüm məscidlərin təmir və bərpasını yoxlayır, işlərin icrasını nəzarət altında saxlayırdı. Onun ən böyük xidmətlərində biri Təzəpir məscidi nəzdində ruhanilik məktəbinin tikilməsi olmuşdur.

Şeyxin təqdirəlayiq elmi fəaliyyəti də unudulmazdır. O, ilk dəfə Gəncədəki "İmamzadə" və Bakıdakı "Nardaran" pirinin daş kitabələrinin şəkilini oxutdurmuş və elmi cəhətdən sübut etmişdir ki, bu müqəddəs yerlərdə İmam (ə) nəslindən olanlar dəfn olunmuşdur.[79]

1954-cü il dekabrın 15-də Şeyxülislam Axund Ağa Əlizadə vəfat edir. Axundun ölümündən sonra Zaqafqaziya müsəlmanlarının "Böyük yolun başlanğıcı" adlı qurultayı çağırılır. Qurultayda Özbəkistan, Qazaxıstan və SSRİ-nin digər müsəlman respublika və muxtar vilayətlərindən olan din xadimləri iştirak edirdilər. Qurultayın yekun qərarı ilə Şeyx Möhsüm Həkimzadə Qafqaz Müsəlmanları Ruhani İdarəsinin şeyxülislamı təyin edilir. Ümumdünya Sülh Komitəsinin üzvü olan Şeyx Möhsüm Həkimzadə dini ehkam, adət və ənənələrdə çox qətiyyətli idi.

Dünyəvi elmlərə bələd olan Şeyx Möhsüm Həkimzadə təbabət elminin, xüsusilə insan fiziologiyasının gözəl bilicisi,

[79] Həmin mənbə, səh. 42.

şeir, qəzəl həvəskarı idi. O, Sədinin “Gülüstan” və “Bustan”ını, Ömər Xəyyamın qəzəllərini əzbər bilirdi.

Bütün dünya müsəlmanlarında olduğu kimi, Azərbaycan xalqı da daim öz mənəvi dəyərlərini qorumuş və günümüzə qədər yaşatmışdır.

Respublikanın əksər bölgələrində - istər Bakı ərazisində, istərsə də rayonlarda müxtəlif ocaqlar vardır və bu ocaqlar daim inama ehtiyacı olanlarla doludur. Həqiqətən də insanda Allaha inam, gələcəyə ümid hər şeydən üstündür. Tarix boyu süzgəcdən keçən, nəsildən-nəslə ötürülən mənəvi dəyərlərimiz bu gün də bizi yaşadır və sabaha doğru işıqlı gələcəyə aparır.

Məhz Allah yolunda fədakarlıq göstərən Axund Ağa Əlizadə və Şeyx Möhsüm Həkimzadə kimi alimlərin bilik və bacarığı sayəsində müasir nəsli bir inam ocağında – müqəddəs İslam dinində birləşdirir və tərbiyə edirik. Respublikamızda yerləşən minlərlə ziyarətgahın qorunub saxlanması özü bir möcüzədir. 70 il Azərbaycanda hakimlik edən sovetlər birliyi digər dövlətlərdə olduğu kimi, Azərbaycanda da dinə, dindarlığa qarşı üsyan edən zaman ağına-bozuna baxmayaraq harada Allahın evi vardısa, oranı partladıb yox edirdi. Ermənilərin vasitəsilə bir çox yerlərdə müqəddəs ocaqlara təcavüz olunur, yerlə-yeksan edilirdi.

Lakin bütün bunlara baxmayaraq daim öz mənəvi dəyərlərini qoruyan Azərbaycan müstəqilliyini yenidən bərpa etdikdən sonra həmin məscid və ocaqlar təmir edilərək müsəlmanların o cümlədən, din xadimlərinin ixtiyarına verildi.

Bir sözlə, sosializm quruculuğuna, dini ayinlər haqqında sovet qanunvericiliyinə real münasibət bəsləyən, sülhsevərlik, əməksevərlik, dindarların öz vətəndaşlıq borclarını namusla yerinə yetirməsini təbliğ edən, yüksək natiqlik bacarığı və mömin müsəlmanlar arasında böyük nüfuza malik olan bu din xadimi 1967-ci il sentyabrın 15-də Bakıda vəfat etdi və Yasamal qəbiristanlığında dəfn edildi.

## Şeyxülislam Molla Əliağa Süleyman oğlu Süleymanzadə

Yaşadığı illər 1885-1978,
şeyxülislamlıq müddəti 1968-1978



Şeyxülislam Axund Əliağa Hacı Süleyman oğlu Süleymanzadə 1885-ci ildə Bakının Novxanı kəndində dindar bir ailədə dünyaya gəlmişdir. Kiçik yaşlarından İslam dininə geniş rəğbət bəsləyən Axund Əliağa ilk təhsilini kəndlərində fəaliyyət göstərən dini mədrəsədə almışdır. Əvvəlcə Qurani-Kərimi əzbərdən söyləyən Axund Əliağa sonralar Sədi Şirazinin "Gülüstan" və "Bustan" əsərlərini də əzbərləmişdir. İslam dininə olan marağını görən Novxanı məscidinin axundu Hacı Məhəmmədəmin onu oğlu Ağaməmmədlə birlikdə ali dini təhsil almaq üçün İslam elminin mərkəzi sayılan İran və İraqa göndərir, bu illər ərzində hər ikisinin təhsil xərcini özü ödəyir.

İranın Xorasan vilayətində bir müddət təhsil alan gənc alimlər sonra təhsillərini İslam elmləri mərkəzi sayılan Nəcəfül-Əşrəfdə davam etdirirlər. Sonda Mədineyi-Münəvvərədə imtahan verərək ali dini təhsillərini başa vururlar. On iki ildən sonra vətənə qayıdarkən Hacı Əliağanın yaxın dostu Hacı Ağaməmməd qızdırma xəstəliyindən dünyasını dəyişir. Dostunun vəsiyyətinə əməl edən Axund Əliağa onun bacısı Ümmülbanu ilə evlənir.

Bakıya qayıdan Axund Əliağa bir neçə məsciddə axundluq edərək dini vəzifəsini layiqincə yerinə yetirir. Axundun söylədiyi moizələr indinin özündə də yaddaşlardan silinməmişdir.

Axund Əliağanın Bakıda fəaliyyət dövrü mənfur erməni daşnaklarının azərbaycanlılara qarşı soyqırımı törətdiyi illərə

təsadüf edir. Söylədiyi dini moizələrlə el arasında böyük hörmət qazanan Axund Əliağa doğma xalqını erməni daşnaklarına qarşı mübarizəyə həvəsləndirmək üçün moizələrinin məzmununu dəyişir, "Qaniçən kafirlərə qarşı mübarizə aparmaq hər bir müsəlmanın borcudur!" şüarı ilə çıxışlar edir. Buna görə də 1918-ci ilin sentyabrında Bakıya gələn türk ordusunu alqışlayanlardan biri də məhz Axund Əliağa Süleymanzadə olmuşdu.

Çarizm dövründə sonuncu səmavi kitab olan Qurani-Kərimi təbliğ etdiklərinə və haqqı insanlara çatdırdıqlarına görə yüzlərlə din xadimi imperiya tərəfindən məhv edilmişdi. Sovet hakimiyyəti qurulduqdan sonra isə digər din xadimləri kimi Axund Əliağa Süleymanzadə də şiddətli təqib və təzyiqlərdən yaxa qurtara bilməmiş, NKVD-nin nəzarəti altında olmuşdu.

1943-cü il "islahatlarından" sonra vəziyyətin dəyişməsi ilə əlaqədar olaraq izləmələrdən xilas olan Axund Əliağaya şeyxülislam vəzifəsini təklif edirlər. Lakin qazılıq vəzifəsinə üstünlük verən Axund Əliağa hər dəfə şeyxülislamlıq vəzifəsindən ustalıqla imtina edirdi. Qazılıqla yanaşı, Təzəpir məscidində axundluq da ona həvalə edilmişdi.

1966-cı ildə Şeyxülislam Mirmöhsün Həkimzadənin vəfatından sonra şeyxülislam vəzifəsinin iki il boş qalması Axund Əliağa Süleymanzadəni də təklifləri qəbul etməyə məcbur edir. Çünki bu vəzifəyə ondan başqa layiqli bir namizəd yox idi. 1968-ci ildə Zaqafqaziya müsəlmanlarının VI Qurultayı çağırılır və bu qurultayda Təzəpir məscidinin axundu Əliağa Süleymanzadə 83 yaşında Qafqaz Müsəlmanları İdarəsinin şeyxülislamı təyin edilir.

Şeyxülislam Hacı Əliağa Süleymanzadə fəaliyyəti dövründə bir çox konfrans, simpozium və beynəlxalq tədbirlərdə öz ölkəsini layiqincə təmsil etmişdi. 1972-ci ildə Yəmən Xalq Demokratik Respublikasının din xadimlərini qəbul edən Şeyxülislam Axund Əliağa belə demişdi: "Allah bizə elm, düşmənlərimizə isə əmlak vermişdir. Biz elmin sayəsində maddi və mənəvi cəhətdən zənginləşirik. Yaxınlarda Sovet İttifaqı dünyanın ən zəngin ölkəsi olmaqla müsəlmanlara kömək edəcək, vicdan və din

azadlığı sahəsində də dünyanın ən zəngin ölkəsi olacaqdır. Allah hökumətimizə İslam dinini bərqərar etmək sahəsində yardımçı olsun".[80]

1970-ci ildə Daşkənddə "Sülh uğrunda mübarizədə birliyin və əməkdaşlığın əhəmiyyəti" adlı Ümumittifaq Konfrans təşkil edilir. Qafqaz Şeyxülislamı Axund Əliağa Süleymanzadənin konfrans iştirakçılarına ünvanladığı məktubda deyilirdi: "Biz elə bir dövrdə yaşayırıq ki, hər bir xalq, hər bir tayfa oyanıb öz azadlığı və müstəqilliyi uğrunda mübarizə aparır. Biz daim Allaha dua edirik ki, bu müqəddəs mübarizə uğurla başa çatsın. Bizim dinimiz bütün müsəlmanlarda bu işin təntənəsi üçün qüvvələrini sərf etməyi tələb edir. Bununla biz gələcək nəslin xoşbəxtliyi naminə öz yardımlarımızı etmiş olar, özümüzü sülh uğrunda mübarizlərin sıralarında görmüş olarıq. Qoy Allah sülh tərəfdarlarının gücünü artırsın. Amin!".[81]

Məktubda deyilənlər sovet-partiya rəhbərlərinin narazılıqlarına səbəb olduğu üçün ört-basdır edildi.

1977-ci ildə Moskvada "Din xadimləri möhkəm sülh, tərksilah və xalqlar arasında ədalətli münasibətlər uğrunda" Ümumdünya Konfransı keçirilir. Dünyanın 107 ölkəsindən gəlmiş nümayəndələrin iştirak etdiyi məclisdə Şeyxülislam Axund Əliağa Süleymanzadənin məktubu gurultulu alqışlarla qarşılanır.

Ömrünün sonuna qədər şeyxülislam olan və bu vəzifənin öhdəsindən layiqincə gələn sayca onuncu Şeyxülislam Axund Əliağa Süleymanzadə 1978-ci ildə 93 yaşında ikən vəfat etmiş və Bakı şəhərində dəfn edilmişdir.

[80] Həmin mənbə, səh. 144.
[81] Həmin mənbə, səh. 144-145.

## Şeyxülislam Axund Mirqəzənfər İbrahimov

Yaşadığı illər 1909-1979,
şeyxülislamlıq müddəti 1978-1979



1978-ci ildə 93 yaşlı Şeyxülislam Axund Əliağa Süleymanzadənin vəfatı yaşlı olmasına baxmayaraq ruhani idarəsi tərəfindən ürək ağrısı ilə qarşılandı. Lakin bütün bunlarla yanaşı, yeni şeyxülislamın seçilməsi də lazım və zəruri idi.

1978-ci ildə Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsinin VII Qurultayı çağırılır və qurultayda yeni şeyxülislamın kim olacağı məsələsi müzakirəyə çıxarılır. Müzakirələrdən sonra Göyçay məscidinin axundu Mirqəzənfər İbrahimov Qafqaz Müsəlmanları Ruhani İdarəsinin yeni şeyxülislamı təyin edilir. Ali dini təhsil almasa da Şeyxülislam Mirqəzənfər İbrahimov kamil dini biliklərə malik şəxs idi.

Güclü hafizəyə malik olmasına görə dini məclislərdə eşitdiklərini dəqiqliklə yadında saxlayan Axund Mirqəzənfər Qurani-Kərimi mükəmməl öyrəndikdən sonra Qubada molla kimi fəaliyyətə başlamışdı.

Şeyxülislam Axund Əliağa Süleymanzadənin xeyir-duasından sonra Mirqəzənfər İbrahimov əvvəlcə Quba, sonra isə Göyçay məscidinə axund göndərilmişdir. Onun axundluğu dövründə Göyçay məscidi Azərbaycanda fəaliyyət göstərən digər rayon məscidlərindən fərqlənmiş, etdiyi moizələr insanların bu məscidə axınına səbəb olmuşdu. Hətta buna görə Axund Mirqəzənfəri Göyçay rayon Partiya Komitəsinə çağıraraq bir qədər ehtiyatlı olmağı tövsiyə etmişdilər.

Şeyxülislam Mirqəzənfər İbrahimov Sovet dövlətinin sülh siyasətinin nailiyyətlərinə inanan və onlara güclü rəğbət bəsləyən

ruhanilərdən idi. O, hətta Marksizim-Leninizim nəzəriyyəsinin İslamın mövqeyinə tamamilə uyğun gəldiyini iddia edir, Sovet dövlətinin milli məsələ haqqında siyasətini İslam dininin "İslam təlimi qarşısında vahid olan beynəlxalq islamiyyət vardır, İslam bayrağı altında bütün millətlərin birliyi və qardaşlığı mövcuddur" prinsipi ilə eyniləşdirirdi. Şeyxülislam Axund Mirqəzənfər qeyri-rəsmi söhbətlərində tutarlı dəlillərlə sübut edirdi ki, sovet xalqları o halda mehriban qonşuluq şəraitində yaşaya bilərlər ki, hamılıqla İslam dinini qəbul etsinlər. Yalnız İslam dini insanlar arasında milli mənsubiyyəti saxlamaqla milli fırqələri inkar edir və bu xüsusda milli ədavətə son qoyur. İslam dini bəşəriyyətə göndərilmiş sonuncu din olduğu üçün bütün dünya millətləri gec-tez bu dini qəbul edəcəklər. Şeyxülislam Axund Mirqəzənfərin inandırıcı dəlilləri və sübutları qarşısında alim və filosoflar belə, geri çəkilib razılaşmaq məcburiyyətində qalırdılar.[82]

İslam dininə qəlbən, hədsiz bağlı olan Şeyxülislam Axund Mirqəzənfər müsəlmanlığı hər şeydən üstün tutur, Axirətdə Cənnətin qapılarının yalnız müsəlmanların üzünə açıq olacağını bildirirdi. Şeyxülislam Mirqəzənfərin üstünlüyü onda idi ki, etdiyi çıxışlarda o qədər güclü və inandırıcı dəlillərdən istifadə edirdi ki, dinləyənlərin hamısı ona valeh olur, söhbətlərinə inanırdı. Hətta deyilənlərə görə, Axund Mirqəzənfərin moizələrinə qulaq asan çoxlu sayda xristian sonradan müsəlmanlığı qəbul etmişdir.

Bütün bunlar onu göstərir ki, Şeyxülislam Axund Mirqəzənfər İbrahimov sosializm quruluşunu tərifləməklə əslində özünün dini təbliğatını ustalıqla aparmışdır.

1979-cu ildə vəfat edən Şeyxülislam Axund Mirqəzənfər İbrahimov Bakı şəhərində dəfn edilmişdir.

[82] Həmin mənbə, səh. 148-149.

## 1.4. Osmanlı dövlətində şeyxülislamlıq və şeyxülislamlar

Şeyxülislam və ya Şeyx-ül İslam - dini mövzularda ən yüksək bilgi və səlahiyyətə sahib olan şəxs anlamına gəlir. Bu baxımdan Osmanlı dövlətində də şeyxülislam böyük səlahiyyətə sahib dövlət vəzifələrindən sayılırdı. Belə ki, lazım olan zaman şeyxülislam dini məsələlərlə bağlı görüşlərini fətva yayımlayaraq açıqlayar və bu fətvalar qanuni keyfiyyət daşıyardı.

İslamiyətin ilk illərində fətva işlərinə şəxsən Həzrət Peyğəmbər (s) özü baxırdı. İslam Peyğəmbərinin (s) vəfatından sonra dörd xəlifə dövründə islamiyyətin yayılması və sərhədlərinin genişlənməsi səbəbi ilə işlər çoxaldı. Bu üzdən xəlifələr fətva işlərinə baxacaq kimsələr təyin etdilər. Onlara öncə müfti, Hicri dördüncü əsrdən etibarən isə şeyxülislam deyildi. Fətva işlərinin alimlərə verilməsi vəziyyəti Əməvi, Abbasi və Səlcuqilər zamanında da davam etdirildi.

Osmanlılarda fətva verməklə vəzifəli ilk zat Osman qazının qayınatası Şeyx Ədabalidir. Onun vəfatı ilə tələbəsi Dursun Fəqih osmanlılara müfti (şeyxülislam) olmuşdur. Dövlətin quruluş dövrlərində müftilik, qazılıq və müdərrislik eyni şəxslərə həvalə olundu. Məsələn Xızır Bəy və Molla Hüsrəv həm qazı, həm də müfti idilər.

Osmanlılarda elmiyyə sinifinə daxil olan müftilərə rəis-ül-üləma və müfti-yül-ənam kimi ünvanlar da verilmişdi. Yavuz Sultan Səlim Xanın zamanında (1512-1520) Şeyxülislam Əhməd ibn Kamal Paşaya müfti-yüs-səqəleyn (insan və cinlərə fətva verən) ünvanı verilmişdi.

Qanuni Sultan Süleyman Xanın zamanına (1520-1566) qədər şeyxülislamlığın istiqamətləndirilməsində əməl olunası zəruri bir qanun yox ikən, Əbüs Suud Əfəndinin hazırladığı bir düsturla (qanun) Ruməli qazəskərliyindən sonra yüksələn məqam halına gəldi. Çox nadir olaraq Anadolu qazəskərlərindən də şeyxülislamlar seçildi.

Yenə bu dövrdən (1574) etibarən şeyxülislamlar elmiyyə sinifinin başçısı oldu, bütün qazılar, müfti və müdərrislər onun əmrinə verildi.

Şeyxülislamları şəxsən padşah təyin edərdi. Şeyxülislamlığa gətirilən şəxsi baş vəzir başda olmaqla saraydan gələn on beşə qədər görəvli evindən alaraq Paşa qapısına götürərdilər. Oradan saraya gəlib padşah hüzuruna çıxardılar. Padşah dinə və elmə duyduğu sayğıdan dolayı şeyxülislamlığa namizədi ayaq üstə qarşılayardı. Sonra namizədə özünü şeyxülislam təyin edəcəyini söyləyərdi.

Bu surətlə saraydan çıxan baş vəzirlə şeyxülislamı yüksək vəzifəli hökumət adamları şeyxülislam seçilməsi münasibəti ilə təbrik edərdilər.

1826-cı ilə qədər şeyxülislamların müstəqil dairələri yox idi. Öz evlərində və ya uyğun bir evdə vəzifələrini yerinə yetirərdilər. Sultan II Mahmud Xanın yeniçəri ocağını qaldırmasından sonra Süleymaniyyə Camisi yaxınlığındakı Ağaqapısı şeyxülislamlara daimi iqamətgah olaraq verildi. Bura şeyxülislam qapısı olaraq məşhur oldu. 1836-cı ildən etibarən bu binaya qazəskərlərlə İstanbul qazısı da nəql edildi.

Şeyxülislamlar Divani-Hümayun üzvü olmasalar da dini bir məsələnin həlli və ya düzəldilməsi lazım olduqda divana dəvət edilir və görüşləri alınırdı. Yenə hərb və sülhə qərar verilə bilməsi üçün şeyxülislamın təsdiqi gərəkirdi. Səfərlərdə padşah harada olardısa şeyxülislamlar da orada olur, çadırlarının önünə vəzirlər kimi üç tuğ tikilərdi. Lakin baş vəzirin sərdarı əkrəm olduğu səfərlərdə şeyxülislam iştirak etməzdi.

Şeyxülislamların çuxadar, təlhisçi, kəndxuda və s. kimi məiyyətindən başqa, başlarında fətva əmini olan və çox mühüm bir dairə olan fətva qələmi var idi. Bu dairədə müsəvvid, mübəyyiz, müqabiləçi, katib, möhürdar və müvəzzilər olurdu. Fiqh, yəni İslam hüququna yaxşı bələd olanlardan təyin edilməsi icab edən fətva əmini, fətva qələminin başda gələn amiriydi. Bu şəxs, istənilən fətvanı mötəbər fiqh kitablarından tapır və bunun məiyyətində olan iyirmiyə qədər katib də fətvaları kağıza

köçürərdilər. Daha sonra bu, fətva əmini tərəfindən yoxlanılır və mübəyyiz tərəfindən bəyaza çəkilərək şeyxülislama təqdim olunurdu. Şeyxülislam bunu tədqiq edər, təliq qırması deyilən öz əl yazısıyla cavab qismi imzalayardı. Bundan sonra müvəzzi isimli məmur bu fətvanı məhəllinə verirdi.

Fətva hər hansı bir şeyin (ümumi və ya xüsusi, dini və ya hüquqi) İslamiyyətə uyğun olub-olmadığını bildirmək deməkdir.

Ümumi hüquqa (Hüquq-i ümumiyyəyə) aid fətvaların alınması hökumətə aiddir. Bunlar da hərb elanı, sülh əqdi, əsgəri qanun təbdili, islahat icrası, qeyri-müsəlman təbəqənin üsyanı, şəqavətdə olanların (asilərin) qətli kimi fətvalardır.

Xüsusi hüquqa (Hüquq-i xüsusiyyəyə) dair fətvalar doqquz barmaq uzunluğunda və dörd barmaq genişliyində bir kağıza incə hərflərlə yazılırdı. Məsələnin az və çox əhəmmiyyətinə görə veriləcək cavab qısaca - "vardır və ya yoxdur", "olar və ya olmaz", "gələr və ya gəlməz", "məşrudur və ya məşru deyildir", "caizdir və ya caiz deyildir" şəklində olardu. Bəzən də verilən cavab izah edilərdi.

Fətvalar Hənəfi məzhəbi imamlarının qavillərinə (ictihadlarına) görə verilirdi.

Şeyxülislam dairəsində olan kəndxuda şeyxülislamın siyasi və iqtisadi işlərində, şeyxülislamın nəzarətində olan vəqf müamələlərində onun vəkili olub namına uyğun hərəkət edərdi.

Təlhisçi - şeyxülislamın hökumət nəzdindəki məmuru olub dini işlərə və qanunlara aid müamələlərdə hökumətlə təmas edərdi. Şeyxülislamın müdərrisləri təyinləri və digər xüsuslar bunun vasitəsi ilə və rəisül-quttabın dəlalətiylə vəziri-əzəmə ərz olunardı.

Məktubçu - şeyxülislamın divan əfəndisi və ya möhürdar, indiki ismiylə yazı işlərinin müdüri idi. Məşihatdan (şeyxülislamlıq məqamından) çıxan yazılar, təyin rüusu və bəraətləriylə icazətnamələrin yazıldığı dairədən bu şəxs məsuliyyətli idi. Şeyxülislamın möhürü də möhürdarda olardı.

Osmanlı donanmasının Xəlicdən dənizə çıxmaq zamanı gəlincə rəisül-qüttab əfəndi vasitəsiylə dəvət edilən şeyxülislam Yalı köşkünə gəlir və padşahla bərabər təşyi mərasimində olurdu. Ay-

rıca şahzadə və sultan xanımların doğumları münasibətiylə edilən təbriklərdə, sultanların nişan və nikah mərasimində şeyxülislamlar da iştirak edər, sultanın nikahını onlar kəsərdilər. Padşah və şahzadə vəfat edəndə də cənazə namazlarını şeyxülislamlar qıldırardılar.

Osmanlı tarixində baş vəzir olmaq üçün təhsilli olmaq o qədər də vacib deyildi. Lakin şeyxülislam olmaq, hətta bunun ilk pilləsi olan qazılıq, müftilik və müdərrislik üçün belə, mədrəsələrin ən yüksəyini bitirmək lazım idi. Bu vəziyyət şeyxülislamlığa verilən dəyəri göstərdiyindən önəmlidir.

Osmanlı şeyxülislamlarından bir qismi verilən fətvaları toplamış və kitab halına gətirmişlər. Bunlardan bəziləri nəşr edilmiş, nəşr edilməyənlər də mühafizə edilmişdir.

1424-cü ildə Molla Fənariyə bu ünvanın verilməsi ilə son Osmanlı Şeyxülislamı Mədəni Nuri Əfəndinin 1922-ci ildə kabineti ilə birlikdə istefa etməsi arasındakı müddət 498 il davam etmişdir.

1424-1922-ci illər arasında 131 şeyxülislam 175 dəfə bu məqama təyin edilmişdir. Əbus-Suud Əfəndi 29 il olmaqla ən çox, Məmikzadə Mustafa Əfəndi isə 13 saat olmaqla ən az bu məqamda qalan şeyxülislamdır. 131 şeyxülislamın yalnız 9-u türkəsilli deyildir.

Şeyxülislamlar içində müstəsna alim və yazarlar, şair və xəttatlar, bəstəkar və huquqçular olub. Onların arasında Yəhya, Bəhai, Arif Hikmət kimi böyük şairlər, Əsad Əfəndi kimi böyük bəstəkarlar və sözlük alimləri, tarixçilər, hüquqçular və böyük dövlət adamları var idi. Onların əksəriyyəti özlərindən sonra dəyərli əsərlər qoyan alimlərdir.

Bir çox şeyxülislam verdikləri fətvaları toplayaraq özlərindən sonra həm islami elmlər, həm də Osmanlı hüquq tarixi baxımından dəyərli əsərlər yadigar olaraq qoymuşlar.

Bu müəssisə bu adla XV yüzilliyin əvvəllərində qurulmuşdur. Bu tarixdə imperatorluğun ən böyük müftisinə şeyxülislam deyilmişdir.

1453-cü ildən etibarən İstanbul müftisi bu adı daşımağa başlamışdır. Onun göstərişi ilə şeyxülislamlara sonralar da müfti əfəndi və müftil-ənam deyilmişdir.

Şeyxülislamın yüksək vəzifəsi fətva vermək idi. İcrada, ədalət və təhsil quruluşlarının başında isə qazəskər dururdu. Protokolda qazəskər şeyxülislamdan öncə gəlirdi. Şeyxülislamın qazəskərdən öncə gəlməsi, baş vəzirdən sonra dövlətin ikinci görəvlisi halına yüksəlməsi XVI yüzilin əvvəllərində Zənbilli Əli Əfəndi ilədir. Qəti şəkildə Əbus-Suud Əfəndi ilə bu vəziyyət ortaya çıxmışdır.

Tənzimatdan sonra təhsil və ədalət işləri yavaş-yavaş şeyxülislamın səlahiyyətindən alınaraq ədliyyə və maarif nəzarətləri qurulmuşdur. Lakin protokolda baş vəzirlə bərabər və sırada ondan sonra gəlmiş, bu vəziyyət 1922-ci ilin sonuna qədər davam etmişdir.

Şeyxülislama məxsus məşihət rütbəsi sadarəti daşıyanlara aid sadarət rütbəsinə bərabər idi, rütbələr isə müşir, vəzir, qazəskər rütbələrinin üzərindəydi. Yalnız üç şəxs şeyxülislam olmadan məşihət rütbəsini almışdır. II Osmanın müəllimi Ömər Əfəndi heç şeyxülislam da olmamışdır, Qaraçələbizadə Əbdüləziz Əfəndi daha sonra şeyxülislam olmuşdur və Şeyxülislam Ərzurumlu Feyzullah Əfəndinin böyük oğlu Fəthullah Əfəndi də şeyxülislam olmamış, atası ilə bərabər öldürülmüşdür.

Məşihət rütbəsi şeyxülislamlıqla var idi. Şeyxülislamlıqdan alınan kimsənin rütbəsi yenə Rüməli qazəskəri olurdu.

Bütün elmiyyə sinfi kimi, onun başında olan şeyxülislama da edam cəzası uyğun görülməzdi. Bundan başqa, 1589-cu, hətta 1601-ci ilə qədər şeyxülislamlar vəzifələrindən kənarlaşdırılmamışlar, vəzifəyə gətirildikdən sonra ölüncəyə qədər orada qalırdılar.

Yalnız üç şeyxülislam öldürülmüş və ya edam edilmişdir. Bunlar da 1634-cü də IV Muradın edam etdirdiyi Hüseyn Əfəndi, IV Məhmədin dövründə - 1656-cı ildə Məsud Əfəndi və II Mustafanın dövründə - 1703-cü ildə Ədirnə hadisəsində Feyzullah Əfəndidir.

Azadlıq düşüncəsi ilə hüquq və dövlət mənfəətinin üstünlüyü qarşısında heç bir şeydən çəkinmədən hökm etmələri üçün şeyxülislamlara böyük səlahiyyətlər verilmişdi. Padşahların

bəzi hərəkətlərinin Şər-i Şərifə uyğunluğu üçün onlardan fətva istəmələri nüfuzlarını artırırdı.

Tənzimata qədər şeyxülislam Divani-Hümayun üzvü deyildi. Çünki öz başına qərar verəcək bir vəziyyətdə idi. Oturduğu sarayda kiçik bir divan toplayar, divanda baş vəzirin əmrinə girməyəcək dərəcədə önəmli bir şəxsiyyət olardı. Bununla birlikdə təyin və azadetmə səlahiyyətləri padşahın mütləq vəkili sayılan baş vəzirin əlində olurdu, ən azından qəbulu və təsdiqi alınırdı.

II Məhməd qanunnaməsində şeyxülislamı və padşah müəllimlərini vəzirlərdən üstün tuturdu. Bu qanunnaməyə görə, üləmanın rəisi qəbul edilməklə yanaşı, şeyxülislamın elm sinfinin başı sayılması XVI əsrin ortalarına doğru gerçəkləşmişdir. XVI əsrdə Zənbilli Əli Camali Əfəndi, İbni Kamal Paşazadə və Əbus-Suud Əfəndi kimi qüdrətli alimlərin bu məqama gəlməsi ilə şeyxülislamlıq daha da önəm qazandı. Xüsusilə bu üç şəxsiyyətin Osmanlı dövlətinin yüksəlməsində önəmli çalışmaları olmuşdur.

Başlanğıcda qazəskərlik və müəllim-i sultani vəzifələrinə görə ikinci dərəcədə olan şeyxülislamlığın əsasən İbni Kamal (1525-1533) və Əbus-Suud Əfəndiyə (1545-1574) keçməsi ilə daha bir önəm qazandığı və qazəskərliyin üstündə bir görəv olaraq qəbul edildiyi anlaşılmaqdadır.

Osmanlı tarixində şeyxülislamlıq qurumu eyni zamanda görəv alan üç şeyxülislamın xüsusilə masson olması ilə də olduqca diqqət çəkici oldu. Onlar Şeyxülislam Musa Kazım Əfəndi, Şeyxülislam İzzətdin Əfəndi və Şeyxülislam Hayri Əfəndi idi.

Klassik Osmanlı dövründə dövlət görəvliləri qələmiyyə, seyfiyyə və elmiyyə olmaqla üç sinfə ayrılırdı. Elmiyyə sinfi günümüzün Ədalət və Milli Təhsil nazirlikləri ilə Diyanət İşləri Başqanlığının görəvlərini əhatə edirdi ki, başında şeyxülislamlıq qurumu dururdu.

1920-ci ildə Ankarada qurulan Məclis Hökumətində bu məqam Şəriyə və Evkaf Vəkaləti Nazirliyi olaraq yer aldı. Cümhuriyyətin elanından qısa müddət sonra, 1924-cü ildə dünyəvilik əsasının qəbul edilməsi nəticəsində bu nazirlik ləğv edildi. Onun yerini az öncə qeyd etdiyimiz Diyanət İşləri Başqanlığı aldı.

## Osmanlı şeyxülislamları

1. Molla Şəmsuddin-i Fənari (1424-1430)
2. Molla Fəxrəddin Acəmi (1430-1460)
3. Molla Husrəv (1460-1480)
4. Molla Gurani (1480-1488)
5. Molla Əbdülkərim (1488-1495)
6. Əlaətdin Çələbi (1495-1496)
7. Əfdalzadə Hamidətdin (1496-1503)
8. Zənbilli Əli Əfəndi (1503-1526)
9. Kamalpaşazadə Əhməd Şəmsətdin Əfəndi (İbni Kamal) (1526-1534)
10. Sədullah Sədi Əfəndi (1534-1539)
11. Çivizadə Muhitdin Mehmet Əfəndi (1539-1542)
12. Hamidi Əbdülqadir Əfəndi (1542-1543)
13. Fənərizadə Muhitdin Əfəndi (1543-1545)
14. Mehmet Əbussuud Əfəndi (1545-1574)
15. Hamid Mahmud Əfəndi (1574-1577)
16. Kadızadə Əhməd Şəmsəddin Əfəndi (1577-1580)
17. Malulzadə Mehmet Əfəndi (1580-1582)
18. Çivizadə Hacı Mehmet Əfəndi (1582-1587)
19. Müeyyətzadə Əbdulqadir Əfəndi (1587-1589)
20. Bostanzadə Mehmet Əfəndi (1589-1592) (birinci dəfə)
21. Bayramzadə Hacı Zəkəriyyə Əfəndi (1592-1593)
22. Bostanzadə Mehmet Əfəndi (1593-1598) (ikinci dəfə)
23. Hoca Sadətdin Əfəndi (1598-1599)
24. Hacı Mustafa Sunullah Əfəndi (1599-1601) (birinci dəfə)
25. Hocasadətdinzadə Mehmet Çələbi Əfəndi (1601-1603)
26. Hacı Mustafa Sunullah Əfəndi (1603) (ikinci dəfə)
27. Əbulmeyamin Mustafa Əfəndi (1603-1604) (birinci dəfə)
28. Hacı Mustafa Sunullah Əfəndi (1604-1606) (üçüncü dəfə)
29. Əbulmeyamin Mustafa Əfəndi (1606) (ikinci dəfə)
30. Hacı Mustafa Sunullah Əfəndi (1606-1608) (dördüncü dəfə)

31. Hocasadətdinzadə Mehmet Çələbi Əfəndi (1608-1615)
32. Hocasadətdinzadə Mehmət Əsat Əfəndi (1615-1622) (birinci dəfə)
33. Zəkəriyyəzadə Yəhya Əfəndi (1622-1623) (birinci dəfə)
34. Hocasadətdinzadə Mehmet Əsat Əfəndi (1623-1625) (ikinci dəfə)
35. Zəkəriyyəzadə Yəhya Əfəndi (1625-1632) (ikinci dəfə)
36. Ahizadə Hüseyin Əfəndi (1632-1634)
37. Zəkəriyyəzadə Yəhya Əfəndi (1634-1644) (üçüncü dəfə)
38. Əsatpaşazadə Əbu Səid Mehmet Əfəndi (1644-1646)
39. Muid Əhməd Əfəndi (1646-1647)
40. Hacı Əbdürrahim Əfəndi (1647-1649)
41. Bahai Mehmet Əfəndi (1649-1651)
42. Karaçələbizadə Əbdüləziz Əfəndi (1651)
43. Əsatəfəndizadə Əbu Səid Mehmet Əfəndi (1651-1652) (birinci dəfə)
44. Bahai Mehmet Əfəndi (1652-1654)
45. Əsatəfəndizadə Əbu Səid Mehmet Əfəndi (1654-1655) (ikinci dəfə)
46. Hüsamzadə Əbdurrəhman Əfəndi (1655-1656)
47. Məmikzadə Mustafa Əfəndi (1656)
48. Hocazadə Məsud Əfəndi (1656)
49. Hənəfi Mehmet Əfəndi (1656)
50. Balizadə Mustafa Əfəndi (1656-1657)
51. Boləvi Mustafa Əfəndi (1657-1659)
52. Əsiri Mehmet Əfəndi (1659-1662)
53. Sunizadə Seyid Mehmet Emin Əfəndi (1662)
54. Minkarizadə Yəhya Əfəndi (1662-1674)
55. Çatalcalı Əli Əfəndi (1674-1686)
56. Ankaravi Mehmet Əmin Əfəndi (1686-1687)
57. Dəbbağzadə Mehmet Əfəndi (1687-1688) (birinci dəfə)
58. Hacı Feyzullah Əfəndi (1688)
59. Dəbbağzadə Mehmet Əfəndi (1688-1690) (ikinci dəfə)
60. Əbusəidzadə Feyzullah Feyzi Əfəndi (1690-1692)
61. Çatalcalı Əli Əfəndi (1692)

62. Əbusəidzadə Feyzullah Feyzi Əfəndi (1692-1694)
63. Sadiq Mehmet Əfəndi (1694-1695)
64. İmam Mehmet Əfəndi (1695) (birinci dəfə)
65. Hacı Feyzullah Əfəndi (1695-1703)
66. Başmaqçızadə Seyid Əli Əfəndi (1703)
67. Yekçeşm Hüseyin Əfəndi (1703)
68. İmam Mehmet Əfəndi (1703-1704) (ikinci dəfə)
69. Başmaqçızadə Seyid Əli Əfəndi (1704-1707)
70. Sadiq Mehmet Əfəndi (1707-1708)
71. Əbəzadə Abdullah Əfəndi (1708-1710)
72. Başmaqçızade Seyid Əli Əfəndi (1710-1712)
73. Əbəzadə Abdullah Əfəndi (1712-1713)
74. Mehmet Ətaullah Əfəndi (1713)
75. İmam Mahmud Əfəndi (1713-1714)
76. Mirzə Mustafa Əfəndi (1714-1715)
77. Menteşzadə Əbdürrəhman Əfəndi (1715-1716)
78. Əbu İshaq İsmail Naim Əfəndi (1716-1718)
79. Yenişəhərli Abdullah Əfəndi (1718-1930)
80. Mirzəzadə Şeyx Mehmet Əfəndi (1730-1731)
81. Başmaqçızadə Abdullah Əfəndi (1731-1732)
82. Damatzadə Əbulxeyr Əhməd Əfəndi (1732-1733)
83. Əbuishaqzadə İshaq Əfəndi (1733-1734)
84. Dürri Mehmet Əfəndi (1734-1736)
85. Seyid Mustafa Əfəndi (1736-1745)
86. Pirizadə Mehmet Sahib Əfəndi (1745-1746)
87. Həyatizadə Mehmet Əmin Əfəndi (1746)
88. Seyid Mehmet Zeynalabidin Əfəndi (1746-1748)
89. Əbuishaqzadə Mehmet Əsat Əfəndi (1748-1749)
90. Mehmet Səid Əfəndi (1749-1750)
91. Seyid Murtəza Əfəndi (1750-1755)
92. Abdullah Vassaf Əfəndi (1755)
93. Damatzadə Feyzullah Əfəndi (1755-1756)
94. Dürrizadə Mustafa Əfəndi (1756-1757) (birinci dəfə)
95. Damatzadə Feyzullah Əfəndi (1757-1758)
96. Mehmet Salih Əfəndi (1758-1759)

97. Çələbizadə İsmail Asim Əfəndi (1759-1760)
98. Hacı Vəliyəddin Əfəndi (1760-1761)
99. Tirəvi Əhməd Əfəndi (1761-1762)
100. Dürrizadə Mustafa Əfəndi (1762-1767) (ikinci dəfə)
101. Hacı Vəliyəddin Əfəndi (1757-1768)
102. Pirizadə Osman Sahib Əfəndi (1768-1770)
103. Mirzəzadə Seyid Mehmet Səid Əfəndi (1770-1773)
104. Şərifzadə Seyid Mehmet Şərif Əfəndi (1773-1774)
105. Dürrizadə Mustafa Əfəndi (1774) (üçüncü dəfə)
106. İvazpaşazadə İbrahim Bəy Əfəndi (1774-1775)
107. Salehzadə Mehmet Əmin Əfəndi (1775-1776)
108. Vassafzadə Mehmet Əsat Əfəndi (1776-1778)
109. Mehmet Şərif Əfəndi (1778-1782)
110. Seyid İbrahim Əfəndi (1782-1783)
111. Dürrizadə Seyid Mehmet Ətaullah Əfəndi (1783-1785)
112. İvazpaşazadə İbrahim Bəy Əfəndi (1785)
113. Ərəbzadə Əhməd Ətaullah Əfəndi (1785)
114. Dürrizadə Seyid Mehmet Arif Əfəndi (1785-1786) (birinci dəfə)
115. Müftizadə Əhməd Əfəndi (1786-1787)
116. Məkki Mehmet Əfəndi (1787-1788)
117. Seyid Mehmet Kamil Əfəndi (1788-1789)
118. Mehmet Şərif Əfəndi (1789)
119. Hamitzadə Mustafa Əfəndi (1789-1791)
120. Seyid Yəhya Təvfiq Əfəndi (1791)
121. Məkki Mehmet Əfəndi (1791-1792)
122. Dürrizadə Seyid Mehmet Arif Əfəndi (1792-1798) (ikinci dəfə)
123. Mustafa Aşir Əfəndi (1798-1800)
124. Samanizadə Ömər Hulusi Əfəndi (1800-1803) (birinci dəfə)
125. Salehzadə Əhməd Əsat Əfəndi (1803-1806)
126. Şərifzadə Mehmet Ətaullah Əfəndi (1806-1807) (birinci dəfə)
127. Samanizadə Ömər Hulusi Əfəndi (1807) (ikinci dəfə)

128. Şərifzadə Mehmet Ətaullah Əfəndi (1807-1808) (ikinci dəfə)
129. Ərəbzadə Mehmet Arif Əfəndi (1808)
130. Salehzadə Əhməd Əsat Əfəndi (1808)
131. Dürrizadə Seyid Abdullah Əfəndi (1808-1810) (birinci dəfə)
132. Samanizadə Ömər Hulusi Əfəndi (1810-1812) (üçüncü dəfə)
133. Dürrizadə Seyid Abdullah Əfəndi (1812-1815) (ikinci dəfə)
134. Mehmet Zeynəlabidin Əfəndi (1815-1818)
135. Məkkizadə Mustafa Asim Əfəndi (1818-1819) (birinci dəfə)
136. Hacı Xəlil Əfəndi (1819-1821)
137. Yasincizadə Əbdülvəhhab Əfəndi (1821-1822)
138. Sitqızadə Əhməd Rəşid Əfəndi (1822-1823)
139. Məkkizadə Mustafa Asim Əfəndi (1823-1825) (ikinci dəfə)
140. Kadızadə Mehmet Tahir Əfəndi (1825-1828)
141. Yasincizadə Əbdülvəhhab Əfəndi (1828-1833)
142. Məkkizadə Mustafa Asim Əfəndi (1833-1846) (üçüncü dəfə)
143. Əhməd Arif Hikmət Bəy Əfəndi (1846-1854)
144. Məşrəbzadə Mehmet Arif Əfəndi (1854-1858)
145. Seyid Mehmet Sadəttin Əfəndi (1858-1863)
146. Atıfzadə Ömər Hüsamətdin Əfəndi (1863-1866)
147. Hacı Mehmet Rəfiq Əfəndi (1866-1868)
148. Həsən Fəhmi Əfəndi (1868-1871)
149. Əhməd Muxtar Molla Bəy Əfəndi (1871-1872) (birinci dəfə)
150. Turşucuzadə Əhməd Muxtar Əfəndi (1872-1874)
151. Həsən Xeyrullah Əfəndi (1874)
152. Həsən Fəhmi Əfəndi (1874-1876)
153. Həsən Xeyrullah Əfəndi (1876-1877)
154. Qara Xəlil Əfəndi (1877-1878)

155. Əhməd Muxtar Molla Bəy Əfəndi (1878) (ikinci dəfə)
156. Uryanizadə Əhməd Əsad Əfəndi (1878-1889)
157. Bodrumlu Ömər Lütfi Əfəndi (1889-1891)
158. Mehmed Cəmaləddin Əfəndi (1891-1909)
159. Mehmet Ziyaətdin Əfəndi (1909)
160. Mehmet Sahib Molla Bəy Əfəndi (1909)
161. Çələbizadə Hüseyn Hüsnü Əfəndi (1910)
162. Musa Kazim Əfəndi (1910-1911)
163. Əbdurrəhman Nəsib Əfəndi (1911-1912)
164. Mehmed Cəmaləddin Əfəndi (1912-1913)
165. Mehmet Əsat Əfəndi (1913-1914)
166. Ürgüplü Mustafa Xeyri Əfəndi (1914-1916)
167. Musa Kazim Əfəndi (1916-1918)
168. Ömər Hulusi Əfəndi (1918)
169. Heydərizadə İbrahim Əfəndi (1918-1919)
170. Mustafa Sabri Əfəndi (1919)
171. Heydərizadə İbrahim Əfəndi (1919-1920)
172. Dürrizadə Abdullah Əfəndi (1920)
173. Mustafa Sabri Əfəndi (1920)
174. Mədəni Mehmet Nuri Əfəndi (1920-1922)[83]

[83] http://tr.wikipedia.org/wiki/%C5%9Eeyh%C3%BClislam.

## 1.5. Qafqaz Müsəlmanları İdarəsində fəaliyyət göstərən müftilər

### Müfti Tacuddin Mustafin

Qafqazın sünni İslam cərəyanına mənsub olan müsəlmanların ilk müftisini 1832-ci ildə çar generalı Roze təklif edib. Bu şəxs hərbi hissədə yenicə kapitan rütbəsini alan Tacuddin Mustafin idi. O, Kazan şəhərindən Tiflisə dəvət edilmişdi.

Tacuddin Mustafin Şeyx Şamillə ümumi dil tapa bilmədiyi üçün az vaxtda hörmətini itirir və 1840-cı ildə vəzifəsindən azad edilir.

### Müfti Osman Əfəndi Vəlizadə

Müfti Tacuddin Mustafin vəzifəsindən azad edildikdən sonra 1842-ci ildə general Qolovinin təklifi ilə görkəmli Azərbaycan şairi Molla Vəli Vidadinin oğlu Osman Əfəndi Vəlizadə Qafqazın (Zaqafqaziyanın) ikinci müftisi təyin edilir. O, 1847-ci ildə vəfat edib.

### Müfti Məhəmməd Əfəndi Müftizadə

Osman Əfəndi Vəlizadə vəfat etdikdən sonra onun yerinə oğlu Məhəmməd Əfəndi Müftizadə təyin edilir. Məhəmməd Əfəndi dövrünün ən nüfuzlu ilahiyyatçılarından biri olub. O, 1867-1868-ci illərdə Şamaxıya gedib və orada Seyyid Əzim Şirvani ilə görüşüb.

Məhəmməd Əfəndi Müftizadə 1847-ci ildən ömrünün axırınadək, yəni 1880-ci ilə kimi Tiflisdə yerləşən ruhani idarəsində Qafqaz (Zaqafqaziya) sünni müsəlmanlarının müftisi vəzifəsini icra edib.

### Müfti Əbdülhəmid Əfəndizadə

Müfti Əbdülhəmid Əfəndizadə 1812-ci il aprel ayının 15-də Şamaxıda anadan olub. 10 yaşında təhsilə başlayan Əbdülhəmid məktəbi bitirdikdən sonra (17 yaşında) əmisi Hacı Əli Əfəndi-

zadənin dərs dediyi Şamaxı mədrəsəsinə daxil olub və burada Şərq dillərinə yiyələnib. Mədrəsə təhsilini bitirdikdən sonra əmisi ilə bir yerdə işləməyə başlayan Əbdülhəmid Əfəndizadə maarif sahəsində getdikcə şöhrət qazanır. O, əmisinin məsləhəti ilə 1849-cu il fevralın 22-də dövlət məktəbinə işə götürülür və şəriət müəllimi vəzifəsini icra edir. Əbdülhəmid Əfəndizadə məktəbdə işlədiyi zaman Azərbaycan, fars və ərəb dillərindən əlavə, fransız dilinin incəliklərini də şagirdlərə öyrədə bilib. Sonralar onun işlədiyi dövlət məktəbi müəyyən səbəblərə görə bağlanır.

Əbdülhəmid Əfəndizadə 1860-cı ilin əvvəlində Məkkəni ziyarət edərək hacı titulunu qazanıb. O, 1864-cü il yanvarın 16-da Şamaxı Ruhani İdarəsinə sədr və qazı təyin edilib, fəaliyyətinə görə canişinlik tərəfindən brilyant qaşlı üzüklə mükafatlandırılıb.

Müfti Əbdülhəmid Əfəndizadə 1872-ci il dekabrın əvvəllərində Qafqaz (Zaqafqaziya) Sünni Əhli İdarəsinin sədri vəzifəsinə təyin olunduğundan Tiflisə köçür. O, 1880-ci il dekabr ayının 10-da Tiflisdə vəfat edib.

## Müfti Hüseyn Qayıbzadə

Hüseyn Molla Yusif oğlu Qayıbzadə 1830-cu ildə Qazax qəzasının Salahlı kəndində anadan olub. Uşaq yaşlarından ata-anadan yetim qalıb və kənd mollası - əmisi İbrahim Əfəndinin himayəsində böyüyüb. İlk təhsilini müdərris Məhəmməd Musazadədən alan Hüseyn dini elmlərlə yanaşı, ərəb, fars və türk dillərini, həmçinin Şərq ədəbiyyatı və tarixini də mükəmməl öyrənə bilib. O, 17 yaşında ikən oxuduğu Salahlı kənd məktəbində müəllim saxlanılıb.

1857-ci il iyulun 25-də Qafqaz müftisi Məhəmməd Əfəndi Hüseyn Qayıbzadə Tiflisdəki üçillik müsəlman ruhani məktəbində işə düzəlməsinə nail olur. O, 1858-ci ilin fevralında burada şəriətdən və Şərq dillərindən dərs deməyə başlayır.

Müfti Hüseyn Qayıbzadə 1879-cu ildən 1883-cü ilə kimi Qori Müəllimlər Seminariyasında işləyib. O, Tiflisdə azərbaycanlı kasıblar üçün öz hesabına məktəb açır, sonralar - XX əsrin

əvvəllərində isə həmin məktəbi genişləndirərək altı sinifli “Müfti-İslam məktəbi”nə çevirir.

Müfti Hüseyn Qayıbzadə azərbaycanlı qızların təhsil alması qayğısına da qalıb. Bu çətin işdə özü əvvəlcə şəxsi nümunə göstərir, iki qızını - Nigar və Cövhəri oxutdurur. O, 1883-cü ilin axırlarında müəllimlikdən azad edilərək Qafqaz müftisi təyin olunur və 1917-ci ilin martınadək bu vəzifədə çalışır.

Hüseyn Qayıbzadə bir neçə məqalənin və kitabın müəllifi kimi də tanınır. O, müsəlman mədrəsəsində tədris edilmək üçün riyaziyyata dair “Məsaili-ammil-hesab” (“Hesab ümumi məsələləri”) və ana dilini təzə öyrənənlər üçün “Məbdəyi-təlimi-sibyan” (“Yeniyetmələr üçün başlanğıc”) adlı dərs vəsaitləri də hazırlayıb.

Hüseyn Qayıbzadə təkcə maarif sahəsində deyil, ədəbiyyatşünaslıq sahəsində də xeyli işlər görüb. O, çoxlu atalar sözü, zərb-məsəllər, hikmətli sözlər toplayaraq 9 hissədən ibarət “Tövsiyyətnamə” kitabını yazıb, eyni zamanda, XVIII-XIX əsrlərdə yaşamış 109 Azərbaycan şairinin əsərlərindən ibarət dördcildlik antologiya tərtib edib.

Yüksək imtiyazlara malik olan Hüseyn Qayıbovun sinəsini çoxlu çar orden və medalları bəzəyib. Hüseyn Qayıbzadə qızların yeni məktəblərdə təhsil almalarına təşəbbüs göstərərək öz arvadı Səadət xanıma Qafqaz Qadınlarının Xeyriyyə Cəmiyyətində iştirak etməyə icazə verir, qızları - Nigar (sonralar general Ə.Şıxlinskinin xanımı) və Göhvər xanımı (sonralar general Usubovun xanımı) rus dilində Tiflis Nücabə Qızlar İnstitutunda oxutdurur. Nigar xanım 1889-cu ildə, Gövhər xanım isə 1903-cü ildə həmin institutu qızıl medalla bitirir.

Müfti Hüseyn Qayıbzadə 1917-ci ilin martında Tiflisdə vəfat edib. Onun vəfatından sonra çar üsul-idarəsi dağıldığı üçün Qafqaz (Zaqafqaziya) Ruhani İdarəsi də öz funksiyasını itirir. Demək olar ki, respublikamızda da 1920-ci ildən 1944-cü ilə kimi müftilik vəzifəsi olmayıb.

## Müfti Hacı İbrahim Əfəndi Əfəndizadə

1944-cü ildə keçirilən Qafqaz (Zaqafqaziya) müsəlmanlarının növbəti (SSRİ tərkibində birinci) qurultayında Hacı İbrahim Əfəndi Əfəndizadə Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsinin sədr müavini - baş müfti seçilir və ömrünün sonuna (1956-cı ilə) kimi bu vəzifəni icra edir.

Hacı İbrahim Əfəndi ilahiyyat elminə mükəmməl bələd olan, dini ayinləri, şəriətin tələblərini yaxşı təbliğ edən din xadimi kimi ad qazanıb. O, həyatı boyu və fəaliyyəti dövründə sülhü müdafiə edib, nüvə silahına qarşı Ümumdünya Sülh Şurasının çağırışlarını alqışlayıb, ABŞ-ın Koreyaya hərbi müdaxiləsini pisləyib, həmçinin dindarları sülhə, əminamanlığa və halal zəhmətə səsləyib.

Müfti Hacı İbrahim Əfəndi Əfəndizadə 1956-cı ildə vəfat edib.

## Müfti Əsədulla Dibirov

Hacı İbrahim Əfəndi vəfat etdikdən sonra 1956-cı ildə Zaqafqaziya müsəlmanlarının IV Qurultayında Göyçay məscidinin imamı Əsədulla Dibirov Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsinə müfti seçilir. O, 1959-cu ilə qədər bu vəzifəni icra edib.

Müfti Əsədulla Dibirov çalışdığı müddətdə sünni və şiə dindarları arasında ayrı-seçkiliyi pisləyib, müsəlmanları birliyə və sülhə çağırıb.

## Müfti Şərif Əfəndi Vəlizadə

Qafqaz (Zaqafqaziya) müsəlmanlarının V Qurultayında (1960-cı il) Göyçay məscidinin imamı Şərif Əfəndi Vəlizadə Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsinin sədr müavini - müfti seçilir. Yaxşı dini məlumata və nitq qabiliyyətinə malik olan Şərif Əfəndi daim müasirləşmənin tərəfdarı olub: “Köhnəlmiş dini tələbləri təzələməsək dinimiz əldən gedər, dindarlar bizdən üz döndərər”. O, ateizm təbliğatına müqavimət göstərməyin tərəfdarı idi, ateizmi “məscidin günbəzinə dəyib kənara düşən” qoza bənzədirdi.

Müfti Şərif Əfəndi 1966-cı ildə vəfat edib.

## Müfti Əhməd Əfəndi Bozgəziyev

1968-ci ildə Qafqaz (Zaqafqaziya) müsəlmanlarının VI Qurultayında yüksək dini savada malik olan Əhməd Əfəndi Bozgəziyev Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsinin sədr müavini - müfti seçilir. O, mütaliə ilə məşğul olaraq dini baxışları müasir elmə istinad etməklə əsaslandırmağı sevən bir insan idi.

Əhməd Əfəndi orucluğun müalicəvi əhəmiyyətindən bəhs edən moizələrlə məscidlərdə çıxışlar edərək insanları mübarək Ramazan ayının fəziləti ilə bağlı maarifləndirməyə, İslamın sosial ehkamlarını izah etməyə çalışıb, müasir dövlət quruluşunu ilkin müsəlman icmasının oxşarı hesab edib. O, dini tələblərə ciddi əməl olunmasını əsas vacib şərt sayıb.

Əhməd Əfəndi zahirən təkəbbürlü göründüyünə görə dindarlar arasında bir o qədər də nüfuza malik olmayıb. Buna görə də 1969-cu ildə Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsinin Plenumunda Müfti Əhməd Əfəndi Bozgəziyev müftilikdən kənar edilib.

## Müfti Hacı İsmayıl Əhmədov

Müfti Hacı İsmayıl Əhmədov 1907-ci ildə Şəkidə anadan olub. O, 1916-1918-ci illərdə Şəki ibtidai məktəbində, sonra şəhər məktəbində oxuyub, 1923-1930-cu illərdə isə mədrəsə təhsili alıb. Hacı İsmayıl Əhmədov 1941-1945-ci illərdə Böyük Vətən müharibəsinin iştirakçısı olub, bir çox orden və medallarla təltif olunub. 1945-1967-ci illərdə Şəki şəhər Məişət Kombinatında işləyən Hacı İsmayıl sonralar Bakıya köçüb və iki ilə yaxın “Hacı Əcdərbəy” məscidində (“Göy” məscid) mollalıq edib.

1969-cu ilin mayında Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsinin Plenumunda Hacı İsmayıl Əhmədov idarə sədrinin müavini - müfti seçilir. Yüksək dini savadı olmayan yeni müfti öz mülayimliyi, dövlətə sadiqliyi ilə tanınırdı. O, moizə etməyə o qədər də həvəsi olmayan birisi idi, lakin xoş rəftarına görə sünni dindarların rəğbətini qazana bilmişdi.

Müfti Hacı İsmayıl Əhmədov 1970 və 1973-cü illərdə Məkkəyə gedərək Kəbəni ziyarət edib. O, 1986-cı ildə vəfat edib.

### Müfti Hacı Salman Əfəndi Musayev

Müfti Hacı Salman Musa oğlu Musayev 1958-ci ildə Gürcüstanın Dmanisi (Başkeçid) rayonunun Hamamlı kəndində fəhlə ailəsində anadan olub. O, Özbəkistanın Buxara şəhərindəki Mir Ərəb mədrəsəsini, Daşkənd İslam İnstitutunu və Liviyadakı İslama Çağırış Universitetini bitirib. Əvvəlcə Tbilisi Cümə məscidində imam-xətib, sonra Qafqaz (Zaqafqaziya) Müsəlmanları Ruhani İdarəsinin Xarici əlaqələr şöbəsində referent vəzifəsini icra edib. Müfti Hacı Salman Əfəndi 1987-ci ildə Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsinin sədr müavini və müfti təyin edilir. 1989-cu il iyulun 25-də keçirilən Zaqafqaziya müsəlmanlarının IX Qurultayında isə onun müfti dini rütbəsi təsdiq edilib.

Müfti Hacı Salman Əfəndi müsəlmanlar arasında böyük hörmətə malikdir. O, dünyanın əksər müsəlman ölkələrində keçirilən ali məclislərin iştirakçısı olub. Qazandığı hörmət və nüfuzuna görə uzun müddət "Hacı Əjdərbəy" məscidinin imam-xətib vəzifəsi ona həvalə olunub.

Dəfələrlə Məkkə ziyarətində olan Müfti Hacı Salman Əfəndi hazırda da bu vəzifəni icra edir.

# II FƏSİL

## ŞEYXÜLİSLAM AXUND HACI ALLAHŞÜKÜR PAŞAZADƏ VƏ ONUN ELMİ-DİNİ VƏ İCTİMAİ FƏALİYYƏTİ

### 2.1. Şeyxülislam Hacı Allahşükür Paşazadənin həyatı və fəaliyyəti



Doğum tarixi – 1949,
Şeyxülislamlığa təyin edildiyi il - 1980

Allahşükür Paşazadə 1949-cu ilin 26 avqustunda Azərbaycanın cənub şəhərlərindən biri olan Lənkəranın Cil kəndində anadan olmuşdur. Dünyəvi təhsilini Veravul kənd məktəbində, ilk ruhani təhsilini isə dövrünün görkəmli din xadimi olan Şeyx Qüdrətin evində almışdır.

Gənc yaşlarından iti zəkası və dərin hafizəsi ilə kəskin fərqlənən Allahşükür Paşazadə qısa müddətdə Qurani-Kərimi mənimsəyərək şəriətin tələblərini dərindən öyrənir. Ateist ideologiyanın təbliğ olunduğu, uşaq və yeniyetmələrin tamamilə başqa ruhda böyüdüldüyü bir şəraitdə o, orucunu batil etmir, namazlarını da vaxtlı-vaxtında qılaraq qəzaya saxlamır.

1966-cı ildə Quranın bilicisi kimi Özbəkistanın Buxara şəhərinə gedən Allahşükür Paşazadə "Mir Ərəb" mədrəsəsinə, 1972-ci ildə isə SSRİ-də yeganə ali dini məktəb olan Daşkənd Ali Ruhani İnstitutuna qəbul olur. O, 1975-ci ildə təhsilini tamamlayıb mükəmməl bir ruhani kimi Azərbaycana qayıdır.

Allahşükür Paşazadə 1975-ci ildən 1978-ci ilə kimi Qafqaz Müsəlmanları Ruhani İdarəsində Şeyxülislam Əliağa Süleymanzadənin əmri və məsləhəti ilə məsul katib vəzifəsində fəaliyyət göstərir. Onu bu vəzifəyə təyin etdiyi zaman Şeyxülislam Əliağa Süleymanzadə idarə işçilərinə belə deyir: "Mən olmayanda, çətin bir işiniz olanda ona müraciət edin".

Allahşükür Paşazadə 1978-ci ildə Təzəpir məscidinin axundu təyin edilir. Gənc axundun mühakimələri, İslam fəlsəfəsinə özünəməxsus münasibəti görüşünə gəlmiş ziyalıları və xarici qonaqları heyrətə gətirirdi. Xüsusi qabiliyyətinə və qeyri-adi mühakimələrinə, təşkilati bacarığına görə çox keçmir ki, o, Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini seçilir.

1978-ci ildə Şeyxülislam Əliağa Süleymanzadə vəfat etdikdən sonra onu bu vəzifədə əvəzləyən Mirqəzənfər İbrahimov da Qafqaz Müslmanlar İdarəsinin əsas işlərini gənc və bacarıqlı Allahşükür Paşazadəyə həvalə edir. Mirqəzənfər İbrahimovun vəfatından sonra isə bu vəzifəyə Allahşükür Paşazadədən başqa layiqli namizəd yox idi.

1980-cı ildə çağrılan Qafqaz müsəlmanlarının qurultayında 30 yaşlı Allahşükür Paşazadə Qafqaz Müsəlmanları İdarəsinin sədri, yəni sayca on ikinci şeyxülislam təyin edilir.

Sovet hakimiyyəti illərində Azərbaycanda fəaliyyət göstərən 1700 məsciddən 1683-ü məhv edilmişdi. Dağıldılmış məscidlərdən biri də XII əsrdə Şirvanşah II Fərruxun memar Mahmud ibn Sadın layihəsi əsasında tikdirdiyi Bibiheybət məscidi idi. 1936-cı ildə dağıldılan məscidin yerində Stalinin heykəli qoyulmuşdu. Onuncu Şeyxülislam Əliağa Süleymanzadənin imzası ilə məscidin bərpası üçün Mərkəzi Komitəyə müraciətlər olunsa da bu sahədə lazımi irəliləyiş olmamışdı. XII Şeyxülislam Allahşükür Paşazadə məlum məsələ ilə bağlı mövcud çətinliyi yaxşı başa düşür, dövlət orqanları tərəfindən ciddi xəbərdarlıqlar almasına baxmayaraq Bibiheybət məscidinin bərpası üçün daha ciddi cəhdlər göstərməyə başlayır. 1990-cı ildə yenidən hökumət orqanlarına xahişlə müraciət edən Şeyxülislam həzrətləri, nəhayət tikinti üçün torpaq sahəsi ayrılmasına nail olur.

1995-ci ildə Stalinin abidəsinin qələbə tağı sökülərək yerində Xanım Həkimənin (ə), yeddinci İmam Museyi-Kazimin (ə) üç nəvəsinin və Hacı Heybətin qəbirləri aşkar edildi. Məscidin bərpası üçün dövlət büdcəsindən 3 milyard manat ayrıldı. 1997-ci il iyulun 23-də, Həzrət Peyğəmbərin (s) mübarək Mövluduna təsadüf edən gündə Bibiheybət məscidinin tikintisinə başlanıldı, cəmi bir il sonra isə bərpa və tikinti işləri başa çatdırıldı.

Fəaliyyətinin ilk günlərindən beynəlxalq aləmdə böyük nüfuz qazanan Şeyxülislam Allahşükür Paşazadə 1983-cü ildə İordaniya İslam Mədəniyyəti Kral Akademiyasının müxbir üzvü seçilir.

Hazırda Ümumdünya İslam Konqresi Rəyasət Heyətinin üzvü olan Şeyxülislam həzrətləri həm də Qafqaz Müsəlmanları İdarəsi Qazılar Şurasının sədridir.

Qafqaz xalqlarının sülhməramlı niyyətlərinin tərəfdarı və müdafiəçisi olan Hacı Allahşükür Paşazadə 1986-cı ildə Bakıda keçirilən "Müsəlmanlar sülh uğrunda mübarizədə" Beynəlxalq İslam Konfransının təşəbbüskarı və onun daimi fəaliyyət göstərən Beynəlxalq Komissiyasının sədridir.

Şeyxülislam Allahşükür Paşazadə 1987-ci ildə Moskvada keçirilən "Nüvə silahsız dünya, bəşəriyyətin xilası uğrunda" Beynəlxalq Forumun təşəbbüskar qrupunun başçısı və həmsədri olmuşdur. O, 1988-ci ildə sülhsevər fəaliyyətinə görə SSRİ-nin "Xalqlar dostluğu" ordeni ilə təltif edilmişdir.

1989-cu ildə SSRİ Ali Sovetinin xalq deputatı seçilən Şeyxülislam Allahşükür Paşazadə 1990 - 1995-ci illərdə Azərbaycan Respublikası Ali Sovetinin deputatı, 1991-ci ilə qədər isə SSRİ Sülhü Müdafiə Komitəsinin üzvü olmuşdur.

1991-ci ildə keçmiş sovet respublikaları arasında Azərbaycanın İslam Konfransı Təşkilatına birinci olaraq üzv qəbul olunmasında Şeyxülislam Allahşükür Paşazadənin şəxsi təşəbbüsünün böyük rolu olmuşdur.

Şeyxülislamlıqla yanaşı, elmi fəaliyyətini də davam etdirən Hacı Allahşükür Paşazadə 1992-ci ildən tarix elmləri doktoru elmi adını daşıyır, şərqşünas alim olaraq ərəb, fars, rus, puştu, türk və özbək dillərini mükəmməl bilir.

Şeyxülislam həzrətləri 1994-cü ildə Azərbaycan Respublikasının "Şöhrət", 1999-cu ildə "İstiqlal" ordenləri ilə təltif edilmiş, 2001-ci ildə Rusiyanın I dərəcəli "Müqəddəs Vladimir" və Gürcüstan Respublikasının "Şərəf" ordenlərinə layiq görülmüşdür.

Qafqaz müsəlmanlarının 2003-cü ildə keçirilmiş XI Qurultayında ömürlük şeyxülislam seçilən Hacı Allahşükür Paşazadə bundan bir il sonra Müstəqil Dövlətlər Birliyi ölkələrinin Dinlərarası Sülhyaratma Şurasının fəxri həmsədri də seçilmişdir.

Şeyxülislam Allahşükür Paşazadə Ümumdünya İslam Konqresi, Ümumdünya Xalq Rəhbərliyi, Ümumdünya Sülh Şurası, Avrasiya İslam Şurası, "Vicdana çağırış" Beynəlxalq Fondu və bir sıra digər beynəlxalq təşkilatların rəyasət heyətlərinin üzvüdür.

Dini-ictimai xadim kimi beynəlxalq aləmdə malik olduğu böyük nüfuzdan istifadə edərək Şeyxülislam Allahşükür Paşazadə Azərbaycan həqiqətlərini, Qarabağ probleminin mahiyyətini tanınmış din və dövlət liderləri ilə yüksək səviyyəli görüşlərində,

ən yüksək xitabət kürsülərindən etdiyi çıxış və məruzələrində dünya ictimaiyyətinin diqqətinə çatdırır, bölgəmizdə sülhün və əmin-amanlığın möhkəmləndirilməsi ilə bağlı geniş təbliğat işi aparır.

Qarabağ probleminin sülh yolu ilə həll olunması üçün əlindən gələni əsirgəməyən Şeyxülislam Allahşükür Paşazadə dəfələrlə ermənilərin dini liderləri ilə görüşmüş, münaqişənin dini müstəviyə keçməsinə imkan verməmişdir. O, 1988-ci ildən başlayaraq erməni kilsəsinin rəhbərlərini Qarabağ məsələsi ilə bağlı konstruktiv dialoqa dəvət etmişdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində və beynəlxalq aləmdə Ermənistanın təcavüzkar dövlət kimi tanınmasında Şeyxülislam Allahşükür Paşazadənin rolu böyükdür.

Şeyxülislam həzrətləri 1988-ci ildə I Vazgenlə ilk, 1993-cü ildə Ümumdünya Kilsələr Şurasının xətti ilə Cenevrədəki son görüşündə, həmçinin dünyanın mötəbər dini təşkilatlarının xətti ilə reallaşan çoxsaylı səfərlərində həmişə sülh tərəfdarı olduğunu bildirərək xatırlatmışdır: "Dini məfkurəyə xidmət edən şəxs milli təcridə, insan qırğınına xeyir-dua verə bilməz. Öz xalqının rifahına çalışan din xadimi başqa xalqlarla münasibətdə ədalətsiz mövqe tutmamalıdır. Ermənilər azərbaycanlılara münasibətdə bu vacib cəhətlərə məhəl qoymur və unudurlar ki, başqa xalqın torpaqlarına göz dikib işğalçılıq siyasəti aparmaqla gələcək nəsillərini təhlükə altında qoyacaqlar.

Azərbaycanlılar düşməni bağışlaya bilər, lakin heç vaxt əzəli torpaqlarını onlara verməz. Bu gün ermənilər işğal etdikləri torpaqları həqiqi sahiblərinə qaytarmaqla gələcək nəsillərini xilas etmiş olarlar".[84]

Dünya miqyasında nüfuzlu təşkilatlardan biri olan İslam Konfransı Təşkilatı (indiki İslam Əməkdaşlıq Təşkilatı) dünya siyasətinə təsir etməklə Azərbaycanın işğal olunmuş torpaqlarının azad olunmasına kömək edə bilərdi. Məhz Şeyxülislam həzrətlərinin bu beynəlxalq qurum daxilində fəaliyyətləri nə-

[84] Həmin mənbə, səh. 159-160.

ticəsində 1992-ci ildə İstanbulda keçirilmiş növbədənkənar və 1993-cü ildə Kəraçidə keçirilmiş növbəti konfransda İslam Konfransı Təşkilatı Ermənistanı təcavüzkar dövlət kimi tanıdı, erməni qoşunlarının Azərbaycan torpaqlarından çıxarılmasını tələb etdi.

Konfransın qəbul etdiyi qətnamədə erməni təcavüzü pislənilməklə yanaşı, Birləşmiş Millətlər Təşkilatından (BMT) tələb edildi ki, Təhlükəsizlik Şurasının qəbul etdiyi 822, 853, 874 və 884 saylı qətnamələrinə əməl olunsun və onların tələbləri yerinə yetirilsin.

BMT ilə yanaşı bəzi dövlətlərin, o cümlədən dünyanın hegemon dövlətlərindən olan Rusiya ilə ABŞ-ın da Ermənistanı indiyədək təcavüzkar kimi tanımaması müqabilində İslam Konfransı Təşkilatının aydın və qəti mövqeyi Şeyxülislam həzrətlərinin beynəlxalq səviyyədə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc yollarla həlli sahəsində yorulmaz fəaliyyətinin məntiqi nəticəsidir.

İslam Konfransı Təşkilatının tamhüquqlu üzvü olan Azərbaycanı bu beynəlxalq quruma tanıdan, ölkəmizi İslam dövlətləri ailəsinə qovuşmasında məhz Şeyxülislam Allahşükür Paşazadə müstəsna rol oynamışdır.

Azərbaycanın uğurları naminə fəaliyyətini davam etdirən Şeyxülislam Allahşükür Paşazadənin təşəbbüsü ilə 1994-cü ildə Bakıda Ümumdünya İslam Xalq Rəhbərliyi İdarə Heyətinin növbəti toplantısı keçirilir. Toplantının Bakıda təşkil olunmasından məqsəd 35 ölkənin 60-a yaxın səlahiyyətli nümayəndəsinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nəticələri ilə bilavasitə münaqişə bölgəsində tanış olması idi. Həmin ilin yayında Şeyxülislam həzrətləri əldə etdiyi uğurlara görə Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Şeyxülislam Allahşükür Paşazadənin səyləri sayəsində Həcc ziyarətinə gedənlərin sayı 1989-cu ildə 3 nəfərdən 1999-cu ildə 1200 nəfərə çatdırıldı. Belə ki, Milli Məclis 1992-ci ildə "Dini etiqad azadlığı haqqında" qəbul etdiyi qanuna Şeyxülislam həzrətlərinin təkidi ilə 1996-cı ildə yenidən baxaraq dindarların

və dini idarənin fəaliyyətinin daha da genişləndirilməsi barədə növbəti müddəalar əlavə etdi.

Məhz bu müddəalar sayəsində Şeyxülislam Allahşükür Paşazadə öz ali məqsədlərini qadağalarsız həyata keçirmək imkanı qazandı. Bu gün imkan və istəyi olan hər bir Azərbaycan vətandaşı Həcc ziyarətinə istədiyi ildə gedə bilər. Bütün bu nailiyyətlər Şeyxülislam həzrətlərinin gərgin əməyi və fəaliyyəti nəticəsində əldə olunmuşdur.



Şeyxülislam Hacı Allahşükür Paşazadə 20 Yanvar faciəsinin, Xocalı soyqırımının ildönümləri, 31 Mart soyqırımı günü ilə bağlı mütəmadi olaraq dünya ölkələrinin dövlət başçıları, parlamentləri və xalqlarına, həmçinin nüfuzlu beynəlxalq təşkilatlara müraciətlər ünvanlayır, onları Ermənistanın Azərbaycana qarşı haqsız təcavüz və vəhşiliklərinə prinsipial hüquqi qiymət verməyə, xalqımızın faciəsinə biganə qalmamağa çağırır.

1990-cı il 20 Yanvar faciəsinin canlı şahidi olan Şeyxülislam Allahşükür Paşazadə o günlərdə Azərbaycan xalqından öz köməyini əsirgəməmişdir. Məhz Şeyxülislam həzrətlərinin göstərdiyi qətiyyət nəticəsində keçmiş SSRİ Müdafiə naziri D.Yazov öz əmrini geri götürmüş və şəhidlərin Dağüstü Parkda dəfn edilməsinə icazə vermişdir.

Faciənin ilk günündə, günortaya yaxın “Vətən” Cəmiyyətinin teleksi Şeyxülislam Allahşükür Paşazadənin haray dolu, səbəbkarları lənətləyən məktubunun mətnini yayımladı:

“SSRİ Ali Sovetinin Sədri Mixail Qorbaçova.

Surəti: BMT-nin Baş katibi Havyer Peres de Kuelyara.

Bütün dövlətlərin və dinlərin başçılarına.

Yanvarın 19-dan 20-nə keçən gecə və sonrakı günlər Bakıda törədilən vəhşiliklər heç bir ölçüyə sığmır. Şəhərin küçələri yüzlərlə günahsız qurbanların qanına boyanmışdır. Onların arasında uşaqlar, qadınlar və qocalar da vardır. Tankların tırtılları altında qalmış, pulemyot və avtomatlarla tikə-tikə edilmiş cəsədlər insanı dəhşətə gətirir…

Nə qədər kədərli olsa da mənim sözlərim Azərbaycan xalqının sonsuz kədərini, milyonlarla insanın üzərinə hakim kəsilmiş müsibəti çatdırmaq iqtidarında deyil.

Mən bunları ona görə demirəm ki, siz bizim dərdimizə şərik olasınız, halımıza acıyasınız. Bu, mənim bütün xalqım üçün təhqir olardı. Bu, mənim şəhid olmuş həmvətənlərimin ruhunu təhqir etmiş olardı…

Bir dövlət başçısı kimi sizin imzanızla törədilən bu qanlı qırğına, bu dəhşətli cinayətə heç bir bəraət ola bilməz…

Qoşunların yeridilməsi üçün uydurulmuş bütün səbəbləri Azərbaycan xalqı nifrət və qətiyyətlə rədd edir. Həmin səbəblərdən biri də guya Sovet dövləti üçün təhlükə sayılan “İslam faktoru”dur. Bununla əlaqədar mən aşağıdakıları bildirirəm:

İman əhli olmaq, o cümlədən İslam mənsubiyyəti əslində günah hesab edilən şovinizmdən, milli lovğalıqdan uzaq olmaq deməkdir. Çox yaxşı bilirsiniz və bunu mənim sizə vaxtilə dediklərim də sübut edir ki, Zaqafqaziyanın müsəlman ruhaniləri siyasi və millətlərarası münaqişələrdə dindən silah kimi istifadə etmək niyyətində olmamışlar. Çox yaxşı bilirsiniz ki, diyarımızda baş verən hadisələrin ən ağır anlarında İslam ağıla və bütün məsələlərin dinc yolla həllinə çağırmışdır.

Belə olduğu halda uydurma “İslam faktoru”nu hərc-mərclik törədən səbəb kimi araya atmaq qəzəb doğurmaya bilməz.

Tamamilə aydındır ki, bununla müəyyən məqsəd güdülmüşdür. Demək, müsəlmanları xristianlara qarşı qoymaqla millətlərarası toqquşmaları daha da kəskinləşdirmək niyyəti güdülmüşdür.

Bilin ki, bu faciə ilə bağlı əsl həqiqəti dünya ictimaiyyətinə çatdırmaq üçün əlimizdən gələni edəcəyik. Bir dövlət ki, imperiya hökmranlığı niyyəti ilə millətlərarası çaxnaşmanı aradan qaldırmaq əvəzinə onu daha da qızışdırır, bir dövlət ki, öz ordusunu öz vətəndaşlarının qatilinə çevirir, bir dövlət ki, öz adamlarına layiqli güzərandan daha çox ölmək hüququ verir, belə dövlət ancaq nifrətə layiqdir.

Bakıda canlı insan ürəklərinə tuşlanmış güllələr milyonlarla insanın Yenidənqurmaya olan son ümidlərini məhv edən bir atəş idi.

Özlərini əsl işğalçı kimi aparan cəza qoşunlarını Bakıya yeritməklə siz sovet hökumətini rüsvay etdiniz və bununla təsdiq etdiniz ki, müstəqillik və xalqların ləyaqəti kimi anlayışlar bu hökumətə tamamilə yaddır. Siz bununla özünüzü bir siyasi xadim və bacarıqsız bir dövlət başçısı kimi ifşa etdiniz. Sizin haqqınızda yaranmış bir əfsanə də puç oldu, çünki bir əli ilə xarici məmləkətlərlə sülh sazişi, o biri əli ilə öz vətəndaşlarına qarşı cəza tədbirləri imzalayan adamı "Sülh uğrunda mübariz" adlandırmaq ən azı ləyaqətsizlikdir.

Ən qanlı müharibələrdə də həkimlərə, tibbi yardım göstərənlərə atəş açılmamışdı. Sizin əmrinizlə Bakıya hücum edən qoşunlar yaralananlara kömək göstərən iki həkimi də güllələmişlər.

Bütün Azərbaycan xalqının iradəsini ifadə edərək mən Bakıdan qoşun hissələrinin dərhal çıxarılmasını qətiyyətlə tələb edirəm. Heç bir xalqla, həmçinin azərbaycanlılarla silah gücüylə danışmaq olmaz. Bu 10 gün Əfqanıstandakı kimi 10 il davam edə bilər. Lakin gec-tez ədalət və haqq işi qələbə çalmalıdır. Allahın izni ilə bu haqq işi Azərbaycanda da qalib gələcəkdir.

Məhz buna görə mənim xalqımın ən yaxşı oğul və qızları özlərini sovet qoşunlarının güllələrinə sipər etdilər. Dərin inam

hissiylə üzümüzü Allaha tutur və Onun ulu dərgahından bu gün şəhid olan balalarımız üçün rəhmət diləyirik. Qoy Allah bu fəlakəti mənim xalqımın başına gətirənləri, bu işə rəvac verənləri zəlil etsin!

Ya Rəbb, vətənimizin, elimizin, bu ağır günündə bizlərə özün kömək elə. Amin!”.[85]

Bu, o dövr üçün görünməmiş cəsarət və atılan addım idi. Azərbaycan ziyalılarının, hakimiyyət dairələrinin, xalq nümayəndələrinin psixoloji gərginlikdə olduğu və heç bir əməli iş görmədikləri anda bu cür müraciətin Şeyxülislam Allahşükür Paşazadə tərəfindən bütün dünyaya göndərilməsi hadisənin mahiyətini dünya ictimaiyyətinə olduğu kimi çatdırmaq və məsələlərdən çıxış yolu tapmaq baxımından ölçüyəgəlməz dərəcədə əhəmiyyətli idi. Heç bir təhlükə və çətinlikdən qorxmayan Şeyxülislam həzrətləri tərəddüd etmədən fikrini açıq bəyan etməklə yanaşı, şəhidlərin layiqli dəfn mərasiminin önündə dayandı və mərasimə ağsaqqallıq etdi.

Şeyxülislam Allahşükür Paşazadənin bu cəsarətli addımından sonra yanvarın 21-də Azərbaycan Respublikası Ali Sovetinin Sədri Elmira Qafarovanın bəyanatı səsləndi: “Əziz həmvətənlər! Azərbaycan xalqı, respublikanın bütün vətəndaşları adından Azərbaycan SSRİ-nin suverenliyinin kobudcasına pozulması və Bakı şəhərində fövqəladə vəziyyət elan edilməsi ilə bağlı qəti etirazımı bildirirəm. Azərbaycan xalqı öz oğul və qızlarının faciəli surətdə həlak olmasını heç zaman heç kəsə bağışlamayacaqdır…”[86]

Bundan iki gün sonra, yəni yanvarın 22-də Azərbaycan SSRİ Ali Sovetinin sessiyası çağırılsa da Şeyxülislam həzrətləri bu sessiyada iştirak edə bilmədi. Çünki İsmayıl Şıxlı, Arif Məlikov, Arif Mansurov və başqalarının xahişi ilə Şeyxülislam Allahşükür Paşazadə Təzəpir məscidində şəhidlərin dəfn mərasiminə başçılıq edirdi.

---

[85] Hüseynqulu Məmmədli. Qafqazda İslam və şeyxülislamlar. səh. 155-157.
[86] Həmin mənbə, səh-158.

20 Yanvar şəhidlərinin Dağüstü Parkda dəfn mərasiminə həsr edilmiş mitinqdə Şeyxülislam həzrətləri xalqa müraciət edərək deyirdi: “Xalqımız üç gündür ki, matəm içindədir. Xalqın matəmi onun təhqirə qarşı qəzəbi, etirazı və nifrətinin ifadəsidir. Mən sizin hüzurunuzda bütün Azərbaycan xalqının iradəsini ifadə edərək qoşunların Bakıdan təxirəsalınmadan çıxarılmasını tələb edirəm”.[87]

Ölkənin ağır günlərində xalqın önünə çıxaraq bütün ağırlığı çiyinlərinə götürən Şeyxülislam Allahşükür Paşazadə 20 Yanvar faciəsində bir ictimai lider, xalqın ürəyindəki sözlərin ifadəçisi və təcavüzə qarşı üsyan edən xalqın haqq səsiydi.

Sovet qoşunları Azərbaycandan tez bir zamanda çıxarılmasa da hadisələrin sürətli inkişaf etməsi nəticəsində Qırmızı imperiyanın dayaqları buz kimi əriməkdə idi. Çox keçmədi ki, Pribaltika respublikaları öz müstəqilliklərini elan etdilər, Azərbaycan xalqı bütün dünyada ən mübariz xalq kimi tanındı, bir il sonra isə - 1991-ci ildə SSRİ tamamilə süqut etdi.

Faciə günlərində Şeyxülislam həzrətlərinin söylədiyi sözlər minlərin, milyonların ürəyində özünə yer tapdı. Uzun illərdən sonra, nəhayət Şeyxülislam Allahşükür Paşazadə öz cəsarəti, qətiyyəti, elmi, fərasəti, müdrikliyi və ağlı ilə Qafqaz Müsəlmanları İdarəsinin əvvəlki qüdrətini özünə qaytardı.

Şeyxülislam həzrətləri müsəlman həmrəyliyi prinsipindən çıxış edərək qardaş İraq dövlətinin dünyadan təcrid edildiyi, blokada şəraitində olduğu çətin məqamlarda bu ölkəyə humanitar yardımların çatdırılmasına nail olmuş, İraq xalqının yaşamaq hüququnun, sivilizasiyanın beşiyi sayılan bu ərazilərdə yerləşən müqəddəs ziyarətgahların, qədim tarixi abidələrin hifz olunması üçün dəfələrlə beynəlxalq təşkilatlar və dünya dövlət başçılarına müraciətlər etmişdir.

Çeçenistan Respublikasına səfər edən Şeyxülislam Allahşükür Paşazadə çeçen xalqının müstəqilliyi və azadlığı uğrunda mübarizə aparan Şeyx Şamilin heykəli qarşısında dayanaraq bunları söyləyir: “O xalq Allah və bəşər qarşısında azaddır ki,

[87] Həmin mənbə.

onun istiqlaliyyət və müstəqilliyi var. İmperiya dağıldı. Bu, onun ərazisində yaşayan xalqlara tarixi bir imkan verdi – öz mənəvi dəyərlərinə malik olma imkanı. Bir-birinə yardımçı olmaqla bu imkandan millətinizin, torpağınızın mənafeləri naminə istifadə etməyinizdə bir olan Allah sizə yardımçı olsun!"[88]

1994-cü ildə Çeçenistanın paytaxtı Qroznı şəhərində "Ümumqafqaz Evi" ideyasının reallaşdırılması məqsədi ilə görüş keçirilir. Bu ideyanı həyata keçirməklə Qafqaz xalqlarının mənafelərini qorumaq və Qafqazda münaqişələrə son qoymaq mümkün idi. "Dəyirmi masa" arxasında təşkil edilən görüşdə Qafqazın bütün dövlətləri və konfederasiya rəhbərləri, görkəmli din xadimləri və üləmaları iştirak edirlər.

Qafqaz xalqlarının problemlərini müzakirə edən "Dəyirmi masa" 9 bənddən ibarət bəyannamə qəbul edir. Həmin bəyannamədə deyilir:

- Qafqaz Xalqları və Dövlətləri Konfederasiyasının yaradılması zəruri hesab edilsin;
- Beynəlxalq hüquq prinsiplərinə, xalqların özünü idarəetmə hüquqlarına, bir-birlərinin daxili işlərinə qarışmamaq, insan hüquq və azadlıqlarına riayət etmək prinsiplərinə sadiq qalınsın;
- Öz azadlığı və müstəqilliyi uğrunda mübarizə aparan Qafqaz xalqları müdafiə edilsin;
- Bütün mübahisəli məsələlər ədalət və humanizm prinsiplərinə sadiqliklə, dinc vasitələrlə həll edilsin;
- Qafqazın vahid təhlükəsizliyinin vahid sistemi yaradılsın;
- Qeyri-Qafqaz dövlətlərinin bütün silahlı qüvvələrinin Qafqaz ərazisindən çıxarılması zəruri hesab edilsin;
- "Qafqaz Evi" çərçivəsində Qafqaz Ali Dini Şurası yaradılsın;
- Məsləhət Şurası, onun daimi fəaliyyət göstərən bürosu və Qafqaz Vahid İnformasiya Mərkəzinin yaradılması bəyan edilsin.[89]

---

[88] Həmin mənbə, səh. 166.
[89] Həmin mənbə, səh. 167.

Bəyannamənin yekdilliklə qəbul olunmasından sonra Çeçenistan müftisi Məmmədhüseyn Aslanbəyovun təklifi ilə Azərbaycan, Gürcüstan, Dağıstan, Kabarda-Balkar, Çeçenistan, İnquşetiya, Qaraçay-Çərkəz və Adıgeyin din xadimləri tərəfindən Şeyxülislam Allahşükür Paşazadə Qafqaz Xalqları Ali Dini Şurasının sədri vəzifəsinə seçilir. Bu arada qeyd etmək yerinə düşər ki, Şeyxülislam həzrətləri Çeçen-İçkeriya Respublikasının Milli qəhrəmanı və Qroznı şəhərinin fəxri vətəndaşıdır.

Daim çeçen xalqının azadlıq mübarizəsini bütün dünyada müdafiə edən Şeyxülislam Allahşükür Paşazadə iştirak etdiyi tədbirlərdə, görüşlərdə və konfranslarda onların haqq savaşı haqqında ətraflı məlumat vermiş və Rusiyanın işğaçılıq siyasətini hər zaman pisləmişdir.



Hacı Allahşükür Paşazadənin Qafqaz Şeyxülislamı olaraq fəaliyyətində mühüm istiqamətlərdən biri bölgədə sabitliyin yaradılması istiqamətində sülhyaratma missiyası olmuşdur. Ötən əsrin 90-cı illərində sovetlər birliyinin çökməsindən sonra Qafqazın qaynar bölgələrindən birinə çevrilmiş Çeçenistan və İnquşetiyada gərginliyin azaldılması yönündə Şeyxülislam həzrətlərinin gördüyü işlər həmin bölgənin vətəndaşları, habelə

Rusiya dövlətinin federal hökuməti tərəfindən daim yüksək qiymətləndirilmişdir. O, Uca Allahın vacib buyurduğu hökmlərə uyğun olaraq, özünün Qafqaz xalqları içərisində mövcud ağsaqqal nüfuzu, dini lider xarizmasından istifadə edərək bölgədə sülh və qarşılıqlı anlaşma şəraitinin yaradılması üçün əlindən gələni əsirgəməmişdir. 1992-ci ildə Qafqaz Xalqları Ali Dini Şurasının sədri seçilmiş Şeyxülislam Allahşükür Paşazadənin təşəbbüsü ilə yaradılmış "Qafqazinform" xəbər agentliyi ən gərgin vaxtlarda Çeçenistan və İnquşetiyada baş verən hadisələrlə bağlı əsl həqiqətlərin yayılmasına yardımçı olaraq radikal qüvvələrin bədxah niyyətlərinin reallaşması yolunda tutarlı informasiya səddi yaratdı. Şeyxülislam həzrətləri Çeçenistan müftisi olmuş mərhum Əhməd Kadırovla birgə Çeçenistanda dini durumun sabitləşdirilməsi, dini təfriqə salan radikal təmayüllü qüvvələrin xalqa zidd əməllərinin qarşısının alınması yönündə mühüm əməli tədbirlər görmüş, "Qafqaz Evi" çərçivəsində ümumən bölgədə barış mühitinin formalaşması istiqamətində gərgin fəaliyyət göstərmişdir.

Qafqaz müsəlmanlarının ali dini rəhbəri kimi Hacı Allahşükür Paşazadə təmsil olunduğu bütün qurum və təşkilatlarda xalqlarımızın maraq və mənafelərini ən yüksək şəkildə qorumuş, bütün Qafqazın problem və qayğılarını bəyan etmişdir. Şeyxülislam həzrətləri 1999-cu ildə Rusiya Prezidenti Boris Yeltsinə onun çeçen xalqının məhvinə yönəlik siyasətini ifşa və tənqid edən etiraz məktubunu ünvanlamaqdan çəkinməmiş, İslam ekstremizmi və terrorizmlə mübarizə şüarından sui-istifadə edərək bütöv xalqı terrorist, ekstremist, cinayətkar adlandırmasını qətiyyətlə pisləmişdir.

Şeyxülislam Allahşükür Paşazadə Çeçenistan dövlətçiliyinin möhkəmlənməsi, ölkənin uzunsürən müharibədən qurtularaq inkişaf yoluna qədəm qoymasına yaxından yardımçı olmuşdur. Qədirbilən çeçen xalqı Hacı Allahşükür Paşazadəyə göstərdiyi diqqət və qayğıya görə daim böyük ehtiram bəsləmişdir. Şeyxülislam Çeçenistan dövlətinin "Çeçen qəhrəmanı" ali dövlət mükafatına layiq görülmüşdür.

"Yurdda sülh, cahanda sülh" çağırışlarını rəhbər tutan Hacı Allahşükür Paşazadə ABŞ ordusu İraqa daxil olarkən, Fələstində, Livanda hərbi münaqişələr alovlanarkən də öz qətiyyətli mövqeyini səsləndirmişdir. Şeyxülislam həzrətləri bir din xadimi kimi dünyada sabitliyiə, əmin-amanlığa nail olunması istiqamətində fəaliyyət göstərməyi bu gün də öz amalı və mömin borcu sayır.

Şeyxülislam Allahşükür Paşazadənin təşəbbüsü ilə 1998-ci ildə "Müasirlik və dini-mənəvi dəyərlər" mövzusunda Beynəlxalq Konfrans keçirilmişdir. Konfransda müstəqilliyinə qovuşduqdan sonra Azərbaycanda dini-mənəvi dəyərlərin dirçəldilməsi istiqamətində görülən işlər, dövlətin dinə qayğısı rəğbətlə vurğulanmışdır. Hacı Allahşükür Paşazadə, həmçinin "Allahın lütfü, xalqın xilaskarı" (2003), "Tolerantlıq örnəyi - Azərbaycan" (2006) konfranslarının, AMEA-nın Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu ilə birlikdə "Qloballaşma və İslam" (2004), "Qloballaşan dünyada İslam" (2005), "İslamda dözümlülük" (2006) mövzularında beynəlxalq elmi-konfransların təşəbbüskarı və təşkilatçısı olmuşdur.

Mötəbər beynəlxalq tədbirlərin ən yüksək xitabət kürsülərindən etdiyi çıxışlarında Şeyxülislam Allahşükür Paşazadə daim dinlərarası dialoq və əməkdaşlıq, xalqlar və dövlətlər arasında münaqişə yaradan problemlərin sülh yolu ilə dinc şəkildə nizamlanması ideyalarını üstün tutmuşdur. Tolerantlıq kursunun ardıcıl tərəfdarı olan Şeyxülislam həzrətləri postsovet məkanında xalqlar, millətlər və dövlətlər arasında dostluq, əməkdaşlıq münasibətlərinin qorunub saxlanılması, habelə inkişaf etdirilməsi naminə daim xoş məram nümayiş etdirmiş və əməli fəaliyyət göstərmişdir.

Hacı Allahşükür Paşazadə MDB Dinlərarası Şurasının həmsədridir. Onun təşkilatçılığı ilə Tbilisidə "Qafqazda sülh uğrunda əməkdaşlıq" Beynəlxalq Forumu (2002) baş tutmuşdur. Şeyxülislam həzrətlərinin təşəbbüsü ilə Moskvada "Beynəlxalq Dinlərarası Sülhyaratma" Forumu (2004), habelə dini liderlərin Ümümdünya Sammiti (2006) keçirilmişdir.



Xristian aləmində böyük nüfuz və ehtirama malik olan Şeyxülislam Allahşükür Paşazadə Roma Katolik və Rus Pravoslav kilsələrinin təklifi ilə Katolik-pravoslav Məzhəblərarası Əlaqələr Komissiyasına üzv seçilmişdir (2006).

Sülh yaradılması və tolerantlığın bərqərarı sahəsində uğurlu fəaliyyətinə görə Hacı Allahşükür Paşazadə 2007-ci ildə Sülh Fondları Beynəlxalq Assosiasiyası, Ümumdünya Veteranlar Federasiyası və "Xalq yaddaşı" Beynəlxalq Veteranlar Fondunun təsis etdikləri xatirə medalı ilə təltif olunmuşdur.



Şeyxülislam Allahşükür Paşazadə Moskva və Ümümrusiya Patriarxı II Aleksi ilə birlikdə BMT yanında Dinlərin

Məşvərət Şurasının yaradılması təşəbbüsü ilə çıxış etmişdir. Din xadimlərinin BMT Baş katibi Ban Ki Munla Moskvada gerçəkləşmiş görüşü zamanı bu ideyanın gerçəkləşməsi istiqamətində danışıqlar aparmış Şeyxülislam həzrətləri Nyu-Yorkda, BMT-nin mənzil-qərargahında BMT Baş katibinin müavini İbrahim Qəmbəri ilə ideyanın həyata keçirilməsi ilə bağlı fikir mübadiləsi aparmışdır. Nəticə etibarilə, müsəlman, xristian və yəhudi din xadimlərinin ilkin mərhələdə YUNESKO nəzdində formalaşdırılması nəzərdə tutulan yüksək səviyyəli Məşvərət Qrupunda Hacı Allahşükür Paşazadənin müsəlmanları təmsil edəcəyi qərara alınmışdır.

Şeyxülislam Allahşükür Paşazadənin Azərbaycanda dini mərasimlər içərisində xüsusi həssaslıqla yanaşılan Aşura mərasimi ilə bağlı uğurlu təşəbbüsü müasir Azərbaycanın mənəviyyat tarixinə həkk olunmuşdur. Bu təşəbbüs sayəsində Aşura günlərində simvolik olaraq qan çıxarılması ayininin mahiyyətinin saxlanılması şərtilə onun ictimai baxımdan əhəmiyyətli formasının tətbiqinə - irsi qan xəstəliklərindən əziyyət çəkən insanların, xüsusilə talassemiyalı və hemofiliyalı uşaqların ehtiyaclarının ödənilməsi istiqamətində təmənnasız qan verilməsi aksiyalarının təşkilinə nail olunmuşdur. Şeyxülislam həzrətlərinin təşəbbüsü ilə Aşura günlərində Azərbaycanın bir çox məscid və ziyarətgahlarında yad olunan İmam Hüseynin (ə) şəninə qanvermə aksiyalarında iştirak edən insanlar, həm Məsumlara (ə) olan ehtiramlı münasibətlərini nümayiş etdirir, həm də xəstə insanlara real kömək göstərmələrindən məmnun olurlar. Son illər belə Allaha xoş gedən aksiyaların təşkili ictimaiyyət arasında olduqca müsbət qarşılanmış və davamlı olmasına sosial sifariş yaranmışdır. Beləliklə, Şeyxülislam Allahşükür Paşazadə Aşura mərasimi zamanı çox zaman müsbət qiymətləndirilməyən, qınaq obyektinə çevrilən xəncərlə baş yarma, zəncirlə bədənə xəsarət yetirmə ilə qan çıxarma ənənəsinin cəmiyyətə faydalı ictimai aksiyaya, insansevərlik nümunəsinə çevrilməsinə nail olmuşdur.

Şeyxülislam Allahşükür Paşazadə bu illərdə elmi fəaliyyətlə də məşgul olmuş, 1986-cı ildə İordaniya İslam Mədəniyyəti

Kral Akademiyasına müxbir üzv, 2001-ci ildə isə həqiqi üzv seçilmişdir. O, Beynəlxalq Fiqh Akademiyasının həqiqi üzvüdür, həmçinin 2008-ci ildə yaradılmış Beynəlxalq Fiqh Təşkilatının təsisçilərindən biridir. Şeyxülislam həzrətləri 1992-ci ildə doktorluq dissertasiyasını müdafiə edərək tarix elmləri doktoru elmi dərəcəsi almışdır.

Şeyxülislam Allahşükür Paşazadə Azərbaycan Ziyalıları Milli Elmi Yaradıcılıq Qurumunun akademiki və Bakı Dövlət Universitetinin professorudur. O, tarix və ilahiyyat üzrə "Qafqazda İslam", "İslamda ümmət və şüubilik", "Quranın təfsiri və tərcüməsi tarixi" monoqrafiyalarının, "Qurani-Kərimin ilahi hökmləri və öyrənilməsi", "İslamda şəhidlik", "Milli münasibətlər və din", "Qurani-Kərimin ecazkarlığı", "Qurani-Kərimdə insan təbiəti" mövzularında elmi əsərlərin və çox sayda məqalələrin müəllifidir. Şeyxülislam həzrətləri İslam tarixi abidələrinin, qədim əlyazmalarının üzə çıxarılması, mübadiləsi və s. sahələrdə bir sıra elmi axtarışlar həyata keçirmişdir.

Şeyxülislam Allahşükür Paşazadə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Ekspertlər Şurasının üzvüdür. O, onadək kitabın elmi redaktorudur.



Şeyxülislam Allahşükür Paşazadə 2005-ci ildə "Şeyxülislam ordeni"ni təsis etmişdir. Sülhün, tolerantlığın bərqərar

edilməsi, mənəvi dəyərlərin qorunub saxlanılması və inkişafı istiqamətində böyük xidmətlərə görə təqdim edilən bu orden ilk dəfə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevə (ölümündən sonra) təqdim olunmuşdur. Bu ali mükafat indiyədək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə, Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə, İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Ekmələddin İhsanoğluna, Moskva və Bütün Rusiya Patriarxı II Aleksiyə, Turkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğana, Özbəkistan Prezidenti İslam Əbdülqəni oğlu Kərimova, Moskva və Ümumrusiya Patriarxı Kirillə, Ümumgürcüstan Katolikos-Patriarxı II İliyaya və Türkmənistan Prezidenti Qurbanqulu Məlikquliyeviç Berdiməhəmmədova təqdim olunmuşdur.

Şeyxülislam Allahşükür Paşazadə Azərbaycan Respublikası Prezidenti yanında Əfv Komissiyasının üzvüdür.

Dini maarifin, İslamın elmi şəkildə tədrisinin təəssübünü çəkən Şeyxülislam həzrətləri 1991-ci ildə Bakı İslam İnstitutunu təsis etmişdir. 1997-ci ildən universitet statusu almış bu ali dini təhsil ocağının hazırda məzun və tələbə bazası durmadan artmaqdadır.

1998-ci ildə Hacı Allahşükür Paşazadənin təşəbbüsü ilə Qafqaz Müsəlmanları İdarəsi nəzdində görkəmli elm və din xadimlərinin daxil olduğu Elmi-Dini Şura yaradılmışdır. Bundan əlavə, idarə nəzdində "Ürfan" ədəbi məclisi də fəaliyyət göstərir.

Şeyxülislam Allahşükür Paşazadə ziyarət, dini əməkdaşlıq, habelə müxtəlif elmi, dini konfrans və tədbirlərdə iştirak məqsədilə Səudiyyə Ərəbistanı, Rusiya, Belarus, Gürcüstan, Qazaxıstan, ABŞ, Kanada, Fransa, Türkiyə, İtaliya, İordaniya, Küveyt, Hollandiya, Hindistan, Pakistan, Əfqanıstan, Liviya, İraq, İran, Misir, Şri-Lanka, Mərakeş, Malayziya, İsveçrə, Sudan, Seneqal, Çad və başqa xarici ölkələrdə səfərdə olmuşdur.

Şeyxülislam həzrətləri bir sıra tanınmış elm və din mərkəzlərində mühazirələr oxumuşdur. Onun yaddaqalan mühazirələrindən biri ABŞ-ın tanınmış Yyel Universitetində oxunmuşdur (2008).

Şeyxülislam Allahşükür Paşazadənin həyat və fəaliyyəti barədə "On ikinci Şeyxülislam", M.Quluzadənin "Mərhəmətli və şəfqətli qəlb", R.Əliyevin "Şeyxülislam: ictimai xadim, alim", A.Mansurzadənin "Bizim bir Şeyximiz var", A.Ağayevin "Müqəddəs ömrün anları", V.İbayevin "Qafqaz Müsəlmanları İdarəsi və Ermənistan-Azərbaycan münaqişəsi", X.Babayevin "Şeyxülislam Allahşükür Paşazadə: elmlə dinin vəhdəti", Şeyxülislamlığının 25 illiyi münasibətilə "İki əsrin Şeyxülislamı", "25 il Şeyxülislam" kitabları çap olunmuşdur.

Şeyxülislam Allahşükür Paşazadənin böyük əhəmiyyətə malik dini-ictimai fəaliyyəti daim yüksək dəyərləndirilmiş və o, bir çox ali mükafatlarla təltif olunmuşdur: SSRİ-nin "Xalqlar dostluğu" ordeni (1988), Misirin I dərəcəli "əl-Elm və əməl" (1992) ordeni, Azərbaycan Respublikasının "Şöhrət" (1994), "İstiqlal" (1999) və "Şərəf" (2009) ordenləri, Çeçenistan Respublikasının "Millət qəhrəmanı" ordeni (1998), Rus Pravoslav Kilsəsinin I dərəcəli "Müqəddəs Vladimir" (2001) və I dərəcəli "Sergi Radonejski" (2005) ordenləri, Gürcüstan Respublikasının "Şərəf" (2002) ordeni, Vatikanın "Müqəddəs Qreqori" ordeni (2005), Rusiya Federasiyasının "Dostluq" (2006) ordeni, İordaniya Krallığının I dərəcəli "Kral Hüseyn" ordeni (2007), Rus Pravoslav Kilsəsinin "Şöhrət və Şərəf" ordeni (2009), Gürcüstan Respublikasının "Qoyunun qızıl dərisi" ordeni (2009), Daşkənd İslam Universitetinin qızıl medalı (2011), Beynəlxalq Təhlükəsizlik Komitəsinin (İNTRESAFETY) "Cəmiyyət qarşısında xidmətlərinə görə" Beynəlxalq qızıl medalı (2011), "Dədə Qorqud" Milli Xeyriyyəçilik Fondunun "Vətən övladı" qızıl medalı (2012), "Krans Montana" Forumunun qızıl medalı (2013), Belarus Pravoslav Kilsəsinin I dərəcəli "Svyatitel Kiril Turovski" ordeni (2013) və s.

2009-cu ilin iyununda Hacı Allahşükür Paşazadə MDB müsəlman dini liderlərinin Məşvərət Şurasının sədri, iyulunda isə YUNESKO yanında yaradılan din xadimlərinin yüksək səviyyəli Məşvərət Qrupunun üzvü seçilmişdir.

Şeyxülislam Allahşükür Paşazadə 1980-ci ildən etibarən Qafqaz Müsəlmanları İdarəsinin sədridir. İdarənin səlahiyyət dairəsi Azərbaycan, Gürcüstan, Dagıstan, Çeçenistan, İnquşetiya, Qaraçay-Çərkəz, Kabarda-Balkar, Adıgey və Şimali Osetiya-Alaniyanı əhatə edir.

Qafqaz Müsəlmanları İdarəsinin ali orqanı Qafqaz müsəlmanlarının Qurultayıdır. Qafqaz müsəlmanlarının XII Qurultayı 2009-cu ilin 12 avqustunda Bakıda keçirilmişdir.

Şeyxülislam Allahşükür Paşazadə Qafqaz müsəlmanlarının 29 iyul 2003-cü il tarixində keçirilmiş XI Qurultayında yekdilliklə ömürlük sədr - şeyxülislam seçilmişdir.

Şeyxülislam Allahşükür Paşazadə 2003-cü ildən - MDB Dinlərarası Şurasının yarandığı zamandan etibarən bu qurumun həmsədridir. Digər həmsədr Rus Pravoslav Kilsəsinin başçısı, mərhum Patriarx II Aleksi olmuşdur. Hazırda qurumun digər həmsədri Moskva və Bütün Rusiya Patriarxı Kirilldir.

Qurumun təşəbbüs və himayəsi ilə Beynəlxalq Sülhyaratma Forumu (2004, Moskva), dünya dini liderlərinin Moskva (2006) və Bakı (2010) Sammitləri gerçəkləşmişdir.[90]

Qafqaz Xalqları Ali Dini Şurası 1993-cü ildə Qroznıda təsis edilmişdir. Yaradılma ideyası Şeyxülislam Allahşükür Paşazadə tərəfindən irəli sürülən Şura Qafqazda yaşayan müsəlman, xristian və yəhudi dininə mənsub olanların birgə təmsil olunduğu mötəbər qurumdur. Şeyxülislam Allahşükür Paşazadə Şuranın yarandığı andan bugünədək sədridir.

Qurumun vaxtaşırı Qafqazın müxtəlif bölgələrində hesabat toplantıları keçirilir. Sonuncu belə toplantı 2011-ci ilin 21 dekabrında Bakı şəhərində keçirilib.

Şeyxülislam Allahşükür Paşazadə 2009-cu ilin iyulunda Moskvada təsis olunmuş MDB Müsəlmanları Məşvərət Şurasının, həmçinin QMİ Qazılar Şurasının sədridir.

---

[90] http://qafqazislam.com.

## 2.2. Şeyxülislam Hacı Allahşükür Paşazadənin elmi yaradıcılığı

Şeyxülislam Allahşükür Paşazadənin elmi fəaliyyəti də dini və ictimai fəaliyyəti ilə vəhdət təşkil edir. Onun bir çox əsərlərində Qafqazda İslam mövzusu öz əksini tapmışdır. Şeyxülislam həzrətləri İslam tarixi, İslam mədəniyyəti tarixi sahəsində öz dəstixətti olan, yeni bir istiqamətin əsasını qoyan tədqiqatçıdır. Onun əsərləri islamşünaslıq, İslam mədəniyyəti və İslam fikri tarixi, İslamda təfsirçiliyin tarixi, Qurani-Kərimin təfsiri və tərcüməsi tarixinə dair tədqiqatlara təsir göstərmiş və göstərəcəkdir.

1998-ci ilin dekabrında Bakıda "İslam sivilizasiyası Qafqazda" mövzusunda keçirilmiş Beynəlxalq Simpoziumda Azərbaycanı təmsil edən iştirakçıların bir çoxu öz məruzələrində Şeyxülislam həzrətlərinin əsərlərinə də istinad etmişlər.[91]

Şeyxülislam Allahşükür Paşazadə "Qafqazda İslam" əsərində elmlə dinin vəhdəti məsələsinə toxunaraq yazır: "Respublikamızda xalqımızın ictimai fikir və fəlsəfəsi, tarix və mədəniyyətinin öyrənilməsi sahəsində aparılan tədqiqatlarda İslam çox vaxt nahaqdan, əsası olmadan geriçillik meyli ilə əlaqələndirilir, onun ümummədəni və əxlaqi dəyərləri heçə endirilirdi. Yaradıcı fikir dühalarının əzəməti, nəhəngliyi, görkəmliliyi əksər hallarda İslama qarşı çıxıb-çıxmamaları ilə ölçülürdü. Unudulurdu ki, əsrlər boyu xalqın ictimai fikrini, mədəni ənənələrini, yüksəlişini, birliyini din müəyyən etmişdir, elmin, maarifin, təhsilin ziyası dini mədrəsələrdən işıq saçmışdır. Dində baş verən donuqluğa, durğunluğa qarşı mübarizə heç də dinə qarşı mübarizə demək deyildir. Dində ehkamçılığa, atilliyə, ölgünlüyə qarşı Peyğəmbər (s) da mübarizə aparıbmış. Mədəniyyət tarixində dinin yerini danmaq isə tarixin özünü danmaq deməkdir.

Mənəvi-mədəni irsə etinasız münasibət təəssüf doğuracaq haldır və bu etinasızlıq xalqı öz tarixi yaddaşını itirməyə doğru sürükləyə bilər. Xalqın tarixi varlığının bir hissəsi kimi dinin mənasına gəldikdə isə deyə bilərəm ki, İslam təkcə dindarların

---

[91] İslam sivilizasiyası Qafqazda. Beynəlxalq Simpozium, Bakı, Azərbaycan Respublikası, 9-11 dekabr 1998. Tezislər.

şüurunda əhatəli dünyagörüşü, onların həyat tərzini və davranış qaydalarını müəyyən edən əsas deyil, həm də bu gün dinə münasibətindən asılı olmayaraq bütün həmvətənlərimiz üçün əzəmətli bir mənəvi ənənə, misilsiz mənəvi təcrübədir ki, onsuz xalqın mədəniyyətini, mədəniyyət tarixini tam dolğunluğu ilə dərk etmək mümkün deyildir".[92]

İslamın təşəkkül tapması ilə ictimai, mədəni, mənəvi həyatda baş verən tərəqqini, o cümlədən elmin inkişafı üçün yaranan imkanları Qafqaz müstəvisində təhlil edən Şeyxülislam həzrətləri yazır: "İslamın Qafqazda yayılması və bu ərazidə yerləşən bəzi ölkələrin xilafətin tərkibində birləşdirilməsi uzunmüddətli siyasi sabitlik üçün şərait yaratdı. Şəhər mədəniyyəti inkişaf etdi, müsəlman şəhərləri siyasi və mədəni mərkəzlərə çevrildilər... İqtisadiyyatın sürətli inkişafı coğrafiya, riyaziyyat, həndəsə, təbabət, nücum elmləri sahələrində əldə edilmiş biliklərin daha da dərinləşdirilməsi zərurətini ortaya atdı. Elmlərin yüksəlişi ümummədəni səviyyənin artması üçün zəmin yaratdı. Fəal mədəni həyatın təşkiledici mərkəzləri məscidlər və məscidlərin nəzdində fəaliyyət göstərən mədrəsələr idi. Burada elmi, təbii, dini və fəlsəfi tədqiqatlar aparılırdı".[93]

İslamın yayılması sayəsində təşəkkül tapmış yeni müsəlman mədəniyyəti elmə misli görünməmiş maraq oyatmışdı. Qurani-Kərimin özü də "bilənləri" "bilməyənlərdən" üstün tutmaqla müsəlmanları elmə, biliyə yiyələnməyə həvəsləndirirdi. Həzrət Peyğəmbər (s) öz hədisi-şəriflərində dərrakə ilə hərəkət etməyi, elm yolunda hər cür məşəqqətə dözməyi tövsiyə edirdi. ***"Allahın ilk xəlq etdiyi şey əqildir"***, yaxud ***"Çində də olsa, elmi axtarın"*** kəlamları Peyğəmbərin (s) belə hədislərindəndir. Həzrət Əli ibn Əbu Talib (ə) Kümeyl ibn Ziyad ən-Nəxəi ilə söhbətində elmə belə qiymət verir: ***"Elm mal-dövlətdən yaxşıdır: elm səni qoruyur, mal-dövləti isə sən qoruyursan; mal-dövlət xərcləndikcə azalır, elmi isə işlətdikcə artır"***.[94]

---

[92] Hacı Allahşükür Paşazadə. Qafqazda İslam. Bakı-1991, səh. 9.
[93] Həmin mənbə, səh. 106.
[94] Həmin mənbə, səh. 113-114.

Sovet dövründə Azərbaycanda İslam, yaxud İslamla bağlı mədəniyyət tarixi çox zəif, həm də təhrif edilmiş şəkildə tədqiq edilmişdir. Ümummilli Liderimiz Heydər Əliyev cənabları "İslam sivilizasiyası Qafqazda" adlı Beynəlxalq Simpoziumda çıxış edərkən deyirdi: "Azərbaycan alimləri çox nadir, müstəsna hallarda islamşünaslıqla, İslam dininin tədqiqi ilə məşğul olur, bu barədə kitab yazırdılar. Bəziləri bundan qorxurdular, çəkinirdilər. Ziya Bünyadov və Cahangir Qəhrəmanov kimi İslamla məşğul olan görkəmli alimlər az idilər. XX əsrdə Azərbaycanda islamşünaslıq sahəsində demək olar ki, heç bir tədqiqat olmamışdır".[95]

1990-cı illərin əvvəllərində Şeyxülislam Allahşükür Paşazadənin məsləhətçiliyi və redaktorluğu ilə müqəddəs Qurani-Kərim akademiklər - Ziya Bünyadov və Vasim Məmmədəliyev tərəfindən Azərbaycan dilinə tərcümə edildi.

Bundan qısa müddət sonra Şeyxülislam həzrətlərinin bir-birinin ardınca iki kitabı – "Qafqazda İslam: tarix və müasirlik", həmçinin "İslamda ümmət və şüubilik" kitabları işıq üzü gördü. Bir qədər sonra "İrşad" İslam Araşdırmaları Mərkəzinin nəşr etdiyi "İslam araşdırmaları" məcəlləsində Hacı Allahşükür Paşazadənin "Qurani-Kərimin təfsiri və tərcüməsinin metodoloji əsasları", "Qurani-Kərimin təfsiri: yaranması, məktəbləri və metodoloji əsasları", "Qurani-Kərimin ecazkarlığı" və s. məqalələri dərc olundu.

"Qafqazda İslam" kitabının "İslam və elm" adlanan axırıncı bölməsində Şeyxülislam bir daha sübut edir ki, qədim və müasir tarixçilərin, filosof və din xadimlərinin elmi irsinə nə qədər dərindən bələddir. Kitab AMEA-nın Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunda müzakirə olunarkən Şeyxülislam Allahşükür Paşazadə təkcə din xadimi kimi deyil, həm də istedadlı tarixçi və filosof kimi tanındı.

Bu kitabların nəşrindən altı il sonra 1998-ci ildə Şeyxülislam Allahşükür Paşazadə həzrətlərinin "Quranın təfsiri və tər-

[95] Azərbaycan Prezidenti Heydər Əliyevin "İslam sivilizasiyası Qafqazda" mövzusundakı Beynəlxalq Simpoziumda nitqi. "Azərbaycan" qəzeti, 12 dekabr 1998-ci il.

cüməsi tarixi" adlı kitabı işıq üzü gördü. Nəşr edilən bu kitablar barədə görkəmli alim, akademik Ziya Bünyadov yazırdı: "İstər "Qafqazda İslam", istərsə də "İslamda ümmət və şüubilik" əsərlərində hər şeydən əvvəl fəlsəfi ümumiləşdirmələr aparılmış, Şeyx sübut etmişdir ki, İslam Qafqazda və başqa regionlarda hərbi-iqtisadi işğal nəticəsində deyil, öz mədəni qüdrəti, mənəviyyat yaratma imkanları sayəsində yayılmışdır".[96]

"Quranın təfsiri və tərcüməsi tarixi" geniş mənbəşünaslıq üzərində hazırlanmışdır. Müəllif bir çox Orta əsr müsəlman alimlərinin, o cümlədən Cəlaləddin Siyutinin, İlməddin Səxavinin, Mühasibinin, Mücahidin, Nəvəvinin, Şeyx Səduqun, Şeyx Müfidin, Səlahəddin Səfədinin, Rağib əl-İsfəhaninin, İbn Xaləveyhin, İbn əl-Cəzərinin, Küleyninin və başqalarının, habelə Təbəri, İbn Quteybə, İbn Kəsir, Qurtubi, Beyzavi, Təbərsi, Tusi kimi mötəbər müfəssirlərin əsərlərini, Quranın tədqiqi sahəsində Qərb məktəbi nümayəndələrinin – A.Rippinin, R.Blaşerin, A.Arberrinin, F.Hittinin, Yusif Əlinin, Muhəmməd Əlinin kitablarını da tədqiqata cəlb edə bilmişdir.[97]

Əsərin bu hissəsinə qədər biz Şeyxülislam Allahşükür Paşazadənin islamşünaslıq və quranşünaslıq sahəsində göstərdiyi elmi xidmətin yalnız bir qismini açıqlaya bildik. Şeyxülislamın qeyd etdiyimiz əsərləri müstəqillik illərində Azərbaycanda islamşünaslığın inkişafına güclü təsir göstərən, Azərbaycan islamşünaslığında bir sıra metodoloji məqamların dəqiqləşdirilməsinə, istilahların işlədilməsi ilə bağlı yaranan çətinliklərin müəyyən dərəcədə aradan qaldırılmasına kömək edən, həmçinin müasir Azərbaycan islamşünaslığı üçün olduqca aktual olan və böyük əhəmiyyət kəsb edən əsərlərdir. Azərbaycanda elmi islamşünaslığın yaranması və inkişafının təməli bu cür əsərlərlə qoyulur.

Bundan əlavə, Şeyxülislamın elmi fəaliyyətinin böyük bir qismini də onun beynəlxalq elmi konfranslarda etdiyi məruzələr təşkil edir. Fransa, Şri-Lanka, ABŞ, Kanada, İran, Türkiyə, İordaniya, Səudiyyə Ərəbistanı, Əfqanıstan, İraq, Küveyt, Suriya

---

[96] Hüseynqulu Məmmədli. Qafqazda İslam və şeyxülislamlar. səh. 169.
[97] Rafiq Yəhya oğlu Əliyev. Şeyxülislam. İctimai xadim. Alim. Bakı-1999, səh. 76-77.

və s. ölkələrdə keçirilən konfranslarda iştirak edən Şeyxülislam Allahşükür Paşazadə maraqlı elmi məruzələrlə çıxış etmişdir.

Şeyxülislam Allahşükür Paşazadənin elmi fəaliyyəti nəinki ölkəmiz daxilində, hətta onun hüdudlarından kənarda yerləşən xarici ölkələrdə, o cümlədən ərəb ölkələrində nüfuzlu elm mərkəzləri tərəfindən etiraf edilmişdir. Şeyxülislam həzrətləri tarix elmləri doktoru, Azərbaycan Milli Yaradıcılıq Akademiyasının həqiqi üzvü, Vəli Axundov adına Azərbaycan Milli Elmi-Tədqiqat Profilaktika İnstitutunun Elmi Şurasının fəxri üzvü, Azərbaycan Milli Elmlər Akademiyasının Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun elmi məsləhətçisi, İordaniya İslam Mədəniyyətini tədqiq edən Kral Akademiyasının müxbir üzvüdür.

Elmə yüksək dəyər verən Şeyxülislam həzrətlərinin təklifi ilə Qafqaz Müsəlmanları İdarəsi nəzdində Elmi-Dini Şura yaradılır. Akademik Vasim Məmmədəliyev Elmi-Dini Şuraya sədr seçilir. Fəaliyyətə başladığı qısa müddət ərzində Elmi-Dini Şuranın həyat qabiliyyətli qurum olduğu və qarşısına qoyduğu məqsədləri yerinə yetirmək iqtidarına malik olduğu sübuta yetirilir.

Şeyxülislam Hacı Allahşükür Paşazadə həzrətləri elmin, o cümlədən ilahiyyat elmlərinin daim dinamikada olması, təbliğ və təşviqi üçün dialoq və polemikalardan istifadə etmək zərurətini xüsusi qeyd edir, müsəlman ilahiyyatçılarını bu prosesdə yaxından iştirak etməyə dəvət edir: "İslam bu gün müxtəlif iman və əqidələr, cürbəcür həyat tərzləri və dünya duyumları ilə yanaşı mövcuddur. Odur ki, Sonuncu Vəhy dini öz ətrafındakı aləmin rəngarəngliyini, bu aləmin onun ardıcıllarına, nəticə etibarilə müxtəlif şəkildə təsir etmək imkanı olduğunu etiraf etməli, eləcə də özünün İslam dünyasından fərqli bir aləmə güclü təsir göstərə biləcəyini nəzərə almalıdır. Deməli, müsəlman alimləri bidətçilikdə günahlandırılmaqdan ehtiyat edib müasir dövrün vacib məsələlərindən, eləcə də öz dinlərinin tarixi, bu dinin necə təşəkkül tapması və indiki nəsillərə necə gəlib çıxması haqqında suallardan çəkinməməlidirlər".[98]

---

[98] Hacı Xanəli Babayev. Şeyxülislam Allahşükür Paşazadə: Elmlə dinin vəhdəti. səh. 26-27.

## 2.3. Seyxülislam Hacı Allahşükür Paşazadənin siyasi fəaliyyəti

**1993-cü il 25 mart**

Şeyxülislam Allahşükür Paşazadə ABŞ səfiri Riçard Mayls və onun müavini Robert Finni ilə öz iqamətgahında görüşür. Görüş zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və  bu münaqişəyə ABŞ-ın münasibətinin araşdırılması məsələləri müzakirə edilir. Sonda Şeyxülislam həzrətləri ABŞ prezidenti və konqresinə ünvanladığı məktubları səfirə təqdim edir. Məktubda deyilir:

"Müsəlmanlar və xristianlar üçün müqəddəs olan İsa (ə) demişdir: "Öldürmə, öldürən mühakimə edilməlidir". Müharibənin Azərbaycan torpağında bu qədər davam etməsinin əsas səbəblərindən biri də budur ki, dünya birliyi bu nəsihətə məhəl qoymamış, Ermənistanın Azərbaycana qarşı işğalçılıq hərəkətlərini pisləməmiş, əksinə təcavüzkara mənəvi və maddi yardım etməklə müharibənin daha da genişlənməsinə faktiki kömək göstərmişdir. Allah Özü yaradılmışların hamısına sülh diləmişdir... Məktubumu başa çatdıraraq Sizi Ermənistanın Azərbaycana qarşı təcavüzünü dayandırmağa, başıbəlalı Azərbaycan torpağında sülhün bərpası üçün əlinizdə olan imkanlardan istifadə etməyə çağırıram".[99]

**1993-cü il iyul**

Əmman şəhərində çağırılmış Kral İslam Araşdırmaları Akademiyasının IX Konfransında geniş məruzə edən Hacı Allahşükür Paşazadə Azərbaycan həqiqətlərindən, Ermənistanın işğalçılıq siyasətindən danışır. Məruzənin sonunda Şeyxülislam həzrətləri bir daha vurğulayır ki, bəşəriyyətin və xüsusilə də İslam aləminin başı üzərindən asılmış təhlükəni aradan qaldırmaqdan ötrü ən təsirli vasitə dünya müsəlmanlarının həmrəyliyidir.

[99] Hüseynqulu Məmmədli, "Qafqazda İslam və şeyxülislamlar", səh. 170.

**1993-cü il dekabr**

Sudanın paytaxtı Xartum şəhərində təşkil olunan konfransda Azərbaycan nümayəndə heyəti ilə iştirak edən Şeyxülislam Allahşükür Paşazadə böyük bir nitq söyləyərək konfransda iştirak edən ölkələri təcavüzkarları pisləməyə çağırır və bu məzmunda Yekun sənədin qəbul olunmasını təklif edir. Qəbul olunmuş qətnamədə qeyd olunur ki, Ermənistanın silahlı qüvvələri Azərbaycan ərazilərindən çıxarılmayınca müsəlman ölkələri Ermənistan Respublikası ilə hər cür siyasi, iqtisadi və mədəni əlaqələri dayandırmalıdırlar.

**1994-cü il fevral**

İstanbulda "Yaşa və başqalarını da yaşamağa qoy!" devizi altında təşkil olunan dini başçıların görüşündə çıxış edən Şeyxülislam Allahşükür Paşazadə dindarların diqqətini ermənilərin genosid siyasətinə yönəldir, Eçmiədzinin başçılarını sülhü dəstəkləməyə dəvət edir. Şeyxülislam həzrətlərinin birbaşa Eçmiədzini sülhü dəstəkləməyə dəvət etməsi üzdəniraq qonşularımızın qabaqcadan hazırladığı "Ermənilər sülhə çağırır" planını alt-üst edir.

**1995-ci il oktyabr**

Ankarada "Türk respublikaları, Balkan-Qafqaz ölkələrində türk və müsəlman cəmiyyətləri din xadimlərinin fəaliyyətinin istiqamətləndirilməsi" mövzusunda təşkil edilən Konfransda "Avrasiya İslam Şurası" adlı qurum yaradıldı. Bir il sonra bu qurumun dini idarə təmsilçilərinin təşkil etdiyi toplantıda çıxış edən Şeyxülislam Allahşükür Paşazadə deyir: "Qafqaz Müsəlmanları Ruhani İdarəsi keçmiş sovetlər birliyi ərazisində dini idarələrdən yeganəsidir ki, öz fəaliyyətini indiyədək davam etdirir. Nəhəng imperiyanın süqutundan sonra üç ruhani idarəsi (Ufa Ruhani İdarəsi, Sibir Xalqları Müsəlman Ruhani İdarəsi və Orta Asiya Xalqları Ruhani İdarəsi) sarsıntılara məruz qalıb daxildən parçalandı, bu da İslamın inkişafına və yayılmasına böyük zərbə vurdu. Böyük çətinliklərə baxmayaraq idarəmiz zərbələrə tab gətirərək öz strukturunu qoruyub saxladı və indi

çoxmillətli Qafqaz xalqları arasında sülh və əmin-amanlıq yaratmaqla məşğuldur...

1990-cı ildə Mixail Qorbaçovun Azərbaycanı Əfqanıstana çevirmək cəhdləri var idi və biz bunun qarşısını ala bildik. Lakin hələ də erməni təcavüzünün qarşısını ala bilmirik. Mən konfransa böyük önəm verirəm və ümid edirəm ki, bizi düşündürən problemlərin həlli yollarını tapacağıq”.[100]

**1996-cı ildə Bakıda təşkil edilən iclas**

Qafqaz Müsəlmanları İdarəsinin dəvəti ilə Ümumdünya Xalq İslam Rəhbərliyi Təşkilatı Baş Katibliyinin Bakıda keçirilən V İclasında çıxış edən Şeyxülislam Allahşükür Paşazadə həzrətləri dünyanın bir sıra bölgələrində müsəlmanların məruz qaldığı təcavüzlərə toxunur, Baş Katibliyin bütün təsisat və üzvlərinin Azərbaycan xalqı ilə həmrəyliyinə və bir olacağına əmin olduğunu bəyan edir, həmçinin ermənilərin xalqımıza qarşı törətdiyi təcavüzkarlıq əməllərindən danışır. İclasda İslam dünyası üçün əhəmiyyətli olan mühüm qərarlar qəbul olunur:

“Baş Katiblik:

- Çeçenistan hadisələrini izləyərək Rusiyanın təcavüzünü pisləyir;
- Fələstin xalqı başda olmaqla millətlərin azadlıq mübarizəsini dəstəkləyir;
- Sudan ilə Misir arasında əmələ gəlmiş ixtilafın ərəb-İslam çərçivəsində həllini istəyir və Qərbin bu bölgədəki mənafelərini pisləyir;
- Azərbaycan xalqına özünün Ermənistan Respublikası tərəfindən işğal olunmuş torpaqlarının geri qaytarılmasına kömək edəcəyini bildirir”.[101]

**1997-ci il “Bakı bəyannaməsi”**

Şeyxülislam Allahşükür Paşazadə ilə Ümumgürcüstan Katalikos-Patriaxı II İliya arasında imzalanmış bu bəyannamə

[100] Həmin mənbə, səh. 173.
[101] Həmin mənbə, səh. 174.

Qafqazda sülhün bəqrərar olmasında, Qafqaz xalqları arasında mehribanlıq, əmin-amanlıq yaradılmasında böyük əhəmiyyətə malikdir.

Bəyannamədə deyilir: "Bu gün xalqlarımız öz həqiqi dövlətçiliklərini yaratmaq prosesində yeni tarixi şəraitdə yaşamağı öyrənirlər. Təəssüf ki, xoşbəxt gələcək quruculuğu üçün möhkəm sülh əsaslarının qoyulmasına maneçiliklər törədilir. Üç Qafqaz dövlətinin dini başçılarının, habelə bütün maraqlı tərəflərin din xadimlərinin iştirakı ilə konfrans keçirilməsinə lüzum vardır və biz bu təkliflə çıxış edirik. Ulu Tanrıdan xalqlarımıza xoşbəxtlik arzulayaraq bəyan edirik ki, gürcü və Azərbaycan xalqlarının dinc, əmin-amanlıq şəraitində yaşamaları üçün bütün səylərimizi birləşdirəcəyik".

**1997-ci il oktyabr**

İndoneziyanın paytaxtı Cakarta şəhərində keçirilən İslam Konfransı Təşkilatının Vəqf Nazirlərinin VI Beynəlxalq Konfransında iştirak edən Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Hacı Allahşükür Paşazadə həzrətləri Azərbaycanın ümdə problemləri, qaçqınların və məcburi köçkünlərin vəziyyəti barədə ətraflı çıxış edir. Bütün bunları nəzərə alan konfrans müsəlman ölkələrində yoxsulluğun aradan qaldırılması ilə bağlı mühüm qərarlar qəbul edir.

**1998-ci il 30 sentyabr**

Bakıda təşkil olunan Qafqaz müsəlmanlarının X Qurultayından sonra "Müasirlik və dini mənəvi dəyərlər" mövzusunda Beynəlxalq Konfrans keçirildi. Konfransda Qafqaz, Orta Asiya və Pribaltika ölkələrinin, eləcə də Rusiya və Ukraynanın dini rəhbərləri çıxış edərək öz fikirlərini bildirdilər. İki saatlıq hesabat məruzəsi ilə çıxış edən Şeyxülislam Allahşükür Paşazadə həzrətləri də Azərbaycanın ümdə problemlərinə toxundu. Elə Qafqaz müsəlmanlarının X Qurultayının çağırılması və keçirilməsindən də məqsəd Azərbaycan həqiqətlərini dünyaya tanıtmaqdan ibarət idi.

Qurultayda çıxış edən Çeçenistan nümayəndəsi Hacı Əhməd Kadırov Çeçenistan Başçısı Aslan Məshədovun fərmanını oxumaqla Şeyxülislam həzrətlərinin "Koman turpal" (Milli qəhrəman) ordeni ilə təltif edildiyini elan edərək ordeni və üzərində mərhum Cövhər Dudayevin portreti toxunulmuş xalçanı ona təqdim etdi.

**2012-ci il 26 Aprel**

"Gülüstan" sarayında dünya dini liderlərinin ikigünlük Bakı Sammiti işə başladı. Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Sammitin açılış mərasimində iştirak etdilər.

Sammitə dünyanın 33 ölkəsindən ənənəvi dünya dinlərini təmsil edən 200-dən çox yüksək səviyyəli nümayəndə, həmçinin 14 nüfuzlu beynəlxalq təşkilatın, eləcə də Rusiya Federasiyasının 11 subyektinin dini rəhbərləri və nümayəndələri də qatılmışdılar. Sammitin iştirakçıları əvvəlcə rəsmi foto çəkdirdilər.

Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə həzrətləri Sammiti açaraq dedi:

"Allahın adı ilə!

Zati-aliləri, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev!

Zati-müqəddəsləri, Patriarx həzrətləri!

Möhtərəm din xadimləri!

Əziz Sammit iştirakçıları!

Çox hörmətli Mehriban xanım!

Uca Yaradanımızın adı ilə dünya dini liderlərinin Bakı Sammitini açıq elan edir, Zati-müqəddəsləri patriarxları, müfti həzrətlərini, dini-mənəvi rəhbərləri, həmçinin dəyərli qonaqları bu tarixi tədbirdə səmimi-qəlbdən salamlayıram. Qoy Uca Yaradan bugünkü qardaşlıq məclisimizə uğur bəxş etsin!

Dinlərarası dialoqa dair mühüm əhəmiyyətli tədbirin Bakıda baş tutması şübhəsiz ki, Azərbaycanın müstəqillik tarixində olduqca dəyərli və unudulmaz bir hadisədir. Belə bir mühüm və möhtəşəm tədbirin Bakıda keçirilməsi Azərbaycan xalqına

və dövlətimizin başçısına beynəlxalq aləmdə hörmət və etimadın ifadəsidir. Tədbirin Azərbaycanda keçirilməsi ideyasına vaxtilə ilk xeyir-dua verən məhz Ulu Öndərimiz Heydər Əliyev həzrətləri olmuşdur.

Məclisimizə təşrif gətirmiş Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanı da salamlayırıq. Bu əhəmiyyətli gündə Sammitin iştirakçıları Azərbaycan Respublikasının Prezidenti, möhtərəm İlham Əliyev həzrətlərini dinləmək istərdi".

Azərbaycan Prezidenti İlham Əliyev Sammitdə çıxış etdi.

**Prezident İlham Əliyevin çıxışı:**

"Hörmətli Şeyx həzrətləri!

Hörmətli Zati-müqəddəsləri!

Hörmətli din xadimləri!

Xanımlar və cənablar!

Əziz qonaqlar!

Mən sizin hamınızı Azərbaycanda səmimiyyətlə salamlayıram. Azərbaycana xoş gəlmisiniz. Dünya dini liderlərinin Bakı Sammiti çox böyük əhəmiyyətə malik olan bir hadisədir. Təsadüfi deyildir ki, bu görüş məhz Bakıda keçirilir. Bakıda dünya dini liderlərinin görüşləri artıq ənənəvi xarakter almışdır. Əsrlər boyu Azərbaycanda müxtəlif millətlər, müxtəlif dinlərin nümayəndələri dostluq, qardaşlıq şəraitində, bir ailə kimi yaşamışlar. Azərbaycanda dini və milli dözümlülüyün çox böyük və şərəfli bir tarixi vardır. Biz çox şadıq ki, son vaxtlar Bakıda sivilizasiyalararası dialoqun gücləndirilməsi işinə böyük töhfə verən mötəbər beynəlxalq tədbirlər keçirilir. Biz keçən ilin noyabr ayında dini dialoqun gücləndirilməsi üçün böyük tədbir keçirmişdik. Azərbaycanın böyük dostu, Zati-müqəddəsləri, Moskva və Bütün Rusiyanın Patriarxı Kirill bu gün olduğu kimi, o tədbirdə də iştirak etmişdir. Bu, çox böyük və gözəl göstəricidir. Bu gün bütün dinlərin nümayəndələrinin, rəhbərlərinin Azərbaycana gəlməsi, dünən, bu gün və sabah birlik-

də keçirilən və keçiriləcək müzakirələrdə iştirak etmələri böyük əhəmiyyətə malik olan bir hadisədir.

Mən şübhə etmirəm ki, bu görüşün çox gözəl nəticələri olacaq, dinlər, millətlər və ölkələr arasında daha da yaxşı anlaşmanın əldə edilməsinə xidmət göstərəcəkdir. Buna böyük ehtiyac vardır. Bir daha vurğulamaq istəyirəm ki, biz Bakının, Azərbaycanın dinlərarası dialoqun bir növ mərkəzinə çevrilməsinə də çox böyük ümidlərlə baxırıq. Bir tərəfdən, bunu Azərbaycanda dini və milli zəmində vəziyyətin çox yaxşı olmasının təzahürü kimi qiymətləndiririk. Bu, bizim üçün böyük şərəfdir. Digər tərəfdən, dinlərarası dialoqun praktiki nöqteyi-nəzərdən gücləndirilməsi işinə Azərbaycan öz töhfəsini verə bilər, verir və verməyə davam edəcəkdir.

Azərbaycan Avropa ilə Asiya arasında təbii bir körpüdür. Əsrlər boyu bu diyarda müxtəlif dinlərin, millətlərin nümayəndələri bir ailə kimi yaşamışlar. Bu gün Azərbaycanın müasir həyatında da bu iki vacib amil özünü göstərir. İyirmi ilə yaxındır ki, Azərbaycan İslam Konfransı Təşkilatının, on ilə yaxın isə Avropa Şurasının üzvüdür. İslam bizim müqəddəs dinimizdir. Biz öz dini və milli ənənələrimizə çox sadiqik. Çalışırıq ki, gənc nəsil də vətənpərvərlik ruhunda, milli ruhda tərbiyə alsın. Eyni zamanda, Azərbaycan bütün dünyaya açıq olan, bütün ölkələrlə əməkdaşlığa meylli ölkədir.

Keçən il Bakı İslam mədəniyyətinin paytaxtı seçilmişdi və bir il ərzində bununla əlaqədar çoxsaylı tədbirlər keçirilmişdir. Mən keçən dəfə də söyləmişdim, bu gün də söyləmək istəyirəm və ümid edirəm ki, gün gələcək, Bakı Avropa mədəniyyətinin də paytaxtı seçiləcəkdir. Beləliklə, Azərbaycan Avropa və Asiya, xristian və müsəlman dünyası ilə əlaqələrin inkişafı işinə daha da böyük töhfə verəcəkdir.

Qeyd etdiyim kimi, əsrlər boyu Azərbaycanda bütün millətlərin, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşamışlar, ölkəmizin inkişafına öz dəyərli töhfələrini vermişlər. Bu gün də bu proses uğurla davam edir. Azərbaycanda bütün azadlıqlar mövcud olduğu kimi, dini azadlıqlar da tam şəkildə təmin edilir.

Azərbaycanda gündəlik fəaliyyət göstərən mindən çox məscid mövcuddur. On bir kilsə, altı sinaqoq və digər dini məbədlər fəaliyyət göstərir. Bu, bizi gücləndirir.

Ölkənin gücü təkcə onun iqtisadi imkanları ilə ölçülmür. Baxmayaraq ki, Azərbaycanda bu istiqamətdə də böyük uğurlar əldə edilmişdir. Bizim gücümüz milli birliyimizdə, ölkəmizdə hökm sürən hərtərəfli sabitliyin möhkəmlənməsində, dini və milli sülhün mövcudluğundadır. Bu amillər ölkəmizi gücləndirir. Bu amillər ölkəmizi gələcəkdə də inkişaf etdirmək üçün bizə kömək göstərəcəkdir.

Azərbaycan çoxmillətli, çoxkonfessiyalı ölkədir. Biz milli dəyərlərimizə çox sadiqik. Ümumbəşəri dəyərləri bölüşürük. Eyni zamanda, əlbəttə ki, ölkədə gedən ümumi meyillər ölkənin müasirləşməsinə, modernləşməsinə xidmət göstərəcəkdir.

Bu gün Azərbaycanda işləmək və yaşamaq üçün bütün şərait mövcuddur: sabit ictimai-siyasi vəziyyət, artan iqtisadi imkanlar, bütün azadlıqların mövcudluğu, vətəndaş cəmiyyətinin formalaşması. Son 6 il ərzində ölkəmiz iqtisadi inkişaf baxımından dünyada birinciliyi saxlayır. İqtisadiyyatımız son altı ildə 2,8 dəfə, təxminən 300 faiz artmışdır. Ölkədə köklü sosial problemlər öz həllini tapmışdır. Yoxsulluq şəraitində yaşayanların sayı altı il ərzində 49 faizdən 11 faizə düşmüşdür. Bu onu göstərir ki, ölkəyə gələn maddi resurslar ədalətli şəkildə bölünür. Sosial ədalət bizim fəaliyyətimizin əsas istiqamətlərindən biridir. Əlbəttə ki, ədalət, sosial ədalət hər bir dində yüksək yerə malik olan bir anlayışdır. Ədalət olmadan insanlar razı ola bilməzlər. Ən böyük faciələrdən biri də məhz ədalətsizlikdir. Ədalətsizliyin aradan qaldırılması, ölkələr, xalqlar arasında daha da yaxşı münasibətlərin qurulması üçün dini liderlərin birgə fəaliyyəti çox böyük əhəmiyyətə malik olan məsələdir. Biz Azərbaycanda istəyirik ki, bölgəmizdə sülh, əməkdaşlıq təmin olunsun, heç bir qarşıdurma, heç bir ədavət olmasın. Azərbaycan dövləti regional əməkdaşlıq baxımından öz töhfəsini verir.

Mən ümid edirəm ki, dünya dini liderlərinin birgə fəaliyyəti nəticəsində, dünən, bu gün və sabah qəbul olunmuş və qəbul olu-

nacaq qərarların icrası nəticəsində həm xalqlararası münasibətlər daha da yüksək səviyyəyə qalxacaq, eyni zamanda bölgəmiz və dünyamız daha da əmniyyətli olacaqdır. Biz elə etməliyik ki, bütün münaqişələr tezliklə öz həllini tapsın. Elə etməliyik ki, insanlar bir-biri ilə xoş, mehriban ünsiyyətdə olsunlar. Bu işdə təkcə siyasətçilərin fəaliyyəti kifayət ola bilməz. Cəmiyyətdə yüksək hörmətə malik olan dini liderlərin sözünə böyük ehtiyac vardır. Bu söz eşidilir. Bu gün Bakıdan səslənən sözlər, verilən bəyanatlar əlbəttə ki, dünyada da geniş əks-səda yaratmışdır.

Baxmayaraq ki, bu görüşdə müxtəlif mövzular haqqında fikir mübadiləsi aparılacaq, bu gün bütün dini konfessiyaların nümayəndələrinin bir masa arxasında oturması özlüyündə böyük bir hadisədir. Dünən mənə verilən məlumata görə, Təzəpir məscidində çox gözəl görüş keçirilmişdir. Bütün dinlərin nümayəndələri bir-birinin sözlərinə qulaq asırdılar, fikir mübadiləsi aparırdılar. Əlbəttə ki, bu gün də açıq, səmimi fikir mübadiləsi üçün çox gözəl şərait yaradılacaqdır.

Bununla bərabər, müzakirələrin mövzusunun biri də qloballaşma ilə bağlı olan məsələlərdir. Bu, əlbəttə ki, dünya üçün nisbətən yeni bir mövzudur. Ancaq çox sürətlə yayılan bir prosesdir. Əlbəttə ki, hər bir ölkə, hər bir xalq milli, mənəvi dəyərlərinin qorunması üçün öz tədbirlərini görməlidir.

Azərbaycan müasir, müasirləşən, dünya birliyinə sürətlə qovuşan ölkədir. Baxmayaraq ki, bizim dini, milli ənənələrimiz çox güclüdür, Azərbaycan dünyəvi dövlətdir. Təbii ki, qloballaşma prosesləri bizdən də yan keçə bilməz. Sadəcə olaraq, mən hesab edirəm, biz elə etməliyik ki, qloballaşma adı altında öz milli dəyərlərimizi unutmayaq. Biz milli dəyərlərimizə sadiq olmalıyıq. Hər bir ölkə, hər bir xalq üçün onun milli dəyərləri hər şeydən üstün olmalıdır. Bu dəyərlər, müxtəlif xalqların dəyərləri bir-biri ilə ziddiyyət təşkil etməməlidir. Ona görə biz qloballaşma deyəndə Azərbaycanda beynəlxalq əməkdaşlığı, xoş münasibətləri, dostluğu nəzərdə tuturuq. Qloballaşma adı altında xalqlara zidd olan, milli mentalitetə xas olmayan dəyərlər aşılanmamalıdır. Hər halda biz buna hazır olmalıyıq ki, milli mənliyimizi qoruyaq.

Azərbaycan xalqı böyük tarixə malik olan bir xalqdır. Ancaq müstəqillik dövrümüz o qədər də uzun deyildir. Baxmayaraq ki, əvvəlki dövrlərdə Azərbaycan müstəqil ölkə kimi yaşamırdı, biz öz milli dəyərlərimizi, ənənələrimizi qoruya bilmişik. Elə etməliyik ki, qloballaşmaya qarşı bəzi dairələrdə olan şübhələr ərisin, bu şübhələr aradan götürülsün. Bunu etmək üçün, əlbəttə, bütün dünya birliyi bu məsələ ilə bağlı yəqin ki, öz fikrini bildirməlidir. Bu anlayışa müəyyən düzəlişlər edilməlidir.

Biz öz milli və dini dəyərlərimizə sadiqik. Biz gənc nəsli vətənpərvərlik ruhunda, milli ruhda tərbiyə etmək istəyirik və bunu edirik. Eyni zamanda, biz müasirliyə doğru uğurla addımlayırıq. Təhsil sahəsində böyük islahatlar aparılır. Əminəm, bu gözəl fürsət hər bir iştirakçıya imkan verəcək ki, öz fikirlərini səmimi, açıq şəkildə bildirsin. Bu fikir mübadiləsi bizi zənginləşdirəcəkdir. Eyni zamanda, əminəm ki, açıq və səmimi fikir mübadiləsi mövcud olan problemlərin də müəyyən dərəcədə aradan qaldırılması üçün gözəl bir fürsət olacaqdır.

Mən bir daha bütün görüş iştirakçılarını səmimiyyətlə salamlayıram. Bir daha Azərbaycana "Xoş gəlmisiniz!" deyirəm. Sammitin işinə uğurlar arzulamaq istəyirəm. Ümid etmək istəyirəm ki, gələcəkdə də Bakıda, Azərbaycanda belə mötəbər tədbirlər keçiriləcək, Bakı haqlı olaraq dünya dinlərinin dialoqu və inkişafı üçün beynəlxalq mərkəzlərdən birinə çevriləcəkdir. Diqqətinizə görə sağ olun".

Sonra çıxış edən Şeyxülislam Allahşükür Paşazadə həzrətləri bildirdi ki, Sammitin ünvanına dünyanın bir çox ictimai təşkilatlarından və dini birliklərdən çoxlu təbrik məktubları daxil olmuşdur.

Daha sonra Rusiyanın Bakıdakı səfiri Vladimir Doroxin Prezident Dmitri Medvedevin Sammit iştirakçılarına təbrik məktubunu oxudu.

Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Hacı Allahşükür Paşazadə həzrətləri yenidən çıxış edərək dedi:

"Zati-aliləri, möhtərəm cənab Prezident!

Zati-müqəddəsləri, möhtərəm patriarxlar!

Möhtərəm din xadimləri və konfessiya rəhbərləri!
Hörmətli Sammit iştirakçıları!
Əziz qonaqlar!

Bu ali məqamda – tarixi zirvə görüşündə bizləri bir araya gətirən və xoş məramlar naminə bəşəri vəhdət yoluna yönəldən Uca Yaradanımıza həmd-sənalar edir, hər birinizə xalqımızın qədim adəti üzrə "Xoş gəlmisiniz!" deyir və dünya dini liderlərinin Bakı Sammitinin işində birgə fəaliyyətimizə uğurlar arzulayıram.

Bu gün öz tarixinin silinməz möhtəşəm səhifələrindən birini yazan müstəqil Azərbaycan hər zaman müxtəlif xalqların, millətlərin və dinlərin birgə yaşadığı, mədəniyyətlərin qovuşduğu müqəddəs məkan olmuşdur. Biz sizlərə, müxtəlif dinlərin rəhbərlərinə və təmsilçilərinə əldə etdiyimiz böyük nailiyyətləri – tolerantlığımızı, dünyaya açıqlığımızı, din-dövlət münasibətlərində qazanılmış dəyərləri və qlobal problemlərin həlli yollarında birgə əməkdaşlığımızı nümayiş etdirmək üçün Bakı Sammitinə toplaşmışıq. Bu gün burada bir araya gəlməyimiz, şübhəsiz ki, dünya miqyasında dinlərarası dialoq və əməkdaşlıq sahəsində yeni mərhələ, irəliyə atılmış böyük addımdır. Ümidvaram ki, bəşəriyyətin ümumi maraqları və qlobal problemlərin – terrorizmin, dini fanatizmin, ekstremizmin və separatizmin aradan qaldırılması naminə dinlərarası və mədəniyyətlərarası münasibətlərin inkişafına yeni təkan verən bu tədbir tarixi əhəmiyyətli bir hadisəyə çevriləcəkdir.

Bildiyiniz kimi, çoxmillətli və çoxkonfessiyalı Azərbaycan Respublikasının böyük bir tarixi mərhələsi Ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər ictimai-siyasi həyatın bütün sahələrində, o cümlədən dövlət-din münasibətlərinin tənzimlənməsində, dini etiqad azadlığının təminatında, dini-mənəvi dəyərlərin qorunmasında müstəsna xidmətlər göstərmiş və bu sahədə özündən sonra böyük siyasi və dövlətçilik təcrübəsi miras qoymuşdur. Heydər Əliyev siyasi xəttini uğurla davam etdirən möhtərəm Prezidentimiz İlham Əliyev bu gün Azərbaycanın iqtisadi qüdrətinin, mədəni intibahı-

nın və beynəlxalq aləmdə nüfuzunun daha da möhkəmlənməsi üçün böyük işlər görür. Eyni zamanda, tarixi mədəniyyət abidələrinin, məscid və ziyarətgahların, xristian, yəhudi və digər dinlərə məxsus məbədlərin bərpası və təmiri, dilindən və dinindən asılı olmayaraq ölkənin bütün vətəndaşlarının etiqad azadlığının qorunması və dini ehtiyaclarının təmin olunması – bütün bunlar Azərbaycanın dini-mənəvi mühitini əks etdirən real göstəriciləridir.

Tolerantlığın Azərbaycanda çox möhkəm təməl sütunları, zəngin ənənələri, dərin tarixi və mədəni kökləri vardır. Bu gün mötəbər iştirakı ilə bizi şərəfləndirən əziz qardaşım, Zati-müqəddəsləri, Moskva və Bütün Rusiyanın Patriarxı, möhtərəm Kirill həzrətlərini, bütün ermənilərin Patriarx-katolikosu II Qaregin həzrətlərini, eləcə də məclisimizə təşrif gətirmiş pravoslav kilsəsinin görkəmli nümayəndələrini aramızda görməkdən böyük məmnunluq duyuruq. Roma Papası, Zati-aliləri Benediktin və Zati-müqəddəsləri Varfolomeyin şəxsi təmsilçilərinin Bakı Sammitində iştirakı bizim son dövrlərdə möhkəmlənən əlaqələrimizin göstəricisidir.

Müsəlman dünyasının tanınmış dini liderlərinin, mənim əziz din qardaşlarımın, İslam Konfransı Təşkilatı nümayəndələrinin, İSESKO-nun Baş direktoru hörmətli Əbdüləziz Tüveycri cənablarının, o cümlədən Yaxın və Uzaq Şərqin, Mərkəzi Asiyanın, Qafqazların nüfuzlu din xadimlərinin, həmçinin başqa dini cərəyan nümayəndələrinin dəvətimizi qəbul edərək Bakı Sammitinə təşrif gətirmələri Azərbaycan Respublikasının dialoq aparmaq mədəniyyətindən, müxtəlif əqidəli insanları bir araya toplamaq istəyindən xəbər verir, ayrı-ayrı millətlər və dinlərin nümayəndələri arasındakı münasibətlərdən yaranan qürur və hörmət hissini artırır.

Möhtərəm Sammit iştirakçıları!

Bu gün "qloballaşma" məfhumu altında həyatımıza daxil olan bir sıra problemlər əslində bizdən – dövlət, din və elm xadimlərindən vahid ideya ətrafında birləşməyi tələb edir. Biz, din xadimləri bu problemlərin yaranma səbəblərini İlahi qanuna-

uyğunluqların pozulması ilə əlaqələndiririk və hesab edirik ki, cəmiyyətlər Uca Yaradanın mənəvi dəyərlərindən uzaqlaşdıqca bəşəri fəlakətlərə yaxınlaşır. İndi qarşımızda duran qlobal problemlərin hər biri İlahi mənbəyə müraciətin vacibliyini bir daha təsdiqləyir: bioetika pozuntuları – süni demoqrafik artıma, istehsal sahələrinin azalması - iqtisadi böhrana, enerji resurslarının istismarı - ekoloji fəlakətlərə, mənəvi dəyərlərin ucuzlaşması isə – ailə və cəmiyyətlərin dağılmasına gətirib çıxara bilər. İnsan hüquqlarının pozulması, narkotik maddələrin və digər uyuşdurucu vasitələrin yayılması, kosmosa nəzarət, nüvə terrorizmi, kütləvi qırğın silahlarının bəşəriyyət üzərində tətbiqi hamımızı çox ciddi narahat edir. Biz din xadimləri fövqəldövlətlərin nüvə tərk-silahı istiqamətində atdıqları addımları bəyənirik. Hesab edirik ki, əgər bu fəlakətlərə qarşı mübarizədə dini liderlər öz nüfuzlarından, elm adamları təcrübi biliklərindən, dövlət rəhbərləri ölkələrinin rifahı naminə mütərəqqi əməkdaşlıqdan istifadə etməsələr sabah tarix və bəşəriyyət qarşısında cavab verəcəklər.

Planetimizin müxtəlif guşələrində - Fələstində, Əfqanıstanda, İraqda və bizim Qafqaz regionunda terror aktlarının baş verməsi, bu halın qlobal xarakter alması da bizi narahat etməyə bilməz. Heç bir din terror, zor və təcavüzə haqq qazandırmır. Dini şüarlardan günahsız dinc əhalinin qətlə yetirilməsi, terror və vandalizm aktları üçün istifadə edənlər Vahid Yaradanımız qarşısında ağır günah işlətmiş olurlar. Unutmaq olmaz ki, Uca Yaradanın göndərdiyi dinlər insan həyatına qəsdi bütün insanlığa qarşı qəsd kimi dəyərləndirir.

Konfessiyalararası dialoqun gücləndirilməsi, xalqlarımızın və cəmiyyətlərimizin tolerantlıq və qarşılıqlı hörmət ruhunda tərbiyə edilməsi din xadimlərinin ümdə vəzifəsi olmalıdır. Bir ali həqiqət heç zaman unudulmamalıdır ki, bizləri bəşər ailəsinin üzvləri kimi birləşdirən, bir-birimizə bağlayan dəyərlər, bizi fərqləndirən, ayıran amillərdən qat-qat möhkəm, dərin və mühümdür. Dövlətlərin ərazi bütövlüyünə və təhlükəsizliyinə zidd olan ekstremist, radikal və separatçı qüvvələrə qarşı din xadim-

ləri hər zaman vahid mövqedə olmalıdırlar. Biz əminik ki, fiziki və mənəvi təcavüz planlarının qarşısını yalnız dövlətlərin, ictimai və dini birliklərin birgə fəaliyyəti sayəsində almaq olar. Çox təqdirəlayiq haldır ki, bu gün bu istiqamətdə ardıcıl fəaliyyətin önündə zəmanəmizin görkəmli din xadimi, Rus Pravoslav Kilsəsinin başçısı, Moskva və Bütün Rusiyanın Patriarxı, Zati-müqəddəsləri Kirill həzrətləri dayanır.

Möhtərəm Kirill həzrətlərinin dini tolerantlıq və qarşılıqlı əməkdaşlıq sahəsindəki xidmətləri danılmaz tarixi həqiqətdir. 2006-cı ildə dünya din xadimlərinin Moskva Sammitində qəbul olunmuş Yekun qərara əsasən, BMT ilə əməkdaşlıq çərçivəsində birgə işlərin görülməsi, fəaliyyətimizin əlaqələndirilməsi gündəmdədir. Hazırda BMT yanında Dini Məşvərət Şurasının yaradılması və ilkin mərhələdə YUNESKO yanında dinlərarası dialoq üzrə yüksək səviyyəli Təşəbbüs Qrupunun fəaliyyəti məsələləri artıq reallaşmışdır.

Bu gün bütün problemlərin fövqündə duran sülh probleminin həm qlobal, həm də lokal miqyasda həllində dövlətlərin, hökumətlərin, ictimai və dini qurumların birgə əməkdaşlığı səmərəli nəticə verə bilər. Burada əyləşənlərin əksəriyyəti Qafqaz regionunun həllini tapmayan problemlərindən, o cümlədən Azərbaycanın Qarabağ mücadiləsindən xəbərdardır. İyirmi ildən artıqdır ki, Azərbaycan torpaqlarının 20 faizi işğal altındadır və biz Ermənistan dövləti ilə hərbi münaqişəni sülh yolu ilə aradan qaldırmaq üçün səy göstəririk. Bu illər ərzində Eçmiədzinlə bizim görüşlərimizin vasitəçisi və təşkilatçısı əsasən Rus Pravoslav Kilsəsi, daha sonra Gürcü Pravoslav Patriarxiyası və Dünya Kilsələr Şurası olmuşdur. Bu görüşlərimiz müəyyən konstruktiv nəticələr versə də bu gün yenə bu istiqamətdə yeni fəaliyyətlərə, yeni danışıqlara ehtiyac vardır. Biz öz tərəfimizdən buna razıyıq, çünki sülh Allah-Təalanın bizə əmanət etdiyi elə bir nemətdir ki, onun yolunda atılan addımın özü də bir savabdır.

Mən bu gün bəzi çətinliklərə baxmayaraq dəvətimizi qəbul edən zati-müqəddəsləri, erməni Patriarx-katolikosu II Qareginin Sammitimizdə iştirakını sülh yolunda atılan önəmli əməl kimi

dəyərləndirirəm və Katolikos həzrətlərini bu istiqamətdə daha fəal münasibətə, həm birbaşa, həm də vasitəçilik yolu ilə qarşılıqlı ünsiyyətin bərpasına dəvət edirəm. Hesab edirəm ki, bu gün Qarabağın, eləcə də Qafqazın bütün münaqişə bölgələrinin problemləri ədalətli sülh yolu ilə, beynəlxalq hüquq prinsiplərinə uyğun olaraq ərazi bütövlüyü və qarşılıqlı anlaşma çərçivəsində həll oluna bilər.

Hörmətli qonaqlar, möhtərəm din xadimləri!

Tolerantlıq Azərbaycan xalqının və dövlətinin həqiqi milli-mənəvi dəyəridir. Bu Sammitin keçirilməsi üçün müstəqil Azərbaycanın paytaxtı Bakı şəhərinin mərkəz seçilməsi də dini və milli demokratiyanın ölkəmizdə bərqərar olmasının göstəricisidir. Biz əminik ki, Bakı Sammiti ölkələrimizin və regionumuzun tarixində yeni bir mərhələnin başlanğıcı olacaqdır. O, millətlərarası və dinlərarası münasibətlərin davamlı inkişafına xidmət edəcəkdir.

Bir daha hamınıza təşəkkür edir, məclisimizin işinə uğurlar arzulayıram. Bu ali məclisin ərsəyə gəlməsində xüsusi diqqət və qayğısına görə Azərbaycan Respublikasının Prezidenti, Zati-aliləri, cənab İlham Əliyevə minnətdarlığımı bildirirəm. Həmçinin, bizimlə birgə böyük əmək sərf etmiş, mənəvi dəstək olmuş əziz qardaşım, Zati-müqəddəsləri, Patriarx Kirill həzrətlərinə, Bakı Sammiti üçün köməyini əsirgəməyən şəxslərə təşəkkürlərimi çatdırır və bütün qonaqlarımıza xeyir-dualar diləyirəm".

Sonra Moskva və Bütün Rusiyanın Patriarxı Kirill çıxış edərək dedi:

"Zati-aliləri, möhtərəm cənab Prezident!

Çox hörmətli Şeyxülislam Allahşükür Paşazadə!

Hörmətli dini liderlər və Sammitin qonaqları!

Bu ali yığıncağın iştirakçılarını salamlamağa şadam. Çıxışımın əvvəlində Sammiti hər cəhətdən dəstəklədiyinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevə təşəkkürümü bildirmək istəyirəm. MDB Dinlərarası Şuranın, ilk növbədə, qonaqpərvər ev sahibi, Qafqaz Müsəlmanları İda-

rəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadənin Sammitin təşkilində rolunu diqqətə çatdırmaq istərdim. Bəşər sivilizasiyasının üzləşdiyi problemlərlə bağlı diskussiyalarımız artıq ənənəvi hal olur. Bu, onun hesabına mümkün olur ki, dindarlar arasında düşmənçilik toxumu səpmək cəhdlərinə baxmayaraq dini liderlər dialoq aparılması üçün xoş məramlarını qoruyub saxlayırlar.

Budəfəki Sammitimizin mövzusu “Qloballaşma, din, ənənəvi dəyərlər”dir. İndiki dövrdə dini icmalar bir sıra çox ciddi təhdidlərlə üzləşirlər. Onların arasında dindarlığı ictimai sahədən uzaqlaşdırmaq, eyni zamanda dindarların hisslərindən qərəzli, hətta bəzən cinayətkar məqsədlərlə istifadə etmək cəhdləri də vardır.

Müasir dünyada, xüsusilə Avropada insanın Allaha üz tutmasına tərəqqiyə və inkişafa mane olan təzahür kimi baxılır, ümumi rifah naminə onu tezliklə geridə qoymağı üstün tuturlar. Dindarlıqla bərabər, ənənəvi əxlaq normaları, kişi ilə qadın arasında ittifaq sayılan nikah, insan həyatının toxunulmazlığı haqqında təsəvvürlər də inkar edilir. Din və əxlaq bu halda şəxsi həyatda xoşa gəlməyən, lakin ictimai sahədən uzaqlaşdırılmalı fenomenlər hesab edilir. Bəzən bəhanə kimi müasir cəmiyyətin polietnik və polidini xarakterindən istifadə olunur. Bir sıra Avropa ölkələrində tez-tez belə bir komik vəziyyət yaranır ki, bəzi dairələr, məsələn, işlək dildən Milad sözünü silməyi, küçələrdən isə Milad bayramı bəzəklərini yığışdırmağı tələb edirlər. Onlar bunu “müsəlmanların xatirinə dəyməmək üçün” etdiklərini deyirlər, müsəlmanlar isə bu zaman həmin tədbirlərə qarşı çıxırlar.

Dinsiz gələcək, Allahın adı unudulduğu gələcək layihəsini həyata keçirmək mümkündürmü?

Bu layihəni irəli sürənlərin tarixi unutqanlığına heyrətlənməmək mümkün deyildir. Tanınmış publisistlərdən biri “Dünyanı dinsiz təsəvvür edin” deyir və dünyanın dinsiz daha yaxşı ola biləcəyini düşünür. Burada əyləşənlərin əksəriyyətinə belə dünyanı təsəvvür etmək lazım deyildir. Çünki biz belə dünyada doğulub böyümüşük. Böyük dinsizlik eksperimenti bir

dəfə qoyulmuşdur, dinin ictimai sahədən qovulduğu bir cəmiyyət qurulmuşdu. Bunun nəyin bahasına başa gəldiyini və nə ilə nəticələndiyini bilirik: XX əsrin totalitar diktaturalarının təcrübəsi bəşəriyyətə çox baha başa gəlmişdir və onu unutmaq çətindir. İspaniyanın yandırılmış kilsələrindən Moskva ətrafındakı Butovsk poliqonunadək, əsir düşərgələrinə çevrilmiş monastırlardan Kampuçiyanın "ölüm çölləri"nədək hər yerdə dinə nifrət və mənəvi reallıqları tamamilə istisna edən yeni dünya qurmaq istəyi həmişə eyni nəticələr vermişdir.

XX əsrin təcrübəsi göstərir ki, dini ictimai sahədən uğurla sıxışdırıb çıxarmaq olar, lakin bütün hüquq və azadlıqlar, rifah və elementar təhlükəsizliklə birlikdə. Qeyri-totalitar dünyada, insanların azca da olsa azadlığı olan dünyada din həmişə olacaq və öz nüfuzunu saxlayacaqdır. Artıq 200 ildir ki, dinin yox olacağını əvvəlcədən xəbər verirlər. Lakin bu, baş vermir, çünki insanlar öz mahiyyəti etibarilə ali həqiqəti, son ümidi və həyatın daimi mənasını axtaran dindar varlıqlardır. Dünyaya və onun problemlərinə istənilən realist münasibət bunu nəzərə almalıdır.

Şahidi olduğumuz qloballaşma prosesini yalnız mənfi, yaxud da yalnız müsbət çalarlarda nəzərdən keçirmək düzgün olmaz. O, həm yeni imkanlar, həm də yeni problemlər, həm şəksiz fayda, həm də təhlükə daşıyır. Bəşəriyyət yalnız bu yaxınlarda milli və ümumbəşəri mənafelər arasında qarşılıqlı əlaqə olduğunu dərk etməyə başlamışdır. Buna bütün ölkələrə aid olan beynəlxalq terrorizm, dünya iqtisadiyyatının böhranı, yaxud ekoloji böhran kimi ümumi təhdidlər şərait yaratmış və yaratmaqdadır. Beynəlxalq hüququn nüfuzunun artması daha çox konstitusiyaların onun prioritetlərini bərqərar etməsinə gətirib çıxarmışdır. Bu, öz növbəsində çox vaxt kiçik və ya yoxsul dövlətlərin hüquqi və siyasi sahələrini lider ölkələrdən asılı edir.

İqtisadiyyatın qloballaşmasını nəzərdən keçirərkən dəstəyin və köləliyin ikili effekti üzə çıxır. Bir tərəfdən o, dövlətlər arasında təsərrüfat sahəsində qarşılıqlı fəaliyyəti asanlaşdırır, xalqların bəşəriyyətin qabaqcıl nailiyyətlərindən istifadə etməsi üçün formal şərait yaradır, ehtiyatlardan qənaətlə istifadə olun-

masını təmin edir, ticarəti stimullaşdırır. Digər tərəfdən, qloballaşma mənfi nəticələr verir: bu, "qızıl milyard"a daxil olmayan ölkələrin ehtiyatlarının itirilməsi, kiçik biznesin müflisləşməsi, rəqabətin ifrat formalarının qloballaşması, sosial bərabərsizliyin qlobal miqyasda artmasıdır. Siyasi səviyyədə qarşılıqlı ünsiyyət, iqtisadi sahədə tərəfdaşlıq fəaliyyəti qloballaşmanın bəzi mənfi cəhətlərini əvəz edə bilər. Lakin bu prosesin bütün mənfi nəticələrinin qarşısını yalnız milli özgürlüyün formalaşmasına cavabdeh olan mədəni və dini sahələrdə xalqların azadlığını qoruyub saxlamaq şərti ilə mümkündür. Milli özgürlüyün itirilməsi qloballaşmanın mənfi nəticələrinin planet miqyasında qaçılmaz olması üçün imkan yaratmaq deməkdir.

Bütün dünya mədəniyyətlərinə yalnız bir şəklə salınması, bir ictimai quruluşun standartlarına uyğunlaşmaq tələbləri ilə yanaşmaq düzgün olmazdı. Gördüyümüz kimi, xarici təzyiq və hətta silahlı qüvvə vasitəsilə xalqlara yad sivilizasiya formalarını qəbul etdirmək cəhdləri xaos və insan əzablarının artmasından başqa heç nəyə gətirib çıxarmır. Əsl tərəqqi yalnız sivilizasiya ənənələrinin təbii davamı olduqda mümkündür. Bibliyaya müraciət etsək görərik ki, insanı Allah xəlq etmiş və ona Özünə xas olan xüsusiyyətlər bəxş etmişdir . Məhz buna görə də iddia etmək olar ki, insan xisləti bir sıra daimi məziyyətlərə malikdir. Dinsiz etika nöqteyi-nəzərindən insan azadlığını yalnız digər insanların azadlığı məhdudlaşdıra bilər. Lakin bu, mənəvi sahədə çaşqınlığa gətirib çıxarır. "Nə qədər insan var, o qədər də rəy vardır" tezisi mütləq mənəvi norma anlayışını aradan qaldırır. Bu mövqe həm siyasətdə, həm də iqtisadiyyatda ağır nəticələrə gətirib çıxara bilər.

Bəşər sivilizasiyasının indiki inkişafı elə şərait yaratmışdır ki, planetdə həyatın özünün mövcudluğu təhlükə altına düşmüşdür. Qlobal böhran insan həyatının bütün sahələrinə sirayət etmişdir: milyonlarla insan acından və xəstəlikdən ölür, cinayətkarlıq artır, antropogen amillər ətraf mühiti insanların gələcək yaşayışı üçün yararsız vəziyyətə sala bilər. Bəşəriyyət xroniki olaraq bu problemlərdən əziyyət çəkir, çünki onlar, ilk növbədə, etik və

mənəvi xarakter daşıyırlar. Xarici aləmdə baş verən fəlakətlər müasir insanın düşüncəsində və dəyərlər sistemindəki böhranı əks etdirir”.

Moskva və Bütün Rusiyanın Patriarxı Kirill zamanın çağırışlarına və qlobal problemlərə layiqincə cavab vermək üçün din xadimlərinin də üzərinə böyük vəzifələr düşdüyünü vurğuladı, onları daha fəal və konkret mövqe tutmağa çağırdı. O, bu baxımdan dinlərarası dialoqu gücləndirməyin vacibliyini bildirdi. Patriarx Kirill YUNESKO ilə də dini qurumların əlaqələrinin genişləndirilməsinin mühüm əhəmiyyət kəsb etdiyini dedi. O, BMT yanında Dini Məşvərət Şurasının yaradılması və YUNESKO yanında dinlərarası dialoq üzrə yüksək səviyyəli Təşəbbüs Qrupunun fəaliyyətə başlamasının da bu yöndə əsaslı tədbirlərdən olduğunu bildirdi. Moskva və Bütün Rusiyanın Patriarxı Kirill ümumi amallar naminə tədbir iştirakçılarına uğurlar arzuladı və Bakı Sammitinin dinlərarası dialoqa əsaslı töhfələr verəcəyinə inamını ifadə etdi.

Türkiyənin Diyanət İşləri başqanı Əli Bardakoğlu dünya dini liderlərinin Bakı Sammitinin əhəmiyyətindən danışdı. O, Sammitin təşkilinə verdiyi dəstəyə görə Prezident İlham Əliyevə təşəkkür etdi və müasir Azərbaycanın gözəl mənzərəsi ilə bağlı minnətdarlığını çatdırdı.

Əli Bardakoğlu dedi ki, indi dünyanın sülhə ehtiyacı vardır, həm də dinlə bağlı dolğun məlumatların insanlara çatdırılması da vacibdir. Bu baxımdan din adamları insanların qəlbində sevgi və sayğı yaratmalıdırlar. Əli Bardakoğlu dinlərarası dialoqun genişləndirilməsinin zəruriliyindən danışaraq bildirdi ki, dinə münasibət hər bir ölkənin gələcəyidir. Onun sözlərinə görə, din azadlığı, onun doğru təlimi gələcəyin təməl prinsipi olmalıdır. Yalnız bu, birgəyaşayışın vasitəsi ola bilər.

Ermənilərin baş Patriarx-katolikosu II Qaregin Sammitin təşkilinə görə Azərbaycan hökumətinə təşəkkür etdi. O, etnik münaqişələrin mövcudluğunun bir çox dini dəyərləri də təhlükə altına saldığını dedi. Dinlərarası dialoqun bəşər mədəniyyətinin xilasına xidmət etdiyini deyən erməni katolikosu azad və dinc

həyata doğru getməyin vacib olduğunu diqqətə çatdırdı. II Qaregin Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması üçün Ulu Tanrıya dua etdiklərini dedi və bildirdi ki, bu yolda səylər davam etdiriləcəkdir.

YUNESKO-nun nümayəndəsi Bendev Badarç bildirdi ki, Bakı Sammitı dünyada bu baxımdan yeni platformaların əsasını qoyacaqdır. Yeni istiqamətlərin yaranmasında isə dünyanın dini liderlərinin böyük rolu vardır.

"Siz sülh yaradan şəxslərsiniz" deyən YUNESKO-nun nümayəndəsi təmsil etdiyi qurumun baş direktoru İrina Bokovanın təbrik məktubunu Sammit iştirakçılarının diqqətinə çatdırdı.

Papa Şurasının Dinlərarası Dialoq üzrə nümayəndəsi, Kardinal Jan Lui Taran isə Sammitin yüksək səviyyədə təşkilinə görə Azərbaycan dövlətinin başçısına təşəkkür etdi. O, Poma Papası XVI Benediktin salamlarını din xadimlərinə çatdırdı və bildirdi ki, Papa da dini liderlərin bu təşəbbüsünü dəstəkləyir və Sammitin işinə uğurlar arzulayır.

Jan Lui Taran dünyada dini icmalar arasında əlaqələrin sıxlaşdırılmasının vacibliyini diqqətə çatdırdı, qeyd etdi ki, indi dünyanın sülhə daha çox ehtiyacı vardır, sülhün əhəmiyyəti gənc nəslə də öyrədilməlidir.

Ayətullah Məhəmməd Əli Təsxiri həzrətləri İslamın dinlərarası dialoqu və bu çərçivədə din xadimləri arasında dialoqu dəstəklədiyini dedi və dini liderlərin münaqişə regionlarında sülhün bərqərar olunmasına çalışmalarının vacib olduğunu diqqətə çatdırdı.

Mitropolit Nikitas Avropa ilə Asiya, Qərb ilə Şərq arasında körpü rolunu oynayan Azərbaycanda müxtəlif dinlərin və mədəniyyətlərin sülh şəraitində yaşadığını dedi. Mitropolit bildirdi ki, indi dinlərarası münasibətlərdə dialoqun əhəmiyyətinin daha çox artdığı bir vaxtda bu sahədə çalışan insanların sayının daha çox olmasına ehtiyac vardır.

İslam Konfransı Təşkilatının nümayəndəsi, səfir Sadəddin Tasib dedi ki, dünya dini liderlərinin Sammitinin Bakıda keçirilməsi tarixi hadisədir və bu, məsul şəxslərin bir araya gəlməsinə, qarşılıqlı dəstəyin əldə olunmasına xidmət edir.

Çexiya və Slovakiya patriarxı Xristofor dinə və ənənəvi dəyərlərə qloballaşmanın təsirlərinin müzakirə olunması baxımından Bakı Sammitinin əhəmiyyətini vurğulayaraq dedi ki, bu sahədə inkişafa müxtəlif millətlərin və xalqların bir-birilərinə xoş münasibətilə nail olmaq mümkündür.

Avropa Ravvinləri Konfransının nümayəndəsi Pinxas Qoldşmidt Prezident İlham Əliyevin dəstəyi ilə keçirilən Sammitin mühüm nəticələrlə yadda qalacağına əmin olduğunu dedi.

Mitropolit Gerasim Bakı Sammitinin önəmli mövzuların müzakirəsi baxımından mühüm əhəmiyyət daşıdığını dedi və bildirdi ki, bu görüş qloballaşan dünyada mövcud olan mənfi təsirlərin aradan qaldırılması baxımından əhəmiyyətli olacaqdır.

Rusiya bütpərəstləri adından çıxış edən Sanjeylama Rimpoçet də tədbirin yüksək səviyyədə təşkilinə görə Azərbaycan hökumətinə təşəkkür etdi. O, dini liderlərin dünyada sülhün əldə edilməsi baxımından mühüm səylər göstərməsinin vacib olduğunu diqqətə çatdırdı.

İSESKO-nun Baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycri dini dözümlülüyü ilə diqqət çəkən Azərbaycanda belə bir mötəbər tədbirin keçirilməsinə görə təşəkkür etdi. O dedi ki, qloballaşma dövründə din və ənənəvi dəyərlər arasında münasibətlər pozulub. Həmin əlaqələrin yenidən bərpa olunmasına dini liderlər böyük töhfə verə bilərlər.

Fasilədən sonra dünya dini liderlərinin Bakı Sammiti işini davam etdirdi.

Günün ikinci yarısında iştirakçılar dünya üçün vacib məsələlərin müzakirə olunduğu dini liderlərin Bakı Sammitinin əhəmiyyətindən danışdılar. Bildirildi ki, Azərbaycan bu Sammiti keçirməklə dünyada dinlərarası və mədəniyyətlərarası dialoqun qurulmasına öz töhfəsini verir. Din xadimləri indi dünyada baş verən mühüm çağırışlara etinasız qalmamağın və qloballaşan dünyada baş verən problemlərin həllində yaxından iştirak etməyin vacibliyini də diqqətə çatdırdılar. Onlar ənənəvi dinlər arasında mehriban münasibətlərin bərqərar olmasının dünya birliyi üçün xüsusi əhəmiyyət kəsb etdiyini bildirdilər. Sam-

mit iştirakçıları Azərbaycanda tolerantlığın yüksək səviyyədə olmasına bir daha diqqət çəkdilər. Uzun illərdir bu ölkədə müxtəlif dinlərə məxsus insanların mehriban şəraitdə yaşadıqlarını, öz dini dəyərlərini yüksək səviyyədə qoruduqlarını bildirdilər.

**2013-cü il may**

Mayın 25 - 26-da Rusiya Federasiyasının Çeçenistan Respublikasında "İslam sülh və quruculuq dinidir" mövzusunda V Beynəlxalq Sülhməramlı Forum keçirilib. Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadənin başçılıq etdiyi nümayəndə heyəti həmin tədbirdə iştirak edib. Heyətin tərkibinə Qafqaz Müsəlmanları İdarəsi sədrinin birinci müavini Müfti Hacı Salman Musayev və idarənin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Hacı Müqəddəs Payızov daxil idi.

Forumda çıxış edən Şeyxülislam həzrətləri bunları söylədi:

"Hörmətli Beynəlxalq Forum iştirakçıları!

Hazırkı Forumun "Müasir dünyada din və hakimiyyət" mövzusu olduqca vacib və əhəmiyyətlidir. Bu dəyərli təşəbbüsə görə Forumun təşkilatçılarına – Çeçenistan Respublikasının Ruhani İdarəsinə və Əhməd Kadırov adına İctimai Fonda təşəkkürümü bildirirəm.

Mərhum Əhməd Hacı Kadırovun həyat və fəaliyyəti Allaha, Vətənə və xalqa sədaqətli xidmətin bariz nümunəsidir. Bu gün mərhum qardaşım Əhməd Hacının ruhuna dua edərək fəxr hissi keçirirəm ki, onun başladığı iş əmin əllərdədir. Şadam ki, Əhməd Hacı Kadırovun siyasi kursunun varisi və mənəviyyat yolunun davamçısı Çeçenistan Respublikasının Başçısı, Zati-aliləri Ramzan Kadırov Rusiya Federasiyası Çeçenistan Respublikasının sürətli inkişafının, xoş gələcəyinin qarantıdır və ölkəsinin mənəvi tərəqqisini də ləyaqətlə davam etdirir.

Mən hər dəfə bildirirəm ki, Çeçenistan Respublikasında müşahidə olunan sosial-iqtisadi inkişaf Rusiya Federasiyası rəhbərliyinin müdrik və ardıcıl surətdə həyata keçirdiyi sabitləşdirmə və tərəqqiyə hesablanan tədbirlərinin nəticəsidir. Çe-

çenistan Respublikasının inkişafı isə bütünlükdə RF-nin Şimali Qafqaz Federal dairəsinin inkişafıdır.

Bir din xadimi kimi, olduqca şadam ki, Çeçenistan Respublikasında zəngin mənəvi irs milli rifahın təməlini təşkil edir. Bu yolda çeçen müsəlmanlarına böyük uğurlar əldə etməyi arzulayıram. Qafqaz ağsaqqalı kimi Şimali Qafqazda dini-mənəvi dəyərlərin inkişaf prosesi məni yalnız sevindirir.

Öz növbəsində Müfti Hacı Sultan Mirzayev də Çeçenistan Respublikası başçısının dəstəyi ilə Əhməd Hacının mənəvi yolunu layiqincə davam etdirir. Ümumiyyətlə, Rusiya Federasiyası Şimali Qafqaz respublikalarının bütün müftiləri bu hədəf uğrunda yorulmadan səy göstərirlər.

Görüşlərimiz zamanı biz Qafqazda ənənəvi mənəvi dəyərlərin möhkəmlənməsini və dinlərarası əməkdaşlığı müzakirə edirik. Bu yaxınlarda Bakıda keçirilən MDB müsəlmanlarının Konfransında da, mənim Şimali Qafqaz respublikalarına səfərlərim zamanı da, eləcə də müxtəlif beynəlxalq forumlarda birgə iştirakımız vaxtı da MDB məkanında, xüsusilə Rusiya və Azərbaycanda dövlət və dini icmalar arasındakı əlaqələrin yüksək səviyyəsindən məmnuniyyətlə söhbət açırıq.

Cəmiyyətdə dini-mənəvi stabilliyin təmin edilməsində əsas amillərdən biri ölkə rəhbərləri tərəfindən din-dövlət münasibətlərinin bacarıqla tənzimlənməsi, dindarların ehtiyac və qayğılarına diqqətlə yanaşılmasıdır. Həmd olsun Allaha ki, Rusiya Federasiyasında da, Azərbaycanda da biz bunun şahidiyik.

Rusiyanın, eləcə də Qafqazın ümumi gələcəyi və rifahı naminə Rusiya dövlətinin müxtəlif millət və din mənsublarını birləşdirmək səyləri bizdə xoş təsir yaradır. Qeyd edilməlidir ki, Rusiya Federasiyasının Prezidenti Vladimir Vladimiroviç Putin hər zaman Qafqaz müsəlman ruhani liderlərinin səylərini, ekstremizmə qarşı şücaətli mübarizələrini yüksək qiymətləndirir.

Bəli, dini icmalar dövlət institutları ilə birgə mənəvi dəyərlərin təhrifinə, ekstremizmə, terrorçuluğa və radikallığa qarşı mübarizə aparmalıdırlar. Biz müsəlman din xadimləri dəfələrlə qeyd etmişik ki, terror, onun bütün təzahürləri İslam nöqteyi-nə-

zərindən cinayətdir. Bununla əlaqədar mötədil İslamı təbliğ edən "Moskva Deklarasiyası" ideyalarının xüsusi əhəmiyyəti var. Qroznıda qəbul edilən bu sənəd İslam dinini siyasi məqsədləri üçün istifadə etmək istəyən bədniyyət qüvvələrin şəriətin cihad, təkfir və xilafət kimi vacib məsələləri barədə yanlış təsəvvürlərinə qarşı İslam alimlərinin böyük əksəriyyətinin rəyini əks etdirdi.

Biz bu barədə MDB Müsəlmanları Məşvərət Şurasının Bakı Konfransında da söhbət açdıq. Rusiya Federasiyası prezidentinin konfransa ünvanlanan təbrik məktubunda səslənən dəyərli ideyalar böyük diqqətlə qarşılandı. Şuranın fəaliyyətinə uğurlar arzulayan Çeçenistan Respublikası başçısının da dəyərli təkliflərini yüksək qiymətləndiririk. Bütün bunlar Bakı Forumunun Yekun sənədində öz əksini tapdı. Əminəm ki, bu cür diqqət və dəstək, xeyirxahlıq və İlahi ideallarin bərqərar olması bizə irəliyə addımlamağa imkan verəcək.

Qardaş çeçen torpağında ikən biz Qroznının və qardaşlarımızın həyatının necə əsaslı surətdə müsbətə doğru dəyişdiyinin şahidi oluruq. Unudulmaz qardaşım Əhməd Hacı Kadırovun ruhuna dualar oxuyaraq onun səmimi arzularının həyata keçdiyinə görə Allaha həmd edirəm. Həmçinin, xalqı və atasının xatirəsi qarşısındakı vəzifələri layiqincə yerinə yetirən mərhum qardaşımın oğlu Ramzan Əhmədoviç üçün də dualar edirəm. Biz onun Rusiya Federasiyası Çeçenistan Respublikası naminə, Rusiya Federasiyasının tərəqqisi naminə səylərini dəstəkləyir və Uca Allahdan ona böyük nailiyyətlər arzulayırıq.

Qroznı Forumunun möhtərəm iştirakçıları və qonaqları!

Gəlin, xalqlarımızın xoşbəxtlik və səadəti naminə zəhmətimizin bəhrə verməsi üçün Uca Allaha dualar edək.

Allahın salamı, rəhməti və bərəkəti Sizə olsun!"

Şeyxülislam Allahşükür Paşazadənin çıxışı böyük maraqla qarşılandı. Sonra Rusiya Federasiyasının Şimali Qafqaz respublikalarından gələn din xadimləri öz çıxışlarında son zamanlar ölkəmizə səfərlərində gördükləri müsbət dəyişiklikləri qeyd etdilər, Azərbaycan Prezidenti İlham Əliyevlə görüşlərini məmnunluqla xatırladılar. Çıxış edən din xadimləri ölkəmizdə din-

dövlət münasibətlərində əldə olunan uğurlu modeli başqa ölkələr üçün nümunə adlandırdılar. Şimali Qafqazı təmsil edən din xadimləri Rusiya Federasiyasında etiqad azadlığı, dinlərarası münasibətlər sahəsində son illər görülən işlərdən razı qaldıqlarını ifadə etdilər.

Forumun sonunda qətnamə qəbul olundu.

Tədbir başa çatandan sonra Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadənin başçılıq etdiyi nümayəndə heyətini Rusiya Federasiyası Çeçenistan Respublikasının Başçısı Ramzan Kadırov qəbul etdi. Şeyxülislam həzrətlərini səmimiyyətlə qarşılayan Ramzan Kadırov Qafqaz Müsəlmanları İdarəsi sədrinin regionda, habelə bütün dünyada sülhün və sabitliyin qorunmasındakı xidmətlərini xüsusi vurğuladı.[102]

**2013-cü il sentyabr**

Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə sentyabrın 25-də Qazaxıstanın paytaxtı Astanada keçirilən "Astana qurultaylarının sivilizasiyaların dialoqunda rolu" mövzusunda Beynəlxalq Elmi-praktik Konfransda iştirak etmişdir

Konfransdan öncə Şeyxülislam həzrətləri Qazaxıstan Parlament Senatının Sədri Kayrat Mami tərəfindən qəbul edilmişdir. Qonağı səmimi qarşılayan Parlament Senatının Sədri Azərbaycan və Qafqaz müsəlmanlarının dini liderinə Astanada keçirilən dünya və ənənəvi dini liderlərin ilk Sammitinin 10 illiyinə həsr olunmuş Forumun işinə qatıldığı üçün dərin təşəkkürlərini bildirdi. Prezident Nursultan Nazarbayevin təşəbbüsü ilə ərsəyə gəlmiş Astana qurultaylarının dinlərarası dialoq işinə verdiyi önəm barədə danışan Kayrat Mami Şeyxülislam Allahşükür Paşazadə kimi dinlərarası əməkdaşlıq işinə böyük əməli töhfələr vermiş bir dini liderin iştirakından məmnunluq duyduqlarını bildirdi.

Azərbaycan dövləti və onun rəhbərinin mədəniyyətlər, habelə sivilizasiyalararası dialoq məsələlərinə xüsusi dəyər verdiyindən söhbət açan Şeyxülislam həzrətləri həm Qazaxıstan, həm

[102] "Haqqın nuru" qəzeti, № 20 (165).

də Azərbaycanın liderlərinin belə bir önəmli məsələyə yüksək diqqət nümayiş etdirmələrinin ölkələrimiz və xalqlarımız üçün xoş nəticələrə vəsilə olduğunu, dini lider olaraq bunu mühüm amil kimi qiymətləndirdiyini nəzərə çatdırdı.

Ulu Öndər Heydər Əliyevlə Qazaxıstanın lideri Nursultan Nazarbayev arasında mövcud olmuş yüksək ehtiramlı münasibətlərin bu gün də İlham Əliyevlə Qazaxıstanın ağsaqqal rəhbəri arasında davam etdirilməsindən söhbət açan, bundan dövlətlərimiz və xalqlarımız arasında münasibətlərə böyük fayda gəldiyini vurğulayan Şeyxülislam həzrətləri bu dəyərli əlaqələrin hər zaman inkişaf etməsi üçün dualar etdiyini bildirdi.

Bu ilin aprelində Bakıda keçirilmiş MDB Müsəlmanları Məşvərət Şurasının "MDB müsəlmanları sülh və stabil inkişaf tərəfdarlarıdır" mövzusunda Beynəlxalq Konfransın xüsusi əhəmiyyət daşıdığını vurğulayan Qazaxıstan Parlamentinin Sədri Kayrat Mami bu qurumun rəhbəri kimi də Şeyxülislamın qardaş xalqlarımız arasında dini-mənəvi əlaqələrin daha da inkişaf etdirilməsi yolunda səylərini əsirgəməyəcəyinə əmin olduğunu bildirdi. Kayrat Mami həmin tədbirdə Qazaxıstan nümayəndə heyətinə göstərilən qonaqpərvərlikdən, qardaş ölkə başçısı tərəfindən qəbul edilmələrindən, habelə birgə Ümrə ziyarətində iştirak etmələrindən məmnunluqla söhbət açdı.

Konfransın açılış mərasimində çıxış edən Şeyxülislam həzrətləri çıxışında Azərbaycan xalqının və dövlət başçımızın səmimi salamlarını konfrans iştirakçılarının diqqətinə çatdıraraq indiyə qədər baş tutmuş 4 Astana qurultaylarının tarixi əhəmiyyəti, onların keçirilmə təşəbbüsünün müəllifi Qazaxıstan Prezidenti N.Nazarbayevin dəyərli missiyası barədə fikirlərini bildirdi. Dinlərarası dialoqa dair Azərbaycan və Qazaxıstan dövlət başçılarının dünya çapında dinlərarası dialoq məsələlərində dəyərli təşəbbüslərlə çıxış etmələrini, multikulturalizm ideyalarına sadiqliklərini olduqca əhəmiyyətli hal hesab edən Şeyxülislam Allahşükür Paşazadə ümumi yaşam məkanımızın bütün dünyada tolerantlıq məkanı kimi tanıdılması vacibliyindən çıxış edərək birgə tədbirlər keçirilməsi zərurətini vurğuladı.

QMİ sədri konfransın kuluarlarında bir sıra tanınmış din xadimləri, o cümlədən Vatikandan təşrif buyurmuş Papa yanında Dinlərarası Əlaqələr üzrə Şuranın başçısı, Kardinal Jan Lui Toran, iranlı Məhəmməd Bağır Xürrəmşad, Məcid əl-Turki və b. ilə səmimi görüşlər keçirmişdir.[103]

**2013-cü il 16-17 oktyabr**

2013-cü ilin oktyabrında Belçikanın paytaxtı Brüsseldə təşkil olunan Krans Montana Forumunun XV Sessiyasının işində Qafqaz Müsəlmanları İdarəsinin sədri, Hacı Allahşükür Paşazadə də iştirak etmişdir. YUNESKO və İSESKO-nun birgə həmsədrlik etdikləri "Dinlərin sülh və strukturlaşdırmada rolunun inkişafı" mövzusunda Sessiyasının işində iştirak edən Qafqaz Müsəlmanları İdarəsinin sədri xüsusi qonaq qismində rəyasət heyətində yer almışdı.

Oktyabrın 16-da öz işinə başlayan sessiyanı açan İSESKO-nun Baş direktoru Əbdüləziz bin Osman əl-Tuveycri ilk sözü Şeyxülislam Allahşükür Paşazadəyə verib.

İştirakçılara Azərbaycan xalqının və Qafqaz müsəlmanlarının səmimi salamlarını və xoş arzularını çatdıran Şeyxülislam həzrətləri qeyd edib ki, hansı millətə və dinə mənsubiyyətindən asılı olmayaraq hamımız bəşər övladıyıq, sülhə və rifaha nail olmaq ən ümdə vəzifələrimizdəndir. O, xüsusi olaraq dini liderlərin bu sahədə öz məsuliyyətlərini dərk etmələrinin zəruriliyini vurğulayıb və iştirakçıların diqqətinə dini liderlərin ali hörməti və dövlət xadimləri ilə birgə əməkdaşlığı sayəsində həm öz ölkələrinin, həm də bütün dünyanın problemlərinə çarə tapılmasının mümkünlüyünü çatdırıb.

Şeyxülislam Allahşükür Paşazadə qlobal təhlükələr fonunda dinlərarası dialoqun qaçılmaz olduğunu, Uca Yaradanın iradəsinin əksinə nə varsa, onu rədd etməyin, habelə müqəddəs rəmzlərdən zor işlətmək, təcavüzə haqq qazandırmaq üçün istifadə olunmasının, millətlərarası münaqişələrin əldə əsas tutulmasının qəbuledilməz olduğunu diqqətə çatdırıb. Qafqaz

[103] "Haqqın nuru" qəzeti, № 37 (182).

Müsəlmanları İdarəsinin sədri insanın əsas mahiyyətini təhrif edənlərə layiqli cavab verilməsinin zəruriliyini önə çəkib, çünki insan zorakılığı, terroru və ekstremizmi bütün formalarında rədd edir, yalnız sülhə və əməkdaşlığa çağırır.

Azərbaycanın bu gün bütün dünya üçün uğurlu tolerantlıq nümunəsi olduğunu dilə gətirən Şeyxülislam həzrətləri ölkəmizdə olan dini qurumlar arasında səmimi əməkdaşlıq əlaqələrinin mövcudluğunu, dövlət-din münasibətlərinin yüksək səviyyədə inkişaf etdiyini, Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş bu ənənənin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıb. O, Azərbaycanın bu gün də müxtəlif sivilizasiyalar arasında körpü rolunu oynadığını vurğulayıb.

Dağlıq Qarabağ münaqişəsindən danışan Şeyxülislam Allahşükür Paşazadə bu problemin beynəlxalq hüquq normaları və ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllinə yönəlmiş bütün səyləri bir din xadimi kimi dəstəklədiyini söyləyib.

Növbəti gün Qafqaz Müsəlmanları İdarəsinin sədri Krans Montana Forumunun qızıl medalının təqdimat mərasimində olub. Medalı təqdim edən şahzadə Jan de Lüksemburq Şeyxülislam həzrətlərinin sülhyaratma sahəsindəki xidmətlərini xüsusi qeyd edib.

Qeyd edək ki, Krans Montana Forumunun qızıl medalı ilə fəaliyyətləri sayəsində dünyada böyük nüfuz qazanmış və xüsusi xidmətlərə malik şəxslər təltif olunurlar.

Medala görə təşəkkürünü ifadə edən Şeyxülislam Allahşükür Paşazadə bunu bütün Qafqazın möminlərinin xidmətlərinə verilən qiymət kimi dəyərləndirib.

Forumun təsisçisi və prezidenti, səfir Jan Pol Karteron ilə təkbətək görüşdə Şeyxülislam həzrətləri forum ilə mədəniyyətlərarası və dinlərarası dialoq sahəsində əməkdaşlığın perspektivlərini müzakirə edib.

Şeyxülislam Allahşükür Paşazadə Forumun XV Sessiyasında xüsusi qonaq qismində iştirak edən yeganə dini lider idi.[104]

---

[104] "Cəmiyyət və din" qəzeti, № 39 (225).

**2014-cü il 13-15 yanvar**

Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadənin başçılıq etdiyi nümayəndə heyəti Türkmənistan dövlətinin dəvəti ilə yanvarın 13-də qonşu ölkəyə səfər etmişdir. Səfərin məqsədi Azərbaycan və Türkmənistan xalqları arasında mövcud tarixi-mənəvi əlaqələrin, qardaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsi idi.

Qafqaz Müsəlmanları İdarəsi sədrinin rəhbərlik etdiyi nümayəndə heyətinə Milli Məclisin deputatları – Azərbaycan Ağsaqqallar Şurasının sədri, Türkdilli Dövlətlərin Ağsaqqallar Şurası Rəyasət Heyətinin üzvü Fəttah Heydərov, Cavanşir Paşazadə, Mübariz Qurbanlı, Qafqaz Müsəlmanları İdarəsi sədrinin birinci müavini, Müfti Hacı Salman Musayev, idarənin Xarici əlaqələr şöbəsinin müdiri Müqəddəs Payızov və ANS Şirkətlər Qrupunun prezidenti Vahid Mustafayev daxil idi.

Yanvarın 14-də Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə və onu müşayiət edən şəxsləri Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov qəbul edib. Səmimi keçən görüş zamanı iki qonşu ölkə arasındakı ənənəvi qardaşlıq münasibətləri, onların daha da inkişafı, mənəvi əlaqələrin möhkəmləndirilməsi məsələləri müzakirə olunub.

Şeyxülislam həzrətləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin səmimi salamlarını Türkmənistan dövlətinin Prezidenti Qurbanqulu Berdiməhəmmədova çatdırıb.

Qafqaz Müsəlmanları İdarəsinin sədri bildirib ki, dost və qonşu ölkə olan Türkmənistanda olmaqdan və milli liderinin rəhbərliyi altında inkişaf və tərəqqi yolu ilə gedən türkmən xalqının əldə etdiyi nailiyyətləri öz gözləri ilə görməkdən məmnunluq duyur. Şeyxülislam həzrətləri qeyd edib ki, Azərbaycanda Türkmənistan liderinin ümumbəşəri sülhə və təhlükəsizliyə yönəlmiş siyasətini bütünlüklə dəstəkləyirlər. Türkmənistan müstəqil və neytral dövlət kimi ümumi maraqlarda əməkdaşlıq kursunu seçərək "açıq qapı" siyasətini uğurla həyata keçirir, ildən ilə dünya ölkələri, eləcə də Qafqaz respublikaları ilə iqtisadi və mədəni-humanitar əlaqələrini möhkəmləndirir.

Qonaqları səmimi salamlayan Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov ən xoş arzularını Azərbaycan xalqına və onun rəhbərinə çatdırmağı xahiş edib. Türkmənistan dövlətinin başçısı vurğulayıb ki, xalqlarımızı ümumi tarixi, mədəni və dini-mənəvi dəyərlər dərin köklərlə bir-birinə bağlayır. Prezident əmin edib ki, Türkmənistan bundan sonra da qardaş türkmən və Azərbaycan xalqlarını daha da yaxınlaşdıran mehriban qonşuluğun, mədəni-humanitar sahədə konstruktiv əməkdaşlığın inkişafına, zəngin milli irsimizin öyrənilməsinə və təbliğinə, həmçinin müxtəlif sahələrdə sıx əlaqələrin yaradılmasına səy göstərəcək.

Qurbanqulu Berdiməhəmmədov nüfuzlu din xadimi kimi təkcə Qafqazda deyil, dünyada tanınan Şeyxülislam Allahşükür Paşazadəni ölkəsində görməkdən məmnunluğunu ifadə edib, Şeyxülislam həzrətlərinin dünyada sabitliyin və sülhün bərqərar olması üçün göstərdiyi səyləri yüksək qiymətləndirib.

Səmimi şəraitdə keçən görüş zamanı Türkmənistan prezidenti və Qafqaz Müsəlmanları İdarəsinin sədri bu səfərin qarşılıqlı marağın uzun müddətli və hər iki tərəfə fayda verən təməllərə əsaslanaraq səmərəli əməkdaşlığa etibarlı zəmin olacağına əminliklərini ifadə ediblər.

Görüş zamanı Şeyxülislam həzrətləri iki ölkə xalqları arasında dostluq və qardaşlıq əlaqələrinin möhkəmləndirilməsində xidmətlərinə görə Türkmənistan dövlətinin Başçısı Qurbanqulu Berdiməhəmmədovu “Şeyxülislam” ordeni ilə təltif etdiyini bildirib.

Bununla bağlı təltifnamədə bu sözlər yazılıb: “Bismillahir-rəhmanir-rəhim! Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası və Elmi Dini Şurası qərara alır: Qurbanqulu Məlikquluyeviç Berdiməhəmmədov tarixi milli-mədəni ənənələrin, dini-mənəvi dəyərlərin qorunması işinə ali diqqət və qayğısına, Türkmənistan və Azərbaycan xalqları arasında dostluq və qardaşlıq əlaqələrinin möhkəmləndirilməsində xidmətlərinə görə, “Şeyxülislam” ordeni ilə təltif olunur.

Qafqaz Müsəlmanları İdarəsinin sədri, MDB Dinlərarası Şuranın həmsədri Şeyxülislam Allahşükür Paşazadə.

Bakı, 10 yanvar 2014-cü il”.

Prezidentlə görüşdə Azərbaycanın Türkmənistan Respublikasındakı Fövqəladə və səlahiyyətli səfiri Vəhdət Sultanzadə də iştirak edib.

Həmin gün Azərbaycan nümayəndə heyəti Qıpçaq qəsəbəsindəki "Türkmənbaşının Ruhu" məscidinə baş çəkərək ölkənin ilk Prezidenti Safarmurad Niyazovun məzarını ziyarət edib. Şeyxülislam Allahşükür Paşazadə həzrətləri "Fəxri qonaqlar" kitabında bu sözləri yazıb: "Azərbaycan Respublikasından olan nümayəndə heyəti Türkmənistanın birinci Prezidenti Safarmurad Atayeviç Niyazovun məqbərəsini dərin hüznlə ziyarət etdi. Onun məqbərəsinin doğulduğu kənddə, Mərkəzi Asiyanın ən möhtəşəm məbədlərindən olan "Türkmənbaşının ruhu" məscidinin yaxınlığında yerləşməsi türkmən xalqının öz dini-mənəvi dəyərlərinə necə bağlı olduğunu sübut edir. Məhz buna görə Uca Allah türkmən xalqına müstəqillik, bununla bərabər qüdrət və xoşbəxtlik bəxş etdi. Bu səbəbə görə Allah türkmən xalqına təkcə öz ölkəsində deyil, ölkə sərhədlərindən kənarda da nüfuza sahib liderlərə etibar etməyi nəsib etdi.

Bu gün müstəqil Türkmənistan Respublikasının sükanı arxasında ölkənin stabil tərəqqisini və vətəndaşlarının rifahını təmin edən təcrübələrdən keçmiş siyasi xadim Prezident Qurbanqulu Məlikquluyeviç Berdiməhəmmədov dayanır.

Uca Allah unudulmaz mərhum Safarmurad Atayeviç Niyazovun ruhunu şad etsin! Amin!

Qafqaz Müsəlmanları İdarəsinin və MDB Müsəlmanlarının Məşvərət Şurasının sədri, MDB Dinlərarası Şurasının həmsədri Şeyxülislam Hacı Allahşükür Paşazadə.

Qıpçaq, 14 yanvar 2014-cü il".

Günün ikinci yarısında Şeyxülislam həzrətlərinin başçılıq etdiyi nümayəndə heyəti Türkmənistan Parlamentində olub. Qonaqları səmimi qarşılayan ölkə Parlamentinin Sədri Ağca Nurberdiyeva Qafqaz Müsəlmanları İdarəsinin sədri Allahşükür Paşazadənin və Milli Məclis təmsilçilərinin Türkmənistana səfərini mühüm hadisə hesab edib, belə səfərlərin əhəmiyyətindən danışıb.

Nümayəndə heyəti Ağca Nurberdiyevanın yenidən Türkmənistan Məclisinin Sədri seçilməsi münasibəti ilə Azərbaycan Milli Məclisi Sədrinin ünvanladığı təbrik məktubunu təqdim edib.

Şeyxülislam həzrətləri Türkmənistan Parlamentinin Sədri Ağca Nurberdiyevanı Azərbaycana səfərə dəvət edib.

Xarici İşlər Nazirliyində keçirilən görüş də səmimi olub. Şeyxülislam həzrətlərinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edən nazir Rəşid Meretov dövlətlərimiz arasındakı əlaqələrin yüksək səviyyədə olduğunu deyib və münasibətlərin daha da inkişaf etdirilməsi üçün səylərin davam edəcəyinə inandığını ifadə edib. Rəşid Meretov Azərbaycanın diplomatik sahədə qazandığı uğurlardan qürur hissi keçirdiyini söyləyib. Xarici İşlər naziri ölkəsinin Azərbaycanın haqlı mövqeyini bundan sonra da dəstəkləyəcəyini diqqətə çatdırıb.

Nümayəndə heyətini Türkmənistanın Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində və Müftilikdə də böyük ehtiramla qarşılayıblar. Dövlət Komitəsinin sədri Çarıgəldi Seryayev Şeyxülislam Allahşükür Paşazadənin Türkmənistana səfərini mühüm hadisə adlandırıb. Görüş zamanı əməkdaşlığın perspektivləri müzakirə edilib. Hər iki ölkədə dini-mənəvi sahədə sabitliyin, tolerantlıq mühitinin mövcudluğu ifadə olunub, bu sahədə dövlət başçıları İlham Əliyevlə Qurbanqulu Berdiməhəmmədovun xidmətləri xüsusi vurğulanıb.

Həmin gün Türkmənistan tərəfi Şeyxülislam Allahşükür Paşazadənin başçılıq etdiyi nümayəndə heyətinin şərəfinə rəsmi qəbul keçirib.

Yanvarın 15-də azərbaycanlı qonaqlar Türkmənistanın qədim Mərv şəhərinə gediblər. Hava limanında Şeyxülislam həzrətlərini Mərv vilayətinin meri B.Atamuradov, Müfti Hacı Əhməd, digər rəsmi şəxslər qarşılayıblar.

Şeyxülislam həzrətlərinin rəhbərlik etdiyi nümayəndə heyəti "Qədim Mərv" Tarixi-Mədəniyyət Qoruğu, Tarix-Diyarşünaslıq Muzeyi ilə yaxından tanış olub. Tarixi məkanlar, muzeydə saxlanılan nadir eksponatlar qonaqlarda böyük maraq doğurub.

Həmin gün axşam nümayəndə heyəti Azərbaycana qayıdıb.[105]

[105] "Haqqın nuru" qəzeti, № 2(197).

* * *

Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə **fevralın 4-də** Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin təşkilatçılığı ilə keçirilən XVII Avrasiya İqtisadi Zirvəsində iştirak etmək üçün İstanbula səfər edib. Səfər çərçivəsində Şeyxülislam həzrətləri Fənər Rum Patriarxı Varfolomeylə görüşüb.

* * *

**Martın 5-6** tarixində Səudiyyə Ərəbistanında Ümumdünya İslam Liqası tərəfindən təşkil edilən "İslam dünyası –problemlər və həll yolları: İslam həmrəyliyi" Beynəlxalq konfransı keçirilmişdir. Konfrans İki Müqəddəs Məscidin xadimi Səudiyyə kralı Abdullah ibn Əbdüləziz Al-Səudun rəhbərliyi ilə "İslam həmrəyli" şüarı altında baş tutdu.

İslam Aləmi Liqasının Baş katibi, doktor Abdullah ibn Əbdülmühsin ət-Türkinin dəvətilə konfransın işində Şeyxülislam Allahşükür Paşazadənin başçılıq etdiyi Qafqaz Müsəlmanları İdarəsinin nümayəndə heyəti də iştirak edib. Tədbir çərçivəsində müsəlman alimlərinin Ümumdünya Assosiasiyasının Baş konfransının üzvlərinin iclası da keçirilib.

Səfər zamanı Şeyxülislam Allahşükür Paşazadə İslam Aləmi Liqasının Baş katibi, doktor Abdullah ibn Əbdülmühsin ət-Türki, Səudiyyə Ərəbistanı Həcc naziri və digər rəsmi şəxslərlə bir sıra ikitərəfli görüşlər keçirmişdir. Şeyxülislam həzrətləri Konfransın plenar iclasında "İslam həmrəyliyi – günümüzün aktual problemi" məruzəsilə çıxış etmişdir.

* * *

Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadənin başçılıq etdiyi nümayəndə heyəti **aprelin 10-da** Rusiya Federasiyasının Qaraçay-Çərkəz Respublikasında səfərdə olmuşdur.

Paytaxt Çerkessk şəhərində "Ruhanilik-Rusiyanın birliyinin möhkəmləndirilməsində və millətlərarası münasibətlərdə mühüm amil kimi" mövzusunda keçirilən konfransda iştirak edən Şeyxülislam Allahşükür Paşazadə nitq söyləmişdir.

Həmin gün Şeyxülislam həzrətləri Qaraçay-Çərkəz Respublikasının başçısı Rəşid Temrezovla, Şimali Qafqaz Müsəlmanlarının Koordinasiya Şurasının sədri, Qaraçay-Çərkəz Müftisi İsmayıl Berdiyevlə görüşmüşdür.

* * *

**Aprelin 29-30-da** Vaşinqtonda "ABŞ-Azərbaycan: gələcəyə baxış" mövzusunda Forum keçirilmişdir.

Tədbirdə Azərbaycan və ABŞ siyasətçiləri, alimlər, habelə ictimaiyyət nümayəndələri və din xadimləri iştirak etmişlər. Forumda Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə "Dialoqun möhkəmlənməsi – tolerantlığın təşviq olunması" adlı məruzə ilə çıxış etmişdir.

* * *

**Mayın 30-da** Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadənin rəhbərlik etdiyi nümayəndə heyəti Rusiya Federasiyasının Çeçenistan Respublikasında "İslam sülh və quruculuq dinidir" mövzusunda keçirilmiş VI Beynəlxalq Sülhməramlı Forumda iştirak etmiş və geniş nitqlə çıxış etmişdir.

* * *

**İyunun 14-də** Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə Rusiya Federasiyasının Tatarıstan Respublikasında Voljsk Bulqar tərəfindən İslamın qəbul edilməsinin 1125-ci ildönümünə həsr olunmuş təntənəli tədbirlərdə iştirak edib.

Bulqar şəhərinin "Ağ məscid" kompleksinin inzibati binasında Şeyxülislam həzrətləri Tatarıstan Prezidenti Rüstəm Minnixanovla və Dövlət müşaviri Mintimir Şaymiyevlə görüşmüş, keçirilmiş Forumda nitqlə çıxış etmişdir.

Həmin gün dünyada çap olunmuş ən böyük Quranın saxlandığı Bulqar Dövlət Tarix-Arxitektura Muzey-Qoruğunun ərazisində 30 min nəfərdən çox insanın iştirakı ilə tədbirdə Qafqaz Müsəlmanları İdarəsinin sədri, MDB Müsəlmanları Məşvərət Şurasının sədri, Şeyxülislam Allahşükür Paşazadə mərasim iştirakçılarını salamlamışdır.

## 2.4. Şeyxülislam Hacı Allahşükür Paşazadə haqqında deyilənlər

“Müqəddəs dinimiz olan İslamın gözəl ənənələrinin ölkəmizdə və bütün Qafqaz bölgəsində qorunub saxlanılmasında, möhkəmləndirilməsində Şeyxülislam Allahşükür Paşazadənin xüsusi xidmətləri vardır. Onun Qafqaz Müsəlmanları İdarəsinə rəhbərlik etdiyi illər ərzində bu dini qurum İslam dəyərlərinin geniş təbliğ olunması, müsəlmanların dini-mənəvi birliyinin möhkəmləndirilməsi, onların cəmiyyətin həyatında fəallığının artırılması işində böyük rol oynayan mühüm mərkəzlərdən birinə çevrilmişdir.

Azərbaycan xalqının azadlığı uğrunda mübarizəsində Şeyxülislam həzrətlərinin tutduğu əsl vətəndaş mövqeyi onun ölkədə cərəyan edən mürəkkəb ictimai-siyasi prosesləri obyektiv qiymətləndirmək, yaranmış problemlərin həllində dini amilin gücündən düzgün istifadə etmək bacarığını nümayiş etdirdi. Azərbaycanın dini rəhbəri müqəddəs İslam dinini nəinki ölkəmizdə, hətta bütün Qafqazda təmsil edən ən yüksək rütbəli şəxsdir. Əgər Azərbaycanın dini rəhbəri bütün Qafqaz müsəlmanlarının Şeyxülislamı adını alıbsa, demək, bu bizim üçün böyük iftixar hissidir”

***Ümummilli lider Heydər Əliyev.***

“Şeyxülislam Allahşükür Paşazadə təkcə Azərbaycanda və ümumən Qafqazda deyil, bütün beynəlxalq aləmdə geniş tanınan, çağdaş dünyamızın nüfuzlu din xadimləri və dövlət adamları tərəfindən ehtiramla qəbul edilən, böyük hörmətə və nüfuza sahib olan şəxsiyyətdir”

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev.***

“Əlbəttə, mən istər “Qafqazda İslam”, istərsə də “İslamda ümmət və şüubilik” kitablarının yazılması ilə əlaqədar Şeyxin qarşısında duran problemləri yaxşı başa düşürəm: bir din xadimi kimi müəllif elmdə qəbul edilmiş meyarları büsbütün olduğu

kimi məqbul saya bilməz, eyni zamanda bir alim kimi də o, dini fikirdə, xüsusilə, ilahiyyat sahəsində hökm sürən konsepsiyaları öz əsərlərinə daxil edə bilməzdi. Lakin ədalət naminə deməliyəm ki, Şeyx bu problemlərin öhdəsindən bacarıqla gələ bilmişdir; onun kitabları həm elmi, həm də dini nöqteyi-nəzərdən qəribə görünmür, irəli sürdüyü və müdafiə etdiyi müddəalar tutarlı səslənir. Yəqin ki, tarixşünaslarımız gələcəkdə öz tədqiqatlarının nəzəri və metodoloji əsaslarını müəyyən edərkən dinə hörmətli münasibət əsasında elmi axtarışlar aparmağın mümkün olduğunu nəzərə alacaqlar...”

***Akademik Ziya Bünyadovun Şeyxülislam Allahşükür Paşazadənin tarix elmləri doktoru alimlik dərəcəsi almaq üçün məcmu halında təqdim edilmiş “Qafqazda İslam” (Bakı, 1991) və “İslamda ümmət və şüubilik” (Bakı, 1992) kitablarına opponent rəyindən.***

“Çox fərəhli haldır ki, Azərbaycan Respublikasının müstəqilliyi bərpa edildikdən, vicdan və din azadlığı haqqında verilmiş qanundan sonra Qafqazda İslam dininin yayılması, ümmət və şüub haqqında ilk dəfə gerçəkliyə əsaslanan dərin məzmunlu elmi əsərlər müdafiə üçün Elmi Şuraya təqdim edilmişdir. Keçmiş sovetlər birliyində İslam dini və onun yayılmasına aid yazılmış bəzi tədqiqat əsərlərindən məzmun və obyektivlik baxımından tamamilə fərqlənən belə elmi əsərlərin keçmişdə yazılmasına nə imkan verilərdi, nə də müdafiəyə buraxılardı. Çünki ateizm təbliğatı o qədər qüvvətli idi ki, tədqiqatçı İslam dininin müsəlmanların mədəniyyətinə, mənəviyyatına, məişətinə buraxdığı müsbət izləri təhrif etməyə məcbur olurdu.

Digər tərəfdən, hər cür təhrifə yol vermədən İslam dininin mahiyyətini olduğu kimi açıb şərh və təhlil etmək üçün tədqiqatçıdan ərəb dilini, İslam dinini dərindən bilmək, dünyəvi elmlərə yiyələnmək, təbiət və cəmiyyətdə baş vermiş hadisələr və bu hadisələrə İslam dininin qüvvətli təsirini dərindən dərk etmək bacarığı və məharəti tələb olunur. Həmin tələb olunan şərtlər, bütövlükdə, elmi əsərlərini Elmi Şuraya təqdim etmiş

ölkəmizin görkəmli din və ictimai xadimi Hacı Allahşükür Paşazadənin şəxsində mövcuddur...”

***Tarix elmləri doktoru Seyidağa Onullahinin Şeyxülislam Allahşükür Paşazadənin tarix elmləri doktoru alimlik dərəcəsi almaq üçün məcmu halında təqdim edilmiş “Qafqazda İslam” (Bakı, 1991) və “İslamda ümmət və şüubilik” (Bakı, 1992) kitablarına opponent rəyindən.***

“Şübhəsiz, Qafqaza dair məsələlərdə dini konfessiyaların ruhani liderləri mühüm rol oynayırlar. Sizin münaqişəli vəziyyətləri nizama salmaq sahəsində sülhməramlı, yaradıcı fəaliyyətiniz, cəmiyyətdə mənəvi iqlimin sağlamlaşdırılması naminə səyləriniz ən yüksək qiymətə və hərtərəfli dəstəyə layiqdir...”

***Rusiya Federasiyasının Prezidenti Vladimir Putin.***

“Müxtəlif dinlərin nümayəndələri tərəfindən Sizə bəslənən xoş münasibətlərlə fəxr etməyə haqqınız var”

***Roma Papası II İohan Pavel.***

“Sizin uzun illər boyu xalqa göstərdiyiniz sədaqətli xidmət gələcək nəsillər üçün gözəl örnəkdir... Sülh və xalqlar arasında ədalətli münasibətlər uğrunda mübariz kimi rolunuz Azərbaycanın hüdudlarından aşaraq Sizə beynəlxalq nüfuz və dünya çapında ehtiram qazandırmışdır”

***Ümumgürcüstan Katolikos–Patriarxı II İliya.***

“Artıq 30 ildən çox müddətdə Sizi tanıdığımdan demək istəyirəm ki, möhtərəm Şeyxülislam, Siz yüksək mənəvi prinsiplərə sadiq insan, öz ölkəsinin ardıcıl vətənpərvəri və müdrik diplomat kimi parlaq nümunəsiniz. Siz Pravoslav kilsəsinin ali mükafatlarına layiq görülmüş ilk müsəlman lider kimi tarixə düşmüşsünüz... Siz dünya miqyaslı din xadiminə, dinindən və etiqadından asılı olmayaraq xoşməramlı insanların ehtiram bəslədiyi liderə çevrilmisiniz”

***Moskva və Bütün Rusiya Patriarxı Kirill.***

"Mən Sizin insanlar arasında sülh və qarşılıqlı anlaşmanın bərqərar edilməsi yönündə çoxşaxəli fəaliyyətinizə, mahir rəhbərlik bacarığınıza görə Sizə böyük ehtiram bəsləmişəm... Bəşəriyyət naminə əməkdaşlığımızı və birgə səylərimizi qürurla xatırlayıram"

***Vicdana Çağırış Fondunun prezidenti Artur Şnayerabşın.***

"Uzun illər boyu tanıdığım və hər zaman təmas içində qaldığımız mümtaz şəxsiyyət Allahşükür Paşazadənin Azərbaycanın digər İslam ölkələri ilə münasibətlərinin məzmun və səviyyəsinin yüksəldilməsindəki və nəhayət, ölkənin 1991-ci ildə İslam Konfransı Təşkilatına rəsmən üzv olmasında böyük xidmətlərinin, həmçinin qəhrəman Azərbaycan xalqının haqq işinin dünyaya çatdırılmasındakı rolunun bizzat şahidi olmuşam"

***İslam Əməkdaşlıq Təşkilatının Baş katibi***
***Ekmələddin İhsanoğlu.***

## 2.5. Şeyxülislam Hacı Allahşükür Paşazadənin layiq görüldüyü orden və medallar

### 2.5.1. Dövlət Ordenləri:



Azərbaycan Respublikasının
"Şöhrət" ordeni ilə təltif olunmuşdur
***- 26 avqust 1994-cü il.***



Azərbaycan Respublikasının
"İstiqlal" ordeni ilə təltif olunmuşdur
***- 26 avqust 1999-cü il.***



Azərbaycan Respublikasının
“Şərəf” ordeni ilə təltif olunmuşdur
***- 26 avqust 2009-cu il.***



SSRİ-nin “Xalqlar dostluğu”
ordeni ilə təltif olunmuşdur
***- 16 may 1988-ci il.***



Misir Ərəb Respublikasının
I dərəcəli “əl-Elm və əməl”
ordeni ilə təltif olunmuşdur
***- 28 yanvar 1992-ci il.***



Çeçenistan Respublikasının
Milli Qəhrəmanı “Koman Turpal”
ordeni ilə təltif olunmuşdur
***- 26 sentyabr 1998-ci il.***



Gürcüstan Respublikasının
“Şərəf” ordeni ilə təltif olunmuşdur
***- 5 dekabr 2001-ci il.***



Vatikan dövlətinin “Müqəddəs Qreqori”
ordeni ilə təltif olunmuşdur
***- 2005-ci il.***



Rusiya Federasiyasının
"Dostluq" ordeni ilə təltif olunmuşdur
***- 3 oktyabr 2006-cı il.***



İordaniya Krallığının I dərəcəli
"Kral Hüseyn" ordeni ilə təltif olunmuşdur
***- 2007-ci il.***



Rusiya Federasiyasının
"Şöhrət" ordeni ilə təltif olunmuşdur
***- 6 noyabr 2009-cu il.***



Gürcüstan Respublikasının "Qoyunun
qızıl dərisi" ordeni ilə təltif olunmuşdur
***- 6 noyabr 2009-cu il.***



Çeçenistan Respublikasının
"Kadırov" ordeni ilə təltif olunmuşdur
***- 3 noyabr 2009-cu il.***

## 2.5.2. Dini İdarələrin Ordenləri



Rus Pravoslav Kilsəsinin
“Böyük Knyaz Vladimir” adına
I dərəcəli ordeni ilə təltif olunmuşdur
***- 25 may 2001-ci il.***



Rus Pravoslav Kilsəsinin “Müqəddəs
Sergi Radonejevski” adına I dərəcəli
ordeni ilə təltif olunmuşdur
***- 14 sentyabr 2005-ci il.***



Rusiya Müftilər Şurasının I dərəcəli
“əl-Fəxr” ordeni ilə təltif olunmuşdur
***- 16 dekabr 2005-ci il.***



Rus Pravoslav Kilsəsinin “Şöhrət və
Şərəf” ordeni ilə təltif olunmuşdur
***- 6 noyabr 2009-cu il.***



Bakı və Xəzəryanı Yeparxiyanın
I dərəcəli “Müqəddəs Apostol Varfolomey”
ordeni ilə təltif olunmuşdur
***- 2009-cu il.***



Şimali Qafqaz Müsəlmanları Koordinasiya
Mərkəzinin I dərəcəli
“Ümmət qarşısında xidmətlərinə görə”
ordeni ilə təltif olunmuşdur
***- 6 noyabr 2009-cu il.***

## 2.5.3. Dövlət Medalları



Əfqanıstanlı inqilabının
xatirə medalı ilə təltif olunmuşdur
***- 1982-ci il.***



İordaniya Krallığı Mərkəzi Bankının
xatirə medalı ilə təltif olunmuşdur
***- 2001-ci il.***



Sovet qoşunlarının Əfqanıstandan
çıxarılmasının 15 illiyi ilə bağlı
xatirə medalı ilə təltif olunmuşdur
***- 2004-cü il.***




H. B. Zərdabi adına medalla
təltif olunmuşdur
***- 2004-cü il.***



II Dünya müharibəsinin
başa çatmasının 60 illiyinin xatirə
medalı ilə təltif olumuşdur
***- 9 may 2005-ci il.***



Səudiyyə Ərəbistanı Krallığının
Şura Məclisinin xatirə medalı ilə
təltif olunmuşdur
***- 2005-ci il.***




"Bakı-Tbilisi-Ceyhan"
xatirə medalı təltif olunmuşdur
***- 2005-ci il.***



İordaniya Krallığının Turizm və
Mədəniyyət Nazirliyinin xatirə
medalı ilə təltif olumuşdur
***- 2006-ci il.***




Azərbaycan xalqının Ümummilli
lideri "Heydər Əliyev-85"
xatirə medalı ilə təltif olunmuşdur
***- may 2008-ci il.***



"Azərbaycan Ədliyəsinin 90 illiyi"
xatirə medalı ilə təltif olunmuşdur
***- 6 noyabr 2009-cu il.***



Bakı Dövlət Universitetinin 90 illik
yubileyi ilə bağlı xatirə medalı ilə
təltif olumuşdur
***- noyabr 2009-cu il.***




Azərbaycanın Rusiyadakı Səfirliyi
tərəfindən xatirə medalı ilə
təltif olunmuşdur
***- noyabr 2009-cu il.***

## 2.5.4 Dini İdarələrin Medalları



Moskva və Ümummrusiya Patriarxı
II Aleksinin xatirə medalı ilə
təltif olunmuşdur
***- 2011-ci il.***



Roma Papası II İohan Pavelin
adına olan medalla təltif olunmuşdur
***- 2004-cü il.***




Dünya din xadimlərinin
Moskva Sammitinin xatirə
medalı ilə təltif olunmuşdur
***- iyul 2006-cı il.***



İslam Konfransı Təşkilatının Səudiyyə
Ərəbistanında təşkil olunmuş konfransının
xatirə medalı ilə təltif olunmuşdur
***- 2008-ci il.***



Belarusun "Spasa Praabrajenskaya
Serkva" xatirə medalı ilə təltif olunmuşdur
***- 6 noyabr 2009-cu il.***

## 2.5.5. Beynəlxalq Təşkilatların orden və medalları



Terrorizm, korrupsiya, ekoloji cinayətkarlığa qarşı Beynəlxalq Təhlükəsizlik Komitəsi (INTERSAFETY) və Birləşmiş Millətlər Təşkilatının Təltiflər İttifaqının (UNCOPA) “Aypara və Ulduz” ordeninin ali dərəcəsi ilə təltif olunmuşdur ***- 11 mart 2010-cu il.***



Beynəlxalq Ekoenergetika Akademiyasının qızıl medalı ilə təltif edilmişdir ***- 10 mart 2011-cu il.***





Beynəlxalq Təhlükəsizlik Komitəsinin (İNTERSAFETY) “Cəmiyyət qarşısında xidmətlərinə görə” Beynəlxalq qızıl medalı ***- 08 iyul 2011***



“Dədə Qorqud” Milli Xeyriyyəçilik Fondunun “Vətən övladı” qızıl medalı
***-18 oktyabr 2012***




“Krans Montana” Forumunun qızıl medalı
***- 19 oktyabr 2013***




Daşkənd İslam Universitetinin qızıl medalı
***- 21 aprel 2011***



Belarus Pravoslav Kilsəsinin I dərəcəli “Svyatitel Kiril Turovski” ordeni
***- 17 noyabr 2013-cı il***

## 2.6. Şeyxülislam Hacı Allahşükür Paşazadə tərəfindən "Şeyxülislam ordeni" ilə təltif edilənlər

**Heydər Əlirza oğlu Əliyev**

"Azərbaycan Respublikasının dövlət müstəqilliyinin təmin edilməsi, dini, milli-mənəvi dəyərlərin dirçəldilməsi, ölkədə tolerantlığın bərqərar olunması sahəsində misilsiz xidmətlərinə görə Heydər Əlirza oğlu Əliyev (vəfatından sonra) "Şeyxülislam ordeni" ilə təltif olunsun". ***Şeyxülislam Allahşükür Paşazadə, Bakı şəhəri, 21 oktyabr 2005-ci il.***

**İlham Heydər oğlu Əliyev**

"Ulu Öndər Heydər Əliyev həzrətlərinin tarixi ənənələrini uğurla davam etdirərək Azərbaycan Respublikasının dövlət müstəqilliyinin təmin edilməsi, dini, milli-mənəvi dəyərlərin dirçəldilməsi, ölkədə tolerantlığın bərqərar olunması sahəsində göstərdiyi dəyərli xidmətlərinə görə İlham Heydər oğlu Əliyev "Şeyxülislam ordeni" ilə təltif olunsun". ***Şeyxülislam Allahşükür Paşazadə, Bakı şəhəri, 20 dekabr 2005-ci il.***

**Vladimir Vladimiroviç Putin**

"Xalqlar arasında sülhün və həmrəyliyin əldə olunması, tolerantlığın dövlət siyasəti səviyyəsinə yüksəldilməsi, müxtəlif milli və dini mənsubiyyətə malik insanların yaxınlaşmasına vəsilə olan ümumbəşəri dəyərlərin bərqərar olunması istiqamətində məhsuldar fəaliyyətinə görə "Şeyxülislam ordeni" ilə təltif olunsun". ***Şeyxülislam Allahşükür Paşazadə, Bakı şəhəri, 20 fevral 2006-ci il.***

**Moskva və Bütün Rusiya Patriarxı II Aleksi**

"Xalqlar arasında sülh, qarşılıqlı anlaşma əldə olunmasına, tolerantlığın həyat norması olaraq bərqərarına, beynəlxalq münaqişələrin aradan qaldırılmasına yönəlik böyük xidmətlərinə görə "Şeyxülislam ordeni" ilə təltif olunsun". ***Şeyxülislam Allahşükür Paşazadə, Bakı şəhəri, 4 iyul 2006-cı il.***

**Ekmələddin İhsanoğlu**

"İslam dünyasının tərəqqisi naminə, İslam dəyərlərinin təbliğində böyük xidmətlərinə görə "Şeyxülislam ordeni" ilə təltif olunsun". ***Şeyxülislam Allahşükür Paşazadə, Bakı şəhəri, 11 sentyabr 2006-ci il.***

**Rəcəb Tayyib Ərdoğan**

"Türkçülüyün dünya birliyinə uğurlu inteqrasiyası yönündə ardıcıl fəaliyyətinə, milli-mənəvi dəyərlərimizin qorunması, bir millət, iki dövlət olan Türkiyə və Azərbaycan arasında dostluq və qardaşlığın daha da möhkəmləndirilməsi işində göstərdiyi böyük xidmətlərinə görə "Şeyxülislam ordeni" ilə təltif olunsun". ***Şeyxülislam Allahşükür Paşazadə, Bakı şəhəri, 21 fevral 2008-ci il.***

**İslam Əbdülqəni oğlu Kərimov**

"Tarixi milli-mədəni ənənələrin, dini-mənəvi dəyərlərin və tolerantlığın qorunması işinə ali diqqət və qayğısına, Özbəkistan və Azərbaycan xalqları arasında dostluq və qardaşlığın daha da möhkəmləndirilməsində böyük xidmətlərinə görə "Şeyxülislam ordeni" ilə təltif olunsun". ***Şeyxülislam Allahşükür Paşazadə, Bakı şəhəri, 21 may 2011-ci il.***

**Moskva və Ümumrusiya Patriarxı Kirill**

"MDB məkanında və dünya miqyasında mədəni əlaqələrin, dinlər və millətlərarası dialoqun inkişaf etdirilməsində böyük şəxsi töhfəsinə, Rus Pravoslav Kilsəsi ilə Qafqaz Müsəlmanları İdarəsi, Rusiya Federasiyası və Azərbaycan Respublikası xalqları arasında dostluq əlaqələrinin möhkəmləndirilməsi sahəsindəki görkəmli xidmətlərinə görə "Şeyxülislam ordeni" ilə təltif olunsun". ***Şeyxülislam Allahşükür Paşazadə, Bakı şəhəri, 20 noyabr 2011-ci il.***

**Ümumgürcüstan Katolikos-Patriarxı II İliya**

"Qafqaz regionunda, MDB məkanında və dünya miqyasında mədəni əlaqələrin, dinlər və millətlərarası dialoqun inkişaf etdirilməsində böyük töhfəsinə, Gürcü Pravoslav Kilsəsi ilə Qafqaz Müsəlmanları İdarəsi, Gürcü və Azərbaycan xalqları arasında dostluq əlaqələrinin möhkəmləndirilməsi sahəsindəki görkəmli xidmətlərinə görə "Şeyxülislam ordeni" ilə təltif olunsun". ***Şeyxülislam Allahşükür Paşazadə, Bakı şəhəri, 4 yanvar 2013-ci il.***

**Qurbanqulu Məlikquliyeviç Berdiməhəmmədov**

"Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası və Elmi Dini Şurası qərara alır: Qurbanqulu Məlikquluyeviç Berdiməhəmmədov tarixi milli-mədəni ənənələrin, dini-mənəvi dəyərlərin qorunması işinə ali diqqət və qayğısına, Türkmənistan və Azərbaycan xalqları arasında dostluq və qardaşlıq əlaqələrinin möhkəmləndirilməsində xidmətlərinə görə "Şeyxülislam ordeni" ilə təltif olunur". ***Şeyxülislam Allahşükür Paşazadə, Bakı şəhəri, 14 yanvar 2014-cü il.***

# III FƏSİL

## ŞEYXÜLİSLAM HACI ALLAHŞÜKÜR PAŞADƏNİN RƏHBƏRLİK ETDİYİ QAFQAZ MÜSƏLMANLARI İDARƏSİNİN FƏALİYYƏTİ

### 3.1. Qafqaz Müsəlmanları İdarəsinin qanunları və nizamnaməsi

#### 3.1.1. Qafqaz Müsəlmanları İdarəsinin Qanunları

**Dini etiqad azadlığı haqqında**
**AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU**

**I Fəsil**

**ÜMUMİ MÜDDƏALAR**

Bu Qanun Azərbaycan Respublikasında dini etiqad azadlığının Azərbaycan Respublikasının Konstitusiyasına və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə müvafiq surətdə həyata keçirilməsi üçün təminatlar yaradır, dini qurumların statusunu, hüquq və vəzifələrini müəyyənləşdirir, dini qurumların fəaliyyəti ilə bağlı yaranan münasibətləri tənzimləyir.

Maddə 1. **Dini etiqad azadlığı**

Hər kəsin hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək, dinə münasibəti ilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququ vardır.

Şəxsin dini etiqadını ifadə etməsinə, ibadətlərdə, dini ayin və mərasimlərdə iştirak etməsinə və ya dini öyrənməsinə hər hansı maneə törədilə bilməz. Heç kəs öz dini etiqadını ifadə etməyə (nümayiş etdirməyə), dini mərasimləri yerinə yetirməyə və ya dini mərasimlərdə iştirak etməyə məcbur edilə bilməz. Dini etiqadın və dini həyat tərzinin zor tətbiq etməklə və ya zor tətbiq ediləcəyi ilə hədələməklə, habelə irqi, milli, dini, sosial ədavət və düşmənçilik yaratmaq məqsədi ilə təbliğinə yol verilmir. İnsan ləyaqətini alçaldan və ya insanpərvərlik prinsiplərinə zidd olan dinlərin (dini cərəyanların) yayılması və təbliği qadağandır.

Dini etiqad azadlığı yalnız qanunda nəzərdə tutulan və demokratik cəmiyyətdə zəruri olan hallarda ictimai təhlükəsizlik mənafeləri üçün, ictimai qaydanın təmin edilməsi, sağlamlığın və ya mənəviyyatın və ya digər şəxslərin hüquq və azadlıqlarının qorunması üçün məhdudlaşdırıla bilər.

Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən dini təbliğat aparılması qadağandır.

Valideynlər və ya onları əvəz edən şəxslər, qarşılıqlı razılıq əsasında, uşaqlarını özlərinin dini əqidəsinə və dinə münasibətinə müvafiq olaraq tərbiyə edə bilərlər.

Maddə 2. **Dini etiqad azadlığı haqqında qanunvericilik**

Dini etiqad azadlığı haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, bu Qanundan və Azərbaycan Respublikasının digər qanunvericilik aktlarından ibarətdir.

Maddə 3. **(Çıxarılıb)**

Maddə 4. **Dini mənsubiyyətindən asılı olmayaraq şəxslərin hüquq bərabərliyi**

Hər kəs dini mənsubiyyətindən asılı olmayaraq qanun və məhkəmə qarşısında bərabərdir. Şəxsin dini mənsubiyyətinin rəsmi sənədlərdə göstərilməsinə yalnız onun arzusu ilə yol verilir.

Öz dini əqidəsinə görə heç kəs qanunla müəyyən edilmiş vəzifələrin icrasından imtina edə və ya boyun qaçıra bilməz. Bir vəzifənin icrasının dini əqidəyə görə digər vəzifənin icrası ilə əvəz edilməsinə yalnız Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş hallarda yol verilir.

Maddə 4-1. **Peşəkar dini fəaliyyət və din xadimi**

4-1.1. Peşəkar dini fəaliyyət dini tərbiyəyə və dini təhsilə, dindarların dini tələbatının ödənilməsinə, dinlərin yayılmasına, dini ayinlərin icrasına, moizələrin (xütbələrin) oxunmasına, dini qurumun inzibati və təşkilati idarəetməsinə yönəlmiş fəaliyyətdir.

4-1.2. Din xadimi peşəkar dini fəaliyyətlə məşğul olan dini ali və ya orta ixtisas təhsilli şəxsdir.

Maddə 5. **Dövlət və dini qurumlar**

Azərbaycan Respublikasında din və dini qurumlar dövlətdən ayrıdır.

Dövlət ona aid olan hər hansı işin yerinə yetirilməsini dini qurumlara tapşırmır və onların fəaliyyətinə qarışmır.

Bütün dinlər və dini qurumlar qanun qarşısında bərabərdir. Heç bir din (dini cərəyan) və dini qurum barəsində digərlərinə nisbətən hər hansı üstünlük və ya məhdudiyyət müəyyən edilə bilməz.

Dini qurumlar ictimai həyatda iştirak etmək, habelə, ictimai birliklərlə yanaşı kütləvi məlumat vasitələrindən istifadə etmək hüququna malikdirlər.

Dini qurumlar siyasi partiyaların fəaliyyətində iştirak etmir və onlara maliyyə yardımı göstərmirlər.

Din xadimləri dövlət orqanlarına seçildikdə və ya təyin olunduqda onların peşəkar dini fəaliyyəti həmin vəzifədə olduqları müddətdə dayandırılır.

Dini qurumlar Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə əməl edir və onları pozduqda məsuliyyət daşıyırlar.

Dini qurumlar cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması məqsədi ilə onlar üçün müvafiq qanunvericiliklə müəyyən edilmiş tədbirləri yerinə yetirməlidirlər.

Maddə 6. **Dinin məktəblə münasibəti**

Azərbaycan Respublikasında dövlət təhsil sistemi dindən ayrıdır.

Dinşünaslıq, dini-idraki, dini-fəlsəfi fənlər, müqəddəs dini kitabların əsasları ilə tanışlıq dövlət təhsil müəssisələrinin tədris proqramına daxil edilə bilər.

Vətəndaşlar istədikləri dildə fərdi qaydada və ya başqaları ilə birlikdə ilahiyyatı öyrənə və dini təhsil ala bilərlər.

Dini qurumlar öz nizamnamələrinə uyğun olaraq, qanunvericiliklə müəyyən edilmiş qaydada gənclərin və yaşlıların dini təhsili üçün təhsil müəssisələri yaratmaqla müəyyən olunmuş formada təlim-tərbiyə prosesini həyata keçirə bilərlər.

Dini qurumlar tərəfindən gənclərin və yaşlıların müqəddəs kitabları öyrənmə kursları (qrupları) həmin dini qurumların nizamnamələrinə uyğun olaraq, tabe olduqları dini mərkəz və idarələrin razılığı ilə yaradılır.

## II Fəsil

## AZƏRBAYCAN RESPUBLİKASINDA DİNİ QURUMLAR

Maddə 7. **Dini qurumlar**

Dini mərkəz və idarələr, dini təhsil müəssisələri və dini icmalar, onların birlikləri dini qurumlardır. Dini qurumlar öz mərkəzi (idarələri) ilə təmsil olunurlar.

Dini qurumlar bu Qanuna və təsdiq olunmuş nizamnamələrinə müvafiq surətdə fəaliyyət göstərirlər.

Azərbaycan Respublikasında fəaliyyət göstərən islam dini qurumları Qafqaz Müsəlmanları İdarəsinə öz fəaliyyətləri haqqında hesabat təqdim edirlər.

Maddə 8. **Dini icma**

Dini icma dinə birlikdə ibadət etmək və digər dini tələbatı ödəmək məqsədilə könüllülük əsasında birləşmiş yetkinlik yaşına çatmışdindar şəxslərin yerli dini qurumudur.

Azərbaycan Respublikasında təşkilat məsələlərində islam dini icmaları Qafqaz Müsəlmanları İdarəsinə tabedirlər, qeyri-müsəlman dini icmalarının Azərbaycan Respublikasında və xaricdə fəaliyyət göstərən dini mərkəzlərə (idarələrə) tabe olmaq və tabeliyini dəyişdirmək hüququ vardır.

İslam dininə aid ibadət yerlərinə rəhbərlik edən din xadimləri müvafiq icra hakimiyyəti orqanına məlumat verilməklə Qafqaz Müsəlmanları İdarəsi tərəfindən təyin edilir.

İslam dini icmaları məscidlərdə Azərbaycan Respublikasının vətəndaşları tərəfindən yaradılır.

Maddə 9. **Dini mərkəzlər və idarələr**

Azərbaycan Respublikasında islam dini qurumları öz tarixi islam dini mərkəzində – Qafqaz Müsəlmanları İdarəsində birləşirlər.

Təşkilati mərkəzləri xaricdə olan qeyri-islam dini qurumları öz fəaliyyətində Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan hallarda həmin mərkəzlərin nizamnamələrini rəhbər tuta bilərlər.

Dövlətin dini mərkəzlə və idarələrlə, o cümlədən, Azərbaycan Respublikasının hüdudlarından kənarda olan dini mərkəzlərlə və idarələrlə qanunla tənzimlənməyən münasibətləri onların öz aralarında və dövlət orqanları ilə razılaşmalara müvafiq surətdə nizamlanır.

Dini mərkəz və idarələr öz nizamnamələrində nəzərdə tutulmuş qaydada ibadətgahlar və dini təhsil müəssisələri yarada bilərlər.

Maddə 10. **Dini təhsil müəssisələri**

Din xadimləri və dini ixtisaslar üzrə digər kadrlar hazırlanması üçün dini təhsil müəssisələrini yalnız dini mərkəz və idarələr yarada bilərlər. Dini mərkəz və idarələr birdən çox ali dini təhsil müəssisəsi yarada bilməz. Dini təhsil müəssisələri ilə dini mərkəz və ya idarələr arasında münasibətlər təsis sənədləri ilə müəyyən edilir.

Dini təhsil müəssisələri Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilən xüsusi razılıq (lisenziya) əsasında fəaliyyət göstərirlər.

Dini təhsil müəssisələrində təhsil alanlar dövlət təhsil müəssisələrində təhsil alanlar üçün müəyyən olunmuş hüquq və güzəştlərdən istifadə edirlər.

Maddə 11. **Dini qurumların nizamnamələri**

Dini qurumun hüquq qabiliyyətini mülki qanunvericiliyə müvafiq surətdə müəyyən edən nizamnaməsi olur.

Dini qurumun nizamnaməsi dindar şəxslərin ümumi yığıncağında və ya dini qurultaylarda, konfranslarda qəbul olunur.

Dini qurumun nizamnaməsində aşağıdakılar göstərilməlidir:

1) dini qurumun adı, növü, dini mənsubiyyəti və yeri;

2) dini qurumun dini birliyin təşkilat quruluşunda yeri;

3) dini qurumun məqsəd və vəzifələri, habelə, fəaliyyətinin əsas formaları;

4) dini qurumun strukturu, idarəetmə orqanları və onların təşkili qaydası, habelə həmin orqanların səlahiyyətləri;

5) dini qurumun əmlak vəziyyəti;

6) dini qurumun müəssisələr, kütləvi informasiya vasitələri, digər dini qurumlar, təhsil müəssisələri təsis etmək hüquqları;

7) dini qurumun nizamnaməsinə dəyişikliklər və əlavələr etmək qaydası;

8) dini qurumun ləğvi qaydası;

9) dini qurumun fəaliyyətinə xitam verildikdə əmlak məsələlərinin və başqa məsələlərin həlli qaydası.

Dini qurumun adı onun hansı dinə mənsub olduğunu özündə əks etdirməlidir.

Nizamnamədə həmin dini qurumun fəaliyyətinin xüsusiyyətləri ilə əlaqədar digər məsələlər də əhatə oluna bilər.

Dini qurumun dini etiqad fəaliyyətini müəyyən edən, digər daxili məsələlərini həll edən sənədlər dövlət orqanlarında qeydə alınmalı deyildir.

Dini qurum dövlət qeydiyyatına alındığı andan hüquqi şəxsdir.

Dini qurumun nizamnaməsi öz dini mərkəzinin (idarəsinin) nizamnaməsinə uyğun olmalıdır.

Maddə 12. **Dini qurumların dövlət qeydiyyatına alınması**

Bütün dini qurumlar yalnız müvafiq icra hakimiyyəti orqanında dövlət qeydiyyatına alındıqdan və dini qurumların dövlət reyestrinə daxil edildikdən sonra fəaliyyət göstərə bilərlər. Dini qurumlar yalnız dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatlarda hüquqi ünvan kimi göstərilən ibadət yerlərində həmin dini qurumlara dini mərkəz və idarələr tərəfindən din xadimi təyin edildikdən sonra fəaliyyət göstərə bilərlər.

Dini icmanın dövlət qeydiyyatına alınması üçün onu yaratmış azı əlli nəfər yetkinlik yaşına çatmış şəxs və ya onların səlahiyyətli nümayəndələri icmanın təsis protokolu və nizamnaməsi əlavə olunmuş ərizə ilə dini mərkəzə və ya idarəyə müraciət edir. Ərizəyə habelə, vətəndaşlığı, yaşayış yeri və doğum tarixi göstərilməklə dini icmanı təsis edən şəxslərin siyahısı, şəxsiyyətlərini təsdiq edən sənədlərin surəti, dini təlimin əsasları, o cümlədən, dini icmanın yaranması tarixi, onun fəaliyyətinin forma və metodları, ənənələri, ailəyə, nikaha və təhsilə münasibət, həmin icmanın üzvlərinin hüquq və vəzifələrinə qoyulan məhdudiyyətlər barədə məlumatlar, habelə, “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş digər sənədlər əlavə edilir. Dini mərkəz və ya idarə 30 gün ərzində həmin sənədləri öz təqdimatı ilə birlikdə müvafiq icra hakimiyyəti orqanına göndərir.

Dini mərkəzin, dini idarələrin, dini təhsil müəssisələrinin, dövlət qeydiyyatına alınması üçün müvafiq icra hakimiyyəti orqanına təsis sənədi və nizamnamə təqdim edilir.

Müvafiq icra hakimiyyəti orqanı dini qurumların dövlət qeydiyyatına alınmasını qanunvericiliklə müəyyən edilmiş müddətdə həyata keçirir.

Dövlət qeydiyyatına alınmış dini qurum onun dövlət qeydiyyatına alınması üçün tələb olunan məlumatlarda və ya sənədlərdə hər hansı dəyişiklik olduqda, bu barədə 20 gün müddətində dini mərkəz və idarələrin vasitəsi ilə müvafiq icra hakimiyyəti orqanına məlumat verməli və müvafiq dəyişikliyi təsdiq edən sənədləri həmin qaydada təqdim etməlidir.

Bu Qanunun 1-ci maddəsinin üçüncü hissəsi nəzərə alınmaqla, dini qurumun dövlət qeydiyyatına alınmasından aşağıdakı hallarda imtina edilə bilər:

1) dini qurumun fəaliyyəti və ya qarşısına qoyduğu məqsədlər, yaxud təbliğ etdiyi dini təlimin mahiyyəti və əsas prinsipləri Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına zidd olduqda;

2) yaradılan qurum dini qurum qismində tanınmadıqda;

3) təqdim olunmuş nizamnamə və digər sənədlər Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə zidd olduqda və ya onlarda əks olunmuş məlumatlar yanlış olduqda.

Dövlət qeydiyyatına alınmasından imtina barədə dini quruma imtinaya əsas olmuş qanunvericiliyin müddəaları göstərilməklə məlumat verilir.

Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş əsaslardan başqa hər hansı digər əsasa görə dini qurumun dövlət qeydiyyatına alınmasından imtinaya yol verilmir.

Maddə 12-1. **Dini qurumun ləğv edilməsi**

Dini qurumlar aşağıdakı hallarda ləğv edilə bilər:

1) təsisçilərin və ya nizamnamə ilə buna vəkil edilmiş orqanın qərarı ilə;

2) müvafiq icra hakimiyyəti orqanının müraciəti əsasında məhkəmənin qərarı ilə.

Bu Qanunun 1-ci maddəsinin üçüncü hissəsi nəzərə alınmaqla, dini qurum məhkəmə qaydasında aşağıdakı əsaslarla ləğv edilə bilər:

1) dini qurum tərəfindən Azərbaycan Respublikası Konstitusiyasının, bu Qanunun və digər qanunların pozulması, yaxud həmin qurumun yaranma məqsədlərinə zidd olan fəaliyyətin həyata keçirilməsi;

2) dini etiqadın və dini həyat tərzinin zor tətbiq etməklə və ya zor tətbiq ediləcəyi ilə hədələməklə, habelə irqi, milli, dini, sosial ədavət və ya düşmənçilik yaratmaq məqsədi ilə təbliğ edilməsi, dini etiqadı ifadə etməyə (nümayiş etdirməyə), dini mərasimləri yerinə yetirməyə və ya dini mərasimlərdə iştirak

etməyə məcbur etmə, insan ləyaqətini alçaldan və ya insanpərvərlik prinsiplərinə zidd olan dinin (dini cərəyanın) yayılması və təbliğ edilməsi;

3) ictimai təhlükəsizliyin və ya ictimai qaydanın pozulması;

4) terrorçuluğa, terrorçuluğun maliyyələşdirilməsinə, təxribata və zorakı cinayət əməllərinə yönəlmiş hərəkətlərin edilməsi;

5) dünyəvi təhsil alınmasına mane olma;

6) dini qurumun üzvlərinin və digər şəxslərin dini qurumun xeyrinə öz əmlakından imtina edilməsinə təhrik və ya məcbur etmə;

7) zor tətbiq etməklə və ya digər qanunsuz əməllərlə şəxsin dini qurumdan çıxmasına mane olma;

8) şəxsləri qanunla müəyyən edilmiş vəzifələrin icrasından imtina edilməsinə və digər qanunsuz hərəkətlərin edilməsinə təhrik etmə;

9) dövlət qeydiyyatına alınması üçün tələb olunan məlumatlarda və ya sənədlərdə edilmiş dəyişikliklər barədə məlumatın müvafiq icra hakimiyyəti orqanına təqdim edilməsi tələbinə təkrarən əməl olunmaması.

Dini mərkəz və idarələr dini icmalar barədə bu maddənin ikinci hissəsində nəzərdə tutulmuş məlumatlara malik olduqda, həmin dini icmaların təsisçilərinin tərkibinin dəyişdirilməsinin və ya icmanın ləğvinin zəruriliyi barədə müvafiq icra hakimiyyəti orqanının qarşısında vəsatət qaldırırlar.

Maddə 13. **(Çıxarılıb)**

Maddə 14. **(Çıxarılıb)**

Maddə 15. **(Çıxarılıb)**

## III Fəsil

## DİNİ QURUMLARIN ƏMLAK VƏZİYYƏTİ

Maddə 16. **Dövlətin, ictimai təşkilatların və ya vətəndaşların mülkiyyəti olan əmlakdan istifadə**

Dini qurumlar dövlətin, ictimai təşkilatların və ya vətəndaşların müqavilə əsasında onlara verdikləri binalardan və əmlakdan öz ehtiyacları üçün istifadə hüququna malikdirlər.

Dövlət mülkiyyətində olan dini təyinatlı binalar və digər əmlak dini qurumların əvəzsiz istifadəsinə verilə bilər.

Dini qurumlar dini təyinatlı binaların yerləşdikləri ərazi ilə birlikdə onlara verilməsində üstünlük hüququna malikdirlər.

Dinə mənsub binaların və əmlakın dini qurumlara verilməsi barədə qərarlar müvafiq vəsatətin alındığı gündən etibarən ən geci bir ay müddətində qəbul edilir və bu barədə müraciət edənə yazılı şəkildə məlumat verilir.

Dini qurumlar torpaq sahələrindən Azərbaycan Respublikasının Torpaq Məcəlləsinə uyğun olaraq istifadə edirlər.

Maddə 17. **Tarix və mədəniyyət abidələri olan əmlakın verilməsi və ondan istifadə**

Tarix və mədəniyyət abidələri olan tikililər və əşyalar dini qurumlara qanunvericiliyə müvafiq qaydada verilə və onlar tərəfindən istifadə oluna bilər.

Dövlət mülkiyyətində olan dini tarix və mədəniyyət abidələrinin özəlləşdirilməsinə və Azərbaycan Respublikasının milli mədəniyyət əmlakının Dövlət Siyahısına daxil edilmiş dini təyinatlı mədəniyyət sərvətlərinin mülki dövriyyədə olmasına yol verilmir.

Maddə 18. **Dini qurumların mülkiyyəti**

Binalar, dini əşyalar, istehsal, sosial və xeyriyyə təyinatlı obyektlər, pul vəsaiti və dini qurumların fəaliyyətini təmin etmək üçün zəruri olan başqa əmlak onların mülkiyyətində ola bilər.

Dini qurumlar özlərinin vəsaiti hesabına əldə etdikləri və ya yaratdıqları, vətəndaşlar, təşkilatlar tərəfindən ianə edilmiş və ya dövlət tərəfindən verilmiş, eləcə də qanunla nəzərdə tutulmuş başqa əsaslarla əldə edilmiş əmlak üzərində mülkiyyət hüququna malikdirlər.

Xaricdə olan əmlak da dini qurumların mülkiyyətində ola bilər.

Dini qurumlar könüllü ianələr üçün müraciət edə, habelə, bu ianələri qəbul edə bilərlər.

Dini mərkəz və idarələrin maliyyə vəsaiti bu Qanunun tələbləri nəzərə alınmaqla əldə edilən vəsait, həmçinin fiziki və hüquqi şəxslərin, dini qurumların və ziyarətgahların könüllü ayırmaları hesabına yaranır.

Dini qurumlara dövlət və yerli özünüidarə orqanları tərəfindən maliyyə yardımı göstərilə bilər.

Dini qurumların mülkiyyət hüququ qanunla qorunur.

Maddə 19. **Dini qurumların istehsal və təsərrüfat fəaliyyəti**

Dini qurumlar qanunvericiliyə və öz nizamnamələrinə müvafiq surətdə hüquqi şəxs statuslu nəşriyyat, poliqrafiya, istehsal, bərpa-tikinti müəssisələri, yetimxanalar, internatlar, xəstəxanalar və sair təsis edə bilərlər.

Maddə 20. **Fəaliyyətinə xitam verilmiş dini qurumların əmlakı barəsində sərəncam**

Dövlətin, ictimai təşkilatların və ya ayrı-ayrı vətəndaşların dini qurumların istifadəsinə verdikləri vəqf olmayan əmlak onların fəaliyyətinə xitam verildikdən sonra əvvəlki sahibinə qaytarılır.

Dini qurumun fəaliyyətinə xitam verildikdə, mülkiyyətində olmuş əmlak barəsində onun nizamnaməsinə və qüvvədə olan qanunvericiliyə müvafiq surətdə sərəncam verilir.

Dini qurumlara məxsus ayin təyinatlı əmlakdan kreditorların iddiaları üzrə haqq tutula bilməz.

Hüquqi varis olmadıqda, əmlak dövlət mülkiyyətinə keçir.

## IV Fəsil

## DİNİ ETİQAD AZADLIĞI İLƏ ƏLAQƏDAR VƏTƏNDAŞLARIN VƏ DİNİ QURUMLARIN HÜQUQLARI

Maddə 21. **Dini ayinlər və mərasimlər**

Dini qurumlar ibadətlər və dini yığıncaqlar üçün onlara münasib yerlərə, habelə, bu və ya digər dində müqəddəs sayılan ziyarətgahlara himayədarlıq edib, onları saxlamaq və onlardan istifadə etmək hüququna malikdirlər.

Bu Qanunun 1-ci maddəsinin tələbləri nəzərə alınmaqla ibadətlər, dini ayinlər və mərasimlər ibadətgahlarda və onlara məxsus ərazidə, ziyarətgahlarda, qəbiristanlarda, dini qurumların idarələrində, vətəndaşların mənzillərində və evlərində maneəsiz keçirilir.

İslam dininə aid ayin və mərasimlərin aparılması yalnız Azərbaycan Respublikasında təhsil almış Azərbaycan Respublikasının vətəndaşları tərəfindən həyata keçirilə bilər.

Qoşun hissələrinin komandanlığı (müstəsna hallardan başqa) hərbi qulluqçuların boş vaxtlarında ibadət etmələrinə və dini ayinləri yerinə yetirmələrinə mane ola bilməz. Əsgəri bölmələrdə hərbi rəhbərliyin razılığı ilə ruhanilərin fəaliyyətinə yol verilir.

Xəstəxanalarda, hospitallarda, qocalar və əlillər evlərində, yataqxanalarda, ibtidai həbs yerlərində ibadətlər və dini ayinlər orada olan şəxslərin xahişi ilə keçirilir. Həmin idarələrin müdiriyyəti ruhanilərin dəvət olunmasına yardım göstərir, ibadətin, ayinin və ya mərasimin keçirilməsi vaxtının və başqa şərtlərinin müəyyənləşdirilməsində iştirak edir. Digər hallarda açıq ibadətlər, dini ayinlər və mərasimlər yığıncaq, mitinq, nümayiş və yürüşlərin keçirilməsi üçün müəyyən edilmiş qaydada icra olunur.

Dini qurumlar xəstəxanalarda, hospitallarda, qocalar və əlillər evlərində, yataqxanalarda, cəzaçəkmə müəssisələrində olan vətəndaşlara ibadətlər keçirilməsi üzrə təkliflərlə müraciət etmək hüququna malikdirlər.

Maddə 22. **Dini ədəbiyyat və dini təyinatlı əşyalar**

Vətəndaşlar və dini qurumlar istədikləri dildə dini ədəbiyyat, eləcə də dini təyinatlı başqa əşya və materiallar əldə edə və bunlardan istifadə edə bilərlər.

Dini qurumlar, dini qurum olmayan digər hüquqi şəxslər və fiziki şəxslər müvafiq icra hakimiyyəti orqanının razılığı ilə dini təyinatlı ədəbiyyatı, əşyaları və dini məzmunlu başqa məlumat materiallarını istehsal, idxal, ixrac edə, habelə sərbəst yaya bilərlər.

Dini təyinatlı ədəbiyyatın, əşyaların və dini məzmunlu başqa məlumat materiallarının satışı yalnız müvafiq icra hakimiyyəti orqanının razılığı ilə yaradılmış ixtisaslaşdırılmış satış məntəqələri vasitəsilə həyata keçirilir.

Maddə 23. **Dini qurumların xeyriyyə və mədəni-maarif fəaliyyəti**

Dini qurumlar həm müstəqil, həm də təsis etdiyi fondlar, o cümlədən ictimai fondlar vasitəsi ilə xeyriyyəçilik və mədəni-maarif fəaliyyəti göstərirlər.

Maddə 24. **Dindarların və dini qurumların beynəlxalq əlaqələri və ünsiyyəti**

Vətəndaşlar və dini qurumlar tək və ya qrup halında beynəlxalq dini tədbirlərdə, xaricdə keçirilən dini mərasimlərdə iştirak edə, ziyarətlərə gedə bilərlər.

Vətəndaşların dini təhsil müəssisələrində təhsil almaq üçün xaricə göndərilməsi və din xadimlərinin mübadiləsi müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılmaqla dini mərkəz və ya dini idarələr tərəfindən həyata keçirilir.

## V Fəsil

## DİNİ QURUMLARDA VƏ ONLARIN MÜƏSSİSƏLƏRİNDƏ ƏMƏK FƏALİYYƏTİ

Maddə 25. **Dini qurumlarda əmək-hüquq münasibətləri**

Dini qurumla işçi arasında əmək münasibətləri Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə tənzimlənir.

Dini qurum müəyyən edilmiş qaydada əmək müqaviləsini, ruhanilərin əməkhaqqı şərtlərini müəyyən edən sənədləri qeydə alır.

Əmək müqaviləsi üzrə dini qurumda işləyən vətəndaşlar həmkarlar ittifaqının üzvü ola bilərlər.

Maddə 26. **Dini qurumlarda işləyən vətəndaşların əmək hüququ**

Dini qurumlarda əmək müqaviləsi üzrə işləyən vətəndaşlara əmək qanunvericiliyinin tələbləri istisnasız tətbiq olunur.

Maddə 27. **Dini qurumların işçilərinin sosial sığortası və pensiya təminatı**

Dini qurumların işçilərinin sosial sığortası "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu, pensiya təminatı "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

## VI Fəsil

## DÖVLƏT ORQANLARI VƏ DİNİ QURUMLAR

Maddə 28. **Dini etiqad azadlığı haqqında qanunvericilik üzərində nəzarət**

Azərbaycan Respublikasının dini etiqad azadlığı haqqında qanunvericiliyinin icrası üzərində nəzarət qüvvədə olan qanunvericiliyə müvafiq surətdə həyata keçirilir.

Maddə 29. **Müvafiq icra hakimiyyəti orqanı**

Müvafiq icra hakimiyyəti orqanı:

dini qurumların xahişi üzrə dövlət orqanları ilə razılaşmalar əldə edilməsində və dövlət orqanları tərəfindən həlli tələb olunan məsələlərdə onlara lazımi yardım göstərir;

müxtəlif dini etiqadların dini qurumları arasında qarşılıqlı hörmət, anlaşma və dözümlülük mühitinin möhkəmlənməsinə kömək edir;

dini qurumların bu Qanunla nəzərdə tutulmuş qaydada nizamnamələrinin (əsasnamələrinin) qeydə alınmasını, habelə onlara dəyişiklik və əlavələr edilməsini həyata keçirir;

dini etiqad azadlığı haqqında qanunvericiliyin tətbiqində yerli icra hakimiyyəti orqanlarına kömək göstərir;

xarici dövlətlərin müvafiq orqanları ilə əlaqə saxlayır;

Azərbaycan Respublikasında dini qurumlar, dini etiqad azadlığı haqqında qanunvericiliyin icrası üzrə məlumat bankı yaradır;

dini mərkəzdən və dini idarələrdən və digər dini qurumlardan zəruri məlumatlar alır;

dini təşkilatların beynəlxalq dini hərəkatlarla, forumlarla, beynəlxalq dini mərkəzlərlə və xarici dini qurumlarla işgüzar əlaqələrdə iştirakına kömək edir;

dinşünaslıq ekspertizasının aparılmasını təmin edir, bu işə dini qurumların nümayəndələrini və müvafiq mütəxəssislərini cəlb edir;

dini ibadət yerinin tikintisinin və mövcud dini ibadət yerinin yenidən qurulmasının məqsədəuyğunluğu barədə rəy verir;

müvafiq icra hakimiyyəti orqanı ilə birlikdə dini təhsil müəssisələrinin proqramlarını təhlil və təsdiq edir, dini tədrisin keyfiyyətinin müəyyən edilməsi üçün rəy verir.

Maddə 30. **Dini etiqad azadlığı haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət**

Dini etiqad azadlığı haqqında qanunvericiliyin pozulmasına görə vəzifəli şəxslər, digər fiziki və hüquqi şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

Maddə 31. **Beynəlxalq müqavilələr**

Azərbaycan Respublikasının iştirak etdiyi beynəlxalq müqavilədə dini etiqad azadlığı haqqında daxili qanunvericilikdə olduğundan fərqli qaydalar olduqda, beynəlxalq müqavilənin qaydaları tətbiq olunur.

Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 20 avqust 1992-ci il. № 281

***(sonuncu vərəqdə)***

7 iyun 1996-cı il tarixli, 117-İQD nömrəli; 5 noyabr 1996-cı il tarixli, 188-IQD nömrəli; 27 dekabr 1996-cı il tarixli, 222-İQD nömrəli; 10 oktyabr 1997-ci il tarixli, 380-İQD nömrəli; 23 noyabr 2001-ci il tarixli, 219-IIQD nömrəli; 24 may 2002-ci il tarixli, 333-IIQD nömrəli; 3 dekabr 2002-ci il tarixli, 398-IIQD nömrəli; 10 iyun 2005-ci il tarixli, 925-IIQD nömrəli; 8 may 2009-cu il tarixli, 812-IIIQD nömrəli; 30 iyun 2009-cu il tarixli, 841-IIIQD nömrəli; 30 iyun 2009-cu il tarixli, 856-IIIQD nömrəli; 10 iyun 2011-ci il tarixli, 162-IVQD nömrəli qanunlara əsasən əlavələr və dəyişikliklərlə.

### 3.1.2. QMİ-nin Nizamnaməsi

## I. ÜMUMİ MÜDDƏALAR

**1.1.** Qafqaz Müsəlmanları İdarəsi 1959-cu ildə qeydiyyata alınmış Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsinin bazasında yaradılmışdır, onun öhdəliklərinin daşıyıcısı və hüquqi varisidir.

**1.2.** Qafqaz Müsəlmanları İdarəsi (bundan sonra – İdarə) regionda (Azərbaycan Respublikasında, Ermənistan Respublikasında, Gürcüstanda, Rusiya Federasiyasının Şimali Qafqaz ərazisində) yaşayan müsəlmanların dini qurumlarını özündə birləşdirən tarixi, İslam dini ali mərkəzidir. Dini qurumlar öz mərkəzi (İdarəsi) ilə təmsil olunurlar.

**1.3.** Azərbaycan Respublikasında təşkilat məsələlərində İslam dini icmaları Qafqaz Müsəlmanları İdarəsinə tabedirlər.

**1.4.** İdarəyə, həmçinin başqa ərazilərdə yaşayan müsəlmanların dini qurumları birləşə bilərlər. Belə dini qurumlarla idarənin münasibətləri qarşılıqlı razılıq üzrə həyata keçirilir.

**1.5.** İdarə Qurani-Kərimin tələb və müddəalarını, Peyğəmbər (s) hədislərini əsas tutaraq, bütün şəri və öz səlahiyyətləri daxilində dini icmaların təşkilat məsələlərinin həllini təmin etmək, onların fəaliyyətlərinə nəzarət etmək və fəaliyyətlərini əlaqələndirmək, məzhəb ayrı-seçkiliyinə yol verməmək məqsədi daşıyır.

**1.6.** İdarə dünya dinlərinin beynəlxalq və ərazi təşkilatları ilə xeyirxah münasibətlər saxlayır, milli, irqi, dini ayrı-seçkiliyə yol vermir, başqa dinlərin və millətlərin adət-ənənələrinə hörmətlə yanaşır.

**1.7.** İdarə fəaliyyətini Azərbaycan Respublikasının Konstitusiyasının, "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin, başqa normativ-hüquqi aktların müddəaları və bu Nizamnamə əsasında həyata keçirir. İdarə başqa dövlətlərdə fəaliyyətini həmin dövlətlərin qanunlarına hörmət və riayət etməklə həyata keçirir.

**1.8.** İdarə və qurumları siyasi fəaliyyət göstərmir və öz binalarında siyasi tədbirlər keçirilməsinə yol vermirlər.

Din xadimləri dövlət orqanlarına seçildikdə və ya təyin olunduqda onların din xadimi kimi fəaliyyəti həmin vəzifədə olduqları müddətdə dayandırılır.

**1.9.** İdarə dövlət qeydiyyatına alındığı vaxtdan qeyri-kommersiya hüquqi şəxs statusuna malikdir.

**1.10.** İdarə öz adından müqavilələr bağlaya, əmlak və şəxsi qeyri-əmlak hüquqları əldə edə, vəzifələr daşıya, məhkəmədə iddiaçı və cavabdeh ola bilər.

**1.11.** İdarənin müstəqil balansı, ştampı, möhürü, blankları və digər rekvizitləri var. İdarənin öz rəmzləri ola bilər.

**1.12.** İdarə Azərbaycan Respublikasının banklarında və xarici banklarda milli və xarici valyuta hesabları aça bilər.

**1.13.** İdarənin mərkəzi iqamətgahı Başı şəhəri, M.Fətəli küçəsi, 7 saylı binadır və həmin ünvan həm də idarənin olduğu yeri bildirən hüquqi ünvandır.

## II. İDARƏNİN HÜQUQLARI VƏ VƏZİFƏLƏRİ

**2.1.** İdarə:

- təmsil etdiyi dini qurumların hüquqlarını və qanuni mənafeyini təmin edir və qoruyur;
- müvafiq qaydada əhatə etdiyi ərazidə yerləşən müsəlmanların dini qurumlarının, İslam təhsili və elm ocaqlarının fəaliyyətinə təşkilati rəhbərlik edir, onlara nəzarət edir, dini rəhbər şəxsləri (axundları, imamları və b.) Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə (DQİDK) məlumat verməklə vəzifəyə təyin edir və vəzifədən azad edir, onların işini qanunvericiliyə və bu Nizamnaməyə əsasən istiqamətləndirir; qanunvericilikdə nəzərdə tutulmuş qaydada ibadətgahlar və ziyarətgahlar yaradır, onların fəaliyyətinə nəzarət edir.

Bu məqsədlə mütəvəlli və ya digər din xadimi təyin edir və bu barədə DQİDK-ə məlumat verir;

- dövlət orqanları ilə razılaşmalar əldə edilməsində və dövlət orqanları tərəfindən həlli tələb olunan məsələlərdə dini qurumlara lazımi yardım göstərilməsi üçün DQİDK-ə vəsatətlər verir;
- DQİDK-in səlahiyyətlərinə aid məsələlərə dair onun yazılı sorğularına cavab verir;
- beynəlxalq işgüzar əlaqələrdə, ziyarətlərin təşkilində və müvafiq sənədlərin hazırlanmasında kömək göstərilməsi üçün DQİDK-ə müraciət edir;
- DQİDK-in təşəbbüsü ilə aparılan dinşünaslıq ekspertizasında iştirak edir və bu məqsədlə müvafiq nümayəndələr və mütəxəssislər ayırır;
- rayon və şəhər icra hakimiyyətləri yanında yaradılmış dini məsələlər üzrə komissiyaların işində dini qurumların iştirakına təşkilati-metodik köməklik göstərir;

- dini etiqad azadlığı ilə bağlı qanunvericiliyə zidd hərəkətlər barədə DQİDK-in təqdimatlarına baxır;

- qanunvericiliyə uyğun surətdə məqsədəuyğun sayılan qurumları, o cümlədən nümayəndəlikləri və dini təmayüllü xidmətləri təşkil edir, təsərrüfat və istehsal sahələri yaradır;

- idarənin işini aparmaq, vəzifələrini yerinə yetirmək üçün, habelə, iş görülməsi və xidmət göstərilməsi barədə əmək müqavilələri və mülki-hüquqi müqavilələr bağlayır;

- İslam dininə aid şəri və başqa mübahisəli məsələləri həll edir;

- DQİDK-in razılığı ilə dini elmi-tədqiqat işlərinə xaricdəki elmi-dini mütəxəssislər dəvət edir;

- DQİDK-in razılığı ilə xarici ölkələrlə mütəxəssislər mübadiləsi aparır;

- xaricdə yerləşən İslam dini ziyarətgahlarına vətəndaşların qrup halında ziyarətlərini təşkil edir, ibadətlər, dini ayinlər, mərasimlərlə bağlı tədbirlər təşkil edir, keçirir və ya onların keçirilməsinə kömək göstərir;

- uşaq evlərinə, internatlara, qocalar evlərinə, xəstəxanalara, cəzaçəkmə müəssisələrinə, əlillərə və maddi korluq çəkən insanlara təmənnasız dini ayin xidmətləri və öz imkanları daxilində maddi yardım göstərir;

- dini mövzuda seminarlar, görüşlər, konfranslar, disputlar keçirir;

- DQİDK ilə razılaşdırmaqla dini təyinatlı ədəbiyyat, dini ayinlər üçün əşyalar, audio-video və s. materiallar hazırlayır, xaricdən gətirir və onları sərbəst surətdə yayır;

- müxtəlif formalarda mədəni-maarif fəaliyyəti göstərir;

- beynəlxalq dini tədbirlərdə, xaricdə keçirilən dini mərasimlərdə iştirak edir;

- xaricdə yerləşən dini mərkəzlərlə, ziyarətgahlarla, dövlət qurumları və qeyri-hökumət təşkilatları və ayrı-ayrı şəxslərlə əlaqələr yaradır;

- DQİDK-in rəyi nəzərə alınmaqla Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən verilən xüsusi razılıq (lisenziya) əsasında dini xadimləri və dini ixtisaslar üzrə digər kadrlar ha-

zırlanması üçün bir ali və orta-ixtisas dini təhsil müəssisələri yaradır;

- dini təhsil müəssisələrinin tədris proqramlarını, dərslikləri, dərs vəsaitlərini, lazımi təlimatları hazırlayır və tələbə qəbulu sayını müəyyənləşdirir;
- DQİDK-in razılığı ilə gənclərin və yaşlıların Qurani-Kərimin öyrənməsi məqsədi ilə Quran kursları və qrupları yaradır və müəyyən olunmuş formada təlim-tərbiyə prosesini həyata keçirir;
- İslam dini qurumlarının təsis sənədlərinin bu Nizamnaməyə uyğunluğunu təmin edir və dini qurumların dövlət qeydiyyatına alınması üçün təqdimatlar verir;
- Vətənin müdafiəsi ilə bağlı tədbirlərdə iştirak edir və bu tədbirlərə mənəvi və maddi yardım göstərir;
- haqq işinin müdafiəsi üçün zəruri hallarda xaricdəki dindarlara, beynəlxalq İslam təşkilatlarına yardım üçün müraciət edir;
- İslama və müsəlmanlara qarşı yönələn təcavüzə birbaşa və ya öz nümayəndəlikləri vasitəsi ilə münasibət bildirir, zəruri hallarda isə maddi yardım göstərmək təşəbbüsü ilə çıxış edir;
- özünün mükafatlarını təsis edir, mükafatlandırmanı həyata keçirir;
- qanunla qadağan edilməyən və bu Nizamnamədən irəli gələn digər hüquqları və vəzifələri həyata keçirir.

## III. QAFQAZ MÜSƏLMANLARININ QURULTAYI

**3.1.** İdarənin ali orqanı beş ildən bir keçirilən Qafqaz müsəlmanlarının Qurultayıdır.

**3.2.** Təxirəsalınmaz məsələlərin həlli üçün idarənin sədri öz təşəbbüsü və ya Qazılar Şurası üzvlərinin azı yarısının təşəbbüsü ilə növbədənkənar qurultay çağırır. Qurultaya nümayəndələr onun başlanması gününə azı bir ay qalmış idarənin əhatə etdiyi coğrafiyada fəaliyyət göstərən dini qurumlar tərəfindən seçilir.

**3.3.** Qurultaya nümayəndələrin seçilməsi qaydasını və normasını qurultaya azı üç ay qalmış idarə tərəfindən yaradılan təşkilat komitəsi müəyyənləşdirir.

**3.4.** Növbədənkənar qurultayın çağırılma əsaslarının vacibliyi nəzərə alınmaqla nümayəndələrin seçilməsinin qısaldılmış müddətləri təyin olunur.

**3.5.** Qurultaya xaricdəki Azərbaycan diasporunun nümayəndələri, xarici ölkələrin din xadimləri və başqaları dəvət oluna bilər.

**3.6.** Seçilmiş nümayəndələrin ən azı 2/3 hissəsi iştirak etdikdə qurultay səlahiyyətli sayılır. Hər nümayəndə bir səsə malikdir.

**3.7.** Bu Nizamnamədə başqa qayda nəzərdə tutulmamışdırsa, qurultayın qərarları sadə səs çoxluğu ilə qəbul olunur.

**3.8.** Qurultay qəbul etdiyi reqlamentlərə uyğun keçirilir. Qurultayın iclaslarının protokolu tərtib edilir. Protokol iclasın sədri və katibi tərəfindən imzalanır.

**3.9.** Qurultay aşağıdakı məsələlər üzrə qərarlar qəbul edir:

- idarənin orqanlarının qurultaylararası hesabatının müzakirəsi və qiymətləndirilməsi;

- idarənin orqanlarının: Qazılar Şurasının, idarə sədrinin, Nəzarət-Təftiş Komissiyasının seçilməsi və onların səlahiyyətlərinə xitam verilməsi; sədrin səlahiyyətlərinə xitam verilməsi haqqında qərar seçilmiş nümayəndələrin ən azı 2/3 hissəsi iştirak etdikdə seçilmiş nümayəndələrin 2/3 səs çoxluğu ilə qəbul olunur;

- idarənin fəaliyyətinin dayandırılması və ləğvi: qərar seçilmiş nümayəndələrin ən azı 2/3 hissəsi iştirak etdikdə seçilmiş nümayəndələrin 2/3 səs çoxluğu ilə qəbul olunur;

- idarənin Nizamnaməsinin qəbul olunması və ona dəyişikliklər və əlavələr edilməsi: qərar seçilmiş nümayəndələrin ən azı 2/3 hissəsi iştirak etdikdə seçilmiş nümayəndələrin 2/3 səs çoxluğu ilə qəbul olunur.

**3.10.** Qurultayın qərarlarını idarənin sədri imzalayır və dərhal qüvvəyə minir.

## IV. İDARƏNİN SƏDRİ

**4.1.** İdarənin sədri, Qafqaz müsəlmanlarının qurultayında açıq səsvermə yolu, adi səs çoxluğu ilə seçilir və ona "Şeyxülislam" rütbəsi verilir.

**4.2.** İdarənin sədri:

- idarənin fəaliyyətinə bilavasitə rəhbərlik edir; sədr olmadıqda idarəyə inzibati rəhbərliyi onun tapşırığı ilə sədrin birinci müavini, o da olmadıqda müavinlərdən biri həyata keçirir.

- sədrin birinci müavinini və müavinlərini, idarənin işçilərini və ona tabe olan digər qurumların rəhbər şəxslərini vəzifəyə təyin edir və vəzifədən azad edir:

- idarənin adından əmək müqavilələri və mülki-hüquqi müqavilələr bağlayır, səlahiyyətlərini həyata keçirmək məqsədilə qərarlar qəbul edir, əmrlər və sərəncamlar verir;

- idarənin pul vəsaitləri və digər əmlakı barədə sərəncam verir;

- dövlət qurumları, qeyri-hökumət təşkilatları və başqa şəxslərlə münasibətlərdə idarəni etibarnaməsiz təmsil edir və ya bu məqsədlə nümayəndələr təyin edir və etibarnamələr verir;

- idarə aparatının strukturunu, tabeliyində olan qurumlar və bölmələr haqqında nizamnamələri (əsasnamələri), vəzifə təlimatlarını təsdiq edir;

- idarə adından mükafatlandırma haqqında qərarlar qəbul edir;

- Azərbaycan Respublikasının qanunvericiliyində və bu Nizamnamədə nəzərdə tutulmuş başqa səlahiyyətləri həyata keçirir;

**4.3.** İdarənin fəaliyyətində məzhəb ayrı-seçkiliyinə yol vermir və fəaliyyət ərazisində olan məzhəblər bu işə cavabdeh sədr müavinləri ilə təmsil olunurlar.

**4.4.** Digər məzhəblərin şəri məsələlərinə rəhbərlik etmək üçün Şeyxülislam tərəfindən Qazılar Şurasının bir üzvü sədrin birinci müavini təyin olunur və ona "müfti" rütbəsi verilir.

## V. QAZILAR ŞURASI

**5.1.** Qazılar Şurası üzvlərinin sayı və fərdi tərkibi idarə rəhbərliyinin təklifi ilə, bütün bölgələrin təmsil olunması gözlənilməklə qurultayda müəyyən edilir.

**5.2.** Yüksək dini təhsilli və nüfuzlu din xadimləri arasından seçilən qazılar yerlərdə dindarların şəri məsələlərini həll edirlər.

**5.3.** Qazılar Şurasının iclası üzvlərinin azı yarısı iştirak etdikdə səlahiyyətlidir.

**5.4.** Qazılar Şurasının iclaslarına idarənin sədri sədrlik edir.

**5.5.** Mübahisəli məsələlər Qazılar Şurasının iclasında səs çoxluğu ilə həll edilir.

**5.6.** Qazılar Şurası qurultaylararası dövrdə idarənin yeni redaksiyada Nizamnaməsini qəbul edə və ya Nizamnaməyə dəyişikliklər və əlavələr edə bilər. Bu barədə qərar Qazılar Şurasının üzvlərinin ən azı 2/3 hissəsi iştirak etdikdə, üzvlərin 2/3 səs çoxluğu ilə qəbul olunur.

**5.7.** Qazılar Şurası dini bayram, mərasim və digər vacib dini məsələlərlə əlaqədar fətvalar və tövsiyələr verir.

**5.8.** Qazılar Şurası mükafatlandırma barədə məsələlərə baxır və bununla əlaqədar idarənin sədrinə təkliflər verir.

**5.9.** Qazılar Şurası idarənin və ya onun tabeliyində olan dini qurumların şəri normaları, qüvvədə olan qanunvericiliyi pozan, yaxud öz üzərinə düşən vəzifələri yerinə yetirməyən istənilən vəzifəli şəxsini vəzifədən azad etmək haqqında qərar qəbul edə bilər.

**5.10.** Müəyyən səbəblərə görə öz vəzifəsini icra edə bilməyən bölgə qazısının səlahiyyəti idarənin sədri tərəfindən qurultaya qədər müvəqqəti olaraq din xadimlərindən birinə həvalə oluna bilər.

**5.11.** Qazılar Şurasının üzvü iclasda iştirak edən Şura üzvlərinin azı 2/3-nin səs çoxluğu ilə Şura üzvlüyündən çıxara bilər.

**5.12.** Bölgə qazısı cavabdeh olduğu ərazidə fəaliyyət göstərən dini icmaların, məscidlərin, ziyarətgahların (pirlərin) dini təlim ocaqlarının fəaliyyətinə nəzarət edir və görülən işlər haqqında idarəyə vaxtaşırı hesabat verir.

**5.13.** Qazılar Şurasının qərarlarını idarənin sədri imzalayır və onun qərarları dərhal qüvvəyə minir.

**5.14.** Qazılar Şurasının fəaliyyəti ilə bağlı bu Nizamnamədə nəzərdə tutulmayan və qurultay tərəfindən həll edilməyən məsələlər idarənin sədri tərəfindən təsdiq olunan Qazılar Şurası haqqında Əsasnamə ilə tənzimlənir.

## VI. NƏZARƏT-TƏFTİŞ KOMİSSİYASI

**6.1.** Nəzarət-təftiş komissiyasının say və fərdi tərkibi idarə sədrinin təklifi ilə qurultayda müəyyən edilir.

**6.2.** Nəzarət-təftiş komissiyası yoxlamalar üzrə aktlar tərtib edir və onları Qazılar Şurasının növbəti iclasına təqdim edir.

**6.3.** Nəzarət-təftiş komissiyası:

**6.3.1.** əmlakın vəziyyətini izləyir və inventarizasiyalar aparır;

**6.3.2.** dini qurumların maliyyə-təsərrüfat fəaliyyətini təftiş edir;

**6.3.3.** aşkar edilmiş maliyyə-təsərrüfat pozuntuları haqqında idarənin rəhbərliyinə məlumat verir;

**6.3.4.** dini qurumların idarəyə təqdim etdikləri maliyyə hesabatlarını araşdırır;

**6.3.5.** İdarənin qurumlarının və vəzifəli şəxslərinin bu Nizamnaməyə uyğun fəaliyyət göstərmələrinə nəzarət edir;

**6.3.6.** zəruri hallarda öz işinə mütəxəssis cəlb edilməsi üçün idarə sədri qarşısında təkliflərlə çıxış edir;

**6.3.7.** daxil olmuş ərizələrə, şikayətlərə və müraciətlərə müvafiq qaydada baxılmasını təmin edir.

## VII. İDARƏNİN MÜLKİYYƏTİ VƏ VƏQF ƏMLAKI

**7.1.** İdarə əmlak, şəxsi qeyri-əmlak hüquqlarına malikdir. İdarənin mülkiyyətindən bina, avadanlıq, nəqliyyat vasitələri, poliqrafiya avadanlığı, kütləvi informasiya vasitələri və qanunla qadağan olunmamış hər hansı başqa əmlak ola bilər.

**7.2.** İdarənin mülkiyyətində vəqf əmlakı ola bilər. Vəqf əmlakı xeyriyyə məqsədləri üçün istifadə olunur.

**7.3.** İdarənin xaricdə də vəqf əmlakı ola bilər.

**7.4.** Vəqf mülkiyyəti ayrı-ayrı şəxslərin, təşkilatların, qurumların və dövlətin ianə, xeyriyyə və digər şəkildə verdiyi əmlak və torpaq sahəsi, habelə, vəsiyyət edilmiş əmlak hesabına yaranır.

**7.5.** İdarənin maliyyə vəsaiti onun əhatə etdiyi ərazidəki dini qurumların ayırmalarından, öz fəaliyyətindən, əmlakın istifadəsindən əldə olunan gəlirlərdən, ayrı-ayrı şəxslərin, fondların, müəssisələrin, dövlət və ictimai təşkilatların ianələrindən və qanunla qadağan olunmayan digər mənbələrdən yaranır.

## VIII. İDARƏNİN FƏALİYYƏT İSTİQAMƏTLƏRİ

**8.1.** İdarə hüquqi şəxs kimi müstəqil istehsalat və təsərrüfat sahələri, təmir-tikinti, tikinti, bərpa müəssisələri, kənd təsərrüfatı məhsulları istehsal edən, dini əşyalar hazırlayan sahələr yaratmaq və nəşriyyat işi ilə məşğul olmaq hüququna malikdir.

**8.2.** İdarə hər hansı xarici müəssisə ilə birlikdə müxtəlif təyinatlı istehsalat, mətbəə, ticarət, ictimai iaşə, məişət və digər xidmət sahələri yarada və DQİDK-in razılığı ilə dini ədəbiyyat nəşr edə bilər.

**8.3.** İdarə və onun tabeliyində olan dini qurumlar xeyriyyə məqsədləri ilə müəssisələr, internatlar, yeməkxanalar, qocalar və əlillər evləri, xəstəxanalar yarada və digər xeyriyyə işləri həyata keçirə bilərlər.

**8.4.** İdarə dini mərasimlərin və ayinlərin keçirilməsi barədə vaxtaşırı fətva verir. Dini mərasimlər və ayinlər şəriətin tələbləri əsasında idarənin təyin etdiyi qazılar, axundlar (imamlar) və başqa din xadimlərinin rəhbərliyi altında və onlar tərəfindən icra olunmaqla keçirilir.

**8.5.** İdarə xaricdəki dövlət qurumları, qeyri-hökumət təşkilatları, dini mərkəzlərlə, ziyarətgahlarla, Azərbaycan diasporu və başqa şəxslərlə birbaşa yaxından əlaqələr yarada bilər və ya həmin məqsədlərlə öz nümayəndəliklərini təşkil edə bilər.

**8.6.** İdarə beynəlxalq İslam təşkilatlarında əhatə etdiyi ərazinin təmsil olunmasına, İslam ölkələri və digər ölkələrlə döv-

lətlərarası münasibətlərin qurulmasına və inkişaf etdirilməsinə imkan daxilində yardım göstərir.

**8.7.** İdarənin din xadimləri və işçiləri ilə münasibətləri əmək qanunvericiliyinə müvafiq surətdə tənzimlənir və onların gəlirlərindən müvafiq qaydada vergi tutulur.

## IX. NİZAMNAMƏNİN QƏBULU VƏ ONDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ. İDARƏNİN FƏALİYYƏTİNƏ XİTAM VERİLMƏSİ

**9.1.** İdarənin fəaliyyətinə Qafqaz müsəlmanları qurultayının qəbul etdiyi qərar və ya Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmuş qaydada qəbul edilmiş qərar əsasında xitam verilə bilər. İdarənin fəaliyyətinə xitam verilərkən onun əmlakı haqqında məsələ qanunvericilikdə və bu Nizamnamədə nəzərdə tutulmuş qaydada həll olunur.

**9.2.** İdarənin Nizamnaməsinin qəbulu və ya Nizamnamədə dəyişikliklər və əlavələr edilməsi bu Nizamnamədə müəyyən edilən qaydada qurultayın, yaxud qurultaylararası dövrdə Qazılar Şurasının qərarları ilə həll olunur.

**9.3.** Nizamnaməyə dəyişikliklər və əlavələr müvafiq dövlət orqanında qeydə alındıqdan sonra hüquqi qüvvəyə malikdir.

## C. AZƏRBAYCAN RESPUBLİKASININ DİNİ QURUMLARLA İŞ üzrə DÖVLƏT KOMİTƏSİ tərəfindən 01. 09. 2009-cu ildə 100109A2 – 01 nömrə ilə dövlət qeydiyyatına alınmış Qafqaz Müsəlmanları İdarəsinin Nizamnaməsində edilmiş dəyişikliklər

**1.** Nizamnamənin 1.3-cü maddəsində **“və öz fəaliyyətləri haqqında idarəyə hesabat təqdim edirlər”** sözləri əlavə edilsin.

**2.** Nizamnamənin 1.6-cı maddəsində **“dünya dinlərinin”** sözləri **“digər dinlərin”** sözləri ilə əvəz edilsin.

**3.** Nizamnamənin 1.8-ci maddəsinin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"İdarə və onun qurumları siyasi fəaliyyət göstərmirlər, siyasi partiyaların fəaliyyətində iştirak etmirlər və onlara maliyyə yardımı göstərmirlər, öz binalarında siyasi tədbirlər keçirilməsinə yol vermirlər".

**4.** Nizamnamənin 1.8-ci maddəsinin ikinci cümləsində **"din xadimi kimi"** sözləri **"peşəkar dini"** sözləri ilə əvəz edilsin.

**5.** Nizamnaməyə aşağıdakı məzmunda 1.10 – 1.14-cü maddələr əlavə edilsin, 1.10 – 1.13-cü maddələr müvafiq olaraq 1.15 – 1.18-ci maddələr hesab edilsin:

"1.10. İdarə və dini qurumlar Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə əməl edir və onları pozduqda məsuliyyət daşıyırlar.

1.11. İdarə 30 gün ərzində dini icmanın dövlət qeydiyyatına alınması üçün tələb olunan sənədləri öz təqdimatı ilə birlikdə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə (DQİDK) göndərir. İdarənin təqdimatı olmadan İslam təmayüllü dini icma dövlət qeydiyyatına alınmır.

1.12. İdarə dini icmalar barədə "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun 12-1-ci maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş məlumatlara malik olduqda, həmin dini icmaların təsisçilərinin tərkibinin dəyişdirilməsinin və ya icmanın ləğvinin zəruriliyi barədə DQİDK qarşısında vəsatət qaldırır.

1.13. Dövlət qeydiyyatına alınmış dini qurumlar onların dövlət qeydiyyatına alınması üçün tələb olunan məlumatlarda və ya sənədlərdə hər hansı dəyişiklik olduqda, bu barədə məlumatı və müvafiq dəyişikliyi təsdiq edən sənədləri DQİDK-ya İdarənin vasitəsi ilə təqdim etməlidir.

1.14. Dini qurumlar yalnız dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatlarda hüquqi ünvan kimi göstərilən ibadət yerlərində həmin dini qurumlara Qafqaz Müsəlmanları İdarəsi tərəfindən din xadimi təyin edildikdən sonra fəaliyyət göstərə bilərlər".

**6.** Nizamnamənin 2.1-ci maddəsində:

6.1.6-cı hissə çıxarılsın;

6.2.9-cu hissə aşağıdakı redaksiyada verilsin:

**“qanunvericiliyə uyğun surətdə məqsədəuyğun sayılan qurumları, o cümlədən Azərbaycan Respublikasında və xarici ölkələrdə öz nümayəndəliklərini, təsərrüfat və istehsal sahələri yaradır, dini təmayüllü xidmətləri təşkil edir”;**

6.3.10-cu hissədə **“İdarənin”** sözü **“öz”** sözü ilə əvəz edilsin:

6.4. aşağıdakı məzmunda 11-ci hissə əlavə edilsin:

**“İslamın elmi əsaslarının araşdırılması məqsədilə alimlərdən və din xadimlərindən ibarət Elmi-Dini Şura yaradır”;**

6.5.13-cü hissə çıxarılsın;

6.6.14-cü hissə aşağıdakı redaksiyada verilsin:

**“zəruri hallarda DQİDK ilə razılaşdırmaqla xarici ölkələrlə mütəxəssislər mübadiləsi aparır”;**

6.7. aşağıdakı məzmunda 16-cı hissə əlavə edilsin:

**“dini qurumlar tərəfindən gənclərin və yaşlıların Qurani-Kərimi öyrənmə kurslarının (qruplarının) yaradılmasına razılıq verilməsi məsələsini həll edir”;**

6.8. aşağıdakı məzmunda 25-ci hissə əlavə edilsin:

**“DQİDK ilə razılaşdırılmaqla tələbələrin dini təhsil almaq üçün xaricə göndərilməsini həyata keçirir”;**

6.9.26-cı hissədən **“DQİDK-in razılığı ilə”** sözləri çıxarılsın.

**7.** Nizamnamənin 3.1-ci maddəsinə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

**“İdarə öz fəaliyyəti haqqında Qurultaya, qurultayarası dövrdə isə Qazılar Şurasına hesabat verir”.**

**8.** Nizamnamənin 7.2-ci maddəsində **“mülkiyyətində”** sözündən sonra **“həm ölkədə, həm ölkə xaricində”** sözləri əlavə edilsin.

**9.** Nizamnamənin 7.3-cü maddəsi aşağıdakı redaksiyada verilsin:

“Dövlətin mülkiyyətində olan dini təyinatlı binalar və digər əmlak İdarənin və dini qurumların əvəzsiz istifadəsinə verilə bilər.

İdarə torpaq sahələrindən Azərbaycan Respublikasının “Torpaq Məcəlləsi”nə uyğun olaraq istifadə edə bilər”.

**10.** Nizamnamənin 7.5-ci maddəsi aşağıdakı redaksiyada verilsin:

"İdarənin maliyyə vəsaiti öz fəaliyyəti, əmlakının istifadəsindən əldə olunan gəlirlər, fiziki və hüquqi şəxslərin, əhatə etdiyi ərazidəki dini qurumların və ziyarətgahların könüllü ayırmaları hesabına, habelə qanunla qadağan olunmayan digər mənbələrdən yaranır".

**11.** Nizamnaməyə aşağıdakı məzmunda 7.6-cı maddə əlavə edilsin:

"İdarəyə və dini qurumlara dövlət və yerli özünüidarə orqanları tərəfindən maliyyə yardımı göstərilə bilər".

**12.** Nizamnamənin 8.3-cü maddəsində **"və digər xeyriyyə işləri həyata keçirə"** sözləri **"təsis etdikləri fondlar, o cümlədən, ictimai fondlar vasitəsilə xeyriyyəçilik və mədəni-maarif fəaliyyəti göstərə"** sözləri ilə əvəz edilsin.

**13.** Nizamnaməyə aşağıdakı məzmunda 8.8-ci bənd əlavə edilsin:

"İdarənin və tabeliyində olan dini qurumların işçilərinin sosial sığortası "Sosial Sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu, pensiya təminatı "Əmək Pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir".

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN F Ə R M A N I

### "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2011-ci il 10 iyun tarixli 162-IVQD nömrəli Qanununun tətbiqi haqqında

"Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2011-ci il 10 iyun tarixli 162-IVQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezi-

dentinin Fərmanı Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2011-ci il 10 iyun tarixli 162-IVQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti üç ay müddətində:

**1.1.** Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasına dair təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**1.2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.3.** müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.4.** dövlət tərəfindən dini mərkəzə (idarələrə) maliyyə yardımı göstərilməsinə, o cümlədən Qafqaz Müsəlmanları İdarəsinin müvafiq ölkələrdə nümayəndəliklərinin maliyyələşdirilməsinə dair təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**1.5.** həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi normativ xarakterli aktların "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı müvafiq tədbirlər görsün.

**3.** Müəyyən edilsin ki, "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun 12-1-ci maddəsinin üçün-

cü hissəsində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi nəzərdə tutulur.

